ASİF ATA

# On Qutsal Bitiq’in (Onluğun) Yan Bitiqləri

## I Yan Bitiq:
## RUHANİ SƏNƏDLƏR

**ASİF ATA (İNAM ATA)**

# On Qutsal Bitiq'in (Onluğun) Yan Bitiqləri

**(Mütləqə İnam Fəlsəfəsi və Ruhaniyyatı)**

***Birinci Yan Bitiq:***

# RUHANİ SƏNƏDLƏR

**Mütləqə İnam Ocağına yönəlik**

Atakənd
30-il

**Türkün (İlk) Ruhaniyyat Ocağı –**
**Asif Atanın (İnam Atanın)**
**Mütləqə İnam Ocağı**

**ASİF ATA**

On Qutsal Bitiq'in (On Müqəddəs Kitabın – Onluğun) Yan Bitiqləri (Əlavə Cildləri).

Mütləqə İnam Fəlsəfəsi və Ruhaniyyatı. Birinci Yan Bitiq (Əlavə Cild): Ruhani Sənədlər – Mütləqə İnam Ocağına yönəlik. Atakənd. 30-il.

Asif Atanın "Onluğu" Türk xalqından başlayan Yeni Bəşər İnamının nəzəri əsaslarını və fəlsəfəsini özündə daşıyır. Ona görə də dünyabaxış özüllü bu kitabı təkcə yurdumuzun oxucularına deyil, bütövlükdə İnsanlığa təqdim edirik.

Birinci Yan Bitiq'ə Asif Atanın, əsasən Mütləqə İnam Ocağına yönəlik Ocaq ilsırası boyunca yazmış olduğu və "Ruhani Sənədlər" adlandırdığı deyimləri, buyuruqları, dəyərləndirmələri və b.k. daxildir.

## ***İNSANLAŞMAQ***

Zəmanə İnamını – İnamsızlıq saydım.
İnam yaratdım.

Zəmanə İdrakını – İdraksızlıq saydım.
İdrak yaratdım.

Zəmanə Mənəviyyatını – Mənəviyyatsızlıq saydım.
Mənəviyyat yaratdım.

Zəmanə İradəsini – İradəsizlik saydım.
İradə yaratdım.

Zəmanə Amalını – Amalsızlıq saydım.
Amal yaratdım.

Zəmanə Əməlini – Əməlsizlik saydım.
Ocaq qaladım.
Təqiblərə yüksəldim. Ata çağırıldım.

Bəşərin nicatı – İnsanlaşmaqdadır.
İnsanlaşın – İnsanlaşdırın...

*Şölə Ayı, 7-ci il. Bakı.*
*(İyun, 1985-ci il).*

## SAFRUHA

1. Kiçik çətinlikdə böyük çaşqınlıq göstərmədin. Ancaq “bizi tutacaqlar” – sözündəki təlaş ***Adi*** idi.

***Özünü Yoxlamalısan!***

2. Müqəddəs Əməlin konkret təcəssümü – Övladdan İnam, İdrak, Mənəviyyat, İradə tələb edir.

Qüdrətinizi aşkara çıxarmaq üçün – Məqsəd böyükdür...

3. Ata Mərasimi Tam dərk olunmayıb.

Bu, müasir dünyanın təsiri deyil, inkarıdır.

***İndikilər Atanın əlini öpmür, cibinə girir.***

***50 illik Yubiley – Müasir Murdarlıq olardı.***

Ata Günü – Müqəddəs Başlanğıc, Müqəddəs Hesabat, Müqəddəs Görüş günüdür.

***Səcdə – Müqəddəslik Qaydasıdır.***

4. Atayla Görüşmək istəyəni ”Əməl”də, “Səcdə”də, “Həyat Tərzi”ndə təsdiq olunan Qaydalar əsasında Ruhən hazırlayırsan.

***Hazırlıqsız*** Görüş olmur.

5. İrəliləyirsən, ancaq Atanı redaktə etmək körpəliyindən əl çəkmirsən!...

6. Övlad Ata hüzuruna ***hazırlanmış Yazıyla*** gəlir.

Görüş yarım saatdan artıq olmur.

7. Müqəddəs Əmələ – Kəndlərdən Başlamaq olar. Qohumlardan, ən sınaqlı dostlardan.

***Sonra rayona Müqəddəs Toxum səpmək olar.***

İş yerində də ***Darıxan*** var.

Ancaq ***Karıxan*** daha çoxdur.

***Satılan da Yox deyil.***

Bu səbəbdən də ora münbit torpaq deyil.
***Ancaq qadağan sahə də deyil!***
***Ruhunun Yetkin çağında Risk eləyərsən!***

***8. Şər Həqiqətin Düşmənidir.***
***Onunla Yalanla danışmaq lazımdır.***
“Asif Əfəndiyevdən başqa Asif tanımıram!”

***9. Azlığımız – Çoxluğumuzdur.***

10. Təbii şəkildə, Vəhyin təsiriylə – Sonuncu Kitabça yaranır – “Rəmzlər”.
***Gələndə - Ayın sonuncu beşinci günündə aparacaqsan.***
Bununla da 6 Müqəddəs Kitabımız və 4 Kitabçamız olur.

***11. Sənin Odu suyun içində qurtarmaq Missiyan – Müqəddəs Missiyadır və onun öhdəsindən Ləyaqətlə gəldin!***
***Ataya Müqəddəs Fərəh gətirdin!***

***12. Şər Atadan Zəifdir – Onun Safruhu Yoxdur!***

13. Giriş Əvəzini (İnsanlaşın...) Müqəddəs Kitabların hamısına əlavə etmisənmi?

***14. Ruhani Hökmləri ayırmısanmı?***

15. “Müqəddəs Əməl”i köçür, əslini qaytar.

*Xəzan Ayı, 7-ci il. Bakı.*

**SAFRUHA**

Əsilə deynən, Muğama aid məqalə və plan (balaca dəftərdə) çamadandadır.

Çıxarsın, sabah gündüz saat Birdə gətirsin.

“Rəmzlər”i çap elə və gələn görüşdə 4 balaca əsərləri bir yerdə gətir, baxım qaytarım.

Giriş əvəzini kitabların hamısına əlavə et.

Eləmədiklərini Əsildəki çamadandan götür və tam nizamla.

Vəziyyət haqqında Mülahizə.

Müraciət Sözünü eşidiblər, oxuyublar və sənin vasitənlə Ataya çatdırıblar ki, elə iş görülməsin...

Müqəddəs Əməllə bağlı görəcəyin işlərin yetkin planını tut, Ataya gətir.

Plansız hərəkətə bulunma!

Tələsmə, həm də Fəalsızlığa qapılma!

Müqəddəs Kitablar heç kəsə verilmir, şərh olunur.

Tanınmış, Sınanmışlar Əsilgildə əsərləri köçürürlər.

Ağlına gələn ilk fikri, ürəyində doğan ilk duyğunu həqiqət sayma.

(Həqiqət olsa belə).

Onlara tay olan, yaxud onlarla döyüşən 4 başqa fikir və duyğu doğ, onlar ilkinləri ya ləğv edəcəklər, ya da onlara qayıdacaqlar.

Atanın məişətinnən məşğul olmağı Zəruriyyət say...

Ürəyin Qaranlıqları Yarsın.

P.S. Mənə Azərbaycan, Rusiya (SSRİ), Türkiyə və Dünya xəritələri lazımdır.

Özüm axtarsam, şübhələnərlər.

Onları mənim üçün tap.

Orxana, Anasına, Bacılarına Ata Uğurları!

*25 Xəzan Ayı, 7-ci il. Bakı.*

## SAFRUH ÜÇÜN

1. Əmələ həsr olunmuş kitabçanın adını "Sədaqət" qoymaq.

2. Safruhun Kitabını "Ata işığında" adlandırmaq.

3. "Rəmzlər"də carçılar yox, çarçılar (yəni rus çarının sadiq bəndələri) səh. 66.

4. "Ruhani Hökmlər"i ayırmaq (o hələ bitməyib və uzun müddət bitməyəcək).

5. "Ata İşığı"nı Asif Ataya həsr olunmuş Epiqraf səviyyəli deyimlə başlamaq.

(Mücərrəd Atanın arxasınca getmirlər, canlı, şəxsi Atanın ardınca gedirlər).

("Asif" sözü ərəbcə şiddətli külək – yəni əslində Ruh – deməkdir.

Evladlar Ataları üçün layiqli ad tapmayınca Asif sözü Müqəddəslikdə yaşamalıdır).

6. Ocağa Müraciəti adi günlərdə yaşatmaq, Ataya Müraciəti çətin günlərdə, Ülvi Günlərdə, Səfər üstə, Şərlə üzləşəndə, Xeyirlə görüşəndə özümləşdirmək ("Ocaq" – Atanın İşığıdır).

7. “Rəmzlər”də Bir torpaqda becərilməyən (yəni bar verməyən) səh. 41.

8. Mütləq Riayət:

Ataya təzim ideyasının bütün mərhələləri: baş əymə, sədaqətli ürək, müqəddəs əl.

Ata Təqvimi, Ata Yeni ili, Ata günü, Özüylə Döyüş, Ruhani Təkmilləşmə...

Müqəddəs Dəftərdə əks olunur.

Hər ay Görüş vədəsi Ataya təqdim olunur.

(“Evladlıq”da Tələb olunan Şərdən ayrılma, “İqbal” səviyyəsində, Ruhani Billurlaşma, Qorxudan azad olmaq, Yırtıcıdan azad olmaq, Xudbindən azad olmaq, Naşıdan azad olmaq, Əyyaşdan azad olmaq, Kölədən azad olmaq, Hərisdən azad olmaq, Şöhrətdən azad olmaq və s. yolunda səy, nəticə, Bugünkü, Sabahkı...).

9. Bir Ruhani vərəqə, sətir belə itməməli, qorunmalı, sabaha çatdırılmalı.

Ruhani Tariximiz – Ruhani Hesabatımız, Davamız.

(Təzə Kitab – Ruhani Tariximizə aid məlumatlar kitabı yaradılır, həmin kitab indi başlanır və qurtarmır).

10. Atayla görüş tarixləşir, təqvimləşir, Kəlamlaşır.

11. “Əməl”ə Mütləq Əməl!

Ürəyin Qaranlıqları yarsın.

*Sərt Ay. 7-ci il. Bakı.*

## DÜNYAYA MÜNASİBƏT

### Safruha, Sadiqə, Əsilə

1. Türkiyəylə, İranla, Ərəbistanla əlaqə yaratmaq gərəkdir.

Əlaqə - qeyri-siyasi, xəlqi olmalıdır.

Müqəddəs Kitablar həmin ölkələrdə Mütləqçi yetirə bilər, Mütləqçi Amalımızı həmin ölkələrdə yaya bilər.

Ata Yurduna gələnlər arasında imperiya casuslarıyla yanaşı, layiqli şəxslər də ola bilər.

Onlarla insani, ruhani münasibət Amalımıza kömək olardı.

Həyatını bu çətin işə həsr eləyən Evlad istəyirəm!

2. SSRİ-də yaşayan əski türk xalqlarıyla ünsiyyət yaratmalıyıq. Bunun üçün Müqəddəs Kitablar rus dilinə tərcümə olunmalıdır və yayılmalıdır.

Şərq xalqları biri-birinin dilini çoxdan yadırğayıb.

***Bu işi öhdəsinə alan Evlad istəyirəm.***

3. Müasir Şərq nəinki gözünü, hətta qulağını belə Avropaya uzadıb. Amalımız Avropaya çatmalıdır.

***Bu işi görə biləcək Evlad istəyirəm.***

*Sərt Ay, Yeddinci il. Bakı.*

## SAFRUH ÜÇÜN

Ataya Səcdə Müqəddəsliyində Atanın portreti, büstü haqqında söhbətin ülvi mənası anlaşılmaz.

***Bunu bugünkü bütpərəstliyin təsiri sayarlar.***

Bu səbəbdən də həmin müddəanı Müqəddəs Qanundan çıxartmaq lazımdır.

Siz, Evladlar – Atanın surətini Amalımızın İfadəsi səviyyəsində dərk etsəniz, Zahirin Daxili Mahiyyətinə yüksəlsəniz – Atanın Portreti məsələsini hökmsüz də həll edərsiniz.

Ləyaqətinizin Tələbi bunu sizə öyrədər.

*Sərt Ay, Yeddinci il. Bakı.*

## MƏLUMAT

Bu ayın 13-də Dövlət Təhlükəsizlik Komitəsinin Şöbə müdiri Tofiq Heydərov Ata Evinə gəldi.

– “Niyə çap olunmursunuz?

Niyə doktorluqla bağlı Moskvaya zəng vurmursunuz?

Niyə kitablarınızın nəşriylə maraqlanmırsınız?

Bilirik ki, dəyişməmisiniz...”

Dedim ki, “cavanlıqda müxtəlif balaca qazanlar qaynadırdım.

İndi bir Böyük Qazan qaynadıram”.

Çaşqın idi – narahat idi.

*13 Qar – 7-ci il.*

## SAFRUH ÜÇÜN

1. Müqəddəs İllə Görüşə Ruhani səviyyədə hazırlaşırsan.

Qayda yazılıb.

Onun hərfinə və Ruhuna tam riayət etmək gərəkdir.

Görüşü Hadisəyə çevirmək lazımdır.

Texniki tərəfi hərtərəfli düşünürsən, Yetkin şəkildə hər şeyi Dəqiqliklə müəyyən eləyirsən, Əsillə birgə.

(Harada, saat neçədə, kimlə?)

Maqnitofon olsa – Ata Müraciətini yazarsan, bu təsirli olar; olmasa – oxuyarsınız Biriniz.

***Məndən olsa – Sən.***

2. Zəruri saysan, Atayla Mərasimlə bağlı ayda iki dəfə görüşə bilərsən.

İkinci həftənin beşinci günü, bir də əvvəlki.

Sənədlərimizi tənzim et, diqqətlə, məsuliyyətlə qoru.

Ürəyin Qaranlıqları Yarsın!

*Qar Ayı.*

## SAFRUH ÜÇÜN

***1. Zəruriyyət.***

15 yaşlı Evlad gərək – gələn əsrin əvvəlində 30 yaşı olacaq.
18 yaşlı Evlad gərək – gələn əsrin əvvəlində 33 yaşı olacaq.

2. İnamsız həyat gənclik yavanlığını Yamanlığa çevirir.

***Evladlaşdırmaq – Yamanlıqdan uzaqlaşdırmaq...***

Qəddarlıq Yamanlığı görürəm gənclərdə, haramlıq yamanlığı görürəm gənclərdə, yabançılıq yamanlığı görürəm gənclərdə, bir hissəsində də məscid hədyanlığı, avamlıq...

Dəbbə arxasında hədsiz yazıqlıq...

***(Yazıqlığın qəddarlığından olmaz!)***

Dəhşətli Atasızlıq!

***Bilmir nə eləsin, ona görə də yamanlıq eləyir cavan.***

***Lap uşaq yaşından yaşamır...***

3. "Dindarlar Ataya daha yaxındır!" – fikri səhvdir.

***Dünənkilər – bəli, bugünkü dindarlar – yox.***

***Onlar Xomeyni bədnamlığına yaxındır.***

Qoyun mütiliyi onu yaratdı ki, südəmər körpələri analarının qucağından alıb raketin qabağına yollayırlar mollalar!

***Bizə özümüzdən başqa Yaxın olan yoxdur...***

***Bu səbəbdən də başqalarını özümləşdirməliyik.***

Dindarları yalançı İnamdan xilas eləməliyik, onlardan Evlad yetişdirməliyik və Dindarların xilasına göndərməliyik.

4. Müqəddəs İlimiz Novruz Bayramından fərqlidir. Onun vaxtını fərqli müəyyənləşdirmək lazımdır.

1 Günəş Ayı, 1979-cu il köhnə təqvimlə.

5. İllə görüş Qaydalarıyla Əsili tanış elə. ***O, Qaydayla tanış deyil.***

***Ruhani Hökmlər, "Sədaqət" Səfər ayağında Əsil tərəfindən öyrənilir.***

***6. Günəş Ayının başqa günündə də Müqəddəs İllə görüşmək olar.***

***Ancaq Novruzdan fərqli.***

*28 Köçəri Ay, 7-ci il. Bakı.*

**ATAYA MÜQƏDDƏS TƏZİM QANUNU**

***Baş əymək, əlini ürəyin üstünə qoymaq, Əlini öpmək.***

***Baş əymək – Hörmət rəmzi.***

***Ürək vermək – Məhəbbət rəmzi.***

***Əlini öpmək – Səcdə Rəmzi.***

Biz sübut etmək istəyirik ki, dövlətdən başqa xalq da var.

Bizə sübut etmək istəyirlər ki, dövlətdən başqa heç nə yoxdur.

Akademiyanın kitabxanasında iki cavan və bir yaşlı Atanı izləyir.

Akademiyanın Arxitektura və İncəsənət İnstitutunda bir çaqqal sayaq adam Atanı izləyir.

Bulvarda bir yaşlı şəxs Atanı izləyir.

Akademiyanın bağında bir nəfər möhtəşəm bədənli Atanı izləyir.

Ata isə xüsusi qoruyucuya ehtiyac hiss eləmir.

Ataya elə təzə Evlad lazımdır ki, ətrafdakı həyatsızlıqdan, həyasızlıqdan, İnsansızlıqdan tam əl çəkə bilsin, Yeni Həyat həsrətiylə yansın, Bütünlüklə, Hərtərəfli Yalançı Dünyayla hesabını çürüdüb qurtarsın, Atalığa qovuşsun, özünü dünyaya qarşı qoya bilsin, İnamımızın təzəliyi, Bənzərsizliyi səviyyəsində yaşaya bilsin, kamilləşmə ləyaqətinə yüksəlsin!

***Xalq bizə belə Evladlar verməyə qadirdir, ancaq səbrimiz də dərya boyda olmalıdır.***

## SAFRUH ÜÇÜN

***Bənzərsizliyimiz:*** "Heç nə eləməyə-eləməyə" hər şey eləmək.

***Ataya Təzim Qanununun*** Son, Yetkin çeşidini yazmışam.

***Ona əməl eləmək – Müqəddəs Borcdur.***

Seçdiyin, Dəyərləndirdiyin, Məsul olduğun Şəxsləri Ata Görüşünə hərtərəfli hazırlayanda həmin Qanuna ***Mütləq riayət Zəruriliyini*** də öyrət.

Əvvəl tərəddüd edib sonra Qayıdanlar tərəddüd çirkabını ***Əməl Suyuyla*** yumalıdırlar.

Tərəddüd bağışlanmır – Tərəddüdçü tərəfindən Murdar çirk kimi silinir.

Tərəddüdçü çox çətin və ağır Vəzifəni boynuna götürməli, həyata keçirməli, tərəddüdsüzlüyünü Əməllə sübut etməlidir.

"Mənə Ölümlə üzləşən İş Buyur – Naqisliyimi Yuyum!"

Tərəddüdçü bu ricayla Ata hüzuruna gəlməlidir.

"Müqəddəs İllə görüş"ü Ata Tələbinin hərfinə və Mənasına Mütləq Uyğunluq səviyyəsində keçirdin.

Mərasimi təsvir elə, hifz elə, Sabahkılara çatdır.

Tərəddüdçüləri, Qaçqınları dəvət etmə.

***Say Ruhani hesabda əsas rol oynamır.***

***Vətəni Müqəddəs Ənənələr nuruna boyayacağıq!***

Ruhaniyyat Düsturu: "Ucalıb Mənəvi Günəşə çatmaq, Günəş yerində dayanmaq!"

Ürəyin Qaranlıqları Yarsın!

*Köçəri Ay, 7-ci il.*

## EVLADLARA

Ənənə yarandı.
Amalın Əməl dövrü başlandı.
Mübarək gündür Günümüz!
Nəbini Oğulluğa götürürəm.
Onun oğulluğunu halal sayıram.
Evimdə gözləyirəm.
Safruhum, Əsilim, Halalım.
Üçüm – Üç Dünyam.
Ürəyinizdəki Mütləq Sizə Yar olsun.

*Müqəddəs Gün. 8-ci il.*
*Bakımız.*

## HALAL ÜÇÜN

Adını ***Halal*** qoydum – adına layiq olasan!
Ömrünü səndən alıb Amala həsr elədim – ***Amallaşdırdım!***

Ürəyin qaranlıqları yarsın!
Daxilindəki Mütləq sənə yar olsun!

*23 Günəş Ayı, 8-ci il.*

## SAFRUH ÜÇÜN

1. Şər oynadılır və buna görə də qeyzlənir.
Qorxuda bilmir, bu səbəbdən də qorxur.

2. Yazılarında "Ata Şər qeyzində" bölgüsü ayır.

3. Şər Evladlara ciddi təsir edəcəyinə inanmır, cüzi təsirə ümid bəsləyir.
Cüzi təsir belə Evlad üçün Məğlubiyyətdir.
Evladlarımdan Məğlubiyyət gözləmirəm.

4. Oxucu haylayırsan: Kitablarımızın hər sətrini, nöqtəsini, vergülünü gözünə təpəcəklər – saysız-hesabsızdır.

Ancaq Şər Müqəddəs Sözün hər hərfi üçün ələk-vələkdir: ələ keçirsin, yandırsın. Oğlum nədənsə unudur ki, Atanın hərəkatımızla bağlı düşünmədiyi, daşınmadığı məsələ yoxdur.

Əgər Ata Vacib bir məsələni görmürsə, o, nə Atadır?

***Ruhaniyyatda Mütləq səbrə xilaf çıxmaq – qeyri-yetkinlik sayılır.***

***Bizim bənzərsiz vəziyyətimizdə o, ciddi zərər törədər.***

5. Hərəkatımızın Adı Bəllidir: Asif Ata Hərəkatı.

6. Zamanla Təmas Qaydası (Diplomatiya əvəzinə): Əlçatmazlıq, Bənzərsizlik, Müstəqillik.

7. Müqəddəs Kitabları Ata səsiylə Maqnitofona yazmaq lazımdır.

Bununla Şərin bəd niyyəti puç olur.

Əsillə birgə hərtərəfli düşünün: nə vaxt, harada, hansı müddətdə neçə kaset gərək olacaq, maliyyə problemi.

Vəziyyəti hazırlayın.

8. Əmələ başlayın, Səfərə çıxın, xalqı Amallaşdırın.

Bunun üçün nə lazımsa deyilib, yazılıb – İnamınıza hopdurun, İdrakınıza həkk eləyin, Mənəviyyatınıza çiləyin, İradənizə calayın.

Amala layiq Əməl tələb eləyirəm sizdən.

9. Evlad Savadı – Müqəddəs Kitablar.

Hər sətrinə qovuşmaq.

Ürəyiniz Qaranlıqları Yarsın!
Daxilinizdəki Mütləq Sizə Yar Olsun!

*20 Günəş Ayı, 8-ci il. Bakı.*

(“Atayla Görüş” dəftəri tut, ora yaz.

Əslini qaytar. Əsilə oxu).

## MƏLUMAT

1. Dünən Heydərovla görüşdük.

2. O, sübut etmək istədi ki, Safruh "Ata məndən müraciət tələb elədi" – deyib, "Əsərlərimi çap elə" – deyib.

Mən sübut etdim ki, Safruhun Ocaqla, Atayla heç bir əlaqəsi olmayıb və yoxdur; o, yalnız filosof-tənqidçi Asif Əfəndiyev tanıyır, onu evində bir neçə gün qonaq saxlayıb, avtoreferatını çap eləyib.

3. Heydərov Safruhun Müəssisəyə təqdim etdiyi yazısını görsətdi və mən bildim ki, Safruh Ata hökmünə tam əməl eləyib və heç bir sirr verməyib – əslində Müəssisə heç nə bilmir. (Özünü hər şeyi bilən görsətsə də).

4. Safruhun sevimli Qardaşı Sadiq haqqında "Gombul" ifadəsini daxili qeyzlə yazdığını, "Atayla əlaqəni kəsməyə söz verirəm" patetikasında daxili inamı bariz hiss etdim.

5. Ən ibtidai və şablon bir üsulla: Evladla Ata arasında münaqişə yaratmaq; Ataya "Evlad satqındır", Evlada "Ata naqisdir" – Fikrini təlqin etməklə – döyüşürlər.

Əlifba səviyyəsində Fənd qururlar, çünki başqa səviyyələri yoxdur.

6. Güman eləyirlər ki, Ata Təzə bir iş görür.

***Nə iş, harda, necə – gümansızdırlar.***

7. Atanı cismani Ailə çərçivəsinə salmaq, keçmiş həyat yoldaşını onun üzərində nəzarətçi qoymaq, məişətləşmə bəxtiyarlığına yüksəltmək cəhdi var.

Bu, deyəsən, hələlik Müəssisə müdrikliyinin zirvəsidir.

Yəqin ki, Safruha da buna bənzər iqbal "hazırlayırlar".

8. Tam əmin oldum ki, Müəssisəylə münasibətin Ata Xətti özünü tam doğruldur.

***Onun hərfinə və Ruhuna əməl etmək – Müqəddəs Borcdur.***

*28 Günəş Ayı, 8-ci il. Bakı.*

## SADİQİN ATAYURDA QAYITMASI

1. Sadiqin Vətənə gəlişini Ruhani Mərasim səviyyəsinə qaldırmalı.

Sadiq bir daha Atalı, Yurdlu, Qardaşlı olduğunu bilsin.

2. Halal qardaşını vokzalda gül-çiçəklə qarşılayır.

O biri gün Safruh öz evində Sadiqin şərəfinə Ruhani Məclis düzəldir.

3. Atanın hüzuruna gəlməmişdən əvvəl Sadiq Amalla (Müqəddəs Kitablarla) tanış olur, görülənləri, Vəziyyəti, Məqsədi, Vəzifəni öyrənir.

4. Sadiq Atanın Ziyarətinə - Qayıtmanın üçüncü günü gəlir.

Yazılı şəkildə İnamını, İdrakını, Mənəviyyatını Ataya təqdim edir.

"Ömrüm sənindir, Ata. Al. İstədiyin kimi sərf et" – deyir.

Görüş axşam saat 11-də başlayır, 11.15-də qurtarır.

5. Mərasim yazılır, saxlanılır.

*28 Günəş Ayı, 8-ci il. Bakı.*

## HALAL ÜÇÜN

Ömrü Həyata sərf eləmək olmaz.
Ömrü Amala sərf eləmək gərəkdir.
Ömrü bugünə sərf eləmək olmaz.
Ömrü sabaha sərf eləmək gərəkdir.
Amalımızın bənzərsizliyinə qovuş.
Sabahımızın bənzərsizliyinə qovuş.
***Halal*** adını sənə halal edirəm.
Səni evladlığa qəbul edirəm.
Ata qarşısında xəcil olmayasan!
Amal qarşısında xəcil olmayasan!
Sabah qarşısında xəcil olmayasan.

6 Ümid günü, Çiçək Ayı, 8-ci ildə təzədən doğuldun!

Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə yar olsun!

*6 Çiçək Ayı, 8-ci il.*

(Qeyd: Həyatda adı Nəbi idi. Ocaqdan çıxdı).

## SAFRUH ÜÇÜN

1. Atayla Görüş 15 dəqiqə ərzində baş verir.

Yazılar Ataya təqdim olunur və Ata Yazılara cavab verir, Hökmlər, Məlumatlar şəklində yazılı Təmaslar.

Tapşırıqlar. Səssiz Səcdə.

Hər dəqiqə Mütləqiləşir.

2. Maqnitofona Ata müraciətinin yazılması Atanın Düşünülmüş hərəkəti idi və o, özünü tam doğrultdu.

***Bu, görüşün Qaydalarını dəyişmir.***

3. Halalı Evladlıq zirvəsinə qaldırmaq yolunda yorulmaq bilmə.

Bununla özün də Evladlıq zirvəsinə yüksəlirsən.

4. Safruhun Ataya Yeni İl Sözü, Evladların Müraciətindən daha hərarətli, daha Məhəbbətli, daha Səcdəli idi.

Əminəm ki, o həqiqətə daha uyğundur.

İşgüzarlıq Səcdədən ayrılanda – sönükləşir.

Səcdə Müqəddəsliyi – Ruhani Günəşdir, isindirir.

Səcdə – Evlad Dilidir.

Evlad öz Dilində danışır.

## SAFRUH ÜÇÜN

***1. Halala Ruhani Biliyi halal elə.***

***2. Tamam Tamamlanmalı, İnallanmalıdır.***

3. "Muğam Fəlsəfəsi" yazıldı.

***Tədqiqat olsa da, Amallıdır.***

İmkan daxilində, Səfərdən qalmamaq şərtiylə, makinadan çıxart.

4. Əkin Ayı Yox, Yağış Ayı. ***Belə deyilib, belə də oxunsun.***

***5. "Qətiyyən Tələsmə! Qətiyyən gecikmə!"***

6. Əsili, Halalı Təzə Kəlamlarla, Hökmlərlə yaraqlandır.

7. Atayla Görüş ***Mütləq mənada*** 15 dəqiqədə bitməlidir. Bu, Ürəyin hökmü deyil, İradənin hökmüdür: ***"Yazdığın Ataya təqdim edilir, Yazılan aparılır".***

8. Şəkillər haqqında: Qaranlıq Fotolarda Müqəddəs Məqamın İşıqları görünür.

9. Halal Ata hüzuruna gələ bilər:
Suallarıyla saat 11-də, 15 dəqiqə ərzində.
***Yazılı Suallara Yazılı Cavablar almaq üçün.***

10. Ata Kəlamının, Hökmünün ən cüzi vergülünə əməlsizlik Ocağa xəyanətdir.
Bizdən əvvəlkilər Mütləqiliyi pozdular, ona görə də Müqəddəslik söndü.
***Dərs almayan Dərs verməz!***

Ürəyin Qaranlıqları Yarsın!

*16 Qismət günü, İşıq Ayı, 8-ci il. Bakı.*

## SAFRUHA, SADİQƏ, ƏSİLƏ, HALALA

Tələsmədən və gecikmədən əməl etmək:
1. Evladlıq Nişanəsi (müasir dildə: vəsiqəsi, pasportu və s.) hazırlanır. Dörd səhifədən ibarət, qabıqlı. ***Ürəyin başında saxlanılır, yağıya verilmir!***

2. Üz qabığında: ***Atanın şəkli,*** "İnsanlaşın, İnsanlaşdırın!" kəlamı.

3. Birinci səhifədə: ***Evladın şəkli.***
***Ad:*** Atanın verdiyi.
***Nəsil:*** Atalı.
***Doğulduğu vaxt:*** Ocaq ili.
**Vətən:** Atayurd.
***Amal:*** Asifçi.

4. Dördüncü səhifənin sonunda: "Ata Ruhunu Ürəyimdə Aparıram!" nidası, Atanın İmzası, Tarix.

5. Üçüncü səhifədə: “Mütləqim – Asif Ata.
Rəngim – İşıq.
Rəmzim – Ocaq.
Bayrağım – Vicdan.
Yarağım – İnam!” kəlamı.

6. Bədiiyyat, nəfslik, ciddilik əsasında təzə biçim tapmaq. Düşünmək, daşınmaq, xəyalı, mənəviyyatı səfərbər eləmək və həmişəyaşar mənaya layiq Biçim seçmək, ***Ataya təqdim etmək...***

Sabahı göz önündə tutmaq.

***Məsuliyyətlə yaraqlanmaq!***

7. Hələlik 10 nüsxəylə kifayətlənmək.

***Birinci nüsxə Safruhun, ikinci – Sadiqin, üçüncü – Əsilin, dördüncü – Halalın adına yazılır.***

Sizə müqəddəs işdə ruhani uğurlar diləyirəm!

(Safruha: “Pünhan” sənədi üçün qoru)

*18 İnam günü, İşıq Ayı, 8-ci il. Bakı.*

## SAFRUHUMA

***1. Fəlsəfi Nəqaratın gözəldir.***

Qeydlər: nazlı dalğalar yox, ərşə qalxan dalğalar, yaxud başqa bir şey.

50 yaş qeyd olunmur, ***Ata Günü qeyd olunur.***

***Son cümlədə duyğu natamlığı var.***

Daha qəti duyğuyla qurtarmalıdır nəqarat.

***Son Akkord Qətiliyi!***

“Rus xalqının əleyhinə deyilik!” – etirafına ehtiyac yoxdur.

Bu, Fəlsəfəmizin əlifbasından bəllidir.

***Kiməsə nəyisə sübut eləmək Müqəddəs Məqama yaramır.***

2. Təzədən makinadan çıxart, qaralama olmasın.

3. Ruhani Sənədlər Dəftəri (Papkası) ayır.
Ora Əməl, Ataya Səcdə, Ruhani Hökmlər və b. Yazıları yığ.

***4. 25-dən Yeni Mərhələ başlayır.***
***Həmin günə Layiq olun.***

***5. "Təzadlar"ı ayrı da çap eləyə bilərsən, sonuncu kitabla da birləşdirə bilərsən.***
***Üçünə Ümumi Ad 25-də deyiləcək.***

6. Tamamın Atayla Görüşünü hazırla ("Əməl", "Ataya Səcdə Müqəddəsliyi" əsasında).
***25-də iştirak edə bilər.***
***Evdə Vaxtını müəyyənləşdirin.***
***25-də deyərsən. Tamam – Evlad olacaq.***

7. Ya sənin gündəliyin, ya da Aslanın dostunun gündəliyi ***oxunub.***
Səbəb odur.
***Heç nə dəqiq bilinmir.***
8. Maddi problemin həlliylə ciddi məşğul olacağam...
***Sənin ağır yükün Mütləq yüngülləşməlidir...***
İşığı qorxuram kəsələr...
Tapmasan, gəl maaşımdan apar...
***Hər şey gözləmək olar qeyrətsizlərdən.***

9. Yuxuda gördüm ki, Şərin başını kəsmisən.
Ancaq sonra baş bədənlə bir təhər birləşdi və ölü səslə dillənməyə başladı.
Şər bizə qələbə çala bilməz.
Çünki həm Atasızdır, həm də Evladsızdır.
Mütləq sənə Yar olsun!

**MƏLUMAT**

Səfər mərhələsini İyləyən Şər Atanın qulağına maddiyyat çöpü soxdu.

Atanın Aylıq maaşını kəsdilər.

Vəziyyətdən Sizsiz, özüm çıxdım.

Şərin iyrənc kassa fəndi bu dəfə də baş tutmadı.

*29 Mərhəm günü, İşıq Ayı, 8-ci il. Bakı.*

**SAFRUHA**

"Ata İşığında" kitabının birinci cildiylə bağlı.

Qadın deyirsən – Amal deyəcəksən!
Gözəllik deyirsən – Amal deyəcəksən!
Ad-san deyirsən – Amal deyəcəksən!
Bugün deyirsən – Sabah deyəcəksən!
Nisbi deyirsən – Mütləq deyəcəksən!
***Mütləq deyəcəksən!***

*30 Qismət günü, İşıq Ayı, 8-ci il.*

**SAFRUHA**

***Saf duyğuların, düşüncələrin mübarək!***

Kitabın haqqında heç bir tənqidi mülahizə deməyəcəyəm.

Vaxt gələr, özün Amal işığında kitabındakı qüsurları görərsən.

***Buyuruğum:***

Amalımızın Ruhuna uyğun olan, Məqsədimizə bilavasitə xidmət edən, Tam Yetkin, Əməlli Deyimlərdən Nisbətən daha qısa, bəlkə də bir cildlik Ruhani Kitab hazırlayırsan ***("Ataya Doğru" Yetkin Addır).***

***Sabahyönlülər üçün. Sabahlılar üçün!***

"Qadın öpüşünün dadını" biz də görmüşük, ancaq bəşəriyyətin bundan başqa da dərdləri var!

Cildləri Ruhani Suda yuyursan, sıxırsan, sonra Günəşdə qurudursan və Saf Kitab yaranır.

Sənin bugünkü səviyyəni qabaqlayan, Sabahkı səviyyəni ifadə edən kitab.

"Sosializm bütün vəziyyətlərdə – köləlik, məzlumluq yaradır.

Kapitalizm bütün vəziyyətlərdə – yırtıcılıq, zalımlıq yaradır.

Yeni cəmiyyət, İnsani cəmiyyət, Ruhani cəmiyyət gərəkdir.

Sosialist Azərbaycanı elə Sovet Azərbaycanı deməkdir!

Amaldan başqa Gözəllik və Sevgi yoxdur!

Cismani gözəllikdən vəcdə gəlmək asandır, Ruhaniyyat əsil Aşiqlikdir, bunun üçün Təzə İdrak lazımdır.

Həyat Amalın kölgəsidir, ancaq naşı gözlərə Amaldan canlı görünür.

Təzə göz gərəkdir".

***Amalımızın bu çox adi qənaətləri işığında Kitab bağçanı ağac-ağac, meyvə-meyvə gəz və Ocağımız üçün Ləyaqətli saydığın meyvələrdən bir əməlli Səbət bizə təqdim elə.***

***Evladlar üçün Ruhani kitab yaranar, yaşayar.***

***Gərəkli işində Uğurlar diləyirəm.***

*31 Murad günü, İşıq Ayı, 8-ci il.*

## SADİQİM ÜÇÜN

Ürəyimdə görürdüm ki, Ata Ruhunu ürəyində gəzdirirsən.

***Ata Yurda qayıtman sevincimizdir!***

***Sadiqimə hökmüm:***

***1. Təmas vəzifəsi.***

Şərqiyyə, Yeganə, Yaqut, Etibar sənin Ata Yurda qayıtmanı bilməlidirlər.

***Bakıdan kənara çıxmadan***, yetkin ustalıqla, ləyaqətli məharətlə onlara gəldiyini bildirirsən; evladlar səni tapsalar, ***Atayla görüşə Müqəddəs həsrət və yanğıyla can atsalar***, onları

Ata Hüzuruna hazırla ("Sədaqət" kitabında toplanmış kəlamlar və hökmlər əsasında), ***Ad qoyma mərasiminə yüksəlt!***

***2. Xalqlaşma vəzifəsi.***

Müqəddəs Kitablar, Amal və Əməl yeni, daha kamil şəkildə xalqa çatdırılır.

***Xalq – ailələşir.***

***Bakıda ailələşmə əməli sənə tapşırılır.***

"Sədaqət"i öyrən, öz fikirlərini, tədbirlərini Ataya təqdim et, ***əmələ başla.***

***3. Dünyalaşmaq vəzifəsi.***

Amalımız imperiyanın ***bütün ərazisinə***, Şərqə, Qərbə yayılmalıdır. Rəsmi dairələrlə yox, diplomatik idarələrlə yox, xalqlarla, insanlığa can atan adamlarla ruhani əlaqə yaratmaq! Onları Amal Müqəddəsliyiylə nurlandırmaq!

***Tələsmədən və gecikmədən ardıcıl şəkildə genişlənməliyik!***

Bu haqda fikirlərini, tədbirlərini Ataya təqdim et və əmələ başla.

***4. Maddi müstəqillik vəzifəsi.***

Maliyyə məsələsini bir dəfəlik həll etməliyik, kassa təzyiqindən qurtarmalıyıq, ***hərtərəfli maddi təminata nail olmalıyıq.***

Bu haqda mülahizələrini, tədbirlərini Ataya təqdim et, öz töhfəni ver.

***5. Pünhanlıq vəzifəsi.***

Şərlə həqiqət dilində danışılmır, çünki o bu dili bilmir.

Şərə sirr verilmir.

Atayla, Ocaqla münasibəti yalnız Safruh, Əsil və Halal bilməlidir.

Digərlər – özgələrdir.

Hər ayın 1-də Ata Hüzuruna gəlirsən...

Yazdığını Ataya təqdim edirsən – yazılanı oxuyursan.
Görüş axşam saat 11-də başlayır və 11.15-də qurtarır.

***6. Kamilləşmə vəzifəsi.***

Daim, ardıcıl şəkildə Mütləq İnama yüksəlmək, Mütləq İdraka yüksəlmək, Mütləq Mənəviyyata yüksəlmək, Mütləq İradəyə yüksəlmək!

***Özünlə mətinli təmas!***

Müqəddəs Kitabları öyrənmək, onlara qovuşmaq, onlarla bir olmaq...

***Balaca "Mən"ə güzəştə getməmək, böyük "mən"ə xəyanət etməmək!***

***Birimiz min olmayınca minlər bir olmayacaq!***

Ürəyiniz qaranlıqları Yarsın!

*1 Şölə Ayı, 8-ci il. Bakı.*

(Qeyd: Ata onu 16-cı ildə Ocaqdan çıxartdı... Həyatda adı Yadulla idi).

## OĞLUM ƏSİLƏ

Müqəddəs Kitablar, Ata Kəlamları, Hökmləri sənin evində öyrənilir, kənara çıxarılmır.

Evladlar üçün dəqiq vaxt ayır.

***Tədbiri Yüksək İdraki səviyyədə hazırla.***
***Bir saniyə belə boş keçməsin.***
***Hər dəqiqə mənimsənilsin!***
***Şər ilan kimi qıvrılsın, ancaq heç kəsi çala bilməsin!***

2. Dərk elə ki, Asifçilər döyüşür, ancaq bu döyüş başqa döyüşlərə bənzəmir, elə onun Müqəddəsliyi bundadır!

***Bənzərsizik, ona görə də məğlubiyyət tanımırıq.***

Ürəyin qaranlıqları Yarsın!

*23 Arzu günü, Şölə Ayı, 8-ci il.*

(Qeyd: Ata onu 13-cü ildə Ocaqdan çıxartdı... Həyatda adı Elxan idi).

## ATA – EVLAD VƏHDƏTİ

### Safruha

Mütləq Həqiqəti Evladlara Mütləq səviyyədə çatdır.

"Mənim üç atam var!" – deyəndə Evladlar anlamalıdırlar ki, bu səni üç sifətli eləmir, bütövlüyünü parçalamır, Asifçiliyini üçdə birə endirmir.

Özün üçün bir məsələni tam aydınlaşdırmalısan: Kamal Atatürk Asif Ata üçün keçmiş mərhələdir. Sənin Kamal Ata Evladlığın da Asif Ata üçün keçmiş Evladlıqdır.

***Üç Atalıq mərhələsi mütləq bir Atalıq həmişəliyinə çevrilməlidir! Vahid Ata olmayan yerdə Mütləq Vəhdətdən danışmaq olmaz!***

Üç Atalıq – əslində Nisbi Atalıqdır!

Mütləqçiliyə yaraşmayan Atalıqdır!

Cismani Ata Evladı həyata gətirir, Tarixi Ata onu Ruhani Ataya qovuşdurur, ***Ruhani Ata Evladı Amallaşdırır, Sabahlaşdırır.***

***Ata Birdir, Mütləqdir – ancaq ona doğru Yol çoxatalıq mərhələsindən keçir.***

*27 Şölə Ayı, 8-ci il. Bakı.*

## EVLAD YÜKÜ

Ata Xalq Çayına enərdi, Həqiqət Tilovu atardı, Qeyrət Balığı tutardı.

Şər Xalq Çayını Ataya yasaq elədi.

İndi Evlad Həqiqət Tilovu atmalı, Qeyrət Balığı tutmalıdır.

*27 Qismət günü, Şölə Ayı, 8-ci il. Bakı.*

## SADİQİMƏ

Ehtiramın pakdır!

1. Ata Gününə qədər (Ata Ayı 25) nişanə hazır olmalıdır.

***Bənzərsiz, həmişəlik, müqəddəs biçimdə.***

***Ata Ayının 1-də Ata hüzurunda nişanənin son biçimi Ataya təqdim olunur.***

***Ata Günündən bir gün əvvəl nişanə Ataya göstərilir.***

2. Ata Gününə qədər maqnitofon hazırlanır ki, Günü, Ata Müraciətini, evladların Ata haqqında sözlərini, ümumən ruhani mərasimi yazasınız.

3. İtirdiyin sərvəti tap və Ata rəsmini oradakı şəkillər əsasında nişanəyə köçür (təzə səviyyədə).

***4. Döyüşdəyik!***

Ürəyin qaranlıqları yarsın!

*1 Ümid günü, Od Ayı, 8-ci il. Bakı.*

## SAFRUH ÜÇÜN

1. Heç nə dəyişmir. ***Şər əməlin ahəngini poza bilməz.***
Ata Günü vaxtında, ruhani səviyyədə keçirilir.
Bu inam günü saat 12-də Atanın şəkli çəkilir...
Evladlar Ata hüzuruna vaxtında gəlirlər.
Təhlükədən cəsarət hasil olunmalıdır.

***Sadiqim*** Ata Hökmü əsasında nişanə tapşırığını ***Mütləq Mənada*** həyata keçirməlidir.

*2.* ***Atanın şəkli nişanənin üz qabığında yox, birinci səhifədə əks olunur.***
"İnsanlaşın, İnsanlaşdırın!" çağırışı, "Asif Ata" imzası şəkillə bərabər həkk olunur.
Nişanə bənzərsiz, müqəddəs biçimdə, ***şərqi bədiyyat cizgilərində*** yaradılır.
***Həmişəlik yaşamaq üçün!***
Mütləq məsulluq yükü düşür çiyninizə.
Ata qiymət verəcək səyinizə!

3. Nişanənin üz qabığı Ata Hökmü əsasında rəmzləşir.

4. ***Ata gününü övladlar yubiley hərcayiliyi saymasınlar.***
Bugünün idrakını idraksızlıq sayırıq.
Ata Günü – Atanın evladlarla müqəddəs təmas günü, təzə Ata Sözü məqamıdır, evlad ülfətinin təzahür ülviyyətidir, həm qədim, həm bənzərsiz ənənənin yaranmasıdır, Amalımızı, sabahımızı təsdiq etmək üsuludur.

5. ***Qəlbini evladlıqda saxladım.***
Tövbəsi – qəlbiydi.
4 – nömrəli nişanəni ona yazın.
5 – nömrəlini Halala.

6. ***Ata Günü nişanə mərasimiylə bitir.***

Ata Nişanəni evladlara bir-bir təqdim edir, evladlar bir kəlməylə Ataya cavab verirlər, ehtiram göstərirlər. Kəlmə ürəkdən, evlad idrakından, inamından süzülür. ***Hər kəs öz istədiyi kəlməni deyir.*** Təqdimat bitdikdə evladlar birlikdə Ataya səcdə qılır, sonra müqəddəs zəncir həlqəsi şəklində əl-ələ verib, evlad vəhdəti ifadə edirlər.

(Bu mərasimi hərtərəfli düşünün:
***Bənzərsiz və yetkin*** alınsın!)

7. ***Bütün əməl bir saatın içində bitməlidir.***

Ömür qısa – yol uzundur.

8. Adlanmamış – evlad sayılmır, Müqəddəs Kitablara layiq görülmür.

Müqəddəs kitablar öyrənilir və Əsilə qaytarılır.

Müqəddəs Odun qorunması, yağı əlinə keçməməsi – mütləq məsulluqdur. ***Həmin məsulluqdan məhrum olmaq – evladlığı öldürməkdir.***

***9. Sözü əməldən cüzi də olsa ayırmaq – yağılıqdır.***

Ata evladlardan ləyaqətli Ata Günü gözləyir. Ləyaqət sözünə layiq!

10. ***Əsil odu şər yağışından çıxara bildi.***
***Həm də özünü öyrənmək üçün dərs qazandı.***

11. Evladların üç əməli: Amalı öyrənmək, özüylə döyüşmək, ailə yaratmaq...

12. ***Evladların bir evladsızlığı: Ata Sözündən çıxmaq.***

Ürəyin qaranlıqları yarsın!
Mütləq sənə yar olsun!

*25 Qismət günü, Od Ayı, 8-ci il. Bakı.*

## HALALA

1. ***Bir qayğımız var***: Amallaşma – amallaşdırma.

***Üç borcumuz var***: Müqəddəs Kitabları öyrənmək – öyrətmək; özünü dəyişmək – kamilləşmək; Ata ailələri yaratmaq – təmsil etmək, Atanın cari buyuruqlarına əməl etmək!

2. Ata Gününə müqəddəs məsuliyyət hissiylə hazırlaşın! Ata ləyaqətinə layiq! Evlad sədaqətinə layiq!

3. Bugünlə ***daxili əlaqəni*** tam kəsməlisiniz.
Antibugün səviyyəsində düşünməli, duymalı, yaşamalısınız.
***Natamlıq, adamlıq səviyyəsini bütünlüklə rədd etməlisiniz!***

4. Ata kəlamlarının hərfini belə, müqəddəs tutun!...
Mütləq Həqiqət Mütləq Əməl tələb edir.
***Ata əməlinə riayətdə cüzi nisbilik – həqarətdir!***

5. Münaqişəsiz, mübahisəsiz, həsədsiz, rəqabətsiz evladlıq – qardaşlıq, bacılıq normasına Mütləq Əməl! ***Atanın evladları biri-biriylə Mütləq mənada Ruhani Birliyə qovuşmuş kamillərdir!***

6. Gələn əsrdə yetkinlik vədəsinə çatacaq 15 yaşlılardan başlamaq lazımdır ailə yaradıcılığına.

7. İdrakınızı nar kimi sıxın, Mənəviyyatınızı nar kimi sıxın, İradənizi nar kimi sıxın, qeyri-adi güc lazımdır Amalımıza!
***Adi güc azdır!***

8. ***Ömrün çox hissəsi, vaxtı, məqamı (əslində hamısı)*** Amala həsr olunmalıdır...
Amala həsr olunmayan nə varsa – hədər gedəndir.
Düşünün, daşının, ömrü hədər verməyin!
***Ömrün çoxunu antiamala, azını Amala həsr etməyin!***

Fərəhinizi göz bəbəyiniz kimi qoruyun!

9. Həmişə qanadlı olun, ruhani qələbə məğlubiyyət tanımır.

10. Şər məzhəkələşir, öldürmək istədiyi halda güldürür.

Ürəyiniz qaranlıqları yarsın!
Daxilinizdəki Mütləq sizə yar olsun!

*15 Qismət günü, Qürub Ayı, 8-ci il. Bakı.*

## ÖZÜMLÜYƏ

Əyridə qalıb Doğruya çatmaq olmaz.
Nahaqda qalıb Haqqa çatmaq olmaz.
Şərdə qalıb Xeyrə çatmaq olmaz.

Əyrini Əyriylə öldürmək olmaz –
Doğruyla öldürmək olar.
Nahaqqı Nahaqla öldürmək olmaz –
Haqla öldürmək olar.
***Şərin qənimi – Xeyirdir.***

Qorxu Yalançıdır. Həqiqət Cəsarətindir.
Tərəddüd Yalançıdır. Həqiqət Qətiyyətindir.

Amallaşmaq gərək, İnsanlaşmaq gərək, Ailələşmək gərək...
***Amallaşmaq*** – Müqəddəs Kitabları öyrənmək, öyrətmək.
İnsanlaşmaq – Ruhani kamilliyə çatmaq.
Ailələşmək – Ata Ailələri yaratmaq.

***Məqsəd:***

Mütləq İnam.
Mütləqləşmək.

Ruhani Cəmiyyət.
Müstəqil Xalq.
Özümlü Şərq.
Ləyaqətli Bəşər.
***Müqəddəs İntibah.***

***Özümlü*** adını sənə halal eləyirəm.
Ona layiq ol!

Ürəyin qaranlıqları yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*23 Murad günü, Qürub Ayı, 8-ci il. Bakı.*

(Qeyd: Həyatda adı Malik idi. Ocaqdan çıxdı).

## BUYURUĞUM

1.Qardaşın Safruh vasitəsilə Müqəddəs Kitabları sırayla, ardıcıl şəkildə, dərindən öyrənirsən və öyrədirsən.

***2. Ata Hökmü əsasında Ailə yaradırsan...***

3. Özünlə döyüşürsən, kamilliyə yetirsən.

4. Ayda bir dəfə – hər ayın sonunda axşam saat 11-də Atayla görüşmək haqqın var: ***15 dəqiqə.***

5. Ata təqvimi əsasında yaşayırsan. Hər ayın axırında Safruhla görüşürsən...

Balanın boğazından kəsib Amalının boğazına ***Halalından*** doldurursan (imkan daxilində).

6***. Ata Gününə dəvət olunursan. Ata haqqında söz deyirsən.*** (25 Ata Ayı, 8-ci il).

***Müqəddəs Nişanə mərasiminə yüksəlirsən.***

*23 Murad günü, Qürub Ayı, 8-ci il. Bakı.*

## BÜTÖVƏ

İnamsızlıqlarında "İnamlıdırlar".
İdraksızlıqlarında "İdraklıdırlar".
Mənəviyyatsızlıqlarında "Mənəvidirlər".
İradəsizliklərində "İradəlidirlər".
İnamımızda Bütövük.
İdrakımızda Bütövük.
Mənəviyyatımızda Bütövük.
İradəmizdə Bütövük.
Tərəddüdsüzük, Qətiyik...
***Bütöv*** adını sənə halal eləyirəm!

Şər yarımşərlik biçimində də görünə bilər, Xeyirin Biçimi Birdir: Bütövlük.

Sən Xeyirsən, ona görə də Bütövsən.
Bütövlüyünü itirən an – yox olursan!
***Var ol – Bütöv ol!***
Bütövlük – Xeyirliyin ikinci adıdır.

***Bütöv Şər yoxdur*** – parçalanan, paralanan, cilddən-cildə girən, "xeyirləşməyə" cəhd göstərən Şər var.

Xeyir şərləşməyə meyl eləməz, onu Yer üzündən silər...
Müqəddəs borcun:
***Amallaşmaq*** – Ata Kitablarını öyrənmək, öyrətmək.
***İnsanlaşmaq*** – Mənəvi ərsəyə çatmaq.
***Nöqsansızlaşmaq...***
Ailələrə Başçılıq etmək – Ata Ailələri yaratmaq.
Məqsədimiz: Mütləqə İnamı bərqərar eləmək.
Mütləq Kamilliyə çatmaq və çatdırmaq.
Ruhani Cəmiyyət yaratmaq.
Müstəqil Vətən yetirmək.
Şərqi özünə qaytarmaq.
Bəşəri ləyaqətsizlik bataqlığından çıxartmaq.
***Ölümlə öcəşirik.***
***Təhlükələrin üzərindən adlayıb keçirik...***
***Özümüzü Amalımızda görürük...***

***Sabahlıyıq...***

Ürəyin qaranlıqları yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun.

*8-ci il, Qürub Ayının 23-ü.*

**BUYURUĞUM:**

1. Qardaşın Safruh vasitəsilə Müqəddəs Kitabları öyrənirsən, ailələr haqqında, əməl müqəddəsliyi haqqında Ata hökmlərini bilirsən və həyata keçirirsən.

2. Halal gəlirinin ***imkan daxilində*** az bir hissəsini Amalımıza həsr edirsən...

***Maddi müstəqilliyimiz naminə.***

(Safruhla məsləhətləş).

3. Hər ayın 2-də Ata ziyarətinə gəlmək haqqın var. Axşam saat 11-də. 15 dəqiqə ərzində. (Gəlməyə də bilərsən!)

4. Ata Gününə, Müqəddəs Nişanə təqdimatına hazırlaş. (Ata Ayı, 25, 8-ci il).

***Ata haqqında söz de.***

5. Ata təqvimini Safruhdan alırsan və ömrün tarixini onunla sayırsan!

Ürəyin qaranlıqları yarsın!
Daxilindəki Mütləq sənə yar olsun!

*8-ci il, Qürub Ayının 23-ü, Murad günü. Bakı.*

(***Qeyd***: Bu "Bütöv"ün həyatdakı adı Azad idi.

20.IV. 1987 – 20. II. 9-cu il) tarixli məktubu yazıb Amaldan döndü.

İlk iki ***dönükdən*** biridir).

## SAFRUHA

Ehtiramın pakdır!

1. 6 nömrəli Nişanəni qardaşın Özümlü üçün hazırlayırsınız.

7 nömrəli Nişanəni qardaşın Bütöv üçün hazırlayırsınız.

2. Ata Günü mərasimini Ata hökmünün ruhuna və hərfinə Mütləq riayət səviyyəsində keçirməlisiniz.

Dəqiqələr, saatlar əməl balıyla dolmalı, bir an belə, mənasız keçməməli – ***ehtiyac hiss eləsəniz, məşq eləyin.***

***Müqəddəs ənənə öz kamil biçimini tapmalıdır.***

Mərasim bütünlüklə maqnitofona yazılır, mərasimin əsas məzmunu dəftərə yazılır.

(Xüsusi "Mərasimlər dəftəri" düzəldirsən!)

Atanın "Mərasimə başlayaq!" Hökmündən sonra evladlar "Ata Sözü" deyirlər.

Sonra Ata danışır.

Mərasim Evlad Nişanəsi təqdimiylə bitir.

Mərasim vaxtı – maksimum iki saat...

(***Təqdimat*** vaxtın uzanmasını tələb eləyir).

***Bənzərsiz, əlçatmaz, müstəqil mərasim yaranmalıdır.***

***Ata evladların zəhmətinə qiymət verəcək.***

Kallığı şərə bağışlayırıq.

Hərcayiliyi şərə bağışlayırıq.

3. "Peyğəmbər" sözü "Ata" sözündən aşağıdır. Ancaq xalqa yaxın olan qədim Şərq sözüdür. Bu səbəbdən də ***"peyğəmbər" adını Ataya şamil eləmək lazımdır.***

(Ata haqqında sözdə də!)

***Bu, əmələ yaxşı xidmət eləyəcək!..***

4. Ataya müqəddəs təzimin hər üçü: Ata qarşısında əyilən baş, Ataya təqdim olunan ürək, Atanın əlini öpən dodaq –

nümayiş etdirilir. (Həm Ata Günündə, həm də Ata ziyarətinin hamısında).

5. ***Son vaxt Atanı tapanlar və evlad olmaq istəyənlər çoxalıb.***

Seçdiyimi Safruha yollayacağam...

Ev ünvanını yaz: gəliş günlərini və saatlarını elə indi müəyyən elə, Ataya bildir.

(Ümumən Safruh başını qaşımağa macal tapmayacaq – bir vaxt işsizlikdən gileylənirdi!)

6. Müqəddəs Kitabları hökmdə qeyd olunan sırayla evladlara (adlanmışlara, nişanələşmişlərə!) etibar elə.

Bir ay müddətində bir kitab ("Sədaqət"lə "Hökmlər"i bir yerdə vermək olar) öyrənilir, ***qaytarılır (mütləq!)***

Bacarsalar – köçürtsünlər (köçürmək – həm də yaxşı öyrənmək üsuludur!)

Vaxtında qaytarmayana kitab verilmir!

(Qeyri-ciddiliyi həmişəlik şərə bağışlayırıq!)

7. Kəlamları, hökmləri, buyuruqları qardaşlarına oxu.

***Onların hər sətri, vergülü, nöqtəsi qorunur.***

"Sədaqət"in, "Ruhani Hökmlər"in təzə cildlərini gözləyirəm.

***"Ruhani Sənədlər" kitabı yaranır.***

Onlar bir yerdə – həm məktəbdir, həm də bizim sabaha hesabatımızdır!

Evladıma müqəddəs əməl diləyirəm!

Ürəyin qaranlıqları yarsın!
Daxilindəki Mütləq sənə yar olsun!

*29 Qürub Ayı, 8-ci il.*

## ƏSİL ÜÇÜN

1. Ata Günü Mərasiminin gedişatına Məsulsan!

2. Evladlar bir-bir gəlir, bir-bir gedir.

***3. Danışmaq sırası:***
Safruh, Sadiqim, Əsil, Qəlbi, Halal, Özümlü, Bütöv.
***Getmək sırası da həmçinin.***

4. Bütün hərəkətlər əvvəldən öyrədilir, boş məqam qalmır, maqnitofonun hazırlığı, bütün vasitələr, üsullar yüksək səviyyədə olmalı.
***Müqəddəs ənənəyə layiq!***
***Həmişəlik səviyyəsində.***

***5. Əvvəl Evladlar Ata Sözü deyir, sonra Ata Danışır. Bir dəfə.***
Ata Mərasimi açır, Evladlar Ata haqqında söz deyir.
Mərasim Nişanə Təqdimatıyla bitir.

6. Nişanələrin təqdimat sırası: Safruh, Sadiqim, Əsil, Qəlbi, Halal, Özümlü, Bütöv.

***7. Ciddi, Ruhani Tərtibat, Rəmzi, Müqəddəsliyi ifadə edən.***

8. Sonuncu Atayla Halal Evi tərk edir.

***9. Atanı sevindir!***
***Şər əhvalına təsir eləməsin – sarsılsın!***

10. Qaboy Muğamının Hikmətli Diliylə Atanı qarşılayın!
Həm İdraklı, həm duyğulu, ehtizazlı, ehtiraslı, doğma, mənalı...

Ürəyin qaranlıqları yarsın!
Daxilindəki Mütləq sənə yar olsun!

## EVLAD NİŞANƏSİNİN QORUNMASI

(Ruhani Hökm – "Sənədlər" üçün)

Evlad Nişanəsi Mütləq mənada pünhan saxlanılır, yada göstərilmir, yağıya verilmir, çıxılmaz vəziyyətdə cırılır.

Nişanəni şərə verən – xəyanətkar sayılır və evladlıqdan çıxarılır...

*31 İnam günü, Qürub Ayı, 8-ci il. Bakı.*

## ƏSİLƏ

1. Nişanənin Üz qabığında ***Günəş Rəmzi*** daha qabarıq verilməlidir...

***(Şüalar daha kamil əks olunmalıdır).***

2. Nişanənin daxilindəki sözlər ***Ağ rənglə kalliqrafik üslubda gözəl xətlə yazılmalıdır.***

***Uzun ömürlü...***

***Tez pozulmasın...***

***Kimin xətti ən yaxşıdırsa, o yazsın.***

***3. Ata Sözü Mütləqdir. Hökmə Mütləq mənada əməl etməli.***

***Ondan kənara çıxmamalı...***

Hərfi mənada belə Mütləqiliyə biganəlik günahdır...

***4. Ata Surəti Ahəngdar Rəmzləşmişdir...***

***Olduğu kimi qalsın...***

5. Ayın 10-da Nişanə nümunəsini hazır vəziyyətdə gözləyirəm.

Axşam saat 10-da.

Ürəyin Qaranlıqları Yarsın!

*2 Ümid günü, Ata Ayı, 8-ci il.*

## LEQAL FƏALİYYƏT HAQQINDA

Amalımıza Mütləq Sədaqət ruhunda, İnam naminə, Xalqın xeyrinə leqal fəaliyyətdə bulunmaq – rəsmi təsir vasitələrindən, "icazəli" görüşlərdən, Mühazirələrdən, Müsahibələrdən və s. istifadə etmək.

***Şərt:*** Mətbuat, Radio, Televizor, Tədris Şərini daim, ardıcıl, barışmaz ifşa etmək.

***Həm Şərdən istifadə etmək, həm də Şəri ifşa etmək!***

Bu, Yetkin Ləyaqətlə yanaşı, həm də Yetkin Məharət tələb edir.

Evlad həmin Ləyaqətə çatmalı və həmin Məharətə yiyələnməlidir!

*3 Dözüm günü, Ata Ayı, 8-ci il. Bakı.*

## MÜQƏDDƏS BAYRAĞIMIZ

1. 9-cu il Qar Ayının 15-nə qədər İnamımızın Müqəddəs Bayrağı hazırlanır.

Bir Üzündə ***Evlad Nişanəsinin üz qabığı*** həkk olunur, o biri üzündə Günəş rəngində (sarı), Ocaq rəngində (Açıq qırmızı), İşıq rəngində (Ağ) ***Rəmzi xətlər*** çəkilir.

***Bayrağın ümumi rəngi – Səmavi.***

2. Qar Ayının 15-də evladım Halal Bayrağı Ata hüzuruna gətirir.

3. Bayraq Pünhan saxlanılır, Yada göstərilmir, Yağıya verilmir, çıxılmaz vəziyyətdə yandırılır.

4. Bayraq Ata Hökmüylə Mərasimlərdə nümayiş etdirilir.

5. Bayraq Yaradılmasına Məsul – Evladım Safruh.

Bayrağın Qoruyucusu – Evladım Əsil.

*5 Qismət günü, Ata Ayı, 8-ci il. Bakı.*

## MÜQƏDDƏS KİTABLARIN YAZILMASI

(Evladlara buyuruq)

1. Dəqiq və hərtərəfli müəyyənləşir:

Harada, nə vaxt ərzində, nə qədər kassetlə, hansı şəraitdə.

***Hesablama Ataya təqdim olunur, Atanın sərəncamıyla həyatiləşir.***

2. 9-cu ilin yayında Ata tətilə çıxır və vaxtını bu işə sərf edir.

***3. Yazılışa məsul: Safruh, Sadiqim, Əsil.***

## SAFRUHA

(Buyuruq)

Müqəddəs Kitabların Yazılışına ***On sətirdən ibarət*** Evlad Girişi hazırlayırsan.

"Ata kimdir?", "Atalıq nədir?", Kitabların tənzimatı: yaranma tarixi, sayı, adları.

Giriş "Müqəddəs Məqamdır, Asif Atanı dinləyirik! Ata Evladı Safruh" sözləriylə bitir.

***Öz səsinlə Girişi oxuyursan, yazılır.***

*5 Qismət günü, Ata Ayı, 8-ci il. Bakı.*

## QƏLBİ ÜÇÜN

Ata Gününə qədər Amalımızın Tərənnümünü yazırsan. (Ata haqqında Sözlə bərabər).

Bayatı Biçimində. ***40 sətir. 10 Bayatı.***

("Əzizim" rədifinə ehtiyac yoxdur).

Atanın, Amalın, Sabahın, Mütləqiliyin, Müqəddəsliyin Mahiyyətini vəsf edirsən, Şərin Qəbahətini Döyürsən.

Bədiyyatla Fikrin Vəhdətinə nail olursan.

Həm məna, həm də hissiyyat zənginliyi!..
Həm idrak, həm də gözəllik!
Ehtiyac hiss etsən, Müqəddəs Kitablara Müraciət eləyərsən.
Ayın 20-də axşam saat 8-də Tərənnümü Ata Hüzuruna gətirirsən.
Mərasin Tərənnümlə bitir. Sənin ifanda.

Uğurlar diləyirəm!

*8 Arzu günü, Ata Ayı, 8-ci il. Bakı.*

(Qeyd: Həyatdakı adı İlham idi. Döndü).

## DÜZGÜNƏ

Nə qədər İnamlı olsan da – Dəyişil!
Mütləq İnama Yüksəl!
Nisbi İnam – İnamsızlıqdır!

Nə qədər İdraklı olsan da – Dəyişil!
Mütləq İdraka Yüksəl!
Nisbi İdrak – İdraksızlıqdır!

Nə qədər Mənəviyyatlı olsan da – Dəyişil!
Mütləq Mənəviyyata Yüksəl!
Nisbi Mənəviyyat – Mənəviyyatsızlıqdır!

Nə qədər İradəli olsan da – Dəyişil!
Mütləq İradəyə Yüksəl!
Nisbi İradə – İradəsizlikdir!

***Düzgün Yaşa!***
***Düzgün*** adını sənə halal eləyirəm!
Amallaş, Amala layiq Əməl Yetir!

Hər Ayda bir dəfə Ata hüzuruna gəlmək haqqın var. (***20-də,*** axşam saat 11-də, 15 dəqiqə ərzində). ***Hesabat və Suallarla.***

Ürəyin qaranlıqları yarsın!
Daxilindəki Mütləq sənə yar olsun!

*11 Ata Ayı, 8-ci il. Bakı.*

(Qeyd: Həyatdakı adı Əli idi. Amaldan döndü. İlk iki dönükdən biridir).

## "ATA GÜNÜ" MƏRASİMİ HAQQINDA

Mərasim Məqsədinə çatdı.
Ruhani Əməl yarandı.
Xeyirə Uzunömürlü Xeyir verildi.
Şərə Uzunömürlü Zərbə vuruldu.
Evladlar Təqdirəlayiq Ləyaqət göstərdilər.
Sabahımıza bir addım da yaxınlaşdıq!

*26 Qismət günü, Ata Ayı, 8-ci il. Bakı.*

## "SORĞU GÜNÜ" HAQQINDA

Müqəddəs Kitabların öyrənilməsinə, Ailə Yaradıcılığına Kömək Məqsədiylə Evladlara hər 4 aydan bir ***Atayla Sorğu haqqı*** verilir.

Çətin Məsələlər aydınlaşdırılır, ruhani bilik Möhkəmlənir, dərinləşir, dəqiqləşir; əməl kamilləşir.

Zərurilik, Yer, Gün, saat Evladlar tərəfindən Müəyyənləşdirilir, Ataya təqdim edilir.

Məsullar: Safruh, Sadiqim, Əsil.

*26 Qismət günü, Ata Ayı, 8-ci il. Bakı.*

## SAFRUHA

(Buyuruq)

***"Hadisələr" kitabı hazırlayırsan.***

***Orada əks olunur:***

Mərasimlərin tarixi, məğzi, nəticəsi, Səfərlərin, Tədbirlərin, Görüşlərin, Müsahibələrin, Mühazirələrin tarixi, məğzi, nəticəsi...

Cari Amal işlərinin tarixi, məğzi, nəticəsi.

Ata hüzuruna gediş, Adlanma, Evladlanma əməlinin tarixi, məğzi, nəticəsi.

*26 Qismət günü, Ata Ayı, 8-ci il. Bakı.*

## SAFRUHA

***Evlad Ehtiramı pakdır!***

1. Sağlamlığının qayğısına qalırsanmı?
O da Evladlıq Borcudur, bilirsənmi?

2. Ata ***Safruhunu*** aramsız Buyuruqlarıyla Yormalıdır!

3. Mərasimin Məğzini "Hadisələr" kitabı üçün yaz.
Ata haqqında Evlad Sözlərini "Hadisələr"ə topla.

4. ***Bayrağımızın*** Bənzərsizliyini, Əlçatmazlığını, Müstəqilliyini yaradın!

5. Səfər aqibətiniz Zəfərli olsun!

*26 Qismət günü, Ata Ayı, 8-ci il. Bakı.*

## SAFRUHA

"Sədaqət"in təzə, genişlənmiş çeşidini çap eləməyi ön plana çək.

O, Ailə yaradıcılığında, Amallaşma Hadisəsində çox konkret iş görə bilər...

Ataya Səcdə qaydalarını xüsusi biçimdə ayır, "Sədaqət"dən fərqləndir...

***Müqəddəs Səhifələr janrı yarat.***

*15 Xəzan Ayı, 8-ci il.*

## HALALA

Evlad Ehtiramı pakdır!

1. 9-cu ildən Ailə yaradıcılığına başla.

"Sədaqət", "Ruhani Hökmlər" kəlamlarını hərəkət xətti Say və Əməl bağbanlığına başla...

***Özünə bağban ol, olduqca ailəyə bağban ol!***

***Öyrəndikcə – öyrət!***

2. Ata Buyuruqlarını özünü Kamilləşdirmə səviyyəsi say!

Dəyişil – dəyişdir!

Ürəyin qaranlıqları yarsın!

*15 Xəzan Ayı, 8-ci il. Bakı.*

## ƏSİLİMƏ

1. Ata Günü Mərasimində təşkilatçılıq qabiliyyətin bar verdi: nizam, qayda, ardıcıllıq, bütövlük, dəqiqlik yarandı.

Müqəddəs Bayrağımıza da iqtidarını sərf elə!

2. Mərasimdəki nöqsanlar: Qaboyun uzunçuluğu, Sadiqimin özünü itirməsi, bir də şkafdakı konyak.

3. Gələcəkdə Mərasimlərimizi Məşəllə keçirəcəyik.

Düşünürsən, daşınırsan, təxəyyülünü Səfərbər eləyirsən və mülahizələrini Ataya təqdim edirsən!

4. Səfərlərə Yaraqlanırsan!

Ürəyin qaranlıqları yarsın!

*23 Mərhəm günü, Xəzan Ayı, 8-ci il. Bakı.*

## SAFRUHA

Evlad Ehtiramı pakdır!
***Suallar:***
1. Evladımın Əhvalı Mütləqləşirmi,
İdrakı Mütləqləşirmi,
Mənəviyyatı Mütləqləşirmi,
İradəsi Mütləqləşirmi?

2. Hökmlərin İcrası Mütləqdirmi?

3. Qardaşların Mütləqçiliyi Mütləqləşirmi?

4. "İş başına!" çağırışının Mütləqiliyi həyata keçirmi?

*31 Qismət günü, Xəzan Ayı, 8-ci il. Bakı.*

## MƏLUMAT

Evlad olmaq istəyən çoxdur, Evlad Tələbinə cavab verən azdır!
***Ata tələsmir!***

*31 Qismət günü, Xəzan Ayı, 8-ci il. Bakı.*

## AMAL MƏNTİQİ

Gülnaz bizə Yağı olmasa da, Doğma da deyil, Yaddır.
***YADA SİRR VERMƏ!***

*31 Qismət günü, Xəzan Ayı, 8-ci il. Bakı.*

## EVLADIM DÜZGÜNƏ

İnamlı, qanadlı məktubunu aldım.
Bəhrələndim.

Qardaşlarına salamımı çatdır.

"Əməl" qanunları əsasında qardaşlardan müqəddəs ailə yarat, birlikdə Amallaşın, Ata Gününə qədər doğmalarından evlad yetir, evladlıq nişanəsini mərasimə yüksəlt.

Şəhərinizdə rəsmi hörməti ruhani hörmətlə əvəz edin.

Şəhərinizin hörmətlisi olun!

Ürəyiniz qaranlıqları yarsın!
Daxilinizdəki Mütləq sizə yar olsun!

*12 Dözüm günü, Yağış Ayı, 8- ci il. Bakı.*

## ƏMƏL MÜTLƏQİLİYİ

1. "Sədaqət"i, "Ruhani Hökmlər"i Evladlar köçürürlər və Mütləq səviyyədə həyata keçirirlər.

2. Əməl Mütləqiliyinin ən cüzi natamlığı – şərə xidmətdir, Evladlığa yağılıqdır.

3. "Ataya ricalar" Müqəddəsliyi, Ruhani gündəliklər İntizamı, Maddiyyat Qaydası Mütləq Əmələ çevrilməlidir.

4. 9-cu ilimiz Ruhani Səfərlər, Müqəddəs Ailələr ili olmalıdır.

***5. Nisbiyə enən Amaldan dönür!***
***Mütləqçinin nisbi əməli yoxdur, yalnız Mütləq əməli var!***

*15 Murad günü, Yağış Ayı, 8-ci il. Bakı.*

## SAFRUH ÜÇÜN

1. “Sədaqət”i, “Ruhani Hökmlər”i Evladlar köçürürlər, həyatlaşdırırlar.

2. “Əməl Mütləqiliyi” sənədini Evladlar köçürürlər, həyatlaşdırırlar.

3. Gələn ildən Səfərləşirsiniz!

4. Maddiyyat Qaydası pozulmur!

5. Ruhani Sənədlər oxunur.

6. Amal Dəftərxanalığı Sabahxana sayılır.

7. Bayrağımız Qar Ayında nurlanır!

8. Sorğu günü doğur!

Ürəyin qaranlıqları yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*15 Murad günü, Yağış Ayı, 8-ci il. Bakı.*

## HALALA

1. Müqəddəs Kitabların, Atalığın Ruhunu, Hərfini İdrakına, Mənəviyyatına, İradənə tam həkk elə, Bugündən tam çıx, Mütləq mənada Sabahlaş, Bənzərsizlik, Əlçatmazlıq, Müstəqillik Yüksəkliyinə çat!

2. 9-cu il – Müqəddəs Ailələr ili olmalıdır.
***Ailə Yaradıcılığına Qalx!***

Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*15 Murad günü, Yağış Ayı, 8-ci il. Bakı.*

## SAFRUHA

Muğam Fəlsəfəsini "Atestasiyaçılar" istəyirlər.
***Təcililəşdir!***

Musiqilər doğmadır.
Üvertüra uzundur.
İki hissəyə bölün, mərasim son hissəylə bitsin.

Sazda "Bülbül" Məmmədrahimliyini silib atın.
Bir başa "Ruhani"ylə başlayın.
Habilin kamanında Məharətpərəstliyi yaxına qoymayın.
***Qaval üstə Söz deyilmir.***
***Bayrağa sarılın!***
Vaxta etibar eləməyin.
O sizi aldada bilər.
***Ata Hökmünün Mütləqiliyi pozular, Şər qazanar.***

Qaranlıqlar Yarılsın!

*23 İnam günü, Yağış Ayı, 8-ci il. Bakı.*

## SAFRUHA

Maddi borc və Ruhani İntizam Qanunlarını Evladlara çatdır!
***Nisbiçiliyə yuvarlanan – Bugünə yuvarlanır.***
Evladlar həmin bədnamçılığı ömürlərindən birdəfəlik silsinlər!
Balalarıma salamımı yetir!

*1 Arzu günü, Sərt Ay, 8-ci il. Bakı.*

## QƏLBİYƏ

Evlad Ehtiramı pakdır!
1. İnamın Mütləqiliyi səviyyəsindəsənmi?

(***Qəlbi:*** İnam Mütləqiliyinə aparan yol – yolumdur. İnamım Mütləqdir.)

2. Ata Tələbinin Mütləqiliyi səviyyəsindəsənmi?
(***Qəlbi:*** Ata Tələbini Amalım hesab edirəm.)

3. Amallaşırsanmı – “Amaldan başqa həyatım yoxdur!” səviyyəsinə yaxınlaşırsanmı?
(***Qəlbi:*** Artıq Amallaşmışam. Həyatımın Mənasıdır Amal.)

4. Dolanmaq – Yaşamağına rəqib çıxmır ki?
(***Qəlbi:*** Dolanmaq haqqında heç düşünmürəm. Yaşamaq istəyirəm.)

5. Özünü yoxlayırsanmı? Hakimin olmusanmı? Həkimin olmusanmı?
(***Qəlbi:*** Qəlbimin, ruhumun hakimiyəm.
Daxili nöqsanlarımın həkimiyəm.)

6. Amal klubdan üstündür, Ocaqdan üstündür. ***Qəlbi İlhamı kölgədə qoyubmu?***
(***Qəlbi:*** Klub sözünün, işinin yerini Ocaq çoxdan tutubdur. Qəlbi – əsil adımdır.)

7. Düşmən bizi yalnız maddi cəhətcə incidə bilər.
***Maddi Borcun ruhani əhəmiyyətini anlamısanmı?***
***Zəifliyimiz olmamalıdır!***
Kasıbıq, kasıb olduğumuz üçün də maddi Qurbanımız ruhanidir!
Var-dövlətdən kasıbıq, Qeyrətdən varlıyıq! Qeyrət tələb eləyir ki, maddi Qurbandan çəkinməyək!
(***Qəlbi:*** Qeyrətim maddi çətinliyimi çoxdan məhv edib.)

8. Müqəddəsliyimizi öyrənirsənmi? Ailə yaradıcılığına hazırsanmı? Gələn Ata gününə Evlad yetirəcəksən, Evlad nişanəsinə yüksəldəcəksən! Mütləq!

"Əməl"i, "Müqəddəs Əməl"i rəhbər tut.

Ailənin birini Bakıda, o birini Gəncə Mahalında yaradarsan!

(***Qəlbi:*** Ata tələbini ən müqəddəs qanunum hesab edirəm.)

9. Təzə Mərhələ başlayır. Ona Layiq ol!

Atayurd Amallaşmalıdır!

(***Qəlbi:*** Ürəyimi şad etdiniz, Ata!

Bu günü çoxdan gözləyirəm.)

10. Rozaya mənəvi kömək dur.

(***Qəlbi:*** Ata tələbi hökmdür.)

*5 Qismət günü, Sərt Ay, 8- cil il. Bakı.*

## AMAL MƏİŞƏTİ

1. Evladlar Safruhla vaxtaşırı əlaqədə olmalıdırlar.

2. Ata Safruh vasitəsiylə Evladlardan xəbərdar olmalıdır.

*26 Qismət günü, Sərt Ay, 8-ci il. Bakı.*

## SƏFƏR ÜSTƏ

***Safruha***

1. Səfərə Birinci başlayırsan.

Birincilik Ləyaqətini qazanırsan.

***Bu Ləyaqətə layiq ol!***

2. İşıq aparırsan, işıqlandırırsan, işıq almağa getmirsən.

Camaat zülmətdədir...

Zülmət səni sarsıtmasın, sən zülməti sarsıt!

***Tələsik Məhəbbət gözləmə – yetkin Məhəbbət apar özünlə.***

3. İşıq aparırsan, həm də Müqəddəs tilov...
İşığa gələnləri tilova salırsan.
Münasibət yaradırsan. Gəlib səni tapırlar.
Amal və Ata haqqında məlumat verirsən:
Məqsədi və Üsulu qandırırsan!
Ata hüzuruna Mütləq səviyyədə hazırlayırsan!

***4. Ölməyimiz indiki Məqamda fərariliyimizdir.***
Ruh bədəndə olduğu üçün bədən qorunur.
Taksi miniyində qəbahət imkanı var...
Həmin imkana yol verilmir.

5. Səfəri son cümləsinə, nöqtəsinə, vergülünə qədər yazırsan, təhlil eləyirsən və Ataya təqdim edirsən.

6. Lazım olsa, eyni məkana bir neçə dəfə gedirsən.
Ümumi Oyatma əməlini:
Mütləqə İnam,
Özüylədöyüş,
Müstəqil Xalq,
Ruhani Cəmiyyət,
Ləyaqətli Şərq və Bəşər Müqəddəsliyində ifadə eləyirsən.
Hər dəfə Təzələşirsən!
7. Özünü öyrənirsən:
Qorxu ölübmü, yaxud ölürmü?
Xudbinlik ölübmü, yaxud ölürmü?
Şöhrətpərəstlik ölübmü, yaxud ölürmü?

Ürəyinə bax, Atanı orada görəcəksən!
Ata səninlə olacaq!

Ürəyin qaranlıqları yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*26 Sərt Ay, 8-ci il. Bakı.*

## SAFRUHUMA

Rican Doğmadı!
“Gərək” rədifli Dördlüklərlə – çağırışlarla bitir Sözünü.
***Təxminən: İnamlı dünya gərək və s.***
***Səfər üstə Ata Xeyir-Duasına gəl.***

*13 Murad günü, Qar Ayı, 8-ci il. Bakı.*

## SAFRUHA

Əsilgilə get, gör nə var, nə yox.
Qardaşının halı necədir?

*15 Qismət günü, Qar Ayı, 8-ci il. Bakı.*

## SAFRUHA

Düzgünə Ata cavabını göndərdinmi?
Həmin cavab həm də Buyuruq idi.

*15 Qismət günü, Qar Ayı, 8-ci il. Bakı.*

## SAFRUHA

Bayram hökmünü Qardaşlarına çatdır.
Hazırlaşsınlar.
*15 Qismət günü, Qar Ayı, 8-ci il. Bakı.*

## HALAL ÜÇÜN

Nur Balamız Sabahımıza xoş gəlib!
Anasının dilində öyrəndiyi birinci söz Ata sözü olsun, ikinci
söz Amal sözü olsun, üçüncü söz Sabah sözü olsun.
Qardaşlarına Bacı olsun!

Ürəyin qaranlıqları yarsın!
Daxilindəki Mütləq ona yar olsun!

*27 Qar Ayı, 8-ci il.*

## SAFRUHA SUALLAR

1. Tariximizin nöqtəsi, vergülü belə saxlanılırmı, toplanırmı?

"Hadisələr" kitabçası ***yazılırmı?***

– ***Yox.***

Sənəd azdır.

2. Evladlar Mərasim Qaydasını bilirlərmi?

– Bilirlər.

3. Özümlü, Bütöv Amallaşmada necə irəliləyirlər?

– Özümlü – yaxşı!

Bütöv – passiv.

4. Suallar yazılırmı?

– Qayda hamıda var. Yəqin hamı yazacaq.

Mən yazmışam. Yazıram.

## SAFRUHA

Evlad ehtiramı pakdır!

1. Yetkinliyini özünlə aparmısan Səfərə, buna görə də Səhvə yol verməmisən!

2. Dinləyənlər yüz olsun, yaxud bir olsun, heyrətlənsinlər, yaxud qeyzlənsinlər, diqqətlə dinləsinlər, yaxud biganə qalsınlar – Əhval bir yüksəklikdə qalmalı, kökdən düşməməlidir.

Əhvalın haradasa, kimdənsə küsübsə, Mütləqilikdən ayrılıb. Bu, Mütləqçi üçün kəsirdir.

3. Aslanı Müqəddəs İl Gününə yox, Ata Gününə hazırla – ***Nişanə Ucalığına çatdır.***

Risqə get, "Bədiyyat", "Yol", "Sədaqət", "Rəmzlər" kitablarını öyrət: oxu, oxut.

4. Evladlar sonuncu Ruhani hökmü bilsinlər, Bayraq Andını əzbərləsin, Bayramımıza Mütləq mənada səfərbər olsunlar.

5. Gələcək Səfərləri Amalın ***Bir İdeyası*** üzərində qur.

Təzə Səfərini "Müstəqil Xalq" İdeyasına həsr elə.

Müqəddəs Kitablarda həmin İdeyanı ara, ağlına, qəlbinə, iradənə həkk elə, Səfər Sözü yarat – dördlüklə başla, Deyimlərlə bitir.

***Sual-cavablara qüvvətini əsirgəmə, onlar doğmalığa aparan körpüdür.***

6. Ailə Yaradıcılığı haqqında Əməl Hökmünü ruhunda gəzdir, Ali Məqsədi göz önündə tut, ona yaxınlaş, yüksəl, nail ol.

Getdiyin yeri Ailəyə tapşırmayınca, Ataya Evlad – Timsal gətirməyincə rahat olma.

***Bir getdiyin yerə bir də get!***

7. Amal vərəqələri – Amal şüalarıdır – Sabahı işıqlandıran. ***Bu baxımdan, kağızpərəst ol. Ruhani dəftərxanaçılığı Uca tut!***

"Səfər dəftəri" yarat, Səfər Əməli son nöqtəsinə, vergülünə qədər qorunsun, Sabaha çatdırılsın!

"Birinci səfər gündəliyi"ni Qardaşlarına oxu!

8. Əhvalını biryolluq İradənə tabe elə ki, ona tam etibar eləyəsən!

9. İstirahət məqamlarımı məqaləçiliyə həsr eləyirəm. İstəyirəm kölgəmizi Şərin başına çırpam. Görüm baş tutacaqmı?

Ürəyin qaranlıqları yarsın!
Daxilindəki Mütləq sənə yar olsun!

*30 Qismət günü, Qar Ayı, 8-ci il. Bakı.*

## TƏQDİR

Evladım Safruhun Səfər Əməlini təqdir edirəm.

*30 Qismət günü, Qar Ayı, 8-ci il. Bakı.*

## EVLADIM DÜZGÜNƏ QARDAŞLARINA!

İnamımız, Amalımız, Sabahımız naminə!

Bugün "İnamından" daxilinizdə əsər-əlamət belə qalmasın!

Bugün "İdrakından" daxilinizdə əsər-əlamət belə qalmasın!

Bugün "Mənəviyyatından" daxilinizdə əsər-əlamət belə qalmasın!

Bugün "İradəsindən" daxilinizdə əsər-əlamət belə qalmasın!

Camaatın daxilində Bugün "İnamından" əsər-əlamət belə qalmasın!

Camaatın daxilində Bugün "İdrakından" əsər-əlamət belə qalmasın!

Camaatın daxilində Bugün "Mənəviyyatından" əsər-əlamət belə qalmasın!

Cammatın əməlində Bugün "İradəsindən" əsər-əlamət belə qalmasın!

***Yeriniz Göylənsin...***

Ruhunuz Göylənsin.

İdrakınız Göylənsin.

İradəniz Göylənsin.

Atanın Düzgününə, Düzgünün Qardaşlarına xeyir-dua verirəm, İnamlıma, İnamlımın qardaşlarına Ruhani Uğurlar diləyirəm!

Ürəyiniz Qaranlıqları Yarsın!
Daxilinizdəki Mütləq sizə yar olsun!

*31 İnam günü, Qar Ayı, 8-ci il. Bakı.*

## ÖZGƏLİKDƏN ÇIXMAQ

Ruhani Dünyamız Mütləq mənada Özümüzünküdür!
Maddi Dünyamız Mütləq mənada Özgəninkidir!
***Bu özgəlikdən çıxmalıyıq!***
***Maddiyyat çəpəri çəkilib Amalımız qarşısında – onu sökməliyik!***

*2 Arzu günü, Köçəri Ay, 8-ci il. Bakı.*

## AMAL MƏİŞƏTİ

***Adam məclislərində iştirak etməli!***
Məclis ***Fərəhsizliyini*** qandırmaq üçün.
Məclis ***Qeyrətsizliyini*** qandırmaq üçün.
***Ruhaniyyat közünü*** alışdırmaq üçün.

*2 Arzu günü, Köçəri Ay, 8-ci il. Bakı.*

## ŞƏRƏ QARŞI

Şər Evladla görüşsə, Evlad: “Həqiqəti demişəm!” – deyir.
– Atanı tanıyırsanmı?
– Yox.
– Qardaşları tanıyırsanmı?
– Yox.
– Kimin sözünü danışırsan?
– ***Özümün.***
– Danışma!
– ***Həqiqətə qadağa yoxdur!***

*2 Arzu günü, Köçəri Ay, 8-ci il. Bakı.*

## AİLƏ GÜNÜ MƏRASİMİ

Birinci Ailə yaranan Günü – Ailə Günü sayılır – Mərasimləşir.

*3 Ümid günü, Köçəri Ay, 8-ci il. Bakı.*

## SAFRUHA

Mərasimlərə xüsusi Dəftər (Qovluq) həsr elə.

Mərasimlərin tarixini, gedişatını, qısa məzmununu yaz, qoru, sabahlaşdır.

*3 Ümid günü, Köçəri Ay, 8-ci il. Bakı.*

## DÜNYALAŞMAQ

Müqəddəs Kitablar, Kəlamlar, Hökmlər, Sənədlər 9-cu ildə rus dilinə tərcümə edilir, həmin il SSRİ ərazisinə və başqa ölkələrə yayılır.

***Çap işinə məsul***: Safruh, Sadiqim, Əsil.
***Yayılmaya məsul***: Sadiqim, Halal.

*4 Dözüm günü, Köçəri Ay, 8-ci il. Bakı.*

## EVLADIM QƏLBİYƏ

1

Evlad Ehtiramı pakdır!

Evlad müəssisəyə, kollektivə bağlanmaz, Amala bağlanar.

Evlad dar meydanda at sürməz, dar meydanda at sürməyi Evlad vüqarına sığışdırmaz.

Evlad müəssisədə, kollektivdə Ailə arayar, Ailə yaradar – Pünhan!

Şər Evladı sayar, Evlad Şəri saymaz.

2

Əsəb gərginliyinin dərmanı Fərəhdir.
Şər təzyiqinin qənimi İnamdır.
***Müdriklik duzu qat Cəsarət xörəyinə!***
***Dözüm duzu qat Səmimiyyət xörəyinə!***
***Ömrümüz – Amalımız qədərdir!***

### *3. Üsul*

Şərə qarşı Şər dəlilləri:
“Yenidənqurma” havasına oynamışam!
“Demokratizm” havasına oynamışam!
“Bütöv həqiqət” havasına oynamışam!
“Təzə təfəkkür” havasına oynamışam!
“İnsan amili” havasına oynamışam!
“Keçmişə qayıtmamaq” havasına oynamışam!
Şər yalanını Şərin başına çırp!
Ehtiraslarını münaqişələrə sərf etmə, döyüşlərə saxla!

Ürəyin qaranlıqları yarsın!
Daxilindəki Mütləq sənə yar olsun!

*14 Murad günü, Köçəri Ay, 8-ci il. Bakı.*

(Qeyd: Bu Qəlbinin həyatda adı İlham idi. Döndü).

## SAFRUHA

1

Evladım öz fikrini Ataya bildirməkdə səhv eləmir. Ancaq o, Atayla razılaşmamaqda səhv eləyir. Belə hallarda Evlad özünə yox, Ataya inanmalıdır: ***vaxt həmin İnamın düzgünlüyünü Mütləq göstərəcək!***

2

***Atayurdda doğan Amal Günəşi dünyanı işıqlandırmalıdır.***

Bunun üçün Müqəddəs Kitablar, Kəlamlar, Hökmlər, Sənədlər başqa dilə tərcümə olunmalıdır.

Şər dili yoxdur, Şər Ehkamı var, Quruluşu var, Siyasəti var, Zoru var.

***Evladım Ata Buyuruğuna Mütləq mənada əməl etməlidir!***

***Ata Sözü Mütləqdir!***

*15 İnam günü, Köçəri Ay, 8-ci il. Bakı.*

**SAFRUHA**

Mərasimi qələmə alırsan, ruhani tarix səviyyəsində.

Gələn görüşümüzdə Ataya Mərasimlərin Şərhini təqdim edirsən.

*27 Qismət günü, Köçəri Ay, 8-ci il. Bakı.*

**SAFRUHA SUALLAR**

1. Son hökmləri Evladlara oxudunmu?

– Şifahi çatdırmışam, oxumuşam da – burdakılara.

2. Bayrağımız bitirmi?

– Çalışırıq.

3. Ataya sorğunu nə vaxt, harada keçirirsiniz?

– Buyuruq Atanındır.

– Müqəddəs İl Mərasimində.

4. Mütləqiliyə xələl dəymir ki?

– Yox.

**SAFRUHA**

İntizam qırılsa, Amalın beli qırılar.

Müqəddəslik qarşısında xəcalətli olarıq.

Düzgün əyriliyini indi düzəltməsək, Övladlıq ləyaqəti əyilər...

Düzgün gəlməliydi, nəyin bahasına olursa-olsun!

***Gördüyü xeyirli işin, əməlin "əvəzini istəmək" bugünlüyünə tutulub Düzgün, çox zəhərli bir xəstəliyə...***

Anlamır ki, evladın sağ olması Amalın var olması deməkdir, fədakarlıq – adi halımızdır.

Hökmün bir üzünü mütləq Düzgünə çatdır, gəlsin Atanın yanına – tövbəyə...

***Atasız yaşaya bilirsə – gəlməsin!***

***Ata Sözü Mütləqdir!***

*16 Arzu günü, Günəş Ayı, 9-cu il. Bakı.*

## SAFRUHA, EVLADLARA

Atadan Ad almağa can atanlara İntizam Mütləqiliyini anladın, həkk etsinlər ömürlərinə.

*16 Arzu günü, Günəş Ayı, 9-cu il. Bakı.*

## SAFRUHA

Evlad Ehtiramı Pakdır!

Şərə qarşı çevrilmiş "İnsan Haqqı" leqal yazını 3 nüsxədə maşınkada çap elə.

Tarixi qoyma.

*21 Murad günü, Günəş Ayı, 9-cu il. Bakı.*

## SAFRUHA

Evlad ehtiramı pakdır!

1. Mərasimlər Dəftəri Düzəlt: Mərasimlərin məğzini, mənasını, gedişatını yaz, saxla, sabaha çatdır. Evladların çıxışlarını topla, Ata Sözünü hifz elə...

***Sabahkılar üçün heç nə İtməsin.***

Mərasimin Zahiri tərəfləri də həkk olunsun; maqnitofonla yanaşı, Dəftər də Amal Tarixini qorusun.

***2. Düzgünün gözlənilməz əyriliyi bağışlanmır.***

Nə cür olursa-olsun, Evlad Mərasimə can atmalıdır...

Mütləqiliyə ən cüzi dəqiqsizlik – Amalı əyə bilər. ***Bugünləşmək – ölümdür!***

***Ata yanına Nişanəylə gəlir Düzgün,*** tövbə səviyyəsindən asılı olaraq, Nişanə ya qaytarılır, ya da qaytarılmır, Düzgün evladlıqda qalır, ya da qalmır.

***Tövbə səviyyəsinə yüksəlməkdə kömək et Düzgünə...***

Mütləqilik – Evladların adi halıdır, bunu anlat.

Bir də Xalq məsələsini; Türk tarixli, Türk mədəniyyətli, Türk dilli Vahid Atayurd İdeyasını anlat. ***Bir də...***

***Dirilsə*** – Evladlıqda qalsın. ***Bir də heç vaxt ruhən ölməsin... Ölüm gözləməyək bir də Düzgündən!***

3. Bütövün xəstəliyinə qorxaqlıq mikrobu qarışmayıb ki?..

Sabah hamımız Ölümə getsək, həmin məqamda Bütövün ***birdən*** xəstəliyi tutmaz ki?

Bütöv özünü yaxşımı bilir – xəstəlikdimi doğrudan gəlməməyinin səbəbi?

“Xəstələnmək” adəti, mərasimə gəlməmək adəti – Xəyanətdir, bunu bilirmi?

Səbəbindən asılı olmayaraq, Düzgün də, Bütöv də Şərə gərək oldular Mərasim günü. Xəstə-xəstə gəlsəydi, Atanı narahat eləyərdi Bütöv, ancaq Fədakarlıq Ləyaqətinə yüksələrdi həm də...

Bilsinlər Atanın fikrini Mütləqiliyə ağ olanlar, Mütləqilikdən ayrılanlar.

***4. Ələyimiz yanımızda olmalıdır.***

Şər adamların sümüyünə işləyib, qoymur İnsanlaşsınlar...

***Bugünün havası canlarına hopub...***

Evlad Bugündən – onun hərcayi sərbəstliyindən, zülm və yalan bəlasından tam ayrılmalıdır...

5. Təzə hökmləri Evladlara oxu.

6. Qəlbiylə aylıq əlaqə, Bütöv vasitəsiylə Özümlüylə, Özümlü vasitəsiylə Düzgünlə aylıq əlaqə yarat...

***Amal gerçəkliyiylə bağlılıq Mütləqləşsin!***

7. Elə eləyin ki, Evinizdəki Yadlar Yağılaşmasın, "Koçeqarlaşmasın", heç olmasa yadlıqda dayansınlar.

8. Ruhun xidmətçisi olan Bədənə qayğı göstərin. İmkan daxilində dərmandan uzaq olun. O, bədəni zəhərləyir Mütləq.

***Öyrənin bədəninizi, onun imkanlarını və imkansızlıqlarını... nöqtəsinə, vergülünə qədər.***

Daxilindəki Mütləqdən Güc al!

*27 Qismət günü, Günəş Ayı, 9-cu il.*

**SAFRUHA**

Evlad Ehtiramı pakdır!

"İşığında" mənadan məhrum deyimlər yoxdur.

Amallı deyimləri seçdim yalnız.

Onları təqdim eləyərsən Evladlara, öyrənərlər, öyrədərlər, sabaha çatdırarlar.

Başqalarını kitabında çatdırarsan oxuculara, imkanın olsa, mətbuatın kütləvi növlərindən – jurnallardan, qəzetlərdən ***yetkincəsinə*** istifadə eləyərsən...

Girişin Ataya qədər hissəsində yazıçılıq etirafı, ənənəvi tərcümeyi-hallıq hiss olunur ki, onun əvəzinə "Zülmətdən – İşığa" ideyasının fərdi ifadəsi gərəkli olardı, çağırış olardı Yola, həm də Dərs!

***Həcmin kiçikliyi bizim ölçümüzdə kiçiklik deyil.***

***Yanğı söndürən bulaq suyu gərəkdir elə.***

***Ataya qədərki deyimlərdə*** Şər tam rədd edilmir, Ehkam Quruluşdan ayrılır, şər "peyğəmbərləri" günahsızlaşır, Amal baxımından yalan var onlarda – Şərə xidmət eləyən...

***Ürəyindən pozduğun yalanları kitabından pozmamısan***. Ürəyini bir də yoxla...

***Şəri yaradan Şər peyğəmbərləridir.***

***Müasir Şər onların kəlamları əsasında yaranıb!*** Bu – Amalın əlifbasıdır.

***Şər peyğəmbərlərinin ünvanına xeyirli söz şər əlifbasıyla yazıla bilər yalnız.***

Ümumən bir daha və həmişəlik bil və agah ol! Bizim Amaldan kənar xüsusi, azad, suveren yaradıcılığımız yoxdur, ola bilməz!

Bizim Amaldan kənar xüsusi, azad, suveren təsəvvürümüz, fikrimiz, ideyamız yoxdur, ola bilməz!

Ata Sözü, Amalı, Kəlamları, Hökmləri Mütləqdir – ***hamımız üçün!***

***Müstəqilliyimiz – Amala bağlılığımızdır, ondan başqa müstəqilliyimiz yoxdur...***

Bugünün Şərqi və Qərbi hərcayiliyindən, ***yekəbaşlı sərbəstlik heyvərəliyindən*** Yerdən Göyə qədər uzaq olmalıdır Evladlar.

***Özümüzü Amala fəda eləmişik, müstəqilliyimizi könüllü surətdə Amala bəxş eləmişik.***

***Fədailikdən başqa müstəqilliyimiz yoxdur.***

***Amaldan kənara çıxmaq – heç olmaqdır Evlad üçün.***

"İşığını" gücləndir. Qaranlığı yarsın.

Bir səmtə yay işığı... Parçalama, paralama, səpələmə hər tərəfə: qaranlığa qarşı getsin işıq – inadlı, ardıcıl, daimi.

Fikirlərin bəzilərini ağır deyirsən: təbli gəlməlidir indən sonra deyimlərin, çünki yetkinlik çağındasan.

Daxilindəki Mütləq sənə yar olsun!
Ürəyin qaranlıqları yarsın!

Seçdiyim Deyimlər Atanın Oxlarıdır – şərə tuşlanan, Xeyirə gərəkli, Amala Tən.

"Ata İşığında" kitabının təzə çeşidinin birini Ata üçün xüsusi hazırla.

*10 Qismət günü, Çiçək Ayı, 9-cu il. Bakı.*

**SAFRUHA**

Evlad ehtiramı pakdır!

1. Od Ayındakı Yazı Mərasiminə hazırlaşın.

2. Təzə Evladları Ata Gününə qədər Adlanmaya yüksəldin, Nişanəyə hazırlayın.

3. Təzə Kəlamları, Mənaları yaz, İlimiz başa çatanda cilidlə.

4. Səfərə çıx – Nur apar, Uğur gətir.

5. Daxili aləm xəritəsində bilmədiyin, tanımadığın yer qalmasın. Əsas etibariylə Atayla Mütləq Tənlik – yəni Atanı ***hər an*** Mütləq Mənada anlamaq Yüksəkliyi zəbt olunmalıdır, onda Özümlüyün Mütləqləşər.

6. Bayram Mərasimi Kəlamını Evladlara çatdır, indidən Əməllərinə həkk eləsinlər.

7. Düzgünün Tövbəsinə gərək ol, öyrət qaydanı, ***Tövbə Mütləq olmalıdır,*** Düzgün Atanın ayağının altına düşmək səviyyəsinə Qalxmalıdır.

8. Ata Günündə Təzə Evladlarla bərabər, ***Düzgün*** (Tövbədən çıxsa) və ***Bütöv*** Bayraq Andı içəcəklər.

9. "Ata İşığında" Deyimlərinin üzərində kamilləşmə işinə Səyini əsirgəmə.

***10. Müqəddəs Pünhanlıq səviyyəsinə çat:***
***Yəni yalnız Yetkin Söz deyilir, yalnız Yetkin fikir izhar olunur, yalnız Yetkin əməl həyata keçirilir.***
***Ələk əlinizin altında...***

11. Bir də xatırla, nəzərdən keçir: Atanın hansı Hökmünə tam əməl olunmayıb, hansı Kəlamı öyrənilməyib – Günah olubsa, onu Ruhunla yu, çünki Atalıların Adlarından biri də Günahsızdır.

12. “Ruhani Cəmiyyət” Kəlamını birlikdə öyrənin, Evladlar yazsınlar, həkk eləsinlər əməllərinə.

Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*24 Qismət günü, Çiçək Ayı, 9-cu il. Bakı.*

**EVLADIM BİLƏNƏ**

Bil ki, Şər Zülmətini Ruh İşığı Yaracaq.
Bil ki, Ehkam yalanını Ruh Həqiqəti Pozacaq.
Bil ki, Zor Boyunduruğunu Ruh gücü sındıracaq.
Bil ki, Dünyada, Həyatda, İnsanda Mütləq Var – Mütləq İnama layiq.
Bil ki, İnsan Mütləq olur – Özünə çatanda, Özüylə Döyüşəndə, Özümləşəndə.
Bil ki, Müstəqil Atayurd yaranacaq Amalımızdan, Əməlimizdən.
Bil ki, Ruhani cəmiyyət yaranacaq Amalımızdan, Əməlimizdən.
Bil ki, Ləyaqətli Şərq yaranacaq Amalımızdan, Əməlimizdən.
Bil ki, İnamlı Bəşər yaranacaq Amalımızdan, Əməlimizdən.
Bil ki, Bugündə Şərdən başqa heç nə yoxdur!
Bil ki, Şər Gücündə Qüdrət yoxdur!

Bil ki, İnamla, İdrakla, Mənəviyyatla, İradəylə Yaraqlanan Zoru əyəcək, əyməlidir!
Bil ki, Bənzərsizlik, Əlçatmazlıq, Müstəqillik Binası tikilib.
Bil ki, Ruhani Ailə meydanından Geniş Meydan yoxdur.
Bil ki, Amal toxumundan Sabah haqqı bitəcək.
Bil ki, Evlad nöqsan tanımır, Zəiflik tanımır, Qətiyyətsizliyə Yağıdır.
Bil ki, Evlad Ata Mütləqiliyinə Səcdəsində Mütləqdir.
Bil ki, Evladın Amaldan başqa həyatı yoxdur.
Sabahdan başqa Bugünü yoxdur!

Amallaşırsan, Müqəddəs Kitabları ömrünə həkk eləyirsən, özünlə döyüşürsən, Kamilləşirsən, Ailələşirsən, Ataya Evlad hazırlayırsan, Xalqı Ata Amalına çağırırsan, Şərdən İmtina Məqamına Ucaldırsan!

Bilən olursan!
***Bilən*** adını sənə halal eləyirəm.

*25 Murad günü, Çiçək Ayı, 9-cu il. Bakı.*

(Qeyd: Bu Bilənin adı Aslandır. Döndü).

## SAFRUHA

***I. Düzgünün tövbəsi haqqında.***
Tövbəsini müfəssəl yazır.
Atayurd haqqında Ata Kəlamını bir də oxuyur.
Ata hüzuruna Nişanəylə gəlsin, Nişanəni Ataya təhvil versin, Tövbə Səcdəsinə yüksəlsin – Qəlbi kimi.
Amalın Bənzərsizliyini, Əlçatmazlığını, Müqəddəsliyini tam dərk etsin.
Özünü Bilsin. Evladlıq Yükünü çəkə bilməyəcəksə, heç çiyninə götürməsin.

Kəmiyyət ölçüsü bizdə Keyfiyyət ölçüsünün davamıdır.
Axşam saat 10-da ***İnamla*** Tövbəyə gəlsin.

II. "Mənalar"ı yazmağı Ata Safruha tapşırıb, Qəlbiyə tapşırmayıb. Mütləqiliyi pozmayın. Bugünün hərcayi sərbəstliyiylə murdarlamayın özünüzü. ***Ata sözü hər nöqtəsiylə, vergülüylə Mütləqdir.***

III. Müqəddəs Kitabların yazılması məqamı yaxınlaşır.
Girişinə bir də bax, kamilləşdir, yetkin çeşidi Əsildən göndər baxım!
Gələn ayın 15-nə qədər hazırlıq işi başa çatır, Ataya çatdırılır nəticə...

IV. İlimizin əvvəlindən bu günə qədər olan Amal Hadisələrinin hamısını xüsusi dəftərə yaz, tarixi sənəd dəqiqliyi, dürüstlüyüylə. Hazır olanda Ataya göndər.

V. Bilənlə Ata Gününə qədər ciddi işləmək gərəkdir. Amalla hərəkatların Fərqini öyrənsin...

VI. Kürdlərdən Yağı hazırlayırlar.
Tatlardan Yağı hazırlayırlar.
Ləzgilərdən Yağı hazırlayırlar.
Lahıclardan Yağı hazırlayırlar.
Talışlardan Yağı hazırlayırlar...

Kürdlərdən Evlad hazırlamalıyıq.
Tatlardan Evlad hazırlamalıyıq. (***Sadiqim – fitrən atayurdludur, tat mənşəyi onda yadlığa çəkmir!)***
Ləzgilərdən Evlad hazırlamalıyıq.
Lahıclardan Evlad hazırlamalıyıq.
Talışlardan Evlad hazırlamalıyıq.
***Yağılığı Evladlıqla öldürməliyik.***
VII. Qəlbi Evlad gətirməlidir, Ailə yaratmalıdır Ata Günü üçün.

VIII. Səfər üçün də vaxt tapmalısan, Ailə yaradıcılığı üçün də vaxt tapmalısan, Atanın gündəlik tapşırıqları üçün də vaxt tapmalısan – çünki Amalçısan, həyatçı deyilsən!

Daxilindəki Mütləq sənə arxadır!

*17 Arzu günü, İşıq Ayı, 9-cu il. Bakı.*

## SAFRUHA

1. Yazı Məqamı gəlir – Müqəddəsliyiylə!..

2. Ata Safruhu seçdi, Safruh – Bütövü, "Bütöv" – yarı...

3. Ailə yaratmaq lazımdır, Səfərə getmək lazımdır, zülməti yarmaq məqamı çatmalıdır 9-cu ilimizdə.

4. Mərasimlərə aid Hökmləri, Kəlamları seç, göndər Əsildən Ataya... Bir də baxsın.

5. ***Düzgünə*** anlat ki, Amalımız hərcayiliyə qarşıdır. ***Ruhani İntizam – Müqəddəslik Tərzidir.*** Sözü Əməldən ayırmaq – Müqəddəsliyə yad olmaqdır.

Asifçilik – Qeyri-adi Yükdür, onu çəkməyə Qeyri-adi çiyin gərək. Özünü yoxlasın, tanısın, ***aldatmasın.***

6. Evladların hamısının tapşırığı var, ***9-cu ilimiz 10-cu ilimizi hazırlamalıdır.***

***7. Yüz Evlad Ataya bəsdir ki, İmtina İntibahına başlasın!***

8. Əsil texnikumu Ataya qurban verdi.

Qyrban verməyi bacarır Əsil. İstəməzdim, özü istədi. Mütləqə tapşırıram Evladımı – daxilindəkinə!

*29 Qismət günü, İşıq Ayı, 9-cu il. Bakı.*

## SAFRUHA

1. Düzgünü görüşə çağırmırsan, özü gələndə Nişanəni, Müqəddəs Yazıları qaytarır.

Atayla görüşmür, Ata Gününə dəvət olunmur, Evladlıqdan çıxır.

2. Özümlüdən qeyri cənub yoxdur əslində. Bilənin ürəyində, ağlında iynənin ucu boyda şübhə varsa, Evladlığa çağırılmır. Kəlamı qaytarır.

3. Amaldan ayrı yaşaya bilənlərsiz – Amal gözəl yaşaya bilər.

***Keyfiyyət ölçüsü şərtdir Amalda – kəmiyyət keyfiyyətə tabedir bizdə.***

4. Evladlıq yoluna qədəm qoyanlara Mütləqilik Qanunu öyrətmək gərək – birdəfəlik, ciddi, tələbkar.

***Dönüklükdən başqa ölüm tanımır Evlad.***

*9 Ümid günü, Şölə Ayı, 9-cu il. Bakı.*

## HALALA

1. Yazı Mərasimi gəlir qabaqdan. Borcunu ver. Qardaşlarınla görüş. Əməlini öyrən. Həyata keçir.

2. Səfər ili olmalıdır Mütləq 9-cu ilimiz.

Mütləqilik pozulmasın. Söz əməldən ayrılmasın.

3. Təzə Hökmlər, Mərasimlər, Kəlamlar var Amalımızda, Onları Safruhdan istə, öyrən, ömrünə həkk eləməyə başla.

4. ***Özünü tam tanı, tam dəyişdir***, Şər səndən sarsılsın, sən Şərdən ani də olsa sarsılma.

5. Qardaşlarla əlaqəni sıxlaşdır, azı Ayda bir dəfə görüşün, bir-birinizə hesabat verin.

6. "Amaldan başqa həyat yoxdur!" müqəddəsliyinə sadiq ol, Şəxsi Həyat Amalı üstələməsin; bu, Evladlığın Süqutu olardı.

***Ataya Səcdən Müqəddəs özünütəsdiqindir.***

Ürəyin qaranlıqları yarsın!

*15 Şölə Ayı, 9-cu il. Bakı.*

## SAFRUHA

Evlad Ehtiramı pakdır!

1. Müqəddəs Bayramımızda, Müqəddəs Kəlamlarla Təqdim olunan Müqəddəs Nişanələrin birini qaytardılar, o birini özümüz qaytardıq. Murdarlanan Müqəddəslik həqarəti Şəri fərəhləndirərdi...

Ata Evlad hazırlamaq imkanına hələlik malik deyil, kal meyvə dəririk, Zirvəyə çağırırıq – Dərənin dibinə düşürlər, Böyüklüyə çağırırıq – Kiçilirlər, Təhlükənin kölgəsindən qorxurlar, inamsızlıq dərdi deyil dərdləri – qorxaqlıqdır – özlərindən gizlədirlər.

2. Evlad olmaq istəyənlərə ən əvvəl "Mənalar"ın hamısını – son kəlamlarına qədər, "Ruhani Hökmlər"i, "Sədaqət"i öyrətmək lazımdır. Bənzərsizliyimiz, əlçatmazlığımız, Müstəqilliyimiz tam dərk olunmalıdır. Bilik əsasında Evladlığa layiqlər seçilir, Ata görüşünə hazırlanır.

3. Gələn ayın 7-də Yazı Mərasimi başlayır. Ayın 6-da Əsil Safruhun Girişini yazır.

Girişə Atanın Amal yaratması, Təqibi, Sonrakılar haqqında Üç cümlə əlavə eləyirsən.

4. Yazı Mərasiminə qədər Atanın təzə "Hökmlər"ini, "Sədaqət"ini, "Mənalar"ını və s. bir yerə toplayırsan – Yazı üçün.

5. Ev pulu dəftərçəsini Əsildən al, özün məşğul ol, Safruh dəqiqliyi lazımdır:

***Şər çibini fikrimi ani də olsa yayındırmasın.***

6. Safruh birinci və sonuncu dəfə Ata Buyuruğunu unutdu: ***Azərbaycan nağıllarını Ataya gətirmədi.***

Bu dəfə dəqiq olmalıdır: B.Vahabzadə, H.Arif, M.Araz, C.Novruz, M.İsmayıl, N.Kəsəmənli, S.Rüstəmxanlı, R.Rövşən, N.Həsənzadə, S.Sərxanlı, M.İskəndərzadə, S.Rüstəm, E.Baxış, A.Zeynallı və s. son kitabları Ataya lazımdır, yazılı şəkildə fikrimi bildirməliyəm İttifaqa.

7. "Səfər ili olacaq 9-cu ilimiz!" – bu Hökm Mütləqdir – Ata Sözüdür!

Ürəyin qaranlıqları yarsın!

*26 Qismət günü, Şölə Ayı, 9-cu il. Bakı.*

**HALALA**

Evlad Ehtiramı pakdır!
1. Müqəddəs Kitablar yazılır.
Qardaşlarla birgə Mərasimə yara.

2. Ata Günü Mərasimi gəlir.
Qardaşlarla birgə Mərasimə yara.

*15 Od Ayı, 9-cu il. Bakı.*

## SADİQİMƏ

Evlad Ehtiramı pakdır!

1. Ata Şərin qılıncı altında Xeyir üçün çalışmaqdan xüsusi zövq alır.

***2. Mütləqiliyin pozulmasından böyük Təhlükəmiz yoxdur.***

3. Sadiqimin Qayğısını və Anlağını bəyənirəm.

4. Müqəddəs Kitablar: Od Ayında yazılacaq, Əsilin evində.

***5. Evladlar Ata Sözünün Mütləqiliyini Qoruyacaqlar daim!..***

Ürəyin qaranlıqları yarsın!

*19 İnam günü, Od Ayı, 9-cu il. Bakı.*

## MÜQƏDDƏS YAZI ƏMƏLİ

1. Müqəddəs Kitablar Xeyirin ömrünə, Şərin ölümünə yazıldı.

Safruhun Yetkin Sözü, Dəyanətli İşi Təqdir olunur.
Sadiqimin Yüksək, Zəruri Ruhani Yararlığı Təqdir olunur.
Əsilin fədakar, həssas, İnadkar Təşkilatçılığı Təqdir olunur.

***2. Nisbiləşmə:***
***Tərəddüdlər, Əhval Dəyişkənliyi, Vaxt Dəqiqsizliyi.***

3. Dərs: ***Mütləqi qoruma.***

Qaranlıqlar yarılır!
Mütləq Ürəklərə Yar olur!

*31 Qismət günü, Od Ayı, 9-cu il. Bakı.*

## SAFRUHA

Evlad Ehtiramı Pakdır!

1. Evlad Nişanəsinin Müqəddəs Ləyaqəti naminə – Tələbi artırmaq, azaltmamaq.

Builki Ata Bayramında Adlanma Mərasimi keçirməmək.

2. Özümlüdən başqa cənubdakılar ***Talışçılıq məhdudiyyətindən*** çıxa bilmirlər.

İçərimizə potensial Yağı gətirməyək.

3. Ləyaqətsiz Təhlükə yaratmamaq: Rəssamın Borcunu ödəmək, Əlinin Səhvini qaytarmaq.

***4. Rəğbətçilər səviyyəsi yaranmalıdır Ətrafımızda***. Ata Yükünə Hörmət eləyənlər, Evladlığa çatmayanlar.

5. Qəlbi və Özümlü Əməldə Qardaşlarına Borcludurlar. Atanın Adından onlarla danış: Ata Bayramında nədən hesabat verəcəklər? Nə vaxta qədər maddi Borc Qanununu pozacaqlar? Bəlkə Ataya Evlad olmağı bacarmırlar?..

6. Evladlar Ata Hökmlərinin hamısına riayət eləmirlər. Ataya Ricalar heç səslənməyib də...

Təzədən Hökmlərə qayıtmaq və onlara Mütləq riayət etmək...

7. Səfərə Ata Sözü – Səsi seçirsiniz. Şeir, “Mənalar”dan, başqa Kitabçalardan, Kəlamlardan, “Yol”dan, “Mütləqilik”dən, digər Kitablardan parçalar aparırsınız özünüzlə. Səfəri onlarla başa çatdırırsınız. Xalqı tək-tək, yaxud cəm halında Ata İnamına Səsləyirsiniz, Ata Haqqında Zəruri Söz söyləyirsiniz. Seçiləni Ata hüzuruna hazırlayırsınız.

8. Atalıqla ilk tanışlıq “Mənalar”dan başlansın. ***Safruh*** Ruhani oxuma Əməli yaratsın. Müəyyən vaxt Sabahsevər Müqəddəsatı oxuyur, öyrənir Safruhun köməyiylə.

9. Safruhun Yetkin və Qanadlı Girişində “Müqəddəs Kitablar” Sözü olmadı, ancaq olmalıydı...

***10. Safruhum daxili dünyasını yoxlasın:***

Ata vəhdətindən kənarda ***suverenlik bugünlüyü*** aramağın səbəbi nədir?

“Ata Sözü Mütləqdir!” Tələbindəki Müqəddəs Qəlbin hökmü deyilmi?

Atayla Ruhani Tamlıq Bənzərsiz, Əlçatmaz Müstəqillik deyilmi?

Mütləqçinin Mütləq İnamdan böyük Müstəqilliyi varmı?

11. Ata haqqında Müqəddəs Bayram Sözü aşağıdakı şəkildə Tarixləşsin:

1) Ata İnamı, İdrakı, Mənəviyyatı, İradəsi. Faktlar, hadisələr əsasında.

2) Ata Qədimliyi, ***Antibugünlüyü.***

***3) Ata Sabahı.***

4) Ata və Evlad.

5) Evlad Qəlbində Ata Surəti.

***Söz yazılır, Qalır.***

6) Ata Bayramında Ata Sözü – Səsi Eşidilir: Başlanğıcda, Sonda, Mərasimlərarası məsafələrdə.

Ürəyin Qaranlıqları Yarsın!

Daxilindəki Mütləq Sənə Yar olsun!

*31 Qismət günü, Od Ayı, 9-cu il. Bakı.*

## MÜQƏDDƏS "ATA GÜNÜ" BAYRAMI HAQQINDA

## EVLADLARA

1. Bayramda Ata Sözü – Səsi dinlənilir.
Başda, Gedişatda, Sonda. ***5 dəfə.***

2. Ata Sözü – Səsi Yazılışı Safruha, Sadiqimə, Əsilə tapşırılır. Qürub Ayının son günündə Ata hüzuruna gətirilir.

3. Ata haqqında Evlad Sözü aşağıdakı şəkildə tarixləşir:
Ata İnamı, İdrakı, Mənəviyyatı, İradəsi (Faktlar, Hadisələr əsasında).
Ata Qədimliyi, Antibugünlüyü. (Müqayisələr, Fərqlər).
Ata Sabahı.
Ata və Evlad.
Evlad Qəlbində Ata surəti. Söz Yazılır, Qalır.

4. Ata haqqında Evlad Sözləri Ataya Ricalarla qurtarır.

*31 Qismət günü, Od Ayı, 9-cu il. Bakı.*

## SƏFƏR ƏHVALI

Evlad Əhvalını Səfərə Özüylə aparır.
Səfərdən Əhval diləmir.

*31 Qismət günü, Od Ayı, 9-cu il. Bakı.*

## SADİQİMƏ

1. Ata Gününə Yüksəl!

2. Şərə Yağı olduğumuz dərəcədə Rəhmliyik!

*1 Murad günü, Qürub Ayı, 9-cu il. Bakı.*

## MÜQƏDDƏS ATAYA
## EVLADI QƏLBİNİN SÖZÜ

Ata, 9 il əvvəl sizin ruhani varlığınıza tapındım, sizə qovuşdum. 12 il əvvəl sizin yanar zəkanızın vurğunu oldum. Sizin Ocaq dünyanız ruhani dünyam oldu. Ocaq yolunda, Amal uğrunda döyüşlərə qoşuldum. Həyatımdan, məişətimdən keçməyə belə razı oldum. Əvəzində ülvi, təmiz, saf bir mənəviyyat qazandım. Ata Amalını Amalım sandım. Ata qanunları ruhani qanunlarım oldu. Kamilliyə, insanlaşmaya doğru uzanan bir yola üz tutdum. Bu yolda Atanı özümə bələdçi seçdim. Ocaq, Ata, Amal mənə çox şey verdi. Amal qarşısındakı xidmətlərim isə cüzi oldu. Etiraf edim ki, bəzi hallarda məişət, ailə başımı qarışdırdı. Ata və Amal Evladları ilə əlaqəm zəiflədi. Amma bütün bunlar mənim ruhani dünyamı, Amallı mənəviyyatımı, müqəddəs hisslərimi azalda bilmədi.

Mən mənəvi dünya qazandım. Əvəzində maddi çətinlik çəkdim, Texnikumda qəbul imtahanları götürdüyüm beş il müddətində başıma pul səpirdilər. Mən isə bu pul yağışından yalnız mənəvi təmizlik xəzinəsi götürdüm. Bunun üçün Ataya, Amala minnətdaram.

Bu gün mən çox ciddi maddi böhran keçirirəm. Ailəmi, körpələrimi saxlamaq üçün bəzən boşalmış limonad şüşələrini təhvil verirəm. Mənəviyyatı çox aşağı olan adamlardan borc alıram. Gözlərimin qarşısında ağır xəstə olan balamı sağaltmaq üçün dərman pulu tapmıram. Rəngləri sap-sarı saralmış körpələrim meyvə yemək istədikdə "sabah alacağam" deyib onları həmişə aldadıram. Yoldaşım cırıq paltarla işə gedərkən yad kişilərin baxışı altında əriyirəm. Bütün bunlara ürək ağrısı ilə dözürəm. Nə vaxtsa düzələr ümidi ilə özümə təsəlli verirəm.

Nəhayət, Amal, Ocaq, Ata məndən müqəddəs işimiz üçün maddi borc hökmünü tələb edərkən sıxılıram. Onsuz da ac qalan balalarımın boğazından kəsib, Ocağın boğazına tökməyə çalışıram.

Ocaq üçün pul qazanmağa çalışıram. Öz mənəviyyatım əleyhinə gedərək, ömrüm boyu etmədiyim, bir vaxtlar özümün rədd etdiyim pul alverinə girişirəm. Nəhayət, bu işdə ilişirəm və 6500 manat ziyana düşürəm. Ya bu pulu (rüşvəti) verdiyim adamdan geri almalıyam, ya da dövlət orqanlarına xəbər verib özüm də cinayətkar kimi cəza almalıyam. Bu məbləğdən Ocaq üçün 500 manat pul əldə etməli idim. Əvəzində isə çox çətin bir vəziyyətə düşdüm. Ailəmin nişan üzüyünü və başqa bir üzüyü girov qoydum. Bütün bunlar da ilişdiyim işə kömək etmədi. Bu vəziyyətdə çapalamağa başladım.

Bu vəziyyət mənim sağlamlığıma da çox pis təsir göstərir. Ancaq bunların hamısına bəlkə də tab gətirmək olardı. Əgər Atanın mənə qarşı ittihamı olmasaydı.

Ata məni ittiham edir. Mən Ocağın maddi borcunu ödəyə bilmirəm. Deməli, Ocaq qanunlarının, Evladlıq borclarının ən əsasını yerinə yetirə bilmirəm. Mən imkansız olduğuma görə, maddi böhranda batdığıma görə ittiham olunuram. Ocağa layiq Evlad olmağım şübhə doğurur. Mənə olan etimad, etibar şübhə altına alınır. Bu mənim üçün ən böyük ölümə bərabərdir.

Əgər maddi imkansızlığım mənim qəbahətimdirsə, bu qəbahəti özüm üçün ən böyük şərəf sayıram.

Ata! Mənim həyatım üçün, mənəviyyatım üçün nə etmisinizsə, bunun üçün Sizə minnətdaram! Hökm Sizindir!

Əgər mənə qarşı şübhələriniz varsa, etibarınızı, etimadınızı doğrultmamışamsa, verəcəyiniz cəzaya dözməyə hazıram. Cəzam Evladlıqdan azad edilməkdir. Bilirəm, ağır cəzadır. Mənim üçün ən ağır cismani cəzadan da ağırdır. Lakin yenə də hökm Sizindir. Bircə onu deyə bilərəm ki, əgər ötən bu 12 ildə mən bu cür qiymətə layiq olmuşamsa, deməli, mənim 12 ilim röyalar, xəyallar ili olmuşdur. Mən bu xəyallar üçün də Sizə minnətdaram.

*Müqəddəs Ataya səcdə ilə:*
*Qəlbi.*
*10 Arzu günü, Qürub Ayı, 9-cu il. Bakı.*

## ATANIN CAVABI

Qəlbiyə qarşı Şübhə yoxdur.

Qəlbiyə qarşı Tələb var.

Şərlə döyüşümüzdə Tələb Mütləqləşməyə bilməz...

Əgər Amalsız yaşaya bilərsənsə – Yaşa.

***Əgər Amalsız yaşaya bilməzsənsə – Tələbə yüksəl...***

Maddiyyat – bizdə Ruhani Borcdur.

Maddiyyata görə Amaldan ayrılmırsan, ***Ruhaniyyata görə Maddiyyatı ödəyirsən...***

İmkan daxilində, lap cüzi miqdarda – intizam naminə...

Ata Qəlbini Amaldan çıxarmır, Ata Qəlbini İntizama çağırır, Mütləq səviyyəli İntizama.

Əgər Qəlbi buna çata bilmirsə, onda Amaldan özü könüllü ayrıla bilər.

Ata Qəlbini Evladlıqdan çıxarmır, ancaq Qəlbinin Evladlıqda qalıb-qalmamaq müstəqilliyi var...

Çətinliyimiz – Fərəhimizdir...

Ata ittihamı – Amal Dərsidir!

*9-cu il, Qürub Ayının 2-ci ongünü.*
*Bakı.*

## QƏLBİ ÜÇÜN

1. Səfərə çıxmaq, Ailə qurmaq, Ataya Evlad gətirmək vaxtıdır.

***Qala tikilib, Yol çəkilib – Əməl məqamıdır.***

2. Ata Sözünü – Səsini Qardaşlardan almaq, xalqa çatdırmaq, Müqəddəs Kitabları Atayurda dən-dən səpmək vədəsi çatıb.

3. Əvvəl Amal, sonra güzəran, müəssisə, diplom. ***(Evladlığın əzəli Qanunu!)***

4. Ən azı Ayda bir dəfə Qardaşlarla görüşmək, Ataya Aylıq Məlumat təqdim etmək.

5. Maddi Borcu Qətiyyətlə ödəmək lazımdır, ***Ruhani Ləyaqət naminə.***

***6. Ata Gününə hesabatın yoxdur.*** Bayramda bunu etiraf edirsən. Günahını boynuna alırsan, Atadan Qüdrət diləyirsən, Ata Ülviyyətinə sığınırsan. ***Görəcəyindən danışırsan – dəqiq, yəqin, vaxtlı.***

7. Ata Qəlbini Evladlıqdan çıxarıb Rəğbətçi səviyyəsinə endirmək istəmir, ancaq Yarımevladlığı da ona yaraşdırmır.

*12 Dözüm günü, Qürub Ayı, 9-cu il. Bakı.*

## MÜQƏDDƏS ATAYA QƏLBİNİN SÖZÜ

Amaldan ayrılmaq mənim ölümümdür. Mənəvi ölümüm. Heç vaxt könüllü olaraq Amaldan ayrılmaq – ölmək istəmərəm. Ata ittihamını özüm üçün tənbeh yox, doğrudan da Amal Dərsi hesab edirəm. Maddi borcumu ödəyəcəyəm. Nə yolla olursa-olsun. Ata, izn verin sizə öz etirazımı bildirim ki, maddi borcumu ödəyə bilmədiyim vaxtlarda mən heç də ruhani ləyaqətimi itirməmişəm.

Tələbinizdə haqq görürəm. İttihamınızda mənə doğmalıq görürəm. Amma əvvəlki yazının axırıncı, 7-ci bəndində "Ata Qəlbini Evladlıqdan çıxarıb" hökmü ürəyimi parçalayıb. Doğrudan da mən Evladlıqdan çıxarılmışam?!

Özümü doğrultmaq üçün Amalın bütün tapşırıqlarını yerinə yetirməyə hazıram.

Səfər Ayında Mütləq səfərə çıxacağam. Ataya Evlad gətirmək borcu da mənim üçün vəzifə olaraq qalmır. Bunun üçün hər vaxt çalışıram. Amala rəğbətçilər tapmışam. Amma hələlik onları Evlad səviyyəsində görə bilmirəm.

Qardaşlarımla əlaqəni həmişə saxlayıram.

Bu əlaqəni daha da möhkəmlədəcəyəm.

Döyüşə hazıram.

Evladlıq qanunları mənim mənəvi həyatımın əsasını təşkil edir.

Ata var olsun! Ürəyimdə Ata Günəşi gəzdirirəm!

*12 Dözüm günü, Qürub Ayı, 9-cu il. Bakı.*

## HALALA

Evlad ehtiramı pakdır!

1. Ata Gününə Ata haqqında Söz hazırla.
***Qaydanı Safruhdan al.***

2. Ata Gününə hesabatın səviyyəsiz olsa, onu hesabat sayma, “Ata qarşısında hesabata layiq iş görməmişəm!” de, ***görəcəyindən danış.***

3. Qardaşlarınla birgə Ata Gününə yara.

*15 Murad günü, Qürub Ayı, 9-cu il. Bakı.*

## RUHANİ ÖLÜM

1. Ata Hökmünə, Buyuruğuna cüzi tərəddüd – Ruhani ölümdür.
2. Ataya qarşı Şər Fəndlərinə cüzi etina – Ruhani ölümdür.

3. Ata ölüm buyursa – Evlad onu Qətiyyətlə qəbul edir, etməsə – ruhən ölür.

*16 İnam günü, Qürub Ayı, 9-cu il. Bakı.*

## MÜQƏDDƏS HESABAT ÜLVİYYƏTİ

Ata Gününə layiq əməl olmadıqda hesabat verilmir, Evlad "Müqəddəs Bayrama layiq əməlim yoxdur" – deyir, Atadan Bağışlanmaq diləyir, ***Görəcəyindən*** danışır, Ataya əməl Əhd edir.

*16 İnam günü, Qürub Ayı, 9-cu il. Bakı.*

Mən getdim Ağstafaya – atam rəhmətə gedib.

*Qürub Ayının 3-cü ongünü.*
*9-cu il.*

## 9-cu İL ATA GÜNÜ BAYRAMI

***1. Başlanğıc.***

Amal çağırışı, Ata gəlişi haqqında Söz, ***Birinci Ata Səsi – Kəlamları.***

***2. Davam***: Ata haqqında Evlad sözü. Sözdən sonra Ata Səsi – kəlamları.

***3. Ata sözü***. Sözdən sonra Ata Səsi – kəlamları.

***4. Sorğu***. Sorğudan sonra Ata Səsi – kəlamları.

***5. Gedişat***. Evladlar Atanı məşəllə qarşılayır, Ata Sözünü Ayaq üstə dinləyirlər.

Yazılı çağırışlar –
"Mütləqə İnam – Mütləq İnam!"
"Xalqımız – Müqəddəs Haqqımız!"
"Atayurd – Müqəddəs Sabahımız!"
"Kamil İnsan – Ruhani cəmiyyət – Müstəqil Vətən!"
"Atamız – Mütləqimiz, Müqəddəsimiz, Peyğəmbərimiz!"
"Sönməz Ocağıq – Dönməz Yolçu!"
"Səfər üstəyik – Ailə axtarışında!"

***6. Bayram Evi:***
Bayrağımızla, Ata rəsmiylə Göyləşən Sadiqimgil.

***7. Vaxt:*** Gündüz saat 1.
***Tarixləşmə:*** Müqəddəs Bayram yazılır, təhlil olunur.

*3 Mərhəm günü, Ata Ayı, 9-cu il. Bakı.*

## ÖZÜMLÜYƏ

Evlad Ehtiramı pakdır!

1. "Əməl", "Müqəddəs Əməl" əsasında təzə Ailə yarat – ***talışçılıq məhdudiyyətindən uzaq.***

2. "Mənalar" kitabçasını xüsusi öyrən.

3. Xalqın Atalığa qovuşması üçün imkanlar artır. Ondan bəhrələnmək gərək.
4. Şərlə görüşdə "demokratikləşmə", "aşkarlıq" oyununu Şərin başına çırpmaq, Şəri öz yarağıyla sarsıtmaq.
5. Bakıyla təması qaydaya salmaq, heç olmasa iki ayda bir dəfə zəng eləmək.
6. Özüylə daim döyüşmək. Nöqsansızlaşmaq, Kamilləşmək.
7. Yazılarını Amallaşdırmaq, Ata İnamına yüksəltmək.
8. İntizama Mütləq mənada riayət etmək.
Borcları Mütləq mənada ödəmək.

Ürəyin Qaranlıqları Yarsın!

Daxilindəki Mütləq sənə Yar olsun!

*5 Ata Ayı, 9-cu il.*

## HALALA

Evlad Ehtiramı pakdır!

1. Bayrama Yar ol. Əməl göstər.

2. Ata haqqında Evlad Sözünü Yetir.

3. Səfərə hazırlaş: Daxilən, Aşkar, Yol Üstündə.

Mütləqdən Güc al, Qaranlıqlar Yarılsın!

*15 Ata Ayı, 9-cu il.*

## SAFRUHUMA

1. Edilya xanım və s. gərək deyil...

2. Suallara çatdır camaatı, suallara cavabda sına özünü, camaatı.

3. Öz bədiyyatından daha çox istifadə elə, Qaçaya ehtiyac görmürəm.
Hər şey özümüzdən.

4. Musiqi sehrindən istifadə et.
***Camaatı böyütmək gərək, Böyümək gərək.***
O həm körpəmizdir bizim, həm də biz onun körpəsiyik...

Fərəhli Məqamdır Səfərin!
Fərəh gətir Ataya.

*9 Xəzan Ayı, Qismət günü, 9-cu il. Bakı.*

## HALALA

1. Səfər Əməlinə hazırlaş. Məkanı, vaxtı müəyyənləşdir, Ata Səsindən – Sözündən bəhrələn, Əməlinin Yönünü, İfadəsini Yaz, Ataya göstər, Ata xeyir-duasına Yüksəl, Yola düş.

2. Sərt Ayın 27-si Səfər Günümüzdür. Ona hazırlaş, çalış Əli dolu gəl bayramımıza.

3. Özünlə döyüşdə qələbələrin mütləq olsun, Kamillik səviyyəsi yaransın İnamında, İdrakında, Mənəviyyatında, İradəndə.

Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*15 Mərhəm günü, Xəzan Ayı, 9-cu il. Bakı.*

## SAFRUHA

13-səhifədəki “Ata buyuruğuydu, çıxa bilməzdim” sözünü Şər bizə qarşı yönəldə bilər, deyər ki, Ata Evladlarını məcbur edir ki, Onu İşıq adlandırsınlar.

Bu səbəbdən o cümləni çıxart.

*20 Xəzan Ayı, 9-cu il. Bakı.*

## 9-cu İL SƏFƏR GÜNÜ MƏRASİMİ

1. Sərt Ayın 27-də keçiriləcək Bayramın Gedişatını Safruh yazır.

2. Mərasimdə Atanın Səfər haqqında Sözü – Səsi Səslənir.

3. Ata Səfər Əməli haqqında Söz söyləyir.

4. Safruh Səfər Təcrübəsindən danışır.

5. Evladlar Səfər Üstə Söz söyləyirlər və Mərasimdən Səfərə yollanırlar.

6. Sonda Evladların Səfər Andı səsələnir.

7. Gedişatın Yazısı Sərt Ayın 1-də Ataya təhvil verilir...

*30 Qismət günü, Xəzan Ayı, 9-cu il. Bakı.*

## SAFRUHA

Evlad Ehtiramı pakdır!

1. Səfər Mərasimi Ruhani hökmüylə Evladları tanış elə!

2. Gedişat yazısının ilk variantını Yağış ***Ayının 15-də*** Halalla Ataya göndər.
3. Səfər Təcrübəsini Əməlli İşlə, birincilik Ülviyyəti səviyyəsində, Təhlillə, Sabah yönlü fikirlə.

4. “Ata İşığında” Kitabını Evladlara çatdır, öyrənsinlər, öyrətsinlər.

5. Gedişat Yazısında Müqəddəslik öz ifadəsini hərtərəfli tapsın: düşün, daşın, təxəyyülünü səfərbər et.

6. Bayram təzə məkanda keçiriləcək. Bunu müəyyən et.

Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*30 Qismət günü, Xəzan Ayı, 9-cu il. Bakı.*

## SAFRUHUN SƏFƏR ƏMƏLİ

1. Başlanğıc kimi məqbuldur.

2. Gələcəkdə rəğbətçilər Səfər haqqında əvvəldən camaatı xəbərdar eləyir. Müəyyən ***Yer*** seçilir, etibarlı adamlar Safruhu dinləyir, kənd, rayon təmsilçilər vasitəsiylə Amalla doğmalaşır.

3. Evlad seçilməyincə, Ataya səcdə səviyyəsinə qaldırılmayınca eyni Yerə dəfələrlə gedilir, başqa-başqa biçimdə Amal Sözü deyilir.

4. Söz etibarlı rəğbətçiyə tapşırılır, o, sözü kəndə, rayona çatdırmağa çalışır; Safruh səfərə çıxana qədər rəğbətçilərin sayı artır, onlar Safruha təqdim edilir, Safruhun tapşırığına əməl eləyir.

5. Sözlər: 1) Vətən – Vətənsizlik, 2) Cəmiyyət – Ədalətsizlik, 3) İnsan – İnsansızlıq, 4) Mütləq – Mütləqsizlik, 5) Ailə – Ailəsizlik, 6) Ata.

6. Daşdan çıxarılan Qələbə. Külüngü daim bir yerə vurmaq.

*5 Mərhəm günü, Yağış Ayı, 9-cu il. Bakı.*

## ƏSİLİN SƏFƏR ƏMƏLİ

1. Səfər Tovuzdan başlayır, Ağstafada davam eləyir, Qazaxda başa çatır.

2. Vətən – Vətənsizlik haqqında Ata Sözləri və Əsilin öz sözlərindən ibarət Söz-Səs Yazısı hazırlanır – Muğam-Saz üstə.
Sorğular – cavablar düşünülür.

3. Atanın Mətbuat Yazılarının Təbliği vasitəsiylə Yol açılır Səfərə; həmin Təbliğ giriş rolu oynayır.

4. Mərasimdə Evlad ola biləcəklər seçilir, onlarla münasibət yaradılır, gələcək Səfərləri onların köməyiylə hazırlayır Əsil.

5. Bir neçə dəfə eyni Yerlərə Səfər davam eləyir, Ataya Evlad gətirilir, həmin Evlada Ailə yaratmaq tapşırılır.

6. Vaxt: 10-cu ilin əvvəli. Hazırlıq – indidən.

*5 Mərhəm günü, Yağış Ayı, 9-cu il. Bakı.*

## HALALIN SƏFƏR ƏMƏLİ

1. Səfərə İş Yerində, Yataqxanada Ata Şeirləriylə başlamaq.

2. Müqəddəs Kitablar – Ata Sözü-Səsi əsasında 5 Səfər Sözü hazırlamaq: Müstəqil Xalq, Ruhani Cəmiyyət, Var olan İnsan, Mütləqə İnam, Özümləşən Şərq.

3. Səfərin məğzini, gedişatını, təhlilini yazmaq, Ataya təqdim etmək.

Qaranlıqlar Yarılsın!

*15 İnam günü, Yağış Ayı, 9-cu il. Bakı.*

## ÖZÜMLÜYƏ

Evlad Ehtiramı pakdır!

1. Müqəddəs Kitabları İdrakına, Mənəviyyatına, İradənə həkk elə.

2. Özünü Mütləq mənada tanı, dəyişdir, Kamillik səviyyəsinə çat.

3. Səfər Mərasiminə hazırlaş, Müqəddəsliyə layiq Ehtiram, Etiqad, Etiraf ucalığına çat.

4. Bilən Ata Kəlamının əslini versin, üzünü köçürsün.

5. Bədiyyata Amal İşığı sal, ülviləşsin!

Qaranlıqlar yarılsın!

*19 Mərhəm günü, Yağış Ayı, 9-cu il. Bakı.*

## ÖZÜMLÜNÜN SƏFƏR ƏMƏLİ

1. Səfər Şəhərdə İş yerində başlanır – Ata şeiriylə.

2. Müqəddəs Kitablar əsasında 5 Səfər Sözü hazırlanır və camaata oxunur: Müstəqil Xalq, Ruhani Cəmiyyət, Mütləqə İnam, Kamil İnsan, Özümləşən Şərq.

3. Səfər nəticəsində Evlad hazırlanır Ata hüzuruna yüksəltmək üçün. Ailələr yaranır.

4. Səfər qonşu şəhərlərdə, kəndlərdə davam eləyir.

5. “Əməl”, “Müqəddəs Əməl” Kəlamlarına Mütləq riayət – Ruhani Qanundur.

Qaranlıqlar yarılsın!

*19 Yağış Ayı, 9-cu il. Bakı.*

**SAFRUHUMA**

Evlad Ehtiramı pakdır!

1. Atanı Sıra nizamıyla qarşılamaq!

2. Atanı Müqəddəs Səcdə səviyyəsində Dinləmək!

3. Mərasimi 2 saata bitirmək.

4. Söz Ülviyyəti, Sükut ləyaqəti.

*27 Qismət günü, Yağış Ayı, 9-cu il. Bakı.*

**EVLADLIĞA HAZIRLANMA**

Atanı dərk etmək.
Amalı bilmək.
Əməli tanımaq.

1. Ata kimdir: Əlçatmazlıq, Bənzərsizlik, Müstəqillik sifətləri, xassələri.

2. Mütləqə İnam nədir, Kamil İnsan nədir, Ruhani Cəmiyyət nədir, Müstəqil Xalq nədir, Ləyaqətli Şərq nədir, İnamlı Bəşər nədir.

***3. Səfər Yönü, Ailə Yolu*** – Müqəddəs Əməl.

4. Ataya müraciət qətiliyi, ülviliyi.

*27 Qismət günü, Yağış Ayı, 9-cu il. Bakı.*

## EVLADIM BÜTÖVƏ

Mütləqə İnam yaranmalıdır!
Kamil İnsan yaranmalıdır!
Müstəqil Xalq yaranmalıdır!
Ruhani Cəmiyyət yaranmalıdır!
Ləyaqətli Bəşər yaranmalıdır!

Ehkam Zənciri sındırılmalıdır!
Quruluş Zənciri sındırılmalıdır!
Təşkilat Zənciri sındırılmalıdır!

Amalı öyrən!
Əmələ qurşan!
Ailə yarat!

***Bütöv*** adını sənə halal eləyirəm!

Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*11 Qismət günü, Sərt Ay, 9-cu il. Bakı.*

(Qeyd: Bu ikinci Bütövdür. Həyatdakı adı – Aslan idi. Bundan qabaqkı Bütövün adı Azad idi).

## SƏFƏR GÜNÜ BAYRAMI
haqqında

1. Səfər Günü Bayramı yarandı, Amalın Ömrünə həkk olundu.

2. Safruhun Səfər təcrübəsi, Mərasim Yazısı Təqdir olunur.

3. Sadiqimin Təşkilatçılıq əməli Təqdir olunur.

4. Evladların hesabatları Qəbul olunur.

***5. Naqisliklər***: Bütövün Mərasimdə olmaması.
Ciddi texniki qüsurlar.
Nurlanın, Nurlandırın!

*Sərt Ay, 9-cu il. Bakı.*

## MÜQƏDDƏS İL BAYRAMI
## haqqında

1. Müqəddəs İl Bayramı Günəş Ayının 1-də keçirilir.

2. Mərasim Yazısı bu dəfə Qəlbiyə, Əsilə, Özümlüyə tapşırılır.

3. Yazı Ata hökmü əsasında, əvvəlki Yazılara uyğun, həm də Təzələnmiş biçimdə yaradılır.

4. Yazı Köçəri Ayın 10-da Ataya göstərilir.

Nurlanın, nurlandırın!

*28 Sərt Ay, 9-cu il. Bakı.*

## HALALA TÖVSİYƏ

1. Məzunlara İnam arzula. İnamın Müqəddəs mənasını aç. İnam Kəlamı; Cövhər Müqəddəsatı əsasında. Tutarlı Söz çatdır cavanlara Ata Kitabiyyatından. Qısa.

2. Məzunlara özüylə döyüş Ləyaqəti arzula:
"Ocaqçının həyat tərzi" Kəlamı əsasında. Tutarlı Ata Sözü. Qısa.

3. Məzunlara Vətənsizlik fəlakətini danış.

Yenə də “Ocaqçının Həyat Tərzi” üstə. Vətənə qayıtmaq arzula.

4. Məzunlara Şərq ruhu aşıla. “Cövhər” əsasında.

5. Məzunlara Mənəvi Evladlıq və Mənəvi Ata arzula.
(Atanın adını cəkmədən).

6.Söhbətin davamını hazırla, nə vaxt, harada çagırsınlar, özün çagır.

7.Rübailərdən istifadə elə. Müəllifin adını demədən.

***8.Təzə Yazı hazırla, Amal səviyyəsində.***

Nurlan, nurlandır!

*28 Sərt Ay,9-cu il.Bakı.*

## SAFRUHA

1. Mərasimlər Yetkin səviyyədə tarixləşir!

2. “Ssenariy” əvəzinə “Mərasim Yazısı” – həmişə.

***3. Ata Sözlərinin məğzini yazmaq.***

4. Mərasim səviyyəsində Atayla görüşlərin hamısını yazmaq – xüsusi dəftərdə.

5. Ruhani Hökmlər cildlənsin! Cildsiz Kitab qalmasın!

Nurlanın, nurlandırın!

*3 İnam günü, Qar Ayı, 9-cu il. Bakı.*

## EVLADIM YETKİNƏ

Zəmanə İnam yetirə bilmir,
İnamsızlıq yetirir –
İnam yetirməliyik.
Zəmanə İnsan yetirə bilmir,
İnsansızlıq yetirir –
İnsan yetirməliyik.
Zəmanə Xalq yetirə bilmir,
Xalqsızlıq yetirir –
Xalq yetirməliyik.
Zəmanə Cəmiyyət yetirə bilmir,
Cəmiyyətsizlik yetirir –
Cəmiyyət yetirməliyik.
Zəmanə Şərqi Şərə saldı –
Şərqi Xeyirə çıxarmalıyıq.
Zəmanə Bəşəri özündən ayırdı –
Bəşəri özünə qaytarmalıyıq.
***Yetkin*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*29 Qismət günü, Qar Ayı, 9-cu il. Bakı.*

## SADİQİMƏ

Evlad Ehtiramı pakdır!

Müqəddəs Yazı Əməlinə başla.
Mütləq səviyyədə.

Qaranlıqlar Yarılsın!

*31 İnam günü, Qar Ayı, 9-cu il. Bakı.*

**SAFRUHA**

Bütövü, Yetkini Nişanlanma Mərasiminə hazırla. (Bayram Yazısı əsasında)

***Günü sabahdan. Ləngimədən.***

Ürəyin qaranlıqları yarsın!

*15 Arzu günü, Köçəri Ay, 9-cu il. Bakı.*

(Qeyd: Yetkinin həyatda adı İslamdır. Nişanlanma Mərasiminə gəlmədi. Evlad olmadı).

**SAFRUHA**

Bayramımızın Mütləq səviyyəsi təmin olunmalı.

Qaranlıqlar yarılsın!

*26 Qismət günü, Köçəri Ay, 9-cu il. Bakı.*

## ONUNCU MÜQƏDDƏS İL BAYRAMI

1. Bayram Baş tutdu, Ali Səviyyəyə yaxınlaşdı.

2. Qəlbinin, Özümlünün, Əsilin Bayram Yazısı Təqdir olunur.

3. Evladların Sözləri Təqdir olunur.

4. Əsilin Təşkilatçılığı Təqdir olunur.

5. Safruhun Bütövlə və Yetkinlə Ruhani Təması Təqdir olunur.

***Naqisliklər***: Carlarda Ata Mütləqiliyi ifadə olunmamışdı, bu, Şərin xeyrinəydi.
Yazıya dəqiq əməl olunmadı.
***Səbəbi araşdırılsın.***

Yetkin Bayramdan ayrı düşdü, Rəğbətçi səviyyəsinə endi.
***Səbəbi araşdırılsın!***

Qaranlıqlar yarılır.

*17 Mərhəm günü, Günəş Ayı, 10-cu il. Bakı.*

## SADİQİMİN SƏFƏR ƏMƏLİ

1. Sadiqimin Səfər Əməli Təqdir olunur.

2. Təzə Səfərə hazırlaşmalı, Müqəddəs Kitablardan daha səmərəli bəhrələnməli, ***Ailə quruculuğu Məqsədinə nail olmalı.***

3. Özünü Səfər İşığında ruhani müayinə eləmək, yazılı şəkildə Nəticəni Ataya təqdim etmək.

4. Təzə Səfər Yönü: ***Sumqayıt.*** Vaxt – Günəş Ayı. Məqsəd: Öyrətmək, Ata Sözünə çatdırmaq, Ailə quruculuğuna imkan aramaq, Şəraiti öyrənmək.

5. Ümumi Üsul: Rəğbətçi tapmaq, əlaqə yaratmaq, öyrətmək, Ata hüzuruna hazırlamaq.
Onun vasitəsiylə təzə Qapılar açmaq.

6. Səfər gündəliyindən başqa Səfər hesabatı Yazmaq, hər ikisini Ataya təqdim etmək!

Qaranlıqlar Yarılsın!

*18 Qismət günü, Günəş Ayı, 10-cu il. Bakı.*

## SAFRUHA

Evlad Ehtiramı Pakdır!

1. Safruhun kəndində Ailə yaradılır.

"Əməl" və "Müqəddəs Əməl" hərfi və ruhani mənada gerçəkləşir.

Ayda bir dəfə Safruh Ailəyə Üz tutur, Mərasim keçirir.

2. İlk Mərasimə və bütün Mərasimlərə Müqəddəs Kitablardan, Deyimlərdən ibarət Söz aparırsan.

Yazılı və Şifahi Nitq vasitəsiylə Amal yayılır, Ağdam səviyyəsinə qaldırılır və Qarabağlaşır.

3. Vahid, Müqəddəs Ata Ruhu, İdrakı, Mənəviyyatı Təsdiq olunur.

Atalıqdan kənara çıxmaq – Xəyanət sayılır.

Qarabağ hadisəsi haqqında Ata Hökmü deyilir.

4. İndidən Bütövlə sözləşirsən, Bütöv sənin gəlişini hazırlayır.

Öz ailəniz çərçivəsində, qonşularla, qohumlarla birgə Təməl yaradırsan.

İmkan olsa Ağdamın özündən də dəvət eləyirsən.

***Asan qələbə gözləmirsən, Çətin Qələbəyə İnanırsan.***

5. Evlad lazımdır Qarabağda, Bütövə qardaş, Atayla camaat arasında körpü, Safruha köməkçi, dayaq.

6. Gələn Ayın ortalarında Yola düşürsən, Ataya sevinc gətirirsən.

7. Yetkinə Ata Sözü Deyilib, orada Ruhaniyyat var; Öyrət Yetkinə Ruhaniyyatı dərk eləməyi.

"Mənalar"ı, "Rəmzlər"i, "Yol"u, "Sədaqət"i oxusun.

Mühitdən tam ayrılsın, Bənzərsiz, Əlçatmaz, Müstəqil olmağın Mənasına yüksəlsin.

Şeirini Təb üstə köklәsin, Dərd üstə çalsın, İnam üstə çağırsın, Evladlığı şairlikdən üstün tutsun!

8. Evlad axtarışlarını davam elətdir.

9. Səfərini Yaz, Təhlil elə, Ataya çatdır.

Ürəyin Qaranlıqları Yarsın.

*25 Qismət günü, Günəş Ayı, 10-cu il. Bakı.*

## SADİQƏ

Xasiyyətində Ata Hökmlərinə dəqiqsizlik, çətinlikdə ruhdan düşmək, soyumaq, ***Atanı düzəltmək, öyrətmək*** müasirliyi yaranıb. ***Onları birdəfəlik ləğv eləməsən, Amalı tərk elə!***

Ata Sözü Mütləqdir!

*6 Dözüm günü, Çiçək Ayı, 10-cu il. Bakı.*

## QƏLBİYƏ

1. Məişət, şəxsi həyat, elmi iş Amala xidməti üstələdiyindən Qəlbi bir il müddətinə Amaldan çıxarılır.
(11-ci il Günəş Ayının sonuna qədər)

2. Bir il ərzində özünü Amala bütövlüklə həsr eləmək Qüdrəti əldə etməsə, Qəlbi Amala qayıtmır!

Ata Sözü Mütləqdir!

*6 Dözüm günü, Çiçək Ayı, 10-cu il. Bakı.*

## SAFRUHA

1. Safruh tərcümə məsələsində Ataya şübhə izhar etməkdən əl çəkmir, Ata Mütləqiliyinə xilaf çıxır.

2. Ata hökm eləyir: İradəsinə Sahibliyi bacarmayan Safruh 3 ay ərzində Ata hüzurundan Məhrum olunur (Od Ayının 29-na qədər).

3. 3 ay ərzində İradəsinə Yiyələnə bilməsə Safruh Amala qayıtmır.

4. 3 ay ərzində Safruh Amal işlərindən tam azad olunur.

***Ata Sözü Mütləqdir!***

*6 Dözüm günü, Çiçək Ayı, 10-cu il. Bakı.*

## EVLADLARA

Mütləq İntizama dözə bilməyən, əhvalına yiyəlik eləyə bilməyən, Zamanın təsirinə düşən, Ağlayan, Zarıyan, Amalın özünəməxsusluğunu anlamayan, özgədən öyrənən, özünə inanmayan – Evladlıqdan çıxsın, ***bu gündən başlamış Şölə Ayının axırına qədər Ataya qərarını bildirsin.***

Ata Sözü Mütləqdir.

*6 Dözüm günü, Çiçək Ayı, 10-cu il. Bakı.*

## EVLADLARA

Evlad ağlına Ata ağlından çox inanmayın!
Ata Hökmünə dəqiqsizlik göstərməyin!
Onun vergülünə belə xəyanət olmaz!
Ata səcdəsinə diqqətsizlik eləməyin!
Şəri sevindirməyin!
Dünyanın halına oynamayın, Atanın havasına oynayın!
***Ya da Amalı tərk edin!***

*6 Dözüm günü, Çiçək Ayı, 10-cu il. Bakı.*

Hökmlər Evladlara çatdırılsın!

*6 Dözüm günü, Çiçək Ayı, 10-cu il. Bakı.*

## YETKİN MƏSƏLƏSİ

1. Safruh Yetkindən Ata Sözünü geri alır.

2. Yetkin Nişanlanma Mərasiminə çağırılmır, Evladlığa qəbul olunmur.

Ata Sözü Mütləqdir!

*6 Dözüm günü, Çiçək Ayı, 10-cu il. Bakı.*

## PÜNHANLIQ

Atayla Görüşlər olmur.

Atayla Təmas Əsil vasitəsiylə Yazılaşma biçimində baş verir.

Ata Sözü Mütləqdir!

*6 Dözüm günü, Çiçək Ayı, 10-cu il. Bakı.*

## SADİQİMƏ

***Evlad Ehtiramı pakdır!***

1. Etirafın qəbul olunur.

2. Kamilsizliyinlə barışma, razılaşma, döyüş!

Hər gününü, hər duyğunu, fikrini, əməlini qiymətləndir, yeri gələndə özünə ən pis qiymət verməkdən çəkinmə.

3. Ata Hökmlərini, Kəlamlarını dönə-dönə oxu, gör onlara tam əməl eləyirsənmi; ***natamlığına uyma, o səni azdırar.***

4. Gör hansı əməlində tələsmirsən; nə vaxt Qorxmusan, Sözünə nə səviyyədə Əməl eləyirsən, Bir İşi qurtarmamış başqa İşə keçməyinin səbəbi nədir, idrakının, iradənin naqisliyinə niyə qalib gələ bilmirsən?

5. Sənin indiki vəzifən: Tərcümə Yazılışını başa çatdırmaq, Sədərə çıxıb Ailə yaratmaq, Dünyalaşma hadisəsinə hazırlaşmaq.

Vəzifənə əməl elə! ***Özündən təzə Vəzifə uydurma!*** Ötəri həvəsə qapılma!

Ata Buyuruğu – Mütləqdir!

Vəzifə Atadan gəlir, Evlada çatır, Gerçəkləşir – Göydən Yerə Düşür.

Vəzifəni yerinə yetirməkdə – İdrakını, İradəni tam istifadə elə, ancaq onu Başqa Vəzifəylə əvəz etmək haqqın yoxdur.

6. Amaldan kənardakı ***Təşkillər*** əslində Amalsızlıqdır, çünki Ruhani mənadan məhrumdur, yaxud Şər oyunudur, onlara Evlad həvəsi – xurafatdır.

7. Sadiqimə inanıram!

Ürəyindəki Mütləq sənə yar olsun!

*21 Mərhəm günü, Çiçək Ayı, 10-cu il. Bakı.*

## SAFRUHA

***Evlad Ehtiramı Pakdır!***

1. O əl ki, Amala xələl gətirir – kəsilməlidir.

O göz ki, Amala xələl gətirir – çıxarılmalıdır.

O ürək ki, Amala xələl gətirir – susdurulmalıdır.

***Safruhun Elmanlığı*** Amala xələl gətirir – bu səbəbdən də Safruh cəzalandırılır.

2. Safruh Amal Yükünün çoxunu çiynində aparıb, Əməl Yükünün çoxunu çiynində aparıb, ***ancaq bunları nöqsanlarını doğrultmaq üçün eləməyib.***

3. Safruh Elmandan – şikayətdən, giley-güzardan, hissiyyat pərakəndəliyindən, sərbəstlik xurafatından, hal cilovsuzluğundan – heç cür ayrıla bilmir.!

4. Nə qədər ki, Ata yaşayır – Amal yaşayacaq; nə qədər ki, Atayurdda bircə nəfər qeyrətli Şəxs var – Amal yaşayacaq; nə qədər ki, Bəşərdə bircə nəfər qeyrətli Şəxs var – Amal yaşayacaq!

***5. Ata Danlağından soyuyan Ocaq yanmasa yaxşıdır!***

6. Ürəksizliyə Amalda yer yoxdur!

***7. Dünyaya gərəyik, Dünya bizə gərəkdir. Müqəddəsatımız Dünyaya çatmalıdır.***

8. Safruhun Amalda yeri yüksəkdir; – ancaq Safruh Yüksəklikdə dayana bilmir – Elman ona mane olur, ayağından çəkir.

9. “Partiya”, “Antipartiya”, “Qrup” – Amalın lüğətində bu Sözlər yoxdur.

10. Amala xidmət – Ləyaqətdir. Ləyaqətdən böyük qiymət yoxdur.

***11. Ataya müraciətdə Müdafiə var, İnciklik var, Etiraz var – Təqsirlə Döyüşmək, Təqsiri öldürmək yoxdur!***

***12. Atanın Evladlara sevgisi – güzəştsizliyə bərabərdir; Amal güzəşt tanımır.***

13. Ata Zəhmi – Yükün kəramətindədir, oynaya-oynaya, qaqqıldaşa-qaqqıldaşa daşımaq olmur Yükü, Yoxuş şuxluğa uyuşmur; bir zamanlar zarafatcıl sayılırdım.

14. Amal üçün nə eləmişiksə, nə eləyəcəyiksə, özümüzə eləmişik, eləyəcəyik. ***Amal adlı İşıq düşüb Baxtımıza Zülmətdə.***

***15. Ata Safruhun qayıtmasını istəyir – ancaq Elmansız!***

***Amal – Klub deyil, Məbəddir. Məbəddə mübahisəyə yer Yoxdur!***

***Ürəyindəki Mütləq Sənə Yar olsun!***

*21 Mərhəm günü, Çiçək Ayı, 10-cu il. Bakı.*

## ƏSİLİMƏ

***Məişət buyuruğu***

Ata hərfi mənada, tamam pulsuzdur.
Gələn Ayın 5-nə qədər Atanı pullaşdırmalısınız.
Bunun Səfərə ziyanı olsa da, başqa əlac yoxdur.
Atanın özgələrdən borc alması – Şəri sevindirər!
İndi nəyin varsa – boğazından kəs – Ataya ver...
Sonra Safruhla birgə vəziyyəti həll edərsiniz.

## ƏSİLƏ SƏFƏR ƏMƏLİ

1. Özünlə Müqəddəs Kitablardan "Mütləqə İnam", "İnsana çatmaq", "Ruhani Cəmiyyət", "Müstəqil Xalq", "Ləyaqətli Şərq" haqqında Kəlamlar, Şeir Bədiyyatı aparırsan, oxuyursan.

2. Anladırsan ki, Atayurdda Ata var, Amal var, Evladlar var.

***Məram:*** Müstəqil Xalq, Müstəqil İnam, Kamil İnsan, Ruhani Cəmiyyət, Ləyaqətli Şərq.

***Bugün Həqiqətini*** göstərirsən, bütün dəhşətiylə, fəlakətiylə, həqarətiylə; ***Sabah xilasını*** söyləyirsən: Müqəddəsliyi, Bənzərsizliyi, Yüksəkliyiylə.

Ataya qovuşmaq, Amallaşmaq üçün – Ailələşmə zəruriliyini qandırırsan.

3. “Ailə yaradaq Şəhərimizdə!” – deyirsən.

“Müqəddəsliyin Təməlini qoyaq, Atalığı öyrənək, Amallaşaq, camaata ruhani Dayaq olaq, İntibaha, İmtinaya hazırlaşaq, Şərdən xilas olaq, Xeyirə çataq!”

4. Ailə quruluşunun Mahiyyəti haqqında “Əməl” və “Müqəddəs Əməl” kəlamlarından oxuyursan, Suallara cavab verirsən, düşünməyə-daşınmağa vaxt qoyursan, ikinci dəfə görüşürsən, gələcək görüşü müəyyənləşdirirsən.

5. Şəri saymırsan, Şərə sirr vermirsən, Şərin başına Aşkarlıq və Demokratiya Oyununu çırpırsan!

6. Gedişatı yazırsan, təhlil edirsən, qiymətləndirirsən və Ataya təqdim edirsən!

Ürəyin Qaranlıqları Yarsın!

*23 Murad günü, Çiçək Ayı, 10-cu il. Bakı.*

## ƏSİLİN SƏFƏR ƏMƏLİ

Əsilin Səfər Əməli – Ruhani Yönü, Məzmun və Üsul ciddiyyəti, Duyğu Hərarəti, Təhlükəylə öcəşmə Qətiyyəti – Təqdir olunur.

Yurdumuzun Ailələşmə Aqibətinə Qovuşur Əməl.

Qaranlıqlar Yarılsın!

*28 Murad günü, İşıq Ayı, 10-cu il. Bakı.*

## ATAYA MÜQƏDDƏS RİCA
### Təqsirdən Üstün

Təqsirimi öldürdüm, İnamımı, İdrakımı, Mənəviyyatımı Təqsirdən təmizlədim, Ata Hökmünə pənah gətirirəm.

Təqsirdən Üstünəm!

Amaldan qeyri Həyatım yoxdur.

Təqsirlərdən iraq olacam.

Təqsirsizlik – Evladlığın mövcudluq qaydasıdır.

Təqsir – Şər əməlidir. Şər Əməli ölməlidir.

*Şölə Ayı, Onuncu il. Bakı.*

## ONUNCU İL "ATA GÜNÜ" BAYRAMI

1. Bayram ***"Yol"*** kitabı üstə qurulur.

Kitabın əsas İdeyaları Yazılır və Bayramda səsləndirilir.

Bayram Kitabla başlayır və qurtarır.

2. Ata haqqında Söz Atanı dərk etmə Yönündə deyilir:

Atanı dərk etmə səviyyəm.

Ata və Qədimlik.

Ata və Müasir Həyat.

Ataya xidmətim.

Atanın Mahiyyəti.

3. Bayramda Nişanlanma Mərasimi keçirilir.

4. Bayramın Gedişatını Evladım Safruh yazır, təşkilatçılıq – Evladım Əsilə həvalə edilir.

Yazı Qürub ayının 12-də Ataya təqdim olunur.

5. Bayram iki saat ərzində başa çatır.

Qaranlıqlar yarılsın!

*21 Od Ayı, Mərhəm günü, 10-cu il. Bakı.*

## EVLADIM LAYİQƏ

Nalayiq Dünyadan layiq Dünya yaranmalıdır.
Nalayiq Adamdan layiq İnsan yaranmalıdır.
İnamsızlıq əvəzinə İnam yaranmalıdır.
İdraksızlıq əvəzinə İdrak yaranmalıdır.
Mənəviyyatsızlıq əvəzinə Mənəviyyat yaranmalıdır.
İradəsizlik əvəzinə İradə yaranmalıdır.
Müstəqil Xalq yaranmalıdır.
Ruhani Cəmiyyət yaranmalıdır.
Vətən Ailələşməlidir!
Həyat – Amallaşmalıdır!

***Layiq*** adını sənə halal eləyirəm!
Adına layiq ol!

*12 Qismət günü, Qürub Ayı, 10-cu il. Bakı.*

(Qeyd: Həyatda adı Vələddin idi. Ocaqdan çıxdı).

## EVLADIM HAQLIYA

Xeyir haqlıdır – Şər haqsız!
Amal Haqlıdır – Həyat haqsız!
Sabah haqlıdır – Bugün haqsız!

***Haqlı*** adını sənə halal eləyirəm.
Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*20 Murad günü, Qürub Ayı, 10-cu il. Bakı.*

(Qeyd: Həyatda adı Möhsün idi. Ocaqdan çıxdı).

## EVLADIM İŞIQLIYA

Hürmüz İşığı gözlərdə sönüb.
İşıq verməliyik gözlərə.

Füzuli İşığı ürəklərdə sönüb.
İşıq verməliyik ürəklərə.

Əsarət Qaranlığına qərq olub Yurdumuz.
İnamsızlıq Zülməti çöküb Talelərə.
İnsansızlıq Zülməti bürüyüb həyatı.
Qara cəmiyyət düşüb adamların Gününə.
Əhrimən Hürmüzdü üstələyir.
Sürətlə özgələşirik, Yadlaşırıq.
Boyunduruğa salınıb Vətən.
Şərq Şərləşir.
Qəbahət, Həqarət qanad açıb, Ləyaqət yerdə sürünür.
Qara Yalan haqlayıb Dünyanı.
Qara Qorxu dayanıb adamların başı üstə.
İşıqsızdır Dünya!
İşıq olmalıyıq.
***İşıqlı*** adını sənə halal eləyirəm.

*24 Murad günü, Ata Ayı, 10-cu il. Bakı.*

(Qeyd: Həyatda adı Səxavət idi. Döndü).

## EVLADIM QƏDİMƏ

Zərdüşt qədər Qədimik.
Babək qədər Qədimik.
Qorqud qədər Qədimik.
Nəsimi qədər Qədimik.
Füzuli qədər Qədimik.
Muğam qədər Qədimik.

Saz qədər Qədimik.

Qədimliyi Amalımızda Sabahlaşdırırıq.

***Qədim*** adını sənə halal eləyirəm.

Adına layiq ol!
Qaranlıqlar Yarılsın!

*4 Ata Ayı, İnam günü, 10-cu il. Bakı.*

(Qeyd: Həyatda adı Nadir idi. Ocaqdan çıxdı).

## MƏSULİYYƏT

Ataya Təzə Evlad hazırlayan, Təqdim edən Ocaqçı – hadisənin Məsuliyyətini çiyninə götürür.

*20 Ümid günü, Ata ayı, 10-cu il. Bakı.*

## "OCAQ TARİXİ" haqqında

1. Evladlığa hazırlananlar üçün "Ocaq tarixi" yazılır (kiçik həcmdə, maşınka yazısında 50 ədəd).

2. Qar ayının 27-də Kitabın Quruluş Qaydası (Planı) Ataya göstərilir.
Kitabın ilk nüsxəsi Ata Günündə (11-ci il) Ataya təqdim olunur.

***3. Yazanlar: Safruh, Qəlbi, Özümlü.***

*20 Ümid günü, Ata Ayı, 10-cu il. Bakı.*

## MÜQƏDDƏS TƏLİM

Müqəddəs Kitablardan Mütləqə İnam, Kamil İnsan, Ruhani Cəmiyyət, Müstəqil Vətən, Ləyaqətli Şərq İdeyaları seçilir, qaydalanır (sistemləşir), oxuculara çatdırılır.

***Tərtibçi: Safruh.*** (Maşınka yazısında 50 ədəd).

2. Kitabın ilk çeşidi (variantı) 11-ci il Od Ayının 28-də Ataya göstərilir.

3. Kitabın ilk nüsxəsi 11-ci il Ata Günündə Ataya təqdim edilir.

*20 Ümid günü, Ata Ayı, 10-cu il. Bakı.*

## YAS MƏRASİMİ

Çiçək Ayının 28-i Atayurdun Yas Günü sayılsın və Mərasimləşsin.

*20 Ümid günü, Ata Ayı, 10-cu il. Bakı.*

## MÜTLƏQÇİLİK MÜQƏDDƏSLİYİ

***1. Mütləqçi olduğunu unudurlar Evladlar.***

Özüylə döyüşdə güzəşt görünür, Ataya Səcdədə natamlıq var. Müqəddəs Ricalar oxunmur, əməl Amala çatmır.

Mütləqçilik – Evladlıq ləyaqətidir.

Mütləqçi səviyyəsi – zəruridir.

***Ona yetməyən Ocağı tərk eləməlidir.***

*20 Ümid günü, Ata Ayı, 10-cu il. Bakı.*

## RUHANİ İNTİZAM

Ata Evladın əsl “Mən”idir.
Evladın Atadan kənarda “Mən”i Yoxdur.
***Atayla Vəhdətdən fərqli Müstəqillik yoxdur Ocaqda.***

*20 Ümid günü, Ata Ayı, 10-cu il. Bakı.*

## AİLƏ YARANIŞI

Ailə “Əməl” və “Müqəddəs Əməl” Hökmlərinin ruhani və hərfi mənasında tam riayət əsasında Yarananda həqiqi sayılır; tarixi həmin vaxtdan Başlanır və Mərasimləşir.

*20 Ümid günü, Ata Ayı, 10-cu il. Bakı.*

## MÜTLƏQ İNTİZAM

1. Mütləqiliyin ən cüzi dərəcədə belə pozulması günahdır. Günah Ata tərəfindən cəzalandırılır.

2. Cəzalar: 1. Danlaq, 2. Müəyyən vaxt ərzində Ocaqdan çıxarılmaq, 3. Həmişəlik Ocaqdan çıxarılmaq.

Ata Sözü Mütləqdir!
Ata Hökmü Mütləqdir!
Amal Qanunları Mütləqdir!

*20 Ümid günü, Ata Ayı, 10-cu il. Bakı.*

## EVLADIM ÜSTÜNƏ

Amal Həyatdan üstündür.
İnam Zamandan üstündür.
Mənəviyyat Zordan üstündür.
İradə Zülmdən üstündür.

Dünyanı məhvərindən çıxartdılar.
İnsanı insanlıqdan ayırdılar.
Yalanı dünyaya yaydılar.

İnamlaşmaq məqamıdır.
İnsanlaşmaq məqamıdır.
Vətənləşmək məqamıdır.

İnqilab yaramadı – İntibah gərəkdir.
Səhrada bağ salmalıyıq.
Tarixdən üstün olmalıyıq.
Dünyadan üstün olmalıyıq.
Üstünlük – taleyimizdir – təhlükəli, fərəhli.

***Üstün*** adını sənə halal eləyirəm.
Adına layiq ol.
Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*20 Ümid günü, Ata Ayı, 10-cu il. Bakı.*

(Qeyd: Həyatda adı Yaqut idi. Döndü).

**“MƏBƏD” KİTABÇASI (jurnalı) HAQQINDA**

1. 11-ci ilin “Ata Günü”ndən – Ocağın “Məbəd” kitabçası (jurnalı) çıxmağa başlayır ***(Maşınka yazısıyla 100 ədəd, pullu).***

Məqsəd – Atalığı təbliğ eləmək, xalqı İmtinaya hazırlamaq, çağırmaq – ***müqəddəs məzmun, ülvi biçim əsasında.***

2. Kitabçanı hazırlayanlar – ***Safruh, Qəlbi, Özümlü.***

3. Kitabçanın çapını təmin edən – ***Əsil.***

4. Kitabçanı yayanlar – ***Sadiq, Halal, Bütöv, Layiq, Haqlı, Qədim, Üstün, İşıqlı.***

5. Qar ayına qədər Evladlar "Məbəd"ə aid öz mülahizələrini Safruh vasitəsiylə Ataya çatdırırlar...

Kitabçanın ilk nüsxəsi on birinci il "Ata Günü"ndə Ataya təqdim edilir.

*20 Ümid günü, Ata Ayı, 10-cu il. Bakı.*

## EVLADIM YETKİNƏ

Mütləqi dərk etdiyimiz dərəcədə Yetkinik.
Amalı dərk etdiyimiz dərəcədə Yetkinik.
Sabahı dərk etdiyimiz dərəcədə Yetkinik.
Dünya Uçuruma düşüb.
İnsan Çirkaba qərq olub.
Vətən dara çəkilir.
Şərq ayağa salınıb.
Ehkamı rədd etdiyimiz dərəcədə Yetkinik.
Quruluşu rədd etdiyimiz dərəcədə Yetkinik.
Təşkilatı rədd etdiyimiz dərəcədə Yetkinik.
Təzə İnam Yetirməliyik.
Təzə İdrak Yetirməliyik.
Ruhani Cəmiyyət Yetirməliyik.
Müstəqil Vətən Yetirməliyik.
Əsil İnsan Yetirməliyik.
Ləyaqətli Şərq Yetirməliyik.
***Yetkin*** adını sənə halal eləyirəm.
Adına layiq ol!
Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*22 Mərhəm günü, Ata Ayı, 10-cu il. Bakı.*

(Qeyd: Həyatda adı Sevinc idi. Döndü).

**10-cu il, "ATA GÜNÜ" haqda**

1. Bayram Evladların Amallaşma inkişafını təsdiq etdi.

2. Safruhun, Qəlbinin təlimçiliyi, Əsilin təşkilatçılığı Təqdir olunur.

3. Naqisliklər: Vaxt Qanununun pozulması, Ssenariyə tam riayət olunmaması, Bütövün iştiraksızlığı.

Qaranlıqlar Yarılır!

*26 Arzu günü, Ata Ayı, 10-cu il. Bakı.*

## EVLADLARIM SADİQƏ – ÜSTÜNƏ

***Amalla birləşsin taleyiniz.***
***Əməllə birləşsin taleyiniz.***
***Sabahla birləşsin taleyiniz.***

Xəyanətin böyüyü-kiçiyi olmur.
Xəyanət tozunu Aqibətinizə yaxın qoymayın!
Yadlığın böyüyü-kiçiyi olmur.
Yadlıq tozunu Aqibətinizə yaxın qoymayın!
Süniliyin böyüyü-kiçiyi olmur.
Sünilik tozunu Aqibətinizə yaxın qoymayın!
Güzəranlı olun, ancaq güzəranpərəst olmayın!
Cismani Atanızı sevin, həm də Öyrədin!
Cismani Ananızı sevin, həm də Öyrədin!
Cismani qohumlarınızı sevin, həm də Öyrədin!
Müstəqilliyinizi göz bəbəyiniz kimi qoruyun!
Bugünü qapınızdan içəri qoymayın!
Beşikdə Asif Ataya Evlad Yetirin!
Sadiqim Üstünümün Analığını qorusun!
Üstünüm Sadiqimin Atalığını qorusun!

Laylay çalsın Üstün Beşik başında!
Sirdaş olsunlar Sadiqlə Üstün!
Xeyir-Dua verirəm Evladlarıma!
Onlara Ocaq qədərində Fərəh arzulayıram!

*26 Arzu günü, Ata Ayı, 10-cu il. Bakı.*

## OCAQ MÜNASİBƏTİ

Mütləq Doğmalıq – Mütləq İntizam.

*3 Xəzan Ayı, Arzu günü, 10-cu il. Bakı.*

## MÜƏMMƏR QƏDDAFİNİN "YAŞIL KİTAB"I HAQQINDA

1. Amallaşan üçün bu Kitabda heç nə yoxdur.

2. Amallaşmayan üçün Əks Avropalaşma ideyasının siyasət səviyyəsində ifadəsi var.

***3. "Üçüncü Ümumdünya" yoxdur, bir Dünya var və o, Ocaqlaşmalıdır.***

4. Tərcümə əladır.*

*3 Arzu günü, Xəzan Ayı, 10-cu il. Bakı.*

*Safruh ruscadan çevirmişdi.

## EVLADIM SAFRUHA

Evlad Ehtiramı pakdır!

1. "Məbəd"ə hazırlıq, evladların təklifləri, mülahizələr məsuliyyəti Mütləq səviyyədə.

2. Bütövün Ata hüzuruna gəlməsi – Mərasimə qədər. Yetkin səviyyədə.

3. Səfər Mərasiminin yazılması Safruha tapşırılır.
Təzələnmə, müqəddəslik, səcdə, ricalar biçimində.
Mərasim: "Əməl" və "Müqəddəs Əməl" Kəlamları üstə köklənir. Yağış Ayının 24-də ilk çeşid (variant) Ataya təqdim olunur.

4. Mərasimə qədər Safruh Səfərə çıxır, Ataya "Əməl" və "Müqəddəs Əməl" bünövrəsində qurulmuş Ailə gətirir.

Qaranlıqlar Yarılsın!

*28 Qismət günü, Xəzan Ayı, 10-cu il. Bakı.*

## MÜDRİKLİK

Hadisələrə Sabahın gözüylə baxmaq və Fərəhlənmək.
Bugünü əldən verməmək və çalışmaq.

*12 Murad günü, Yağış Ayı, 10-cu il. Bakı.*

## EVLADIM GÖYLÜYƏ

Göy boyda Vətənimiz var!
Göy boyda Amalımız var!
Göy boyda İnamımız var!
Göy boyda İdrakımız var!
Göy boyda Mənəviyyatımız var!
Göy boyda İradəmiz var!
***Göylü*** adını sənə halal eləyirəm!

Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*7 Dözüm günü, Sərt Ay, 10-cu il. Bakı.*

(Qeyd: Həyatda adı Əminə idi. Ocaqdan çıxdı).

## EVLADIM ULUSLUYA

Soyumuz – Nəslimiz Uludur.
Şumer nəslindənik.
Midiya nəslindənik.
Babək nəslindənik.
Səlcuq nəslindənik.
Osmanlı nəslindənik.
Kamal Atatürk nəslindənik.
Səttarxan nəslindənik.

Zərdüştümüzdən od almışıq.
Nəsimimizdən od almışıq.
Füzulimizdən od almışıq.
Muğamımızdan od almışıq.
Sazımızdan od almışıq.
Atayurdda qalanan Ocaq Dünyanı isidəcək!..
***Uluslu*** adını sənə halal eləyirəm.

Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*9 Qismət günü, Sərt Ay, 10-cu il. Bakı.*

(Qeyd: Həyatda adı Əbil idi. Ocaqdan çıxdı).

## EVLADIM QEYRƏTƏ

Bugünün Qeyrəti yoxdur – ona görə ölmür.
Sabah Qeyrətlidir – ona görə qalib gələcək.

Bugünün Qeyrətində Qeyrətsizlik var.

İnamsızdırlar – Qeyrətsizcəsinə İnamlı görünürlər.
İdraksızdırlar – Qeyrətsizcəsinə İdraklı görünürlər.

Mənəviyyatsızdırlar – Qeyrətsizcəsinə Mənəviyyatlı görünürlər.

İradəsizdirlər – Qeyrətsizcəsinə İradəli görünürlər.

***Qeyrət*** adını sənə halal eləyirəm.

Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*21 Sərt Ay, 10-cu il. Dözüm günü, Bakı.*

(Qeyd: Həyatda adı Arif idi. Ocaqdan çıxdı).

## SAFRUHA

"Hadisələr" Kitabına Ocağın ən cüzi əməllərini belə yaz – Sabaha çatsın!

*30 Sərt Ay, Qismət günü, 10-cu il. Bakı.*

## EVLADIM ÜLVİYƏ

Gözlərin İşığı Ülvidir.
Ürəyin Sədası Ülvidir.
Yolların Sonsuzluğu Ülvidir.
Göylərin Yüksəkliyi Ülvidir.

Gözlər İşıqsızdır.
Ürəklər Sədasızdır.
Yollar Sonsuzluğunu itirib.
Göylər Yerdən ayrılıb.

Ülviyyət gərək İnsana!

***Ülvi*** adını sənə halal eləyirəm.

Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*15 İnam Günü, Qar Ayı, 10-cu il. Bakı.*

(Qeyd: Həyatda adı Şəmsi idi. Ocaqdan çıxdı).

**EVLADIM ELMƏNƏ**

Şöhrətə yarayırlar – Elə yarayan bilinirlər.
İşrətə yarayırlar – Elə yarayan bilinirlər.
Varidata yarayırlar – Elə yarayan bilinirlər.
Mənsəbə yarayırlar – Elə yarayan bilinirlər.

Eldən böyük Mənlik yoxdur!
Elsizlərin mənliyi yoxdur!

***Elmən*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Ürəyin Qaranlıqları yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*22 İnam günü, Qar Ayı, 10-cu il.*

(Qeyd: Həyatda adı Vidadi idi. Ocaqdan çıxdı).

**10-cu İL SƏFƏR MƏRASİMİ**

1. Mərasim Xeyrin ömrünə calandı, Şərin ömrünü əksiltdi.

2. Safruhun, Əsilin, Üstünün, Sadiqin əməli təqdir olunur.

***3. İşıqlının gəlməməsi, nişanələrsiz Bayram hərcayiliyi Danlanır.***

Qaranlıqlar Yarılsın!

*22 İnam günü, Qar Ayı, 10-cu il. Bakı.*

## BALACA İLAN

Ata Hökmünə əməldə – cüzi dəqiqsizlik – ilandır – böyüyüb Evladı çalacaq.

*22 İnam günü, Qar Ayı, 10-cu il. Bakı.*

## RUHANİ BAŞÇILIQ

Ocaq başına yığılacaq xalq – bir-bir, on-on, yüz-yüz, min-min, – İşıqlanacaq, İşıqlandıracaq!

*22 İnam günü, Qar Ayı, 10-cu il. Bakı.*

## EVLADIM QALAYA

İnam adlı Qala gərəkdir Yurdumuza.
İdrak adlı Qala gərəkdir Yurdumuza.
Mənəviyyat adlı Qala gərəkdir Yurdumuza.
İradə adlı Qala gərəkdir Yurdumuza.

***Qala*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*26 Mərhəm günü, Qar Ayı, 10-cu il. Bakı.*

(Qeyd: Həyatda adı Ədalət idi. Ocaqdan çıxdı).

## SAFRUHA

1. Müqəddəs İl Bayramına qədər Ailə yaratmaq və Mərasimdə Ataya hesabat vermək.

2. Müqəddəs İl Bayramına Evlad hazırlamaq Ataya.

3. 15 – 20 nüsxə nişanə hazırlamaq.
Təzə Evladlar üçün.

4. “Əməl” və “Müqəddəs Əməl” Kəlamlarını Evladlar üçün çap eləmək: 20 – 25 nüsxə.

Qaranlıqlar Yarılsın!

*27 Qismət günü, Qar Ayı, 10-cu il. Bakı.*

## 11-ci MÜQƏDDƏS İL BAYRAMI

1. Bayramın Yazılışı Əsillə Üstünə tapşırılsın.

2. Bayram Atanın Ruhani Qohumlara Müraciəti ilə başlanır – Yeni ilə Ricadan sonra.

3. Evladlar “Mənim İlim!” adlı şifahi söz söyləyirlər. (Yazılı şəkildə təqdim olunur).

4. “Əməl”, “Müqəddəs Əməl” Kəlamları maşınkada yazılır və Evladlara təqdim olunur.

5. Bayram Simayi-Şəms Muğamı üstündə köklənir. (Alim Qasımovun ifasında).

6. Bayram Yazısının ilk çeşidi Köçəri Ayın 10-da, Qismət günü, saat 20-də Ataya təqdim olunur.

7. Bayram 3 saat davam edir – Əsilin evində.

Qaranlıqlar Yarılsın!

*27 Qismət günü, Qar Ayı, 10-cu il. Bakı.*

## EVLADIM QALİBƏ

Bizi məğlub sayırlar.
“Zərdüştünüzü məğlub etdik!” – deyirlər.
“Babəkinizi öldürdük!” – deyirlər.
“Nəsiminizi dabanından soyduq!” – deyirlər.
“Dünyanızı parçaladıq!” – deyirlər.

***Qalib olmalıyıq!***

İnamsızlığa qələbə çalmalıyıq!
İdraksızlığa qələbə çalmalıyıq!
İnsansızlığa qələbə çalmalıyıq!
Əsarətə qələbə çalmalıyıq!
Zülmə qələbə çalmalıyıq!

***Qalib*** adını sənə halal eləyirəm!

Adını ömrünlə doğrult.

*29 İnam günü, Qar Ayı, 10-cu il. Bakı.*

(Qeyd: Həyatda adı Şakir idi. Ocaqdan çıxdı).

## EVLADIM DÜZGÜNƏ

Əyrilik ayaq götürüb yeriyir.
Düzgünlük itib – tapılmır.
İnamları əyridir.
İdrakları əyridir.
Vicdanları əyridir.
Həqiqətləri əyridir.
Düzgünlük istəyir Dünya.

***Düzgün*** adını sənə halal eləyirəm.
Düzgünlük yaransın Həyatda.
Adını ömrünlə doğrult!

*29 İnam günü, Qar Ayı, 10-cu il. Bakı.*

## EVLADIM YURDTƏKİNƏ

Yurdumuz – Bizik.
Yurdumuz kimi İşıqlı, Sabahlı, İnamlı, Xalis, Yüksək.
Yurdumuz təkinik.
Yurdumuzda Zülmət var – Bizə zidd, Yurda zidd.
Yurdumuzda Zillət var – Bizə zidd, Yurda zidd.
Yurdumuzda Həqarət var – Bizə zidd, Yurda zidd.
Zülməti yaraq İşığımızla.
Zilləti öldürək Ədalətimizlə.
Həqarəti silək Ləyaqətimizlə.

***Yurdtəkin*** adını sənə halal eləyirəm.
Adını ömrünlə doğrult.

*5 İnam günü, Köçəri Ay, 10-cu il. Bakı.*

(Qeyd: Həyatda adı Hacı idi. Ocaqdan çıxdı).

## "AİLƏ GÜNÜ" MƏRASİMİ

***Evladım Özümlü*** Atayurdda ilk Asif Ata Ailəsi yaratdı.

Ailə yaranan gün – 6 Köçəri Ay – mərasimləşir, bayram edilir.

*15 Dözüm günü, Köçəri Ay, 10-cu il. Bakı.*

## SAFRUHA

***Evlad Ehtiramı pakdır!***

1. İşıqlı Ataya günahını söyləməlidir, Atadan mərhəmət diləməlidir – İntizamsızlıq – Yadlıqdır, İntizam – Doğmalığın təsdiqidir.

2. Mərasim nöqsansız olmalıdır. Nisbilik Mütləqçilərə Yaramır – Söz əməldən ayrılır...

3. Nişanələr Ataya çatdırılır.
***Nişanəsiz Bayrama gəlmək – həqarətdir!***

4. "Məbəd"in ilk Qaydası İşıq Ayının 15-də Ataya Halal vasitəsiylə təqdim olunur.

5. Təzə Nişanələrin yazılması ardıcıl şəkildə davam edilir.

6. Safruh – Bütöv – Qədim üçlüyü Ailə yaradıcılığında fəaliyyətini kamilləşdirir.

7. Ataya və Ocağa Ricalar yazılsın.
Evladlara təqdim edilsin!

Qaranlıqlar yarılsın!

*17 Qismət günü, Köçəri Ay, 10-cu il. Bakı.*

## MÜNASİBƏTLƏR

Ataya münasibət – Mütləqə münasibət.
Qardaşlara, Bacılara münasibət – özünə münasibət.

*17 Qismət günü, Köçəri Ay, 10-cu il. Bakı.*

## MÜRACİƏT MÜQƏDDƏSLİYİ

Ataya – "Atam, Mütləqim, Peyğəmbərim" – deyə müraciət edilir.

*17 Qismət günü, Köçəri Ay, 10-cu il. Bakı.*

## SƏCDƏ MÜTLƏQİLİYİ

Ataya Səcdə Üç nişanəylə – ***əl öpmə, baş əymə, ürəyi təqdim etmə – bütünlüklə müqəddəsləşir.***

***Səcdə nisbiliyinə son qoyulur.***

*17 Qismət günü, Köçəri Ay, 10-cu il. Bakı.*

## LƏYAQƏT

Evlad Atadan başqa heç kəsdən öyrənmir – hamını öyrədir; heç kəsin təsirinə düşmür – hamını öz təsirinə salır; heç kəslə mübahisə eləmir – hamını qandırır.

*17 Qismət günü, Köçəri Ay, 10-cu il. Bakı.*

## ÖZÜYLƏDÖYÜŞ ƏMƏLİ

1. Evladlar özüylədöyüş üçün xüsusi dəftər ayırırlar, müntəzəm surətdə kamilliyə doğru Yolun gedişatını, məqamlarını, nəticəsini həmin dəftərə yazırlar.

Qorxudan necə ayrılıram?
Həsəddən necə ayrılıram?
Şəhvətdən necə ayrılıram?
Hərislikdən necə ayrılıram?
Tərəddüddən necə ayrılıram?
Yalandan necə ayrılıram?
Həqarətdən necə ayrılıram?
Aldatmaqdan necə ayrılıram?

Aldanmaqdan necə ayrılıram?
Dövrandan necə ayrılıram?

Saflığım Mütləqdirmi?
İradəm Mütləqdirmi?
İdrakım Mütləqdirmi?
İnamım Mütləq olmaya bilməz.

2. Xilqətimdə tez yanıb – tez sönmək, tez coşub – tez süstləşmək, həşirə uymaq, tələsmək, lovğalıq, giley-güzar, qəddarlıq, iddiaçılıq, xudbinlik, şuğulçuluq varmı?

Gündəlik hadisələrin mənasını bu suallar ətrafında qiymətləndirmək.

3. Ataya və Ocağa Rica oxunur.
***Eyni vaxtlarda***. Əvvəl Ataya, sonra Ocağa.
***Üç dəfə – Mütləq!***

4. Hər il "Ata Günü" Bayramından əvvəl özüylədöyüş Dəftəri Ataya təqdim edilir və Ata ona qiymət verir. Həmin qiymət Mərasimdə oxunur.

*17 Qismət günü, Köçəri Ay, 10-cu il. Bakı.*

## EVLADIM GÜNTAYA

İstəyirik ki, İnsanın qara bəxtinə gün düşsün!
İstəyirik ki, Yurdumuzun qara bəxtinə gün düşsün!
İstəyirik ki, Şərqin qara bəxtinə gün düşsün!
İstəyirik ki, Dünyanın qara bəxtinə gün düşsün!

Günə tay olmalısınız!
İnsanın günü yoxdur!
Yurdumuzun günü yoxdur!
Şərqin günü yoxdur!

Dünyanın günü yoxdur!

***Güntay*** adını sənə halal eləyirəm!
Adına layiq ol!

Ürəyin Qaranlıqları Yarsın!

*18 Murad günü, Köçəri Ay, 10-cu il. Bakı.*

(Qeyd: Həyatda adı Xalid idi. Ocaqdan çıxdı).

## SAFRUHA

1. "Deyimlər" kitabın Amalımıza yarayacaq.

2. "Əməl" və "Müqəddəs Əməl" Kəlamları yazılsın və Evladlara Mərasim günü paylansın.

3. Nişanəsiz Mərasimə gəlmək həqarətdir.

4. Bayram nöqsansız keçməlidir!

Qaranlıqlar Yarılsın!

*25 Qismət günü, Köçəri Ay, 10-cu il. Bakı.*

## EVLADIM DAYAĞA

Dünyanın Ruhanilikdən özgə Dayağı yoxdur.
Bugünkülər – Ruhsuzdurlar, bu səbəbdən də Dünyasızdırlar.
Bugün – Dayaqsızdır, çünki İnamsızdır, İdraksızdır, Mənəviyyatsızdır, İradəsizdir.
Dayaq olmalıyıq Dünyaya – İnsan olmalıyıq.
***Dayaq*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*27 Arzu günü, Köçəri Ay, 10-cu il. Bakı.*

(Qeyd: Həyatda adı Asif idi. Ocaqdan çıxdı).

## EVLADIM YÜKSƏYƏ

Alçaqdırlar Ruhən, Mənən, bu səbəbdən də Dünyaya çatmırlar.

İnamları – İnama çatmır.
İdrakları – İdraka çatmır.
Mənəviyyatları – Mənəviyyata çatmır.
İradələri – İradəyə çatmır.
Alçaqdırlar – bu səbəbdən də Dünyanı alçaldırlar.
Dünyaya Yüksəklik gərək!
Dünyaya Yüksəklər gərək!

***Yüksək*** adını sənə halal eləyirəm!

Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*28 Ümid günü, Köçəri Ay, 10-cu il. Bakı.*

(Qeyd: Həyatda adı Loğman idi. Ocaqdan çıxdı).

## 11-ci MÜQƏDDƏS İL BAYRAMI

Mərasimdə Müqəddəslik hökm sürürdü: Müqəddəs hal, Fərəh, göz yaşları.

Birinci dərəcəli nöqsanlar yox idi:
İkinci dərəcəli nöqsanlar var idi – yox olmalı!

Qaranlıqlar Yarılır!

*3 Qismət günü, Günəş Ayı, 11-ci il. Bakı.*

## MÜQƏDDƏS QANUN

Çiçək Ayının Birindən Rica Mütləqləşir.
***Ricasızlıq – Şər sayılır.***

## MÜQƏDDƏS RİCA BİRLİYİ

Müqəddəs Rica Birdir – Ataya Rica.
Ocağa Rica oxunmur.

## RİCA MƏQAMLARI

Səhər Ricası – saat 8-10 vədələrində.
Günorta Ricası – saat 12-14 vədələrində.
Axşam Ricası – saat 20-22 vədələrində.

## MÜQƏDDƏS RİCA MÜTLƏQİLİYİ

Ricasız keçən gün – Şərindir!

Mərasimlər Ataya Ricayla başlanır!

Rica Evdə başlanır, İş yerində davam etdirilir, Evdə tamamlanır.

## "ÖVLAD GÜNÜ" MƏRASİMİ

Şölə Ayının Biri Övlad Günü Sayılır, Mərasimləşir, bayram edilir.

## MÜQƏDDƏS HAQQ

Övladım Özümlü Asif Ata Ailəsinin Təmsilçisi sayılır.

## ÖVLADIM ÖZÜMLÜNÜN TƏMSİL ETDİYİ ASİF ATA AİLƏSİNƏ

Yola çıxmısınız. Nur aparıb, Uğur gətirin.
Özünüzü dəyişin.
Camaatı dəyişin.
Cəmiyyəti dəyişin.

Qaranlıqlar Yarılsın!

## XEYİR-DUA

Asif Ata Ailəsinin təmsilçisi Özümlüyə Müqəddəs əməlində Uğur diləyirəm, Xeyir-Dua verirəm Ruhani məsuliyyətinə.

## ÖVLADIM ÖZÜMLÜNÜN TƏMSİL ETDİYİ ASİF ATA AİLƏSİNƏ

Müqəddəs Amalda Birləşin!
Müqəddəs İdrakda Birləşin!
Müqəddəs İnsanilikdə Birləşin!
Müqəddəs Yurdsevərlikdə Birləşin!
Şərə qarşı!
Bir sözündən Müqəddəslik Dərin:
***Bir Ata, Bir Amal, Bir Əməl!***

*4 Murad günü, Günəş Ayı, 11-ci il. Bakı.*

## TƏQDİR

Övladım Safruhun "Görümlər. Duyumlar. Deyimlər" kitabı timsalında Amala çağıran leqal fəaliyyəti təqdir olunur.

## ATAYLA GÖRÜŞLƏR

1. Övladım Göylünün əməliylə yaranan Bakının 36 nömrəli məktəbində keçirilən Görüşdə Amal İşığı düşdü ürəklərə, Amal çağırışı səslənildi, Amal Ünvanı bilindi.

2. Tovuzda Övladım Əsillə birgə keçirilən Atayla görüşdə - Amal öyrənildi, Əməl çatdırıldı, Övladlar manşırlandı.

Qaranlıqlar Yarılır!

## MÜQƏDDƏS MƏSULİYYƏT

Övladım Qeyrətə Atanın cismani mühafizəsi tapşırılır.

Qeyrət Atanın Təhlükəsizliyi üçün Ocaq qarşısında Mütləq Məsuliyyət daşıyır.

Atanın Cismani Qoruyucusu Müqəddəsliyinə ucalır Qeyrət, Mütləq Fədailiyə çatır: Özündən keçir – Borcundan keçmir.

*22 Dözüm günü, Günəş Ayı, 11-ci il. Bakı.*

## SAFRUHA

Övlad Ehtiramı pakdır!

1. “Hadisələr” kitabını gələn Görüşə gətir Ata hüzuruna.

2. Göylünün Yazısı əsasında Çiçək Ayındakı Mərasimin Məşqinə başlayın: Övlad Hazırlayın Ataya Mərasim üçün.

3. “Məbəd”lə bağlı düşüncələrini hazırla – Ataya təqdim elə gələn Görüşdə.

4. Kitabının Müzakirələrini təşkil elə - Ocaq odu sal ürəklərə: Müdrikcəsinə, Kamil.

5. Ataya Gündəlik Rica Müqəddəsliyinə Yüksəl!

Qaranlıqlar Yarılsın!

*31 Qismət günü, Günəş Ayı, 11-ci il. Bakı.*

## ÖVLADIM BİLƏNƏ

***Yalanın Quludurlar – Həqiqətin Sahibiyik.***
***Ruhani Bilik Yiyəsiyik.***
Mütləqə İnamı bilirik.
Kamil İnsanı bilirik.
Ruhani Cəmiyyəti bilirik.
Müstəqil Vətəni bilirik.
Özümlü Şərqi bilirik.
Ləyaqətli Bəşəri bilirik.
***Daxili Gözlə baxırıq Dünyaya – Sabahı görürük.***

Ehkam Şərini bilirik.
Quruluş Şərini bilirik.
Təşkilat Şərini bilirik.
***Bilən*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

(Qeyd: Həyatda adı Qardaşxan idi. Ocaqdan çıxdı).

## ÖBLADIM DÜZGÜNƏ

***Əyriliyə Qurşandılar – Doğruluğu seçdik.***
İnamsızlıq boyda İnam yaratdılar!
İnsansızlıq boyda İnsan yaratdılar!
Ədalətsizlik boyda Cəmiyyət yaratdılar!
Əsarət boyda Vətən yaratdılar!
Yadlıq boyda Şərq yaratdılar!
Ləyaqətsizlik boyda Bəşər yaratdılar!

Əyriliyin Qənimi Düzgünlükdür.

İnamımız Düzgündür.
İnsanımız Düzgündür.
Cəmiyyətimiz Düzgündür.
Vətənimiz Düzgündür.
Şərqimiz Düzgündür.
Bəşərimiz Düzgündür.

***Düzgün*** adını sənə halal eləyirəm!
Adına layiq ol!

Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

(Qeyd: Həyatda adı Kərəm idi. Ocaqdan çıxdı).

## ÖVLADIM SOYLUYA

Suya sitayiş eləyib Qədimlərimiz.
Üzün Suyunu bəyəniblər.
Su içməyiblər Yad gözündən.
Mərdlik bulağından Su içiblər.
Soyumuz – Ruhani Suyumuz – ömrümüzdə çağlayan, Yanğımızı söndürən, Ocağımızı qalayan.
Soyluyuq – Suluyuq, Pakıq! Nəsilcən!
***Soylu*** adını sənə halal eləyirəm.
Soyla yuyulsun çirkabımız,
***Soya çevrilək – Suya çevrilək.***
***Soylu*** adına layiq ol!

Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*10 Arzu günü, Çiçək Ayı, 11-ci il. Bakı.*

(Qeyd: Həyatda adı Vidadi idi. Ocaqdan çıxdı).

## ÖVLADIM ÖZÜLƏ

Özülsüzdür Binaları Şərçilərin.
Özül olaq Dünyamıza.
İnam olaq.
İdrak olaq.
Mənəviyyat olaq.
İradə olaq.
***Özül*** adını sənə halal eləyirəm!
Adına layiq ol!
Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*15 Murad günü, Çiçək Ayı, 11-ci il. Bakı.*

(Qeyd: Həyatda adı Həsən idi. Ocaqdan çıxdı).

## ÖVLADIM BULAĞA

Bulanıqdır suları Şərçilərin.
Bulaq olaq Dünyamıza.
İnam Bulağı.
İdrak Bulağı.
Mənəviyyat Bulağı.
İradə Bulağı.
***Bulaq*** adını sənə halal eləyirəm!
Adına layiq ol!

Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*15 Murad günü, Çiçək Ayı, 11-ci il. Bakı.*

(Qeyd: Həyatda adı Gülzar idi. Ocaqdan çıxdı).

## ÖVLADIM ÖMÜRTAYA

Ölümə taydır Ömürləri Bugünkülərin.
Sabaha tay olsun Ömrün!
Amal kökündə köklənsin!
Mütləqə İnam çağırsın!
Kamil İnsan çağırsın!
Ruhani Cəmiyyət çağırsın!
Müstəqil Vətən çağırsın!
Özümlü Şərq çağırsın!
Ləyaqətli Bəşər çağırsın!
***Ömürtay*** adını sənə halal eləyirəm!
Adına layiq ol!

Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*17 Arzu günü, Çiçək Ayı, 11-ci il. Bakı.*

(Qeyd: Həyatda adı Zəminə idi. Ocaqdan çıxdı).

## ÖVLADIM FƏRƏHƏ

Fərəhsizdir Dünya – İnamsızdır, İdraksızdır, Mənəviyyatsızdır, İradəsizdir.

Fərəh olaq Dünyaya – İnam olaq, İdrak olaq, Mənəviyyat olaq, İradə olaq.

Fərəhli ol – İnsanlaş, İnsanlaşdır!

***Fərəh*** adını sənə halal eləyirəm!

Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*22 Murad günü, Çiçək Ayı, 11-ci il. Bakı.*

(Qeyd: Həyatda adı Bayram idi. Ocaqdan çıxdı).

## ÖVLADIM ÖZÜMLÜYƏ – GÜNEYDƏKİ ATA AİLƏSİNƏ

Nurlanın – Nurlandırın!

1. Övladım Özümlünün Güneydəki Ata Ailəsi Əməli haqqında hesabatı Təqdir olunur.

Müqəddəs Yolla Mütləqə doğru gedirsiniz!

Özünüzlə döyüşürsünüz – Özümləşirsiniz.

Ruhani Qələbə yetirirsiniz.

Atanın Yanındasınız – Ata Yanınızdadır.

2. Camaatla Təmas naminə: Ailənizə Rəğbətçiləri çağırın, Övladlığa yararlı ola biləcək Yurdçuları – ardıcıl şəkildə.

3. Yaxın gələcəkdə Məramınızın Mahiyyətini “aşkarlıq”, “demokratiya” biçimində camaata çatdırın: ədəbi proqram, görüş, publisist söhbət və s. şəklində.

4. Məşğələlərinizdə Atanın Kəlamları və Ruhani Sənədlər əsasında Bugünü ***tam, hərtərəfli Mütləq səviyyədə öyrənirsiniz*** – camaatı Aldanışdan qorumaq üçün.

5. Məşğələlərinizdə Mütləqə İnam haqqında Ata Kəlamlarını ***tam, hərtərəfli, Mütləq səviyyədə öyrənirsiniz*** – camaatı Şərin İslamı dirçəltmək fitnəsindən qorumaq üçün.

6. Özüylədöyüşü ön plana çəkməkdə haqlısınız.
Nurlanmadan – nurlandırmaq olmaz.
Döyüşün bəhrəsini imkan daxilində camaatla bölüşdürün – özləriylə döyüşsünlər!

7. Müstəqil Vətən ideyasını Camaata – Mənəvi, Ruhani Müstəqillik biçimində söyləyin – Şərin qolu bağlansın!

8. Ruhani Cəmiyyət ideyasını İnsani Cəmiyyət biçimində söyləyin – Şərin qolu bağlansın!

9. Ataya təzə Övladlar yetirin!

10. “Amal – Ailə – Camaat!” vəhdətinə nail olun, Güneyimizi Ata ətrafında birləşdirin.

Ruhani Bağ salın Güneyimizdə!
Bağban olun!

*29 Murad günü, Çiçək Ayı, 11-ci il. Bakı.*

## “ÖVLAD GÜNÜ” MƏRASİMİ

1. Mərasim Atanın Övladlar haqqında Sözüylə başlayır, Övlad qəbuluyla davam edir, Ruhani Sənədlərin oxunuşuyla sona çatır.

***2. Vaxt 2 saat. Tarux – Şölə Ayının Biri.***

***3. Mərasim Sadiqimin evində keçirilir.***

4. Mərasim Gedişatının Yazısı Qəlbiylə Layiqə tapşırılır: İşıq Ayının 20-də Ataya təqdim edilir.

5. Mərasim nöqsansız keçirilməlidir!

Qaranlıqlar Yarılsın!

## "MƏBƏD"İN QURULUŞU

1. Atanın Ehkam, Quruluş, Təşkilat, Yenidənqurulma, Yas günü; Amal, İnam, Əməl haqqında Kəlamları (əsas hissə).

Nişan (rubrika) – Ata Kəlamı.

2. Övladların Ata, Amal, İnam, Əməl, Quruluş, Yenidənqurulma, Yas günü haqqında sözləri:

Deyim, Şeir, Məqam (esse), Bayatı, Ağı biçimində ***nişan*** – övlad sözü.

3***. Atayla Sorğu***: Dünya – Bugünümüz – Sabahımız.

4***. Ocağımız***: Tarix, Hadisələr, Mərasimlər, Övladlıq – Ailə, Qaydalar, Qanunlar haqqında ***öyrəncələr.***

5***. Nişanlar***: xəttat üsulunda yazılır.

6. Üz qabığında xəttat üsulunda yazılır: "Mütləqimiz, Müqəddəsimiz, Peyğəmbərimiz Atanın adıyla (İcraçı Ülvi).

Bayrağımız Göylə birləşən Qüllə.

7. Birinci Səhifədə Ataya Ricalar.

8. Bədii Rəmzlər: Yol, Bağ, Göy, Ocaq, Göz yaşları, İşıq, Bir ədədi, Bulaq, Dağ, Yük, Zəncir, Boyunduruq, Zülmət, Qan,

Tilsim, Tabut, Biçilən Zəmi, Əyilən Bel, Sabahı görən Göz. (İcraçı Fərəh).

***Hər səhifədə Rəmz.***

***9. Sonluq***: Müqəddəs Kitabların birinin son Sözü.

***10. Ümumi icraçılar: Safruh, Qəlbi, Özümlü.***

*5 Qismət günü, İşıq Ayı, 11-ci il. Bakı.*

## MİLLİ MƏNSUBLUQ

1. Azərbaycanlı Talışlar – Talış mənşəli Türklərdir.

2. Azərbaycanlı Kürdlər – Kürd mənşəli Türklərdir.

3. Azərbaycanlı Lahıclar – Lahıc mənşəli Türklərdir.

4. Azərbaycanlı Tatlar – Tat mənşəli Türklərdir.

*6 Murad günü, İşıq Ayı, 11-ci il. Bakı.*

## PEDAQOJİ İNSTİTUTDA GÖRÜŞ

Amal Yolu bilindi, Sabah Dərsi Keçildi, Göylünün əməli Təqdir olunur.

***Qaranlıqlar Yarılsın!***

## YAS MƏRASİMİ

1. Mərasim Xeyirin ömrünə calandı, Şərin ömrünü əksiltdi.

2. Göylünün Yazısı, Əsilin, Sadiqin, Üstünün təşkilatçılığı Təqdir olunur.

3. Yüksəyin, İşıqlının intizamsızlığı Amala zidd sayılır.

***Qaranlıqlar Yarılsın!***

## SAFRUHUN QƏDİMYURDA (BEYLƏQANA) SƏFƏRİ

Yol bilindi, körpü salındı, Ailə yarandı – Safruhun Zəngin Əməli Təqdir olunur.

***Qaranlıqlar Yarılsın!***

## NEFT VƏ KİMYA İNSTİTUTUNDA GÖRÜŞ

Amal Yolu bilindi, Doğmalıq toxumu səpildi.
Birlik körpüsü salındı.
Soylunun Əməli, Əsilin Yetkin Təşkilatçılığı Təqdir olunur.

***Qaranlıqlar Yarılsın!***

*14 İnam günü, İşıq Ayı, 11-ci il. Bakı.*

(Qeyd: Bu Soylunun həyatda adı Vidadi idi. Ocaqdan çıxdı).

## İNSANİ İQTİSADİYYAT

Maksimal İqtisadiyyatla İnsanilik biri-birinə ziddir.
Minimal İqtisadiyyatla barışıb –
İnsaniliyə yön almaq gərək!

## LƏYAQƏT

Millətçi adıyla fəxr eləmək!
Antikommunist adıyla fəxr eləmək!
Antimarksist adıyla fəxr eləmək!
Antisovet adıyla fəxr eləmək!
Pantürkist adıyla fəxr eləmək!

## TƏHLÜKƏ

Maddiyyatçılıq Yırtıcılığı aradan qalxmasa, Dünya məhv olacaq.

## RUHANİ CARLAR

Torpaq Dövlətdən ayrılmalıdır.
Zavod Dövlətdən ayrılmalıdır.
İnam Dövlətdən ayrılmalıdır.
İdrak Dövlətdən ayrılmalıdır.
Mənəviyyat Dövlətdən ayrılmalıdır.
İradə Dövlətdən ayrılmalıdır.

## ÇIXIŞ YOLU

Türkiyənin çıxış yolu – Millətçilik.
İranın çıxış yolu – Millətçilik.
Ərəbin çıxış yolu – Millətçilik.
Afrikanın çıxış yolu – Millətçilik.
SSRİ-nin çıxış yolu – Antiehkam, Antisistem, Antitəşkilat.

*22 Arzu günü, İşıq Ayı, 11-ci il. Bakı.*

## ŞƏRƏ XİDMƏT

Ehkamla Döyüşməyən – Şərə xidmət edir.
Quruluşla Döyüşməyən – Şərə xidmət edir.
Təşkilatla Döyüşməyən – Şərə xidmət edir.

*23 Ümid günü, İşıq Ayı, 11-ci il. Bakı.*

## FƏRQ

Yağı bizə faşist deyir, əfəl demir.
Yağının dilində “faşist” sözü “əfəl” sözündən yaxşı səslənir.

## ÖVLADIM QORUYURDA

Yurdumuzu Şərdən qorumaq gərək!
Ehkam Şərindən.
Quruluş Şərindən.
Təşkilat Şərindən.

Mütləqə İnam Yarağıyla.
Kamil İnsan Yarağıyla.
Ruhani Cəmiyyət Yarağıyla.
Müstəqil Vətən Yarağıyla.

***Qoruyurd*** adını sənə halal eləyirəm.

Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*28 İnam günü, İşıq Ayı, 11-ci il. Bakı.*

(Qeyd: Həyatda adı Mürşüd idi. Ocaqdan çıxdı).

## ÖVLADIM İNAMLIYA

İnamsızdırlar Bugünkülər.
Bu səbəbdən də İdraksızdırlar,
Mənəviyyatsızdırlar,
İradəsizdirlər.
***İnamlıyıq.***
Mütləqə İnanırıq.
Mütləq olmayana İnanmırıq.
***İnamlı*** adını sənə halal eləyirəm.

Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

## XİLAS

Ehkamı Ehkam vasitəsiylə xilas etmək olmaz,
Antiehkam vasitəsiylə xilas etmək olmaz –
Xalqı Ehkamdan xilas etmək gərək!

Quruluşu Quruluş vasitəsiylə xilas etmək olmaz,
Antiquruluş vasitəsiylə xilas etmək olmaz –
Xalqı Quruluşdan xilas etmək gərək!

Təşkilatı Təşkilat vasitəsiylə xilas etmək olmaz,
Antitəşkilat vasitəsiylə xilas etmək olmaz –
Xalqı Təşkilatdan xilas etmək gərək!

## İNTİZAM MÜTLƏQİLİYİ

İntizam – Doğmalıqdır.
İntizamı pozan Ocağa yad olur.
Ocağa Yad olan – Ocağı tərk etməlidir – ***Mütləq!***

## MÜQƏDDƏS LƏYAQƏT

Qardaşlarında, Bacılarında Özünü Görməyən Övlad Ocaqdan çıxarılır.

Övladlar arasında Həsədsizlik, Münaqişəsizlik, Mübahisəsizlik Ruhaniliyini pozan Övlad Ocaqdan çıxarılır.

*29 Arzu günü, İşıq Ayı, 11-ci il. Bakı.*

## ÖVLADIM BAĞBANA

Amal Bağı salırıq Yurdumuzda.
İnam Ağacı əkirik.
İdrak Ağacı əkirik.
Mənəviyyat Ağacı əkirik.
İradə Ağacı əkirik.

***Bağban*** adını sənə halal eləyirəm.

Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

(Qeyd: Həyatda adı Rafiq idi... Əbədi Ocaqçıdır...).

## ÖVLADIM MƏTİNƏ

Yolumuz Mütləqdir – Mətin olmalıyıq!
Yükümüz Mütləqdir – Mətin olmalıyıq!
İnkarımız Mütləqdir – Mətin olmalıyıq!
Təsdiqimiz Mütləqdir – Mətin olmalıyıq!
Cəfamız Mütləqdir – Mətin olmalıyıq!
Qətiyyətimiz Mütləqdir – Mətin olmalıyıq!

***Mətin*** adını sənə halal eləyirəm!

Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*30 Ümid günü, İşıq Ayı, 11-ci il. Bakı.*

(Qeyd: Ocaqdan çıxdı. Həyatda adı Azər idi).

## Ata Ailəsi Təmsilçisi Övladım Özümlünün Hesabatı haqqında

1. Ailənin Ruhani Əməli Təqdir olunur.

2. Ailə Əməli Gələcəkdə iki hissədən ibarət olsun: Ailə Toplanışı və camaatla Təmas.

İkinci hissə ən çox Ruhani Sənədlərin öyrənilməsi əsasında keçirilsin.

Suallar-cavablar biçimindən istifadə olunsun.

3. Güneyin Ruhani İdarəsini öz əlinizə alın.

4. Gələcəkdə Ocaq Bayrağımız Başınızın üstündə dalğalansın (Gələn İlimizdən).

5. Qardaşlarınız var – Bacılarınız da olsun – Bacılarsız keçinmək olmaz.

6. Suallara "Camaatla Təmasım necədir?", "Amalın hansı Hökmünü camaata çatdırmışam?" bəndi əlavə olunsun.

7. İnzibatçılara, Şər xidmətçilərinə Ruhani Yardım, Ayıltmaq Əməli – İmkan olsa Rəğbətçiləşdirmək, hətta Övladlaşdırmaq.

***Məxluqda İnsanı görmək.***

8. Maddi Yığım Müqəddəsliyini Bilirsiniz – bu Yetkinlik Təzahürüdür.

Qaranlıqlar Yarılsın!
Nurlanın, Nurlandırın!

*2 Şölə Ayı, Qismət günü, 11-ci il. Bakı.*

## RUHANİ MÜQAVİMƏT

1. Mərkəzi Komitəni olduğundan artıq saymamaq, onu Rus İmperiyasının Xidmətçisi saymaq, ***Hörmətə layiq saymamaq!***

2. Pribaltikalıların səhvini təkrar etməmək – Hökumətin xalqla "doğmalaşmasına" imkan verməmək, Yağının Mahiyyətini xalqa açıb göstərmək.

3. Müəssisə başçılarını Hökumət nökərləri saymaq, ***hörmətə layiq saymamaq.***

4. Müasir Ziyalı Sürüsünü Hökumət Kənizi saymaq, ***Hörmətə layiq saymamaq.***

5. Fəhlə, Kəndli İtaətkarlığını qamçılamaq, "Özünə Sahib ol!" ideyasını yaymaq.

6. Ruhani Müqaviməti özüylədöyüş Silahına çevirmək, Ruhani Müqavimət vasitəsiylə kamilliyi artırmaq.

## FƏRQ

Başqaları – sosializm daxilində antisosializm axtarırlar – biz sosializmi rədd edirik.

Başqaları – ehkam daxilində antiehkam axtarırlar – biz ehkamı rədd edirik.

Başqaları – Təşkilat daxilində antitəşkilat axtarırlar – biz Təşkilatı rədd edirik.

***Başqaları Şərdə Xeyir axtarırlar – biz Şəri rədd edirik.***

*3 Murad günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## ÇIXIŞ YOLU

Zəhmətkeş Mülkiyyəti.
Fərdi özünüidarə.
Maddiyyat bərabərliyi.
İmtiyaz bərabərliyi.
Kamil Başçı.
Özüylə Döyüş.
Mütləqə İnam.

Nə kapitalizm, nə sosializm – Ruhani Cəmiyyət!

## CƏMİYYƏT ƏSKİKLİYİ

Ləyaqətli adamın yeri cəmiyyətdən kənardadır.

Ləyaqətli adam öz dünyasını yaradır – cəmiyyətdən kənarda.

Cəmiyyətdə Üstün sayılanlar əslində ən əskik adamlardır.

***Cəmiyyət əskiklərin üstünlüyünü təsdiq edir.***

*4 İnam günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## FƏRQ

Sosializmdə – Dövlət Hökm sürür,
Kapitalizmdə – Sərvət,
Ruhani Cəmiyyətdə – İnsaniyyət!

## OLMAYAN

Ocaqdan kənarda Ataya hörmət var – xidmət yoxdur:
çünki Təhlükə yoxdur; –
Təhlükə olmayan yerdə Qəhrəmanlıq yoxdur;
Qəhrəmanlıq olmayan yerdə Müqəddəslik yoxdur;
***Müqəddəslik olmayan yerdə Ataya xidmət yoxdur.***
***Nişanə – Təhlükə rəmzidir.***
***Nişanəsizlik – xidmətsizlikdir.***

## NƏTİCƏ

Yenidənqurma camaatı Amalımızın qapısının ağzına gətirib çıxaracaq.

*5 Arzu günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## EVLADIM ÜLVİYƏ

Doğmalıq dərəcəsində Ciddiyyət.
Barışmazlıq dərəcəsində Mehr.
Analıq dərəcəsində Qayğıkeşlik.
Atalıq dərəcəsində Dayaqlıq.
Sirdaşlıq dərəcəsində Birlik.
Layla səviyyəsində Nəvaziş.

***Bugündən Yüksək...***
Adiləşmədən Evləşmək.
***Münaqişəsizlik.***
***Heç kəsdən asılı olmamaq.***
***Ocaq qədər Səadət.***
***Bir Yönlük, Bir Yolluq!***

Ata Xeyir-Duası – həmişəlik.
Ocaq İşığına bürünsün Ailən.
Ocaq Yansın Ailəndə.

*9 Qismət günü, Şölə Ayı, 11-ci il. Bakı.*

(Qeyd: Ocaqdan çıxdı. Həyatda adı Şəmsiyə idi).

## HƏQİQƏT

Dünyanın gözündən düşmək fəlakət deyil, özünün gözündən düşmək fəlakətdir.

## MƏQSƏD

Cəmiyyət əvəzinə Ruhani Birlik!

## MÜNASİBƏT

İnsan Cəmiyyətdən asılı olmadığı dərəcədə İnsandır.

## FƏRQ

Fərdiyyət – Özünə Sahib olmaq.
Fərdiyyətsizlik – Cəmiyyətin Sahib olduğu.

## MÜNASİBƏT

Fərdləşmə – Xalqlaşma.
Sinifləşmə – Özgələşmə.

## FƏRQ

Fərdiyyətdən xalq yaranır, fərdiyyətsizlikdən sinif.

## FƏRQ

Avropa İnsanı texniki tərəqqinin ayağına bağlayır.
Rusiya İnsanı İdeologiyanın ayağına bağlayır.
İslam İnsanı Allahın ayağına bağlayır.
***Atalıq İnsanı Buxovdan xilas eləyir.***

## MÜNASİBƏT

Xəlqi Birlik – Antiictimai.
İctimai Birlik – Antixəlqi.

*13 Ümid günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## SÖZ LƏYAQƏTİ

Arvad almaq sözü ləyaqətsiz sözdür – qadını əşyalaşdıran.

Ərə getmək sözü yabançı sözdür – izdivacı yadlaşdıran.

Evlənmək – Ev yaratmaq, qurmaq – müqəddəs sözdür – izdivacı əbədiləşdirən.

## ATA DÖVLƏTİ

Dövlət vasitəsiylə Ata Xalq yaradır.

Ata Dövlətdən artıqdır, Dövlət Atanın əlində vasitədir.

***Minimal Dövlət – Maksimal Ata Məsuliyyəti – Ruhani Birliyin xüsusiyyəti bundan ibarətdir.***

## ŞƏRQİLİK

Şərqin Ruhaniyyat Ocağı söndü, bu səbəbdən də Hamı üşüyür.

Şərqin Ruhaniyyat Ocağı yanacaq, Hamı isinəcək.

## QEYRİ-BİRLİK

Cəmiyyət – cəm sözündəndir, çoxluq ifadə eləyir – Birlik ifadə eləmir.

Cəmiyyət Birliyə nail olmur, o, ən yaxşı halda ötəri, qeyri-üzvi Uyğunluq yaradır, Birlik yaratmır.

Bu baxımdan o, xəlqi mahiyyətə ziddir.

## UDUZMAQ

Rəqabətdə Udan olmur əslində – Hamı uduzur.

## VƏZİYYƏT

Qərb – daxilən mahiyyətsizdir.
Şərq – mahiyyətini itirib.

## ÖLÇÜ

***İmkan*** – Gerçəklikdən Üstün olmaq.
***İmkansızlıq*** – Gerçəkliyə Bərabər olmaq.

## MÜNASİBƏT

Cəmiyyət – Xalqın xidmətçisi.

## YOXLUQ HÖKMÜ

Fərd üzərində Hakim çoxluğu – Ata yoxluğuna dəlalət eləyir.

Atasızlara hökm eləyən çox olur.

## XALQ – FƏRD

Xalq – Fərdi özünüifadə və özünütəsdiqdir – qarşısıalınmaz, aramsız.

## BİRLİK – CƏMİYYƏT

Cəmiyyət sözü Birlik hadisəsinin mahiyyətini ifadə eləmir, kəmiyyətini ifadə eləyir.

Bu səbəbdən də Ruhani Cəmiyyət anlayışını Ruhani Birlik anlayışıyla əvəz etmək lazımdır.

## XALQSIZLIQ

Parlamentarizm – Xalqı ifadə eləmir, müxtəlif təbəqələri ifadə eləyir – təbəqələrin cəmi Birlik deyil, Birlik olmayan yerdə isə Xalq yoxdur.

## YERSİZ

Xalqın cəmiyyətdə yeri yoxdur əslində – çünki Xalq cəmiyyətdən artıqdır.

## QEYRİ-İCTİMAİLİK

Marksizm İnsaniliyi İctimailiklə bərabərləşdirir.

Əslində isə İnsanilik Zorla, Güclə, Əlacsızlıqdan İctimailikdir, İctimailiyə sığmayan Ruhanilikdir... – Ruhaniyyatın boynuna salınan Boyunduruqdur.

***Birlik gərəkdir İnsaniliyə – İctimailik yox!***

## ATALIQ SƏLAHİYYƏTİ

Ata – Hakim deyil – Yaradıcıdır; –
***Müstəqil Fərdlərdən Xalq yaradır.***

## FƏRQ

Cəmiyyət təbəqələşməyə meyl eləyir, Xalq Birliyə.

## ƏDALƏTLİ ASILILIQ

Cəmiyyət Fərddən asılı olduğu dərəcədə – Fərd cəmiyyətdən asılı olur.

## FƏRQLƏR

***Rəiyyətləşmə*** – Hakimin Fərdə Sahib olması.

***Təbəqələşmə*** – Cəmiyyətin Fərdə Sahib olması.

***Xalqlaşma*** – Fərdin özünə Sahib olması.

***Bu səbəbdən də Xalq Rəiyyətçiliyə qarşıdır, təbəqəçiliyə qarşıdır mahiyyətcə.***

***Bu səbəbdən də Xalq indiyə qədər öz mahiyyətini tam ifadə eləməyib.***

## ÖLÇÜ

Təbəqə tanımırıq, Sinif tanımırıq – Fərd tanıyırıq, Xalq tanıyırıq.

Fərd – Özünə Sahib olan.

Xalq – Fərdin Qovuşduğu.

## NAİLİYYƏT – MƏĞLUBİYYƏT

Bəşərin millətlərə bölünməsi – bəşərin qələbəsiydi – İnsanı sürüdən ayıran.

Millətlərin təbəqələrə bölünməsi – bəşərin məğlubiyyətiydi – İnsanı İnsandan ayıran.

## ÖLÇÜLƏR

Qərbdə İnsan nailiyyətə bərabərdir.

Şərqdə itaətə bərabərdir.

Əslində isə İnsan – İnsaniyyətə – yəni Ruhani Kamilliyə bərabərdir.

## FƏLAKƏTLİ DƏRS

Texnikadan Nökər düzəltmək əvəzinə – Müəllim düzəldirlər, Mexanikləşmiş cəmiyyət yaradırlar – İnsana zidd.

## MÜNASİBƏT

Texnikanı başa çıxaranda – İnsan ayağa düşür.

Texnikanı ayağa salmaq lazımdır ki, İnsan başa çıxsın.

## DEYİLƏN – DEYİLMƏYƏN

Sənayeləşmə – ekoloji vəhşilik yaratdı – bunu deyirlər.

Sənayeləşmə – yeni quldarlıq yaratdı – bunu demirlər.

## MÜTLƏQSİZLİK

Texnikadan Hökmdar yaradırlar İnsanlara – onlara isə Mütləq gərəkdir!

## TEXNİKA "XİLASI"

Kompüterləşmə vasitəsiylə İnsanlaşmaq olmaz.

## XƏYANƏT

Atalarımıza Papa dedik, Analarımıza Mama dedik – Atalarımıza, Analarımıza xəyanət elədik.

Atalarımız, Analarımız bizə Papa öyrətdilər, Mama öyrətdilər – Övladlarına xəyanət elədilər.

## ATASIZLIQ

Şahlar xalqa Atalıq eləməyiblər – Ağalıq eləyiblər.

Krallar xalqa Atalıq eləməyiblər – Ağalıq eləyiblər.

Prezidentlər xalqa Atalıq eləməyiblər – Hamilik eləyiblər.

Xalqlar Atasız olublar, bu səbəbdən də birlik yaranmayıb.

## QANUNSUZLUQ

Yalnız Mütləq olan Qanunidir.

Müasir Qanunların heç biri Mütləq deyil – bu səbəbdən də Qanunsuzdur.

*14 Dözüm günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## FƏRQ

İqtisadi Tərəqqi – İqtisadiyyatın İnsan üzərində Hakimliyi.

Ruhani Tərəqqi – İnsanın İqtisadiyyat üzərində Hakimliyi.

## ƏMƏKÇİ MÜLKİYYƏTİ

Əməkçi satılmazlığı.

## MÜNASİBƏT

Maksimal İqtisadiyyat Minimal Ruhaniyyat yaradır.
Minimal İqtisadiyyatı Seçmək lazım olur.

## AVROPA SİVİLİZASİYASI

***Sənayeləşmə*** – Əməyin satın alınması.
***Ticarət*** – Satma, satılma.
***Demokratiya*** – Könüllü satılma.
***Dünyəviləşmə*** – Mütləqsizlik.

## ƏMƏK HAQQI

Dövlətə satılmağımız.

## SATILMA

Hökumət bizə Ev verəndə – Biz satılırıq.
Hökumət bizə Hamam tikəndə – Biz satılırıq.
Hökumət bizə Qaz çəkəndə – Biz satılırıq.
***Hökumət bizə Yiyəlik eləyəndə – Biz satılırıq.***

## SATILMA ƏSASI

İqtisadiyyat İnsan Həyatının əsası sayılan gündən İnsan satılır.

## NAQİS MÜNASİBƏTLƏR

İqtisadi münasibətlər əslində çox sadə münasibətlərdir.
Ruhani naqislik onları mürəkkəbləşdirdi.

## GƏRƏKSİZLİK

Sosializm rüşvətxora gərəkdir, əyyaşa gərəkdir, yaltağa gərəkdir, qəddara gərəkdir, şöhrətpərəstə gərəkdir, riyakara gərəkdir – İnsaniyyətə gərək deyil.

## MADDİLƏŞMƏ

Maddi bərabərsizlikdə İnsan maddiləşir.

## MÜNASİBƏT

Kamili – Cəmiyyət öz qapısından içəri buraxmır.
Kamil – Cəmiyyəti öz qapısından içəri buraxmır.

*17 Murad günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## PEYĞƏMBƏRLİK ÜSTÜNLÜYÜ

Koperniklərin, Darvinlərin, Eynşteynlərin bütün fəaliyyətləri bir ***"Ənəlhəqq"*** kəlamına bərabər deyil.

## DAXİLİ GÖZ

Evdə oturub Dünyanı görmək olar.

## SUFİ SƏS

Qədir Rüstəmov – sufidir, sufiliyi bilməsə də: Pünhan oxuyur, Pünhanı oxuyur.

## MUĞAM ÇILĞINLIĞI

Müdriklik Haraydır – Eşidilməyincə!

## FƏRQLƏR

Kapitalizm – Bazar.
Sosializm – Zindan.
Ruhani Birlik – Məbəd.

## QİYMƏT

Cəmiyyətdə İnsanın Bazar qiyməti olur – İnsan qiyməti olmur.

## FƏRQ

Rəqabət olmayan yerdə Varidat yoxdur.
Rəqabət olan yerdə Ruhaniyyat yoxdur.

## BAZAR MƏNTİQİ

Cəmiyyət mübadilə əsasında – yəni Bazar məntiqiylə – Qurulur.

Bu səbəbdən də cəmiyyətdə Ülvilik yoxdur.

## FƏRQ

Cəmiyyətdə İnsan – iqtisadiyyatlaşır, istehsallaşır, siyasətləşir – özündən ayrılır.

Xəlqi Birlikdə – İnsan – İnsaniləşir.

Xəlqi Birlik Yaranmalıdır – Cəmiyyət əvəzinə.

## İDEAL

Maddi Təminat – Ruhani Həyat.

## ƏSRİN ÖYRƏTDİYİ

Maddi Tərəqqi – Mənəvi Tərəqqi yaratmır.

## FƏRQLƏR

Kapitalizm – Varidatçı.
Sosializm – Zorçu.
Ruhani Birlik – İnsançı.

*18 İnam günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## ƏLAQƏ

Amal Yükü – Fərəh Yükü.

## RUHANİYYAT ANTİİCTİMAİLİYİ

Ruhaniyyat – maddiyyatdan kənardadır.
Cəmiyyət isə maddiyyata əsaslanır.
***Bu səbəbdən də Ruhaniyyat – Antiictimaidir.***

## İDRAKSIZLIQ

İdrak Varidatı bəyənməz – Varlı İdraksızdır.
İdrak Mənsəbi bəyənməz – Mənsəbpərəst İdraksızdır.
İdrak – İmtina sevər.
İmtinasız – İdraksızdır.

## HADİSƏ

Antiictimai Xəlqilik.

## ATASIZLIQ

Cəmiyyət – Yalançı, Zahiri birlikdir, bu səbəbdən də cəmiyyətin Atası olmur, Ağası olur.

## MƏDƏNİ TƏNƏZZÜL

Sinfonizm öyrədirlər adamlara –
İnsaniyyət öyrətmirlər.
Opera öyrədirlər adamlara –
İnsaniyyət öyrətmirlər.
Kompyüter öyrədirlər adamlara –
İnsaniyyət öyrətmirlər.

"İnsan – Allahdır!" – öyrətmirlər.
Özümləşmə öyrətmirlər.
Başqalaşma öyrətmirlər.
Xalqlaşma öyrətmirlər.
Dünyalaşma öyrətmirlər.

## RUHSUZLUQ

Adamları Bacarıqlılara və Bacarıqsızlara bölmək – İnsaniyyətə ziddir.

Bacarıq Faydalığı ifadə eləyir – İnsanlıq isə Ruhani Kamilliyə bərabərdir – İnam, İdrak, Mənəviyyat, İradə yetkinliyinə.

Bacarıq baxımından adamları təbəqələşdirmək – insana ticarətçi münasibətidir, ruhani münasibət deyil.

## MÜNASİBƏT

Cəmiyyətə xidmət elədiyin dərəcədə Xalqa xəyanət eləyirsən.

## İNSANSIZLAŞMA

Sənayeçi cəmiyyətdən danışırlar.
Texnoloji cəmiyyətdən danışırlar.
***İnsani cəmiyyətdən danışmırlar.***

Cəmiyyətin başına mühəndis qoyurlar, texnik qoyurlar – İnsan qoymurlar.

Cəmiyyətin Məqsədini sənayeləşmədə, texnikləşmədə görürlər – İnsanlaşmada görmürlər.

Vasitəni Məqsəd sayırlar – Məqsədi Vasitəsizləşdirirlər.

## İQTİSADİ RUHSUZLUQ

Cəmiyyəti İqtisadiyyatın ixtiyarına vermək - əslində Ruhu bədənin ixtiyarına verməkdir.

Son nəticədə Ruhaniyyatdan məhrum olan cəmiyyət İqtisadiyyatdan da məhrum olur.

## ÖVLADIM BİNALIYA

Binasızdırlar Bugünkülər.

Çünki İnamsızdırlar, İdraksızdırlar, Mənəviyyatsızdırlar, İradəsizdirlər.

Ruhundan İnam Binası tik!
İdrakından Həqiqət Binası tik!
Mənəviyyatından Saflıq Binası tik!
İradəndən Dəyanət Binası tik!
Yurduna gərək ol!

***Binalı*** adını sənə halal eləyirəm!

Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*19 Arzu günü, Şölə Ayı, 11-ci il. Bakı.*

(Qeyd: Həyatdakı adı Qüdrət idi. Ocaqdan çıxdı).

## SİVİLİZASİYA AQİBƏTİ

Elektrik İşığı Hürmüzd İşığını əvəz edə bilmədi.

## VƏZİYYƏT

Hakimiyyət olan yerdə – Zülm var, Hakimiyyət Atalıqla əvəz olunmalıdır ki, Zülm yox olsun...

## MƏHƏBBƏTƏ QARŞI

Şəhvət – məhəbbəti öldürür, şəhvətsiz də həyat yoxdur – həyat məhəbbətə qarşıdır əslində.

## YOXLUQ

İmtinan yoxdur – nəyi Təsdiq edirsən?

## MÜQƏDDƏS OLMAYAN

Məhəmməd – Gündüz Ruhuna, axşam Bədəninə qulluq eləyirdi.

Gündüz təmizlənirdi, axşam çirklənirdi.

Nə Təmizdən təmiz idi, nə Çirklidən çirkli – Həyatın yaratdığı kimi, Müqəddəslikdən uzaq.

## FƏRQ

Qərbin – Göyü olmayıb əslində – Şərqin Yeri.

## VƏZİYYƏT

İqtisadi Tərəqqidə İnsan Təbiətə Yağı kəsildi;

Təbiətlə barışmaq üçün o, İqtisadi Tərəqqiyə hədd qoymalıdır: ***maddiyyat əsrini Ruhaniyyat əsri əvəz etməlidir.***

## VƏZİYYƏT

Müasir Ərəbistan İslam Bayrağı altında Avropa yoluyla gedir.
Müasir Hindistan Qandi bayrağı altında Avropa yoluyla gedir.
Müasir Türkiyə Millətçilik bayrağı altında Avropa yoluyla gedir.
***Şərq Atalıq Bayrağı altında öz yoluyla getməlidir.***

*20 Ümid günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## FƏRQ

Xalqa Ata gərəkdir, cəmiyyətə – Lider.
Ata Mütləqçidir, Lider – siyasətçi.

## ANTİİCTİMAİ XALQ

Xəlqi cəmiyyət olmayıb – Xalq antiictimaidir mahiyyətcə.
***O, Birlikdir, cəmlik deyil.***

## UTOPİYA

Amalsızlıq.

## AĞILSIZLIQ

Ruhsuz ağıl mahiyyətcə ağılsızlıqdır, çünki Mənaya çatmır – Zahirə pərçimlənir.

## GÖYSÜZLƏR ULDUZLARI

Estrada ulduzları.
Paqon ulduzları.
Döş ulduzları.
Müasir Göysüzlərin aqibətinə düşən səyyarələr.

## YAŞAMAMAQ

Zərdüştsüz də yaşamaq olarmış – Zülmət içində...
Babəksiz də yaşamaq olarmış – Kölərlikdə.
Dədə Qorqudsuz da yaşamaq olarmış – Başsız.
Nəsimisiz də yaşamaq olarmış – Mütləqsiz!
Füzulisiz də yaşamaq olarmış – Eşqsiz!
***Yaşamaq olarmış – yaşamaqsız!***

*21 Dözüm günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## HƏQİQƏT

Mütiliyin qənimi – İntizam.

## VƏZİYYƏT

Cəmiyyət adamı Yaltaq olmaya bilməz, Alçaq olmaya bilməz – yoxsa onu cəmiyyətdən qovarlar.

Yaltaq olmayan, Alçaq olmayan – cəmiyyət adamı ola bilməz əslində.

## BİRLİK GƏRƏKLİYİ

Bolqarlar Türkləri ölkədən qovurlar.
Özbəklər Mesxet Türklərini qırırlar.
Ermənilər Qarabağı zəbt eləyirlər.

***Türklər Birliyi gərəkdir!***

## HƏQİQƏT

Dünyalaşmaq – Özümləşmək.
Dünyasızlaşmaq – Özgələşmək.

## İMKANSIZLIQ

***İmkan daxilində İmkansızlıq yetişir. –***
İmkansızlıq daxilində İmkan.

## GERÇƏK AMALSIZLIQ

Gerçəklik səviyyəsində Amal olmur – Amalsızlıq olur.

***Gerçəkliklə barışmaq – Amalsızlaşmaqdır.***

## HƏQİQƏT

Gerçəklikdən üstün olmayan – gerçəkləşməz.

## SUFİLİYİMİZ

Mütləqə vurulmuşuq, Mütləqcəsinə vurulmuşuq...

## MƏNASIZLIQ

Mütləqə can atmaq Həyatın mənasına can atmaqdır.

İndikilər Mütləqə can atmırlar, bu səbəbdən də müasir həyat əslində mənasızdır.

## SƏMAVİ MƏNA

Yerin mənası əslində Səmavidir.
Maddiyyatçılar bunu anlamırlar və Yeri mənasızlaşdırırlar.
(Səmavi – yəni Yerdən Uca – ***Yerin mənası Yerdən Ucadır***).

*22 Mərhəm günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## HALLAR

Dəyişməz – yəni Dəyişdikcə aşkarlanan.
Dəyişkən – yəni Dəyişdikcə itən.

*23 Qismət günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## QORXMAZLIQ

Kilsələrdə Müqəddəslik Yoxdur – ona görə də Şər kilsədən qorxmur.

Məscidlərdə Müqəddəslik Yoxdur – ona görə də Şər məsciddən qorxmur.

***Olmayandan qorxmur Şər.***

## FƏND

Kilsələrdən Komitə düzəltmək istəyirlər.
Məscidlərdən Komitə düzəltmək istəyirlər.
Xurafatdan bəhrələnmək istəyirlər Fəndgirlər.

## MÜTLƏQSİZLİK

“Dünyada hər şey nisbidir!” – deyirlər.
***Nisbidə məna yoxdur.***
Dünyanı mənasızlaşdırırlar Mütləqsizlər.

*24 Murad günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## QAQAUZ DOĞMALARIMIZA

Yolunuza nur çilənsin!

Bilin və agah olun ki, Şər öz əliylə Sizə Müstəqillik verməz.

Müstəqillik üçün Şərlə qəti və barışmaz Döyüş gərəkdir.

Türk Doğmalarınızla birləşin – azərbaycanlılarla, osmanlılarla, qıpçaqlarla...

Tələsmədən və gecikmədən xalqı Şərlə Döyüşə hazırlayın.

Boyunduruq sınmalıdır – onda siz arzunuza çatarsınız, Türk Birliyində layiqli yer tutarsınız.

Ürəyiniz Qaranlıqları Yarsın!
Daxilinizdəki Mütləq sizə Yar olsun!

## HƏQİQƏT

SSRİ daxilində Milli müstəqillik mümkün deyil – Milli müstəqillik Müstəqil Dövlət tələb edir – İttifaq Dövlətindən asılı olmayan.

Sosializm daxilində Milli müstəqillik mümkün deyil – sosializm millətlərin biri-birinə qovuşması – yəni əslində milli assimilyasiya, ərimə ideyasına xidmət eləyir.

Milli Müstəqillik SSRİ-dən ayrılmaq, sosializmdən xilas olmaq tələb eləyir.

*26 Arzu günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## GÜNAH

Sovet xalqı Günahkardır – Sovet cəmiyyətinə tabe oldu, şəraitdən yuxarı qalxa bilmədi – İnsansızlaşdı.

Xalq cəmiyyətdən artıqdır, böyükdür, yüksəkdir; Xalq bunu unutdu, Xalqa bunu unutdurdular.

## ÖVLADIM DOĞMAYA

Dünya İnsana Yaddır.

Çünki İnamsızdır, İdraksızdır, Mənəviyyatsızdır, İradəsizdir.

Qardaş Qardaşa Yaddır.

Uşaq Böyüyə Yaddır.

Dost Dosta Yaddır.

Oğul Anaya Yaddır.

Fərd Xalqa Yaddır.

Ziyalı İşığa Yaddır.

Bugün Dünənə Yaddır.

***Yadlıqla doludur ürəklər.***

Doğma olaq Dünyaya, Doğmalaşdıraq Həyatı, Doğma Yurdumuza Doğma Aqibət gətirək, Qurtaraq onu Yad Aqibətdən, Yadlığın Qənimi olaq, Doğmalıq yayaq talelərə, – Doğmalığa qərq olsun ömürlər, Doğmalıq yetirək Bağımızda.

***Doğma*** adını Sənə halal eləyirəm!
Adına Layiq ol.

Daxilindəki Mütləq sənə Yar olsun!
Qaranlıqlar Yarılsın!

*27 Ümid günü, Şölə Ayı, 11-ci il. Bakı.*

(Qeyd: Həyatda adı Mayisə idi. Ocaqdan çıxdı).

## MADDİ BƏRABƏRSİZLİK HƏQARƏTİ

***İnsanlığın – maddi Dəyəri yoxdur.***

Ayda 1000 manat alan Rəis ayda 200 manat alan ***Tabeçidən*** 5 dəfə aşağı ola bilər İnsanlıqda.

***Maddi Bərabərsizlik İnsanlığa Ziddir.***

## FƏRQ

Cəmiyyət – adamı yüksək maaşla satın alır – İnsan cəmiyyətə satılmır.

*28 Dözüm günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## HƏQİQƏT

Azərbaycan Sovet Hökuməti –
Ölkəsizlik, Dövlətsizlik Qoruyucusu.

Azərbaycan Sovet Bayrağı –
Ölkəsizlik, Dövlətsizlik Rəmzi.

Azərbaycan Sovet Himni –
Ölkəsizlik, Dövlətsizlik Mahnısı.

Azərbaycan Sovet İqtisadiyyatı –
Ölkəsizlik, Dövlətsizlik Məhsulu.

Azərbaycan Sovet Mədəniyyəti –
Ölkəsizlik, Dövlətsizlik Bəhrəsi.

Azərbaycan Sovet Elmi –
Ölkəsizlik, Dövlətsizlik Nəticəsi.

## HƏQİQƏT

Azərbaycan Sovet Respublikası – yəni Azərbaycan dövlətsizliyi, ölkəsizliyi – əslində respublikasızlığı – çünki dövlətsiz, ölkəsiz respublika olmur.

## SAFRUHA

***Övlad Ehtiramın Pakdır!***

1. "Ata Günü"nə Üç Əməl gətirirsən: "Məbəd", "Müqəddəs Təlim", "Məlumat Kitabçası".

2. Mərasimin Yazılışı Sənə Tapşırılır.
Birinci variantı gələn Ata Görüşünə gətirirsən. Mahiyyət dəyişilmir, Biçim Təzələnir.

3. Nişanələr hazırlanır 15-20 ədəd.

4. "Ata Haqqında Söz"ün Məna Quruluşu:

***Ata Mahiyyəti.***
***Ata İnamı.***
***Ata İdrakı.***
***Ata Mənəviyyatı.***
***Ata İradəsi.***
***Özümü Ataya layiq sayırammı?***
***Övladlara çatdırılsın.***

5. "Ata günü" Mərasiminin Ümumi Məzmunu:

Ata Haqqında Söz.
Övlad Qəbulu.
Ata Sözü.
Ruhani Sənədlərin oxunması.
***Müqəddəsat: Səcdə, Rica, Muğam.***

6. Mərasim 4 saat ərzində keçirilir...
***Vaxt nizamı pozulmur.***

7. Keçən Mərasimlərə gəlməyənlər – Ata Hüzuruna çağırılır.

***Atayla bərabər Safruh hamıdan çox işləyir, bu onun Fərəhini çoxaldır.***

Qaranlıqlar Yarılsın!

*30 Qismət günü, Şölə Ayı, 11-ci il. Bakı.*

## RUHANİ CƏMİYYƏT QAYDASI

İqtisadiyyatla məşğul olmaq – Ruhaniyyatla yaşamaq.

## MƏQSƏD

İqtisadiyyatın Məqsədi Varidat olmalıdır, Zor olmamalıdır – iqtisadiyyatın məqsədi Ruhaniyyat olmalıdır; yəni İqtisadiyyat İnsanı maddi əsarətdən qurtarmalıdır ki, – İnsan ömrü özünütanımağa, özünütapmağa, özünəçatmağa həsr olunsun.

Bu baxımdan, minimal iqtisadiyyatın ruhani gücü maksimal iqtisadiyyatın ruhani gücündən artıqdır.

*1 Murad günü, Od Ayı, 11-ci il. Bakı.*

## HƏQİQƏT

Köhnələn nə varsa – əslində təzələnmir, yalnız köhnəlməyən təzələnir.

*2 İnam günü, Od Ayı, 11-ci il. Bakı.*

## HƏQİQƏT

Dəyişirik Həqiqətə qədər – Həqiqət dəyişmir.

*3 Arzu günü, Od Ayı, 11-ci il. Bakı.*

## HƏQİQƏTSİZLİK

Güzəştdə İki Yarımhəqiqət birləşib bir Həqiqətsizlik yaradır.

***Güzəşt – Həqiqətsizlikdən faydalanmaqdır.***

## BAŞAŞAĞILIĞI

Güzəşt – əslində Baş saxlamağa yarayan Başaşağılığıdır.

## HƏQİQƏT

Zəmanənin arxasınca gedən arxada qalır.

## HƏQİQƏT

Dünyalaşmağın yeganə Yolu – Özümləşməkdir.

## FƏRQ

Azərbaycandan Məkkə yaratmaq lazımdır, İsveç yaratmaq lazım deyil.

*8 Murad günü, Od Ayı, 11-ci il. Bakı.*

## YERİMİZ

Hökumət Yurdumuzun bir qarışına belə sahib deyil əslində; bu səbəbdən də Yurdumuzun hər yerində Yerimiz var.

*9 İnam günü, Od Ayı, 11-ci il. Bakı.*

## ÖVLADIM ÖZÜMLÜYƏ

Lənkərandakı "Xalq Cəbhəsi" qrupu haqqında Özümlünün təhlili əsasında Qiymət.

1. Kiçik işlərə böyük inamları var, çünki əslində İnamsızdırlar.

2. Xalqı görmürlər – çünki daxili gözləri yoxdur.

3. Maddiyyatçılıq naşılığına pərçimləniblər.

4. İdrakca camaatdan fərqlənmirlər, bu cəhətdən də camaata gərək deyillər.

5. Sabahları yoxdur – bu səbəbdən də Bugünləri də olmayacaq.

6. Mahiyyətcə kommunistdirlər – Qızışdıran – Qorxan.

7. Şöhrətdən başqa tanrıları yoxdur – çünki Amalsızdırlar.

8. Şərləşəcəklər – çünki Xeyirləri yoxdur əslində.

Lənkəranda Amal Bağı salın – qoyun camaat onun barından bəhrələnsin.

*11 Ümid günü, Od Ayı, 11-ci il. Bakı.*

**Övladim Özümlünün Cənubdakı Ata Ailəsinin Əməli haqqında hesabatına Qiymət**

1. Özüylə döyüş Eşqləşir.

2. Ən gərgin, təhlükəli, əzablı məqamlara Daxili hazırlıq. Gerçəklikdən artıq silahlanmaq.

3. Artmaq – Ağac-Ağac!

***Nurlanın, Nurlandırın.***

## HƏQİQƏT

Müqəddəslik olmayan yerdə – Qələbə yoxdur.

*15 Murad günü, Od Ayı, 11-ci il. Bakı.*

## HƏQİQƏT

Ocaqsız yaşaya bilən – Ocaqda yaşaya bilməz.

*30 İnam günü, Od Ayı, 11-ci il. Bakı.*

## ÖVLADIM ULUYOLA

Yolumuz Uludur – çünki İnamlıyıq, İdraklıyıq, Mənəviyyatlıyıq, İradəliyik.

Yolsuzdurlar – bu səbəbdən də Ulusuzdurlar.

Ulu Yolla Müqəddəsliyə doğru gedirik.

***Uluyol*** adını sənə halal eləyirəm.

Daxilindən başlayır Uluyol, - Amallaşır, Sabahlaşır.

Müqəddəslik Suyunda durulacaq qanlı-qadalı dünya.

Daxilindəki Mütləq sənə Yar olsun!
Qaranlıqlar Yarılsın!

*1 Ümid günü, Qürub Ayı, 11-ci il. Bakı.*

(Qeyd: Həyatda adı İlqar idi. Ocaqdan çıxdı).

## VƏZİYYƏT

Cəmiyyətləşən Mülkiyyət – Mülkiyyətsizlikdir.
Cəmiyyətləşən İnsan – İnsansızlıqdır.

## ANTİEHKAM ƏLİFBASI

İctimai Fərd olmur, ictimai Şəxsiyyət olmur – İctimai İnsan olmur.

## VƏZİYYƏT

İctimai Mülkiyyəti xüsusiləşdirirlər – Yoxdan Var yaradırlar Allahsızlar.

*2 Dözüm günü, Qürub Ayı, 11-ci il. Bakı.*

## SAFRUHA

Müqəddəs “Ata Günü” Mərasimi –

1. Əsilin səsində Ata Ricasıyla açılır;

2. Müqəddəs Yığımla başlanır – Safruhun Ataya Ruhani Kitabların Təqdimiylə davam edir;

3. Övladların Ata haqqında Sözüylə artır;

4. Ata Sözüylə Kəlamlaşır;

5. Övlad Qəbuluyla Andlaşır;

6. Ruhani Sənədlərin oxunmasıyla başa çatır.

II. Mərasimin son yazısı bu ayın 15-də Ataya təqdim olunur.

Qaranlıqlar Yarılsın!

*3 Mərhəm günü, Qürub Ayı, 11-ci il. Bakı.*

## HƏQİQƏT

Əgər Göy olmasaydı, İnsanlar Yerdə Göyərməzdilər.

*4 Qismət günü, Qürub Ayı, 11-ci il. Bakı.*

### HƏQİQƏT

Doğma Hakim olmur, Yad Ata olmur.

*6 İnam günü, Qürub Ayı, 11-ci il. Bakı.*

### HƏQİQƏT

Rütbəsizlər üstünlüyü, Vəzifəsizlər üstünlüyü, Vəsiqəsizlər üstünlüyü.

### HƏQİQƏT

Gerçəkliyin Tələbi – Mütilik.
Gerçəklikdən Tələb – Vüqar.

### HƏQİQƏT

Dövrandan asılı olmadığın dərəcədə özünsən.
Dövrandan asılı olduğun dərəcədə özgəsən.

### HƏQİQƏT

Məna Birdir – Mənasızlıq Min.

*11 Qismət günü, Qürub Ayı, 11-ci il. Bakı.*

### XƏLQİ YÖN

Təcriddə təmizlənmək.

### HƏQİQƏT

***Sonlu*** – müəyyən deyil, yalnız sonsuz müəyyəndir.
***Keçici*** – müəyyən deyil, yalnız əbədi müəyyəndir.
***Qeyri-kamil*** – müəyyən deyil, yalnız kamil müəyyəndir.

*12 Murad günü, Qürub Ayı, 11-ci il. Bakı.*

## MƏQSƏD

İqtisadi Azadlıq – Əməkçi Mülkiyyəti.
İctimai Azadlıq – Fərdi Özünüidarə.
Siyasi Azadlıq – Atalıq.
Milli Azadlıq – Müstəqil Vətən.

## HƏQİQƏT

***Adi məna olmur. Mənalar hamısı qeyri-adidir.***
Adi Təzahürlər olur.

## HƏQİQƏT

Sonsuzluq olmasaydı – Sonlu olmazdı.
Əbədilik olmasaydı – Keçici olmazdı.
Kamillik olmasaydı – Qeyri-kamillik olmazdı.

***Əvvəl Məna yaranır, sonra Təzahür – Təzahür Mənaya çatmır.***
***Məna – İlahidir, Təzahür gerçək.***
***Məna gerçəklikdən artıqdır.***

*15 Ümid günü, Qürub Ayı, 11-ci il. Bakı.*

## ÖVLADIM ÖZÜMLÜNÜN TƏMSİL ETDİYİ ATA AİLƏSİ HAQQINDA

1. Ruhani Nitq Yetkinliyi artır, kal meyvələr dərilmir.

2. Özüylədöyüş dərinləşir, güclənir.

3. Ailənin Müqəddəslik Mahiyyəti qorunur – hərcayiliyə yol verilmir.

## *Zəruri Təkmilləşmə*

***1. Özüylə Döyüş çeşidlənsin;*** Bir Duyğu ətrafında cəmləşsin, onu aradan qaldırandan sonra Başqa Duyğuyla döyüş başlansın: məs., Qorxu Duyğusundan sonra Xudbinlik və s...

***Hər Ailə günü Bir Duyğuyla döyüşə həsr edilsin.***

2. Hər Ailə günü – Amalımızın Bir İdeyasına həsr olunsun – İdeyalar Bir-Bir öyrənilsin – Müqəddəs Kitablar əsasında...

Müqəddəsatdan hissələr oxunsun, Təhlil edilsin, İdraka, Duyğuya həkk olunsun...

Ruhani Hökmlər öyrənilsin.

3. Camaatla Təmas üçün ***Ruhani Söhbətlər Biçimindən*** istifadə olunsun.

Müəssisələrə Yol açılsın.

Camaatın yanına Müqəddəs Kitablarla silahlanmış halda getməli, Kəlamlardan zəngin istifadə etməli, oxumalı.

İslamçılara Mütləqə aid Ata Sözü çatdırmalı.

4. Bayrağımız Ailənin başı üstündə dalğalansın.

5. Ruhani söhbətləri: Amalımız. Qədimliyimiz.

Bugünümüz – səpgisində aparın.

Əməldə və Müqəddəs Əməldə manşırlanmış Mətbuat, Radio, Televizor – Hərəkatlar Yağılığına qarşı Döyüşü gücləndirin – Ailə günündə həmin Döyüş Hərtərəfli canlansın!

6. Övlad hazırlığında Ruhani Sənədlərdən səmərəli istifadə etməli – Şərhli oxunuş təşkil etməli – zəngin.

7. Ata haqqında həqiqəti demək. Ata Ünvanını vermək – Ruhani, Müqəddəs səviyyədə – Atanın Ali Andlarını tanıtmaq.

***Qaranlıqlar Yarılsın!***
***Nur aparın, Uğur gətirin!***

*18 Qismət günü, Qürub Ayı, 11-ci il. Bakı.*

## VƏZİYYƏT

Dövlət olmayan millət – millət deyil.
Dövlətsizlik – əslində millətsizlikdir.

*19 Murad günü, Qürub Ayı, 11-ci il. Bakı.*

## OCAQ XƏTTİ

Yenidənqurmaya Qoşulmaq.
Yenidənqurmanı İfşa etmək.
Yenidənqurmadan İstifadə etmək.

## HƏQİQƏT

Yurdumuza Sosializm gərək deyil.
Kapitalizm gərək deyil.
Sosial-kapitalizm gərək deyil.
***Yurdumuza Ruhani cəmiyyət gərəkdir!***

*20 İnam günü, Qürub Ayı, 11-ci il. Bakı.*

## VƏZİYYƏT

Ermənilər Avropanı azərbaycanlılara qarşı çevirdilər.

Moskvanı azərbaycanlılara qarşı çevirdilər.

Azərbaycanlıların Təcrid ləyaqətindən bəhrələnmək məqamı gəlib çatır.

## HƏQİQƏT

Yadla Yadlaşmadan Doğmayla Doğmalaşmaq olmaz.
***Güzəşt Həşiri – cəfəngiyyatdır.***
Yadla Doğmalaşan – Doğmayla Yadlaşar.
Hamılıqla Doğmalaşmada – Doğmalıq itər.

## MƏNA

Göyün Yerə kölgəsi düşdü və Yer işıqlandı.

*22 Ümid günü, Qürub Ayı, 11-ci il. Bakı.*

### HƏQİQƏT

Əməkçi Mülkiyyətində – Mülkiyyətçilik itir – əməkçi Mülkiyyətlə doğmalaşır, Mülkiyyətçilik yadlığı aradan qalxır.

### HƏQİQƏT

Məna gerçəkliyə bərabər olsaydı – mənasızlaşardı.

*25 Qismət günü, Qürub Ayı, 11-ci il. Bakı.*

### HƏQİQƏT

Yerin mənası Göydədir. Musiqi bunu İnsanların yadına salır.

*27 İnam günü, Qürub Ayı, 11-ci il. Bakı.*

### VƏZİYYƏT

Cəmiyyətə İşıq salmaq əvəzinə, cəmiyyətdən İşıq aradılar İnsanlar və Qaranlığa düşdülər.

*28 Arzu günü, Qürub Ayı, 11-ci il. Bakı.*

### HƏQİQƏT

"Həqiqət acıdır!" – deyirlər.
"Bəşər Həqiqət acıdır!" – deyirik.

### HƏQİQƏT

Ölümünə layiq yaşayan olmayıb dünyada.

*29 Ümid günü, Qürub Ayı, 11-ci il. Bakı.*

### ÖVLADIM GÜNEVƏ

Evləri Günsüzdür Bugünkülərin.
İnam Günü düşmür Evlərinə –
İdrak Günü düşmür,
Mənəviyyat günü düşmür,
İradə günü düşmür.

***Gün olmalıyıq Evlərə.***

İnamlanmalıdır, İdraklanmalıdır, Mənəviyyatlanmalıdır, İradələnməlidir Həyanlıq.

Gün evi doğacaq Dünyaya Yurdumuzdan.

***Günev*** adını sənə halal eləyirəm.

Adına layiq ol.

Ürəyin Qaranlıqları Yarsın!

Daxilindəki Mütləq sənə Yar olsun!

(Qeyd: Həyatda adı Əlabbas idi. Ocaqdan uzaqlaşdı).

## HƏQİQƏT

Ümidsizliyin Ümid adlı Mənası var –
Ümidsizlik anında unudulan.

*3 İnam günü, Ata Ayı, 11-ci il. Bakı.*

## FƏRQ

Zaman adamın ayağının altından qaçır, İnsanın ayağının altına sərilir.

*4 Arzu günü, Ata Ayı, 11-ci il. Bakı.*

## VƏZİYYƏT

Hökumət Xalqı birliyə çağırır.
Antixalq Xalqı birliyə çağırır.
Əslində Xalqı Hökumətə qarşı birliyə çağırmaq lazımdır.

## HƏQİQƏT

Ocaq – qeydə alınmaz. Ruh – qeydə alınmaz.
Ocaq qeydlə yanmaz, Qeybdən yanar.

## ÖVLADIM UCALIYA

Yurdumuz Ucadır – bu səbəbdən – Ucalıyıq.
Amalımız Ucadır – bu səbəbdən – Ucalıyıq.
İnamımız Ucadır – bu səbəbdən – Ucalıyıq.
İdrakımız Ucadır – bu səbəbdən – Ucalıyıq.
Mənəviyyatımız Ucadır – bu səbəbdən – Ucalıyıq.
İradəmiz Ucadır – bu səbəbdən – Ucalıyıq.

Uca Yurddanıq, Uca Amaldanıq, Uca İnamdanıq, Uca İdrakdanıq, Uca Mənəviyyatdanıq, Uca İradədənik.

***Ucalı*** adını sənə halal eləyirəm.
Adına layiq ol.

Daxilindəki Mütləq sənə Yar olsun!
Qaranlıqlar Yarılsın!

*8 Qismət günü, Ata Ayı, 11-ci il. Bakı.*

(Qeyd: Həyatda adı Teymur idi. Ocaqdan çıxdı).

## HƏQİQƏT

Həyatın arxasınca gedən – azır.

*11 Arzu günü, Ata Ayı, 11-ci il. Bakı.*

## ÖVLADIM DAĞTƏKİNƏ

Dağ – Vüqar Rəmzidir.
Bugünkülər Vüqarsızdırlar, çünki Qürrəlidirlər.

Dağ – Sabitlik Rəmzidir.
Bugünkülər Dəyişkəndirlər, çünki Əsassızdırlar.

Dağ – Qüvvət Rəmzidir.
Bugünkülər Qüvvətsizdirlər, çünki İnamsızdırlar.

Dağ – Dözüm Rəmzidir.

Bugünkülər Dözümsüzdürlər, çünki Yolsuzdurlar.

Dağ boyda Dərdimiz var – Dərdimiz Boydayıq.

***Dağtəkin*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Ürəyin Qaranlıqları Yarsın!
Daxlindəki Mütləq sənə Yar olsun!

## ÖVLADIM ODTƏKİNƏ

Oda sitayiş eləyiblər Qədimlərimiz.
Külə dönüblər bugünkülər.
Odu İşıq Rəmzi sayıblar Qədimdə.
Zülmətdə azıblar bugünkülər.
Od Təmizlik Rəmzi olub Ulularımızın.
Çirklidir bugünkülər.
Qanan olub, Yanan olub Əcdadlar.
Naşıdır, Sönükdür bugünkülər.
Odu qoruyublar Xalislər.
Oddan qorunurlar Bəsitlər.

***Odtəkin*** adını sənə halal eləyirəm.
Adına layiq ol.

Daxilindəki Mütləq sənə Yar olsun!
Qaranlıqlar Yarılsın!

*17 İnam günü, Ata Ayı, 11-ci il. Bakı.*

## HƏQİQƏT

İnsan Həqiqətini tapanda xoşbəxt olur.

## HƏQİQƏT

Zamanın arxasına düşən – arxada qalır.

*19 Ümid günü, Ata Ayı, 11-ci il. Bakı.*

## QAYDA

Ocağa gələnlərə "Xoş gəldin", –
Ocaqdan gedənlərə "Xoş getdin" – demək gərək!

## ÖVLADIM GÖYTƏKİNƏ

Yerin Mənası Göydədir.

Mənasızdır Bugünkülər, çünki Göysüzdürlər.

Göy olaq Yurdumuza – Məna Göyü, İnam Göyü, İdrak Göyü, Mənəviyyat Göyü, İradə Göyü.

Göytəkin olaq – Yüksək: Yerin Yüksəkliyi Göydədir.

***Göytəkin*** adını sənə halal eləyirəm.

Adına layiq ol.

Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*20 Dözüm günü, Ata Ayı, 11-ci il. Bakı.*

(Qeyd: Həyatda adı Ayişə idi. Ocaqdan çıxdı).

## ÖVLAD VAXTI

Övlad ***hər gün Amallaşmaq*** üçün vaxt tapmalıdır.

***Özüylədöyüş*** üçün vaxt tapmalıdır.

***Ailə Gününə*** hazırlaşmaq üçün vaxt tapmalıdır.

***Fikir Evinə*** hazırlaşmaq üçün vaxt tapmalıdır.

***Müqəddəs Mərasimlərə*** hazırlaşmaq üçün vaxt tapmalıdır.

***Müqəddəs Ricalar vasitəsiylə*** Mütləqə Səcdə Yüksəkliyinə qalxmalıdır.

***Övlad Vaxtı diriltməlidir!***

***Vaxtı öldürən Övladlığı öldürür!***

## FİKİR EVİ ƏMƏLİ

Hər bir Övlad işlədiyi yerdə Fikir Evi yaradır:

Fikir Evində Ruhani Sənəd öyrənilir, Atayla Təmas hazırlanır.

## ATA AİLƏLƏRİ HAQQINDA

1. Ailələr – Müqəddəs Mərasimlərə hazırlıq və Müqəddəs Mərasimlərin davamı olmalıdır.

Məqsəd: Amallaşmaq, İnsanlaşmaq, Xalqlaşmaq, Övladlaşmaq, Övladlaşdırmaq.

2. Ailələr "Əməl" və "Müqəddəs Əməl" Kəlamlarının Ruhuna və Hərfinə tam Uyğun surətdə keçirilir.

3. Müqəddəsliyə ən cüzi etinasızlıq – Ocağa xəyanət sayılır və Hərcayi Ailə ləğv olunur.

*22 Qismət günü, Ata Ayı, 11-ci il. Bakı.*

## HƏQİQƏT

Yüz ağıl Bir Ağıldan yüz dəfə kiçik ola bilər.
Min ağıl Bir Ağıldan min dəfə kiçik ola bilər.
***Çox ağıllılıqda Ağılsızlıq yaşayır.***

*23 Murad günü, Ata Ayı, 11-ci il. Bakı.*

## ÖZÜMLÜNÜN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN VII AİLƏ GÜNÜ HAQQINDA

1. Ailə Müqəddəslik Yoluyla irəliləyir, Fədakarlıq nümunəsi göstərir.

2. Fikir Evi vasitəsiylə Ailənin İşığını camaatın üstünə salmalı.

3. Mütləqə İnam Ruhaniyyatını bütün dərinliyi, incəliyiylə mənimsəməli və xalqa çatdırmalı.

4. Rayonda Ailənin nəzdində Sorğular-Cavablar Evi yaratmalı, camaatı Ruhaniləşdirməli.

5. Ailə günlərini Amallaşma, Özüylədöyüş, Övladlaşma və Xalqla Təmas Dördlüyü əsasında keçirməli.

6. Sorğular – Cavablar Əməlinin Məzmunu:

Əsil və Süni İnam.
Əsil və Süni İnsan.
İnsani Cəmiyyət.
Vətən və Vətənsizlik.
Əsil və Süni Əməl.
Şərqliyimiz.

Artın, Artırın!

Qaranlıqlar Yarılsın!

*26 Ümid günü, Ata Ayı, 11-ci il. Bakı.*

## HƏQİQƏT

Dönüklər bahasına əksilməyimiz – artmağımızdır.

*5 Mərhəm günü, Ata Ayı, 11-ci il. Bakı.*

## HƏQİQƏT

Ruhani Suyu Peyğəmbərlər Səhrada tapıblar.

*6 Qismət günü, Xəzan Ayı, 11-ci il. Bakı.*

## ÖVLADIM NURANDA

Andsızdırlar, çünki Nursuzdurlar.

Andsızdırlar – Adsızdırlar: İnamsızdırlar, İdraksızdırlar, Mənəviyyatsızdırlar, İradəsizdirlər.

Nurandlıyıq: Amallıyıq, Sabahlıyıq.
***Nurand*** adını sənə halal eləyirəm.
Adına layiq ol.

Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*8 İnam günü, Xəzan Ayı, 11-ci il. Bakı.*

(Qeyd: Həyatda adı Məhəmmədəli idi. Qəbula gəlmədi).

## QƏDİMYURDDA ÖVLADIM QƏDİMİN TƏMSİL ETDİYİ ATA AİLƏSİNƏ

1. Amallaşın – Amallaşdırın.
Döyüşün – Döyüşdürün.
Övladlaşın – Övladlaşdırın.
Xalqlaşın – Xalqlaşdırın.

***2. Hər Ailə günündə: Amal öyrənilir, Özüylə döyüşün nəticəsi yoxlanılır, Övladlığa manşırlanan Rəğbətçilər dəvət olunur, Xalqla Təmas hazırlanır.***

3. Amal Qanuni ardıcıllıqla öyrənilir:

***Mütləqə İnam.***
***Özüylə Döyüş.***
***Ruhani Cəmiyyət.***
***Müstəqil Vətən.***
***Özümlü Şərq.***

Ailə günləri ciddi hazırlanır: Müqəddəs Kitablardan, "Təlim"dən, "Məbəd"dən, "Ocaq Tarixi"ndən istifadə olunur, Ata Kəlamları oxunur, öyrənilir.

***4. Özüylədöyüş:*** Qorxu, Hərislik, Şəhvət, Həsəd, Yalan, Mütilik, Həşirçilik, Sürülük, Riyakarlıq, Dövrançılıq, Yırtıcılıq, Bəsitlik, Dönüklük kimi Qəbahətlər Ömürdən, Ağıldan, Ürəkdən silinir:

Özünlə tək qalırsan, üz-üzə durursan, Ruhani əməlin nəticələrini Dəftərə yazırsan, Ailə günündə oxuyursan – ***şərh olunur, qiymətləndirilir.***

5**.** ***Övladlaşma*** – Rəğbətçilərlə Ailə günlərində və onlardan kənar Ruhani İş.

6. ***Xalqlaşma:*** Ailənin nəzdində camaat üçün Fikir Evi yaratmaq; ilk növbədə Ruhani Sənədləri öyrətmək, Bugünün və Sabahın Mahiyyətini Xalqa anlatmaq və tədricən Amalla camaat arasında körpü salmaq.

7. Ailə günü Mərasimləşsin: Bayrağımız, Carlarımız, Məşəllərimiz, Musiqimiz Qədimyurdu nurlandırsın.

Kassetlərdən istifadə olunsun.

8. Ailəylə Bakı arasında müntəzəm əlaqə saxlanılsın.

Təmsilçi Qədim hər üç aydan bir Ata Hüzuruna gəlsin – Ataya hesabat versin, Atadan məsləhət alsın.

9. Özümlünün təmsil etdiyi Ata Ailəsi təcrübəsi öyrənilsin, təqlidçiliyə yol vermədən, yaradıcılıqla mənimsənilsin.

10. Ailə ardıcıl şəkildə Qarabağlaşsın, başqa rayonlarla, kəndlərlə Təmas, Birlik yaransın.

Yükümüzdən Böyük Fərəhimiz Yoxdur!

## 11-ci il “ATA GÜNÜ” MƏRASİMİ

1. Mərasimdə Yetkinləşən Səcdə səviyyəsi və Ucalan Övlad Fədakarlığı təsdiq olundu.

Halal qətiyyət Ruhani Əməl səviyyəsində idi: ***Maddi Yığımda Ruhani nailiyyət ifadə olundu*** – Özümlünün təmsil etdiyi Ata Ailəsi və Safruh Doğmalarına örnək oldular.

2. Safruhun “Məbəd”, “Müqəddəs Təlim”, “Ocaq Tarixi” Ruhaniyyatına sərf olunan Ləyaqətli, Siqlətli Əməyi Təqdir olunur.

3. Əsilin Kamilləşən Təşkilatçılığı, Sadiqimin, Üstünün Ruhani Evliyi Təqdir olunur.

4.Mərasim İşığa qərq olmuşdu:
Övlad Səcdəsinə, Ata Məhəbbətinə.

5. Əsilin, Sadiqin, Haqlının Müqəddəs Kitabların tərcümə çeşidlərinin biçimləşməsində – çapında, cildləşməsində, yoxlanılmasında Gərgin, Səmərəli Əməyi Təqdir olunur.

Qaranlıqlar Yarılsın!

### SABAHLI ƏMƏL

I. Övladım Safruhumun cafakeşliyi nəticəsində Ata Hökmü yerinə yetirildi: “Məbəd” kitabı, “Müqəddəs Təlim” məcmuəsi, “Ocaq Tarixi” hazırlandı.

***Bu, Amalımızın Yolunda yeni Mərhələ deməkdir.***

***II. Safruhun Fədakar Əməyi Təqdir olunur.***

III. Kitablar artırılmalı və Xalqa çatdırılmalıdır.

IV. Övladlığa qəbul olunanlar Kitabları öyrənir, Övladlar Kitablara sahib olurlar.

V. "Məbəd" Ləyaqət səviyyəsində satılır, Ocaq maddiyyatına yarayır, xalqın Amallaşmasına gərək olur.

Qaranlıqlar Yarılsın!

*16 Arzu günü, Xəzan Ayı, 11-ci il. Bakı.*

## SAFRUHUN ORTA ASİYA SƏFƏRİ

Orta Asiyanın qapısı Amalımızın üzünə açıldı, indi Evə daxil olmaq, onu İşıqlandırmaq lazımdır.

## AKTYOR EVİNDƏ ATAYLA GÖRÜŞ

I. Görüş camaatı Amala yönəltmə Yolunda ciddi addım oldu.

II. Övladım Əsilin Yaradıcı, İnadkar, Fədakar Təşkilatçılığını xüsusi qeyd etmək gərək.

*25 Dözüm günü, Xəzan Ayı, 11-ci il. Bakı.*

## MÜQƏDDƏS MƏTBUAT

I. Məbəd, Müqəddəs Təlim və Ocaq Tarixinin hazırlanmasıyla Amal Mətbuatı yarandı.

II. Safruhun Zəngin, Səriştəli, Uğurlu Əməli xüsusi Təqdir olunur.

III. Müqəddəs Mətbuatı ardıcıl şəkildə xalqa çatdırmalı.

**XƏTT**

Minimal İmkandan maksimal istifadə.

*27 Qismət günü, Xəzan Ayı, 11-ci il. Bakı.*

**BAKIDAKI ATA AİLƏSİNİN TƏMSİLÇİSİ SAFRUHUN HESABATI HAQQINDA**

Ailə Müqəddəslik üstə köklənib – Müqəddəslik çalmalıdır!

**TELETEATRDA ATAYLA GÖRÜŞ**

Görüş Amalın xalqlaşmasına yaradı...

Əsilin yaradıcı, inadkar, fədakar Təşkilatçılığı xüsusi qeyd olunmalıdır.

**NEFT və KİMYA İNSTİTUTUNDA ATAYLA GÖRÜŞ**

Amalla camaatın doğmalaşması yolunda irəliləyiş oldu Mərasim.

Əsilin yaradıcı, inadkar, fədakar Təşkilatçılığı xüsusi qeyd olunmalıdır.

*28 Ümid günü, Yağış Ayı, 11-ci il. Bakı.*

**POLİTEXNİK İNSTİTUTUNDA ATAYLA GÖRÜŞ**

Mərasimdə Amal bildirildi, əmələ çağırıldı.

Əsilin Təşkilatçılığı yüksək səviyyədəydi.

*29 Dözüm günü, Yağış Ayı, 11-ci il. Bakı.*

## 11-ci İL "SƏFƏR GÜNÜ" MƏRASİMİ

1. Mərasim Mütləq Səcdə üstündə köklənir və 4 hissədən ibarət olur:

I. Ata Kəlamı.

II. Övladlaşma.

III. Safruhun Səfər Təcrübəsi.

IV. Övladların Səfər, yaxud Səfərsizlik haqqında sözləri.

2. Mərasimin gedişatını Halal yazır və Sərt Ayının 15-də Ataya təqdim edir.

3. Mərasim Əsilin Evində keçirilir – 2 saat müddətində.

*4 Arzu günü, Sərt Ay, 11-ci il. Bakı.*

## ÖVLADIM DOSTA

Şərdən başqa Düşmənimiz yoxdur.
İnsanın daxilindəki Şərdən başqa.
Dünyanın daxilindəki Şərdən başqa.
Xeyirə Dostuq.
***Dost*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*5 Ümid günü, Sərt Ay, 11-ci il. Bakı.*

(Qeyd: Həyatda adı Hidayət idi. Ocaqdan çıxdı.)

## QƏLBİ GƏLİŞİ

Övladlarım Sadiqimin və Üstünün oğlu Qəlbi adlandırılır – Yüksək və Ürəkli böyüsün, Ataya Övlad olsun.

Layla üstündə köklənsin Analığı Üstünün,
Qayğı üstündə köklənsin Atalığı Sadiqin.

## RUHANİ TOPLU

Sadiqimin tərtib etdiyi "Övlad sözü" – Amala gərəkdir, İşıq payıdır camaata Övladlardan. Yayılsın Car kimi.

*7 Dözüm günü, Sərt Ay, 11-ci il. Bakı.*

## ÖVLADIM GÖYLÜYƏ

Yerin mənası Göydədir.
Göylüyük – çünki İnamlıyıq.
Göysüzdürlər – çünki İnamsızdırlar.

Göylüyük – çünki İdraklıyıq.
Göysüzdürlər – çünki İdraksızdırlar.

Göylüyük – çünki Mənəviyyatlıyıq.
Göysüzdürlər – çünki Mənəviyyatsızdırlar.

Göylüyük – çünki İradəliyik.
Göysüzdürlər – çünki İradəsizdirlər.
Yurdçuyuq – Göylüyük.
***Göylü*** adını sənə halal eləyirəm.
Adına layiq ol.

Daxilindəki Mütləq sənə Yar olsun!

*11 Arzu günü, Sərt Ay, 11-ci il. Bakı.*

(Qeyd: Həyatda adı Rəhilə idi. Ocaqdan çıxdı).

## MƏNƏVİ RƏMZLƏR

Cənnət – İnam.
Cəhənnəm – Tərəddüd.
O dünya – Kamillik.
Bu dünya – Naşılıq.

*15 Qismət günü, Sərt Ay, 11-ci il. Bakı.*

## SAFRUHUN QƏDİMYURD AİLƏSİ MƏRASİMİ HAQQINDA HESABATI

1. Mərasim Müqəddəslik məzmununda, Ruhani biçimdə, Bənzərsizlik Qanununa uyğun, Ləyaqət İşığında keçib.

2. Safruhun Yüksək Əməli təqdir olunur.

3. Övladların Amal Birliyi, Mübahisəsizlik Doğmalığı təqdir olunur.

Məzmun Mütləqiliyinə çatın!
Biçim Mütləqiliyinə çatın!

Qaranlıqlar Yarılsın!

*25 Arzu günü, Sərt Ay, 11-ci il. Bakı.*

## ÖVLADIM QALAYA

İnam Qalasını uçurtdular İnamsızlar.
İnam Qalası tikməliyik.
İdrak Qalasını uçurtdular İdraksızlar.
İdrak Qalası tikməliyik.
Mənəviyyat Qalasını uçurtdular Mənəviyyatsızlar.
Mənəviyyat Qalası tikməliyik.
İradə Qalasını uçurtdular İradəsizlər.
İradə Qalası tikməliyik.

Qala olmalıyıq Yurda.
***Qala*** adını sənə halal eləyirəm.
Adına layiq ol.

Qaranlıqlar Yarılsın.
Daxilindəki Mütləq sənə Yar olsun!

(Qeyd: Həyatda adı Sahib idi. Ocaqdan çıxdı).

## SUMQAYITDA ATAYLA GÖRÜŞ

Mərasim Amala çağırdı, Şər tanındı, Xeyir təsdiqləndi.
Soylunun sürətlə yetkinləşən Təşkilatçılığı Təqdir olunur.

*26 Ümid günü, Sərt Ay, 11-ci il. Bakı.*

## ÖVLADIM LAYİQƏ

İnama layiq deyil Bugünkülər –
Çünki İnamları nisbidir – yəni yoxdur.
İdraka layiq deyil Bugünkülər –
Çünki İdrakları nisbidir – yəni yoxdur.
Mənəviyyata layiq deyil Bugünkülər –
Çünki Mənəviyyatları nisbidir – yəni yoxdur.
İradəyə layiq deyil Bugünkülər –
Çünki İradələri nisbidir – yəni yoxdur.
İnama layiqik – çünki İnamımız Mütləqdir.
İdraka layiqik – çünki İdrakımız Mütləqdir.
Mənəviyyata layiqik – çünki Mənəviyyatımız Mütləqdir.
İradəyə layiqik – çünki İradəmiz Mütləqdir.

Mütləq İnam gətirməliyik ömürlərə.
Mütləq İdrak gətirməliyik ömürlərə.
Mütləq Mənəviyyat gətirməliyik ömürlərə.
Mütləq İradə gətirməliyik ömürlərə.

***Layiq*** adını sənə halal eləyirəm.
Adına layiq ol.

Qaranlıqlar Yarılsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

(Qeyd: Həyatda adı Əlikram idi. Ocaqdan çıxdı).

## ÖVLADIM FƏRƏHƏ

Fərəhsizdirlər Bugünkülər – çünki İnamsızdırlar, İdraksızdırlar, Mənəviyyatsızdırlar, İradəsizdirlər.

Fərəhliyik – çünki İnamlıyıq, İdraklıyıq, Mənəviyyatlıyıq, İradəliyik.

Fərəh gətirməliyik Ömürlərə – İnam Fərəhi, İdrak Fərəhi, Mənəviyyat Fərəhi, İradə Fərəhi.

Fərəhsizdir Bugünkülər – çünki Ülvi Fərəh tanımırlar.

Ülvi Fərəh gətirməliyik Ömürlərə, Ülvi Fərəhə qərq olmalıdır ömrümüz.

***Fərəh*** adını sənə halal eləyirəm!

Qaranlıqlar Yarılsın.
Daxilindəki Mütləq sənə Yar olsun!

*26 Ümid günü, Sərt Ay, 11-ci il. Bakı.*

(Qeyd: Həyatda adı Mikayıl idi. Ocaqdan çıxdı).

## “SƏFƏR GÜNÜ” MƏRASİMİ

Mərasim Yetkin keçdi.

Əsilin Təşkilatçılığı, Safruhun Sözü, Halalın Yazısı, Övladların Riqqəti Müqəddəslik səviyyəsindəydi.

Nöqsan: Toplanış Mütləqiliyinin pozulması.

Qaranlıqlar Yarılsın!

*30 Murad günü, Sərt Ay, 11-ci il. Bakı.*

## FƏRQ

Səcdədə İnsan özündən Yüksəyə ucalır.
Mütilikdə İnsan özündən Güclüyə alçalır.

## MANEƏLƏR

İnsaniliyə ən çox Allahlar mane olublar – təxəyyülləşən Hökmdarlar.

## HƏQİQƏT

Mədəniyyətin əsası İnamdır,
İnamsızlıq – Mədəniyyətsizlikdir.
Mədəniyyət üçün məktəb azdır,
Mehrab gərək!

*31 İnam günü, Sərt Ay, 11-ci il. Bakı.*

## VƏZİYYƏT

İslam millət tanımır, bu səbəbdən də İslam İranı azərbaycanlı tanımır – Vahid Azərbaycan ideyası İslamla döyüş tələb eləyir: İslam heyranları Yurda xəyanət eləyirlər, Yağıya xidmət eləyirlər.

## HƏQİQƏT

Talış Türklə birləşib Bir olub,
Türkdən ayrılıb İkiləşmək ona nə verər?
Kürd Türklə birləşib Bir olub,
Türkdən ayrılıb İkiləşmək ona nə verər?
Tat Türklə birləşib Bir olub,
Türkdən ayrılıb İkiləşmək ona nə verər?
Lahıc Türklə birləşib Bir olub,
Türkdən ayrılıb İkiləşmək ona nə verər?
***Yağıya yarayan – özünə yaramaz!***

## CƏFƏNG ŞÜAR

Türkləşmə – millətləşmə deməkdir, İslam – millət tanımır, bu səbəbdən də türkləşməyə ziddir; "türkləşmə - islamlaşma" şüarı cəfəngiyyatdır; islamlaşan türkləşə bilməz, müsəlmanlaşa bilər yalnız.

*1 Arzu günü, Qar Ayı, 11-ci il. Bakı.*

## FƏRQ

Xristianlar Mərhəmətə əsaslanır, Hürufilər Heyrətə.
İslam İnsanı Qorxudur, Hürufilər İnsana Səcdə qılır.

## HƏQİQƏT

Əgər özünü görə bilmirsənsə, kimi görə biləcəksən?

*2 Ümid günü, Qar Ayı, 11-ci il. Bakı.*

## HƏQİQƏT

Məhəbbət – Bədənin üzağlığıdır.

## GƏRƏKSİZLİK

Gözəllik Sirdir, Sehrdir; "Estetika Elmi" Sirri, Sehri öldürür – bu səbəbdən də o, Gözəllik Təlimi yox, Gözəllik Məzarıdır.

## VƏZİYYƏT

Qərb sübut elədi ki, Bəşər maddiyyatçılığa baş əyir.
Şərq sübut eləməlidir ki, İnsan maddiyyatçılığı əyir.

## VƏZİYYƏT

Dünya Qərbindir, Dünyanın Dərdi –Şərqin.

## VƏZİYYƏT

Qərb oyaq görünür, əslində isə Yuxudadır – Ruhsuzluq Yuxusunda.

## RUHANİ TƏŞKİLATÇILIQ MƏRASİMİ

Övladım Əsilin Yaradıcı, İnadkar, Fədakar fəaliyyətindən Ruhani Təşkilatçılıq əməli yaranıb – Mərasimləşməyə layiq.

Hər Od ayının 7-si "Ruhani Təşkilatçılıq Günü" sayılır və Bayram edilir.

*3 Dözüm günü, Qar Ayı, 11-ci il. Bakı.*

## ALTERNATİV YOXLUĞU

Amal Alternativliyi Yoxdur – Amal Birdir.
Həqiqət Alternativliyi Yoxdur – Həqiqət Birdir.
Amalsızlıq Alternativliyi Var – Amalsızlıq – Çoxdur.
Həqiqətsizlik Alternativliyi Var –Həqiqətsizlik – Çoxdur.

## HƏQİQƏT

Ziyalı Təbəqəsi – Ziyasızdır.

Ziyalı – Təbəqədən artıqdır, böyükdür, yüksəkdir – mahiyyətcə Təbəqəyə qarşıdır.

## HƏQİQƏT

Birlik gərək: Ata ətrafında, Atalıq ətrafında, Ata Amalı ətrafında, Ata Sabahı ətrafında.

*17 Dözüm günü, Qar Ayı, 11-ci il. Bakı.*

## HƏQİQƏT

Xalqın səviyyəsinə enmək – Xalqa xəyanət eləməkdir.

*19 Qismət günü, Qar Ayı, 11-ci il. Bakı.*

## HƏQİQƏT

Beynəlmiləlçilik əvəzinə – Humanizm.
Kollektivçilik əvəzinə – Birlik.
Dövlətçilik əvəzinə – Xalqçılıq.
Marksizm əvəzinə – Amal.

## VƏZİYYƏT

Kommunistlər Azərbaycanı kommunizm zülmətinə qərq etdilər.

İndi də İslamçılar Azərbaycanı islam zülmətinə qərq etmək istəyirlər.

*25 Mərhəm günü, Qar Ayı, 11-ci il. Bakı.*

## HƏQİQƏT

Qəzavü-qədərdə Ruhaniyyat yoxdur, o dünya cəfəngiyyatında Ruhaniyyat yoxdur; hürü-pəri şirniyyatında, Yeri – Göyü yaradan Allah vəhmində Ruhaniyyat yoxdur;

İslam – dəhşətli Ruhsuzluqdur əslində.
Qərb – Maddiyyatçılıq Ruhsuzluğudursa –
İslam – ilahiyyatçı Ruhsuzluqdur.

## HƏQİQƏT

Mütləq olmasaydı – Nisbi olmazdı.
Sonsuz olmasaydı – Sonlu olmazdı.
Əbədi olmasaydı – Keçici olmazdı.

Mütləq olmasaydı – Nisbi Mütləq sayılardı.
Sonsuz olmasaydı – Sonlu Sonsuz sayılardı.
Əbədi olmasaydı – Keçici Əbədi sayılardı.

## VƏZİYYƏT

Nüvə silahının yaranması – maddi tərəqqi və mənəvi iflasdır.

Nüvə silahından əqidəsizlik bahasına xilas olmaq yenə də mənəvi iflasdır.

İnsan İnsan olsaydı – Nüvə silahı yaranmazdı.
İnsan İnsan olsaydı – Əqidəsizlik yaranmazdı.

*27 Murad günü, Qar Ayı, 11-ci il. Bakı.*

## HƏQİQƏT

Dialektika – Üzdəki.
Metafizika – Daxildəki.

*28 İnam günü, Qar Ayı, 11-ci il. Bakı.*

## ÖVLADIM QEYRƏTƏ

Qeyrətdən uzaqdırlar Bugünkülər – çünki İnamdan uzaqdırlar, İdrakdan uzaqdırlar, mənəviyyatdan uzaqdırlar, İradədən uzaqdırlar.

Mütləqsizdirlər – bu səbəbdən də hünərsizdirlər.

İnamlıyıq, İdraklıyıq, Mənəviyyatlıyıq, İradəliyik, bu səbəbdən də Qeyrətə tapınırıq...

Qeyrət İşığına qərq olmalıdır Yurdumuz.
***Qeyrət*** adını sənə halal eləyirəm.
Adına layiq ol.

Qaranlıqlar Yarılsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

(Qeyd: Həyatda adı Bəhram idi. Öldü).

## ÖVLADIM YURDÇUYA

Yurdçuyuq – Mütləqçiyik.
Yurdçuyuq – Amalçıyıq.
Yurdçuyuq – sabahçıyıq.
Yurdçu İnamımız Mütləqdir.
Yurdçu İdrakımız Mütləqdir.
Yurdçu İradəmiz Mütləqdir.
Yurdumuz – Müqəddəsimizdir,
Yurdçuluğumuz – Müqəddəsliyimizdir.

***Yurdçu*** adını sənə halal eləyirəm.

Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*5 Arzu günü, Köçəri Ay, 11-ci il. Bakı.*

(Qeyd: Həyatdakı adı Ələddin idi. Ocaqdan çıxdı).

## BİRİNCİ "AİLƏ GÜNÜ" MƏRASİMİ HAQQINDA

Mərasim Müqəddəsliyə yaradı, Mütləqi təsdiq etdi.

Özümlünün Sözü, Safruhun, Qədimin hesabatları, Əsilin təşkilatçılığı Təqdir olunur.

Nöqsanlar: İntizam Mütləqiliyinin pozulması.

Girişin sönüklüyü.

*10 Köçəri Ay, 11-ci il. Bakı.*

## MƏQSƏD

Mütləqi Tanımaq.
Nisbini Rədd etmək.
Mütləqə Çatmaq.

## HƏQİQƏT

Dövlətçilik – Zorakı Hamılaşma.
Demokratiya – Azad Hamılaşma.
***Hər ikisi – İnsanlaşmaya zidd.***

*19 Arzu günü, Köçəri Ay, 11-ci il. Bakı.*

## HƏQİQƏT

Əqidəsizlik Haqqından böyük Haqsızlıq yoxdur!

*21 Dözüm günü, Köçəri Ay, 11-ci il. Bakı.*

## VƏZİYYƏT

Dünya cəfəngləşib – hədsiz dərəcədə müdrik olmaq gərək.

## VƏZİYYƏT

Hər bir Dövr özünü doğrultmağa çalışır.
Bu səbəbdən heç bir Dövr özünü doğru qiymətləndirmir.
Dövrü yalnız Dövrdən yüksəkdə duran qiymətləndirə bilər.

## HƏQİQƏT

Mütləqə İnanırıq – bu səbəbdən də Dünyanın ölümünə İnanmırıq.

Mütləqə İnanırıq – bu səbəbdən də Nisbini Mütləq saymırıq.

Mütləqə İnanırıq – bu səbəbdən də Mütləqdən ayrılan Dünyanı Dünyasızlıq sayırıq.

## HƏQİQƏT

Sabaha gərək olduğumuz dərəcədə –
Bugünə gərəyik.
Sabahı gördüyümüz dərəcədə –
Bugünü görürük.
Bugünə qarşı olduğumuz dərəcədə –
Bugünlə təmasdayıq.

## HƏQİQƏT

I

Dünyanın Mənasına İnanıram- Məna həddinə İnanmıram. Bu səbəbdən Zəmanə İnamına İnanmıram.

II

Bugünün gözü – bugünü görmür;
Bugünün qulağı – bugünü eşitmir.
Sabah gözlü, sabah qulaqlı olmaq gərək...

*22 Mərhəm günü, Köçəri Ay, 11-ci il. Bakı.*

## HƏQİQƏT

Ocağa gələn – Doğulur. Ocaqdan gedən – Ölür.

## HƏQİQƏT

Ölkənin Atası olmayanda – Ağası olur.

*24 Murad günü, Köçəri Ay, 11-ci il. Bakı.*

## QORUYUCULUQ

Ruhaniyyatı Ehkamdan qorumaq.
Mənəviyyatı Cəmiyyətdən qorumaq.
İradəni Hökumətdən qorumaq.

*26 Arzu günü, Köçəri Ay, 11-ci il. Bakı.*

## 12-Cİ "YENI İL" MƏRASİMİ HAQQINDA

Mərasim Müqəddəsliyə yaradı, Mütləqi təsdiq etdi.

Safruhun Ricası, Övladların Sözü, Əsilin Təşkilatçılığı, Sadiqin Yazısı Təqdir olunur.

Nöqsan: İntizam Mütləqiliyinin pozulması.

*2 Günəş Ayı, Qismət günü, 12-ci il. Bakı.*

## SAFRUHUN GÜNDƏLİYİ HAQQINDA

1. Gündəlikdə Safruh Ataya yaxınlaşır və Atadan ayrılır.

***Ayrılma: Zahirilik.*** Guya Mərasim Xalq cəbhəsi Hünərinin yanında balaca işdir.

***Halsızlıq:*** Duyğu pərakəndəliyi.

***"Balaca Mən"dən asılılıq.***

2. Gündəlik – özünüqınamadır, özüylə döyüş deyil, özüylə-döyüşdə yön – özündənyüksəyə qalxmaqdır, gündəlikdə özündən kənara çıxmır Övlad.

3. Təmsilçilik – Ruhani Təmasdır, Fərqsizlikdir, başçılıq deyil, Hakimlik bizə yaddır;
Təmsilçi Qardaşdır – Doğma.

4. Gündəlikdə gerçəkliyi görmək, duymaq, anlamaq var, ötmək yoxdur.
***Gerçəkliyi ötmədən Həqiqətə çatmaq olmaz.***

## VƏZİYYƏT

Dini Dirçəldirlər – Ruhaniyyatı Zəhərləyirlər.

## HƏQİQƏT

Həyatın öz Qanadı yoxdur; Həyatın Qanadı – Amaldır.

*6 Ümid günü, Günəş Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Fərdi Fərdə tapşırmaq gərək – Xalqı Ataya.
Xalqı Xalqa tapşırmaq – Günahdır.

*12 Ümid günü, Günəş Ayı, 12-ci il. Bakı.*

## ÖVLADIM YÜKSƏYƏ

Dövrdən Yüksək olmadan Həqiqətə çatmaq olmaz.
Dövrdən Yüksək olmadan Amala çatmaq olmaz.
Dövrdən Yüksək olmadan İnama çatmaq olmaz.
Dövrdən Yüksək olmadan İdraka çatmaq olmaz.
Dövrdən Yüksək olmadan Mənəviyyata çatmaq olmaz.
Dövrdən Yüksək olmadan İradəyə çatmaq olmaz.

***Yüksək*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*17 Murad günü, Günəş Ayı, 12-ci il. Bakı.*

(Qeyd: Həyatda adı Əvəz idi. Ocaqdan çıxdı).

## İNŞAAT İNSTİTUTUNDA ATAYLA GÖRÜŞ

Görüş Amal çağırdı, Amala çağırdı.

Əsilin Təşkilatçılığı, Sadiqin Təşəbbüsü, Fərəhin Təqdimi Təqdir olunur.

*25 İnam günü, Günəş Ayı, 12-ci il. Bakı.*

## EVLADIM ÖTKÜNƏ

Zəmanə Əskikdir – onu ötmək gərək.

İnamdan əskikdir, İdrakdan əskikdir, Mənəviyyatdan əskikdir, İradədən əskikdir, İnsanlıqdan əskikdir Zəmanə.

Onu ötməlisən ki, İnama çatasan, İdraka çatasan, Mənəviyyata çatasan, İradəyə çatasan – İnsanlığa çatasan.

***Ötkün*** adını sənə halal eləyirəm.

Zəmanədən artıq ol ki, Həqiqət qarşısında, Ədalət qarşısında əskik olmayasan.

Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*27 Ümid günü, Günəş Ayı, 12-ci il. Bakı.*

(Qeyd: Həyatda adı Qiyas idi. Ocaqdan çıxdı).

## “YAS GÜNÜ”NÜN YAZISI

1. Mərasim Kədərə düşmək və Kədərdən çıxmaq İdeyaları əsasında qurulur.

2. “Yas Günü” Safruhun Ruhani Ricasıyla başlayır, Ataya Ricayla davam etdirilir, Ata Carıyla Müqəddəsləşir, Övlad Qəbuluyla varisləşir.

3. ***Ata Sözündən*** sonra Övlad Ağıları, Bayatıları, Məqamları, İzharları səslənir.

Ruhani Sənədlər oxunur.

4. Mərasim Ata Haraylarıyla müşayiət olunur.

5. Mərasim Əsilin Evində keçirilir.

*28 Dözüm günü, Günəş Ayı, 12-ci il. Bakı.*

## FİZİKA İNSTİTUTUNDA GÖRÜŞ

Görüş Amal çağırdı, Amala çağırdı – Xeyirə yaradı, Şəri döydü.

Əsilin Təşkilatçılığı təqdir olunur.

*8 İnam günü, Çiçək Ayı, 12-ci il. Bakı.*

## FƏRQLƏR

Gerçəkliyə bərabər olan İdeal yoxdur.
Kapitalizm gerçəkliyə xidmət eləyir: –
Bu səbəbdən də kapitalizm İdealsızdır...

Maddiyyata bərabər olan İdeal yoxdur.
Sosializm maddiyyata xidmət eləyir: –
Bu səbəbdən də sosializm İdealsızdır.

İdeal – Mütləqə çatmaq deməkdir – bu səbəbdən də Ruhani cəmiyyət – İdeallı cəmiyyətdir.

## HƏQİQƏT

İnsanlaşma – Mənafeyə əsaslanan cəmiyyətə ziyandır.
İnsanlaşma – Zora əsaslanan cəmiyyətə ziyandır.
İnsanlaşma – kapitalizmə və sosializmə ziyandır.

*9 Arzu günü, Çiçək Ayı, 12-ci il. Bakı.*

## ÖZÜMLÜNÜN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN HESABATI HAQQINDA

I. Ailə əməli təqdir olunur – Üsul əlvanlığı artır – özünü-tanıma Yetkinləşir.

II. Mütləqilik tələb eləyir ki, Timsalçının girişi “Atayla Görüş”dən sonra deyilsin.

III. “Əxlaq” və “Həqiqət” Kəlamları əsasında qurulsun təzə Ailə günləri.

IV. Lənkərandakı “Talış Evlərinə” müdaxilə eləmək: “Bütöv Yurd” ideyasını Mütləqilik səviyyəsində Aşılamaq (Ruhani Sənədlərdən, maqnitofon yazılarından, kitablardan istifadə etmək).

V. Rayon qəzeti vasitəsiylə Atayla görüşü hazırlamaq.

Nurlanın, Nurlandırın!

*12 Mərhəm günü, Çiçək Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Dəyişilən Həqiqət – Dəyişilən Əxlaq deməkdir.
Həqiqətsizlik – Əxlaqsızlığı qoruyur.

## HƏQİQƏT

Təmənnasızlığın təmənnası – Məhəbbət.

## HƏQİQƏT

Konkret Həqiqət – əslində Həqiqətsizlikdir.
Keçici Həqiqət olmur, əbədi Həqiqət olur.

## HƏQİQƏT

Ehkamın İnkarı – Dəyişməzliyin inkarı deyil, Yalanın inkarıdır; Həqiqət də dəyişməzdir – inkar edilməz dərəcədə.

## HƏQİQƏT

***Həqiqi – İnkaredilməzdir.***
İnkar olunan – Qeyri-Həqiqidir.
Qeyri-Həqiqi – Heçdir.
***İnkar olunan – Heçdir.***

## HƏQİQƏT

Durğunluq – Yalan tərəqqisi.

## HƏQİQƏT

Hər dövrün öz həqiqəti var – deyirlər.
Hər dövrün öz Yalanı var – Həqiqət Birdir! – demək gərək.
Hər cəmiyyətin öz həqiqəti var – deyirlər.
Hər cəmiyyətin öz Yalanı var – Həqiqət Birdir! – demək gərək.
Hər şəraitin öz həqiqəti var – deyirlər.
Hər şəraitin öz Yalanı var – Həqiqət Birdir! – demək gərək.
Yalan dəyişilir – Həqiqət dəyişmir.

## HƏQİQƏT

Həqiqəti – İnkar etmək olmaz.
Yalanı – İnkar etməmək olmaz.

Həqiqəti İnkar edən – İnkarçıdır.
Yalanı İnkar edən – Doğruçu.

**FƏRQLƏR**

Monarxiya – camaata inanmır, Hakimə inanır.
Demokratiya – Hakimə inanmır, camaata inanır.
Atalıq – Övladlara inanır, Ataya inanır.

**HƏQİQƏT**

Xalqın taleyini camaata tapşırmaq olmaz.
Cəmiyyətə tapşırmaq olmaz.
Ruhaniyyata tapşırmaq olar.

*14 Murad günü, Çiçək Ayı, 12-ci il. Bakı.*

**HƏQİQƏT**

Ruhaniyyat maddiyyatla ölçüləndə – ləyaqətsizləşir.

**HƏQİQƏT**

"Müəyyən səbəbdən müəyyən nəticə hasil olur" – deyirlər – səbəbi buxovlayırlar, nəticəni buxovlayırlar.

Əslində Səbəblər əlvandır, nəticələr əlvandır.

*16 Arzu günü, Çiçək Ayı, 12-ci il. Bakı.*

**HERAKLİTƏ QARŞI**

"Eyni çaya iki dəfə girmək olmaz.
***Hər çaya yalnız bir dəfə girmək olar".***

Dəyişən yox olur.
Yalnız Dəyişməyən var olur.

**FÜZULİ ŞEİRİ**

Qəzəl biçimində Bayatılar.

## HƏQİQƏT

Dialektika – Dünyanı mexanikləşdirir, onu labüd qanunlar çərçivəsinə salır; Dünya mahiyyətcə çərçivə tanımır.

Dialektika – Həyatı mexanikləşdirir, onu labüd qanunlar çərçivəsinə salır; Həyat mahiyyətcə çərçivə tanımır.

Dialektika – İnsanı mexanikləşdirir, onu labüd qanunlar çərçivəsinə salır; İnsan mahiyyətcə çərçivə tanımır.

## CƏNUBİ AZƏRBAYCAN PROBLEMİNİN HƏLLİ YOLLARI

***Birinci mərhələ***: İrandan ayrı, SSRİ-dən ayrı, İslamdan ayrı, Kommunizmdən ayrı – Müstəqil, Vahid Azərbaycan ideyasını yaymaq.

***İkinci mərhələ:*** Müştərək İnam, İdrak, Mənəviyyat, İradə Əməlləri.

***Üçüncü mərhələ***: Birləşmə.

## HƏQİQƏT

Həyat – müxtəlif ikiliklər cəmidir.
Ali Həyatda – ikilik aradan qalxır.

## HƏQİQƏT

Dialektika – Yoxluq fəlsəfəsi.

## HƏQİQƏT

Gerçək Həqiqət – Gerçəklikdən üstün olur.

*18 Dözüm günü, Çiçək Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Naqis Adam – natam İnsandır.

Kamil İnsan – Bütöv İnsandır.

Bütöv olmaq üçün – Adam Kamilliyə çatmalıdır – İnsan olmalıdır.

*19 Mərhəm günü, Çiçək Ayı, 12-ci il. Bakı.*

## HƏDSİZLİK

Kamilliyi hədd sayırlar, əslində isə o – Başlanğıcdır.

## FƏRQ

Avantürist – gerçəkliyi görmür.
Mütləqçi – gerçəkliyin Fövqünə qalxır.
Təslimçi – gerçəkliyə uyğunlaşır;
Mütləqçi – gerçəkliyi Yüksəldir.

## TƏQDİR

Övladım Doğmanın yaratdığı Fikir Evi Təqdir olunur. Nur aparıb – Uğur gətirsin.

*20 Qismət günü, Çiçək Ayı, 12-ci il. Bakı.*

## ÖVLADIM İŞIQÇIYA

İşıqçılıq yarandı Amalımızdan –

İşıqçılıq Borcu, Əməli.

Zülmətçidirlər Bugünkülər – çünki Amalsızdırlar, İnamsızdırlar – Zülməti qoruyurlar, Zülmətdə qovrulurlar.

İşıqçılarıq – çünki Mütləqçilərik, Müqəddəsçilərik.

İşıqçı İdrakına Sahibik.

İşıqçı Mənəviyyatına Sahibik.

İşıqçı İradəsinə Sahibik.

İşıq gətirənik, İşıq qoruyanıq, İşıqçıyıq – Aqibətimiz Budur, Mahiyyətimiz Budur.

***İşıqçı*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*26 Mərhəm günü, Çiçək Ayı, 12-ci il. Bakı.*

(Qeyd: Həyatda adı Rabil idi. Ocaqdan çıxdı).

## ÖVLADIM UĞURA

Uğursuzdurlar – çünki Nursuzdurlar.
İnam Nurundan məhrumdurlar.
İdrak Nurundan məhrumdurlar.
Mənəviyyat Nurundan məhrumdurlar.
İradə Nurundan məhrumdurlar.

Uğurluyuq – çünki Nurluyuq.

İnam Nuruyla Uğurluyuq.
İdrak Nuruyla Uğurluyuq.
Mənəviyyat Nuruyla Uğurluyuq.
İradə Nuruyla Uğurluyuq.

Nur aparıb Uğur gətiririk.
***Uğur*** adını sənə halal eləyirəm.
Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

(Qeyd: Həyatda adı Hüsaməddin idi. Ocaqdan çıxdı).

## ÖVLADIM ULUSLUYA

Suyumuz Uludur – Zərdüşt Bulağından gəlir,
Babək Bulağından gəlir,

Qorqud Bulağından gəlir,
Nəsimi Bulağından gəlir,
Füzuli Bulağından gəlir,
Muğam Bulağından gəlir,
Saz Bulağından gəlir,

İnam Suyu içmişik, İdrak Suyu içmişik, Mənəviyyat Suyu içmişik, İradə Suyu içmişik.

Suyumuzda İşıq var. Suyumuzdan İşıqlanmışıq – İşıqlanacaq ömürlər.

Ulu Suyumuzdan içəcəklər nəsillər, ölkələr – Ulu Suluyuq – Ulusluyuq.

***Uluslu*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Ürəyin Qaranlıqları Yarsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

(Qeyd: Həyatda adı Rəsulağa idi. Ocaqdan çıxdı.

## ÖVLADIM DOĞMANIN TƏMSİL ETDİYİ “FİKİR EVİ”nin QARDAŞLARINA – BACILARINA

***Asan Yol seçməyin – Çətin Yol seçin!***
***Yaxın Yol seçməyin – Uzaq Yol seçin!***

Mütləqə İnanın, İnandırın – Yurdumuzun, Şərqimizin, Dünyamızın xilası bu İnamdadır.

Özünüzlə Döyüşün, Başqalarını özüylədöyüşə çağırın – Yurdumuzun, Şərqimizin, Dünyamızın xilası bu Döyüşdədir.

Ruhani Cəmiyyət Haqqını tanıyın, tanıtdırın – Yurdumuzun, Şərqimizin, Dünyamızın xilası bu Haqdadır.

Müstəqil Vətən Haqqını tanıyın, tanıtdırın – Yurdumuzun, Şərqimizin, Dünyamızın xilası bu Haqdadır.

Özümlü Şərq Ləyaqətini tanıyın, tanıtdırın – Yurdumuzun, Şərqimizin, Dünyamızın xilası bu Ləyaqətdədir.

Gerçəkliyi ötün ki, Həqiqətə çatasınız.
Bacınız Doğmaya inanın – onun Ürəyi, Ağlı, Yolu – düzdür.
Ürəyinizdə Günəş olsun – onda ən soyuq havada belə üşüməzsiniz.

Daxilinizdəki Mütləq sizə Yar olsun.
Yükümüzdən Böyük Fərəhimiz yoxdur!

*27 Qismət günü, Çiçək Ayı, 12-ci il. Bakı.*

## "YAS GÜNÜ" MƏRASİMİ HAQQINDA

Mərasim Müqəddəs Kədər Ruhunda keçdi.
Təşkilatçılıq səviyyəsi, İzhar Ləyaqəti Yüksək idi.

Nöqsan: Vaxt Mütləqiliyinin pozulması.

## SUMQAYITDA ATAYLA GÖRÜŞ

Görüş Amal çağırdı, Amala çağırdı.
Övladım Soylunun fədakar, inadlı, ardıcıl Əməli Təqdir olunur.

*7 Arzu günü, İşıq Ayı, 12-ci il. Bakı.*

## "ÖVLAD GÜNÜ" MƏRASİMİ HAQQINDA

1. "Övlad Günü" Ata Sözüylə başlayır, Övlad Qəbuluyla davam eləyir, Ruhani Sənədlərin oxunuşuyla başa çatır.

2. "Övlad Günü"ndə Övladlar danışmır.

3. Gedişatın Yazısı Fərəhə tapşırılır.
Yazı İşıq Ayının 18-də Ataya təqdim edilir.

*8 Ümid günü, İşıq Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Zaman Həddində Var olmaq olmaz – Yox olmaq olar.
Mühit Həddində Var olmaq olmaz – Yox olmaq olar.
Şərait Həddində Var olmaq olmaz – Yox olmaq olar.

Var olmaq üçün Zaman Həddini aşmaq gərək, Mühit həddini aşmaq gərək, Şərait Həddini aşmaq gərək.

## HƏQİQƏT

Şər – Xeyirin Nisbiliyi.
Şübhə – İnamın Nisbiliyi.
Yoxluq – Varlığın Nisbiliyi.

## VƏZİYYƏT

Prezidentlik – Xalqın Atasızlığı deməkdir əslində.

Atanı – seçmirlər, müxtəlif Atalar olmur, müəyyən dövr Atası olmur, təzə Atalar olmur.

## HƏQİQƏT

Əgər Qorxmazlığın Mütləq deyilsə – Qorxaqsan.
Əgər Ədalətin Mütləq deyilsə – Ədalətsizsən.
Əgər Həqiqətin Mütləq deyilsə – Yalançısan.

*12 Murad günü, İşıq Ayı, 12-ci il. Bakı.*

## YOXLUQ TƏLİMİ

Dialektika Mütləq tanımır, bu səbəbdən də Varlıq tanımır.
Dialektika Yoxluq təlimidir.

## HƏQİQƏT

Dialektika nə tam İnkardır, nə tam Təsdiq.
Nə tam Əlaqədir, nə tam Əlaqəsizlik.
Nə tam Vəhdətdir, nə tam Vəhdətsizlik.

***Dialektika – ardıcıl, çevik Əsassızlıqdır.***

*13 İnam günü, İşıq Ayı, 12-ci il. Bakı.*

**15 nömrəli FƏHLƏ YATAQXANASINDA GÖRÜŞ**

Təşkilatçılıq yox dərəcəsində olsa da – Ruhani İş görüldü.

*14 Arzu günü, İşıq Ayı, 12-ci il. Bakı.*

**MİNGƏÇEVİRDƏ ATAYLA GÖRÜŞ**

Görüş Amal çağırdı, Amala çağırdı.
Övladım Bağbanın Yüksək Əməli Təqdir olunur.

*28 Arzu günü, İşıq Ayı, 12-ci il. Bakı.*

**ÖVLADIM NURANDA**

Andsızdırlar Bugünkülər – çünki İşıqsızdırlar.

Amal andlıyıq, İdrak andlıyıq, Mənəviyyat andlıyıq, İradə andlıyıq – Nur andlıyıq.

Andsızdırlar Bugünkülər – Adsızdırlar.
Dönürlər – Ölmürlər.
Andlıyıq – Adlıyıq.
Öz İşığımızla İşıqlanırıq.
***Nurand*** adını sənə halal eləyirəm.
Adına layiq ol!
Daxilindəki Mütləq sənə Yar olsun.
Qaranlıqlar Yarılsın!

*31 Mərhəm günü, İşıq Ayı, 12-ci il. Bakı.*

**HƏQİQƏT**

Ən kədərli musiqi belə – Bayramdır.
Musiqi olmasaydı – Matəm dünyanı bürüyərdi.

*5 Ümid günü, Şölə Ayı, 12-ci il. Bakı.*

## RUHANİ TƏŞKİLATÇILIQ MƏRASİMİ

I. Mərasim Üç hissədən İbarət olur:

1. Ata Sözü. 2. Əsilin və Övladların Sözü. 3. Ruhani Sənədlərin oxunması.

II. Mərasimin Yazısı Əsilə tapşırılsın.

*18 Arzu günü, Şölə Ayı, 12-ci il. Bakı.*

## ÖVLADIM ULUYOLA

Yolumuz Uludur: Zərdüşt Yolluyuq, Babək Yolluyuq, Qorqud Yolluyuq, Nəsimi Yolluyuq, Füzuli Yolluyuq, Muğam Yolluyuq, Saz Yolluyuq.

Yolsuzdurlar Bugünkülər: İnamsızdırlar, İdraksızdırlar, Mənəviyyatsızdırlar, İradəsizdirlər.

***Uluyol*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Daxilindəki Mütləq sənə Yar olsun.
Qaranlıqlar Yarılsın!

*5 Mərhəm günü, Od Ayı, 12-ci il. Bakı.*

(Qeyd: Həyatda adı Rasim idi. Ocaqdan çıxdı).

## ÖVLADIM ELLİYƏ

Elsizdirlər Bugünkülər – bu səbəbdən də Özümsüzdürlər. –
İnamsızdırlar – bu səbəbdən də Mütləqsizdirlər.
İdraksızdırlar – bu səbəbdən də Həqiqətsizdirlər.
Mənəviyyatsızdırlar – bu səbəbdən də Amalsızdırlar.
İradəsizdirlər – bu səbəbdən də Əməlsizdirlər.
Elliyik – İnamlıyıq, Amallıyıq.
***Elli*** adını sənə halal eləyirəm.
Adına layiq ol.

Daxilindəki Mütləq sənə Yar olsun.
Qaranlıqlar Yarılsın!

(Qeyd: Həyatda adı Şükür idi. Ocaqdan çıxdı).

## ÖVLADIM BİLƏNƏ

Naşıdırlar bugünkülər – İnamı Bilmirlər, Amalı Bilmirlər, Mütləqi Bilmirlər.

İdraksızdırlar – İdrakı Bilmirlər.

Mənəviyyatsızdırlar – Mənəviyyatı Bilmirlər.

İradəsizdirlər – Əməli Bilmirlər.

Gerçəkliyi ötmürlər – Gerçəkliyi Bilmirlər.

Bilənik – Sabahlıyıq.

***Bilən*** adını sənə halal eləyirəm.

Adına layiq ol.

Qaranlıqlar Yarılsın!
Daxilindəki Mütləq sənə Yar olsun.

*6 Qismət günü, Od Ayı, 12-ci il. Bakı.*

(Qeyd: Həyatda adı Elman idi. Ocaqdan çıxdı).

## RUHANİ TƏŞKİLATÇILIQ MƏRASİMİ HAQQINDA

Mərasim Müqəddəsliyə yaradı – Övlad Ləyaqəti təsdiq olundu.

Əsilin Sözü Təqdir olunur.

Nöqsan: Toplanış İntizamının pozulması.

## HƏQİQƏT

Dövlət İqtisadiyyatı yox, Bazar İqtisadiyyatı yox – Əməkçi İqtisadiyyatı Gərək.

## VƏZİYYƏT

"Çox işləyən – çox qazanar!" iddiasında Murdarlıq var. Təkcə qazanc üçün işləməzlər – Ruhani ləyaqət – özünütəsdiq üçün işləyərlər.

## VƏZİYYƏT

Sosializmdə Əməkçi özünə xidmət eləmir – Dövlətə xidmət eləyir.

Kapitalizmdə Əməkçi özünə xidmət eləmir – Bazara xidmət eləyir.

***Ruhani cəmiyyətdə – Əməkçi özünə xidmət eləməlidir – öz maddi müstəqilliyinə, mənəvi ləyaqətinə.***

## HƏQİQƏT

Nə sosializm, nə kapitalizm – İnsani cəmiyyət!
Nə marksizm, nə qorbaçovşina – Mütləqçilik!

## MÜTLƏQ İNAM

Dünyanın Mahiyyətini Mütləq saymaq –
Dünyanı yaradan Allaha inanmamaq.
Həyatın Mahiyyətini Mütləq saymaq –
Həyatı yaradan Allaha inanmamaq.
İnsanın Mahiyyətini Mütləq saymaq –
İnsanı yaradan Allaha inanmamaq.
***Nisbini heç saymaq – Yalnız Mütləqə inanmaq.***
***Mütləqləşmək.***

*14 Murad günü, Od Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Adamdan İnsan olur, İnsandan Adam olmur.

*30 Arzu günü, Od Ayı, 12-ci il. Bakı.*

## VÜQAR

İradənin qapısını zamanın üzünə bağlamaq.

## HƏQİQƏT

Yalançılar Yoxsuldurlar, çünki Yalan Yoxluqdur.
Həqiqətçilər Varlıdırlar, çünki Həqiqət Varlıqdır.

*31 Ümid günü, Od Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Əgər Zamandan ayılmamısansa – Yuxudasan.
Əgər Zamandan ayrılmamısansa – Yoxsan.

*8 Dözüm günü, Qürub Ayı, 12-ci il. Bakı.*

## SAFRUHUN "ÖZÜYLƏ DÖYÜŞ KİTABI" HAQQINDA

***1. Kitabı "Ağı" adlandırmaq gərək – Ağlaşma.***

2. Safruh Bugünkülərin səhvini təkrarlayır. ***Atadan öyrənmək əvəzinə – Atanı öyrətmək.***

3. Safruh Ocağı tərk etsə: "Ocağa ziyan verdim" – deməsin.
Safruh Ocaqda qalsa: "Ocaqdan isinirəm" – desin.

4. Ata aldansaydı – Ocaq sönərdi. Ata sadəlövhlüyü əfsanədir – Şərin yaratdığı.
***Atanı aldadan olmayıb.***

***5. Mütləq İnamın Nisbiliyi – Yolsuzluqdur.***
***Ya İnsan Yolu yorur, ya Yol İnsanı.***

6. Ataya qovuşa bilmədiyinə İnanıram –
***Atadan nöqsan yığmaq cəsarəti bunu göstərir.***

***7. Atanın tərk etdiyi dünyadan çox danışılır kitabda gözəllik adıyla – Ataya uzaq görünən.***

8. Verilən sözə Əməl eləmək – Müqəddəs Ruhanilikdir, siyasətə yad – siyasət – verilən sözə əməl eləməməkdir ("Muğam Fəlsəfəsi" kitabının yazılması haqqında).

***9. "Özüylə döyüş" kitabı deyil bu, Özünə Ağlamaq kitabıdır.***

10. Dünyada yaxşı nə varsa – Müqəddəs Sözdən yaranıb, Övladlar Müqəddəs Sözə yiyələnirlərsə – bu Sabahın bugündə yaranmasıdır – Fərəhli.

***Müqəddəs Sözə ağız Büzmək də - Bugünün dərsidir.***

*10 Qismət günü, Qürub Ayı, 12-ci il. Bakı.*

## ÖZÜMLÜNÜN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN HESABATI HAQQINDA

1. Ailənin Ruhani Biçimi tapılıb – onu zənginləşdirmək gərək.

2. Amallaşma – Gerçəkliyi ötmək, İnsanlaşma – Özünü ötmək, Xalqlaşma – Xalqın özünü ötməsi Yoluyla irəliləməli.

3. "Fikir Evləri" yaradılmalı – Ailə Bayrağı, Kitabı – Ruhani Rəmzlər.

4. Bugünə Sabah İşığı salmaq – Fəallığın Müqəddəsçilik Səviyyəsinə Yüksəlmək.

Yükümüzdən böyük Fərəhimiz yoxdur!
Nurlanın – Nurlandırın.

## SADİQİN ÖZÜYLƏDÖYÜŞ ƏMƏLİ HAQQINDA

Xoşbəxtdir Sadiq – ikilikdən əsər-əlamət belə yoxdur daxilində.

## HƏQİQƏT

Dialektika – Həyalı sofistika.
Sofistika – Həyasız dialektika.

*11 Murad günü, Qürub Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Gerçəkliyin yaratdığı Xülyadan böyük Xülya olmur əslində.

Gerçəkliyə uyğunlaşmaq – Xülyaya uyğunlaşmaq olur çox vaxt.

## HƏQİQƏT

Təcrübə çox vaxt Yalanı təsdiq edir, Həqiqəti təsdiq etmir.

Bu səbəbdən də Təcrübəni Həqiqətin meyarı saymaq – Yalanı Həqiqət saymaq deməkdir.

## RƏQİBSİZLİK

Gerçəkliyi ötəni – Kim ötə bilər?

## MÜDRİKLİK

Zəruriyyətə bağlanmamaq, Təsadüfə bel bağlamamaq.

*14 Ümid günü, Qürub Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Gerçəklik adlanan Yoxluğa düşmüşük – bu səbəbdən də kədərliyik.

Mahiyyət adlanan Varlığa qovuşuruq – bu səbəbdən də Fərəhliyik.

## HƏQİQƏT

Musiqi Mahiyyət çağırır – Gerçəklik adıyla.
Şeir Mahiyyət deyir – Gerçəklik adıyla.
Fəlsəfə Mahiyyət düşünür – Geçəklik adıyla.

## HƏQİQƏT

Gerçəkliyi ötmədən – Mahiyyətə çatmaq, Həqiqətə yetmək olmaz.

Gerçəklik haqqında Həqiqət – Həqiqətsizlik haqqında Həqiqət deməkdir.

## HƏQİQƏT

Şübhə – Gerçəkliyə İnam.
İnam – Gerçəkliyə Şübhə.

## HƏQİQƏT

Məxluq – Dünyanın sakini.
Adam – Dünyanın kirayəçisi.
İnsan – Dünyanın qəribi.

## HƏQİQƏT

Gerçəklik – Mahiyyətə İstehza.

## HƏQİQƏT

Gerçəklikdə Var olan – Yox olur.
Deməli Gerçəklik – əslində Yoxluqdur.
***Gerçəkliyin Var olması – Yalandır əslində.***
Gerçəkliyin Yalanı – Doğrudur, Doğrusu – Yalandır.

## HƏQİQƏT

"Hər şey axır, hər şey dəyişilir!" – hər şey var olmur deməkdir əslində.

## FƏRQ

Gerçəklik – Çay.
Mahiyyət – Dağ.

## HƏQİQƏT

Gerçəklik – Dəyişkəndir, Mahiyyət – Dəyişməz.

Bu baxımdan Gerçəklik – Həqiqətsizdir; Gerçəklik haqqında Həqiqət – Həqiqətsizliyin Təsdiqidir əslində.

## HƏQİQƏT

Daimi Dəyişkənlik – Daimi Yoxluq deməkdir, əslində.

## HƏQİQƏT

Çevik Həqiqət olmur – çevik Yalan olur.

## HƏQİQƏT

Təqib – Təsdiq deməkdir.

İndiki “Qorxmazları” təqib eləmirlər – təsdiq eləmirlər.

## HƏQİQƏT

Yalnız Mahiyyət – Zəruridir. Təzahürlərin hamısı Təsadüfidir.

## FƏRQ

Şübhə – Təzahürdə ilişib qalır.
İnam – Mahiyyətə çatır.

## HƏQİQƏT

İnsan – Mahiyyət Dağından qopub – Gerçəklik Dərəsinə düşən.

## MƏQSƏD

Rəylər Qaranlığını Həqiqət İşığıyla Yarmaq.

## HƏQİQƏT

Nisbi – Var olmaq olmaz, Müvəqqəti – Var olmaq olmaz; Mütləq – Var olmaq olar, həmişəlik – Var olmaq olar.

Bu səbəbdən də gerçəkliyin Var olması Yalandır.

## HƏQİQƏT

Var olan – Yox olmaz.
Gerçəklikdə elə Var olan Yoxdur ki, Yox olmasın.
Bu səbəbdən də gerçəklikdə Var olan Yoxdur.

*15 Dözüm günü, Qürub Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Dünya – Mahiyyətcə Məna deməkdir.

Məna – Dəyişməzdir.

Gerçəklikdə Dəyişilməyən yoxdur; bu səbəbdən də Gerçəklik Mənasızdır.

## HƏQİQƏT

Gerçəklikdə Adam Mənasını itirir, Mənasına çatmaq üçün o, Gerçəkliyi ötməlidir.

## HƏQİQƏT

Deyəndə ki, Dünya dərk edilməzdir – demək istəyirlər ki, Mənanı gözlə görmək olmaz.

## HƏQİQƏT

Gerçəklikdən beşəlli yapışmaq əslində bədbinlikdir.

*16 Mərhəm günü, Qürub Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Cəmiyyət İnsanı Gerçəkliyə bağlayır.
Ruhaniyyat İnsanı Mahiyyətə qaldırır.

## HƏQİQƏT

İctimai Qanunlar – Gerçəkliyi qoruyur.
Ruhani Qanunlar – İnsanı Gerçəklikdən qoruyur.

## HƏQİQƏT

"Biri üçün Şər olan – o biri üçün Xeyir olur; Bir vəziyyətdə Şər olan – o biri vəziyyətdə Xeyir olur" – iddiası Yalandır.

Şər hər kəs üçün Şərdir – ziyanından və qazancından asılı olmadan.

Xeyir hər kəs üçün Xeyirdir – ziyanından və qazancından asılı olmadan.

Şər hər vəziyyətdə Şərdir – ziyanından və qazancından asılı olmadan.

Xeyir hər vəziyyətdə Xeyirdir – ziyanından və qazancından asılı olmadan.

***Xeyir də, Şər də – ziyanından və qazancından Yüksəkdə dururlar.***

## HƏQİQƏT

Cəmiyyət – Mənasızlığı qoruyur, Mənadan qorunur.

## HƏQİQƏT

Sokrat Gerçəkliyin Varlığını sübut etmək üçün Gerçəkliyin Yoxluğunu sübut etməli oldu.

## HƏQİQƏT

Şəraitdən asılı olan Həqiqət – Yalandır.
Mühitdən asılı olan Həqiqət – Yalandır.
Konkret Həqiqət – Yalandır.

## HƏQİQƏT

Söz – Mahiyyətlidir. Bu səbəbdən də o, gerçəklikdən artıqdır.

## FƏRQ

Gerçəklik – qeyri-müəyyəndir, Söz – müəyyən.
Bu səbəbdən də Söz – gerçəkliyi ötür.

## DƏYİŞMƏZLİK

Deyirlərki, çay bulanmasa, onun Duruluğu bilinməz.
Bulaq bulanmır – onun Duruluğu itmir ki?

## HƏQİQƏT

Sözə bərabər Əməl az olur. Əməli günahlandırmaq əvəzinə - Sözü günahlandırırlar.

## HƏQİQƏT

İdrak Mahiyyəti – Gerçəklikdən artıq olanı dərk edir – Gerçəklikdən artığa Yüksəlir.

Bu səbəbdən də İnikas nəzəriyyəsi cəfəngiyyatdır.

## HƏQİQƏT

Dövlət – Mahiyyət kimi düşünülüb, ancaq Gerçəkliyə bərabər olub – Var olmayıb.

## HƏQİQƏT

Gerçəklik – Mahiyyətdən uzaq, Cəmiyyət Gerçəklikdən uzaq – İki dəfə Mahiyyətdən uzaq...

## HƏQİQƏT

Təbiilik – Özümlük, Sünilik – Özgəlik.

## FƏRQ

İctimai Qanunlar – Gerçəkliyi qoruyur, bu səbəbdən də Var olmur – Yox olur.

Ruhani Qanunlar – Mahiyyəti ifadə eləyir, bu səbəbdən də Var olur – Yox olmur.

*17 Qismət günü, Qürub Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Var olmaq – Gerçəklikdən Yüksək olmaqdır.

Yox olmaq – Gerçəkliyə bərabər olmaqdır.

Bu səbəbdən də Var olmaq – Gerçək İmkanları ötməkdir – İmkansızlıqdır.

## HƏQİQƏT

Sokrat gerçək Biliyi rədd eləyir, əslində gerçəkliyi rədd eləyir.

Sokrat gerçək Biliyi Həqiqətsizlik sayır, əslində gerçəkliyi Həqiqətsizlik sayır.

Sokrat İdraki olanı Var olan sayır, – bu səbəbdən də gerçəkliyi Var olan saymır.

Sokrat gerçək "həqiqətləri" sarsıdır, əslində gerçəkliyi sarsıdır.

## HƏQİQƏT

Gerçəklik səviyyəsində İdrak – İdraksızlıqdır.

## HƏQİQƏT

Gerçəklik – Dialektikdir, bu səbəbdən də Mənasızdır.

Mahiyyət – Antidialektikdir, bu səbəbdən də Mənalıdır.

## HƏQİQƏT

Sokrat "İdraki olmayan – Yoxdur" – deyirdi, İdrakilik Sokratda "Antidialektikaya" bərabər idi; Gerçəklik Dialektikdi; bu səbəbdən də Sokrat Fəlsəfəsində gerçəklik Yoxluğa bərabərdir əslində. İdrakilik isə gerçəklikdən Yüksəkdə – Allahda, Ağılda görünür...

Sofistlər gerçəklikdən başqa heç nə görmür, Sokrat gerçəklikdən Yüksəkdə Mahiyyət görür, onu Təsdiq edir – Platonun ikili Dünyasına Yol açılır.

## HƏQİQƏT

Sokrat İdraksızlığı öldürürdü; gerçək İdrakçılar Sokratı öldürdülər.

## HƏQİQƏT

Gerçəkliyə uyğunlaşan – Mənasızlığa uyğunlaşır.

## HƏQİQƏT

Gerçəkliyi ötməyən – Mahiyyətə çatmaz.
Mənasızlığı ötməyən – Mənaya çatmaz.

## HƏQİQƏT

Mahiyyətlə Gerçəkliyi bərabərləşdirmək – Varlıqla Yoxluğu bərabərləşdirmək deməkdir.

## FƏRQ

Sokrat gerçək İdrakın cəfəngliyini sübut elədi, Platon Gerçəkliyin cəfəngliyinə qarşı İdrak Dünyasını qoydu (İdeyalar aləmini).

***Həm Sokrat, həm Platon Mahiyyətin Antidialektikliyini təsdiq elədilər.***

## FƏRQ

Materializm Mahiyyəti gerçəkliyə qarışdırır – Mənanı Mənasızlığa qarışdırır.

İdealizm Mahiyyəti gerçəklikdən ayırır – Mənanı Mənasızlıqdan ayırır.

## HƏQİQƏT

Mücərrəd Məna, konkret Mənasızlıq.

## HƏQİQƏT

Məhəbbət – Gerçəkliyi ötür; Qeyrət – Gerçəkliyi ötür; Qəhrəmanlıq – Gerçəkliyi ötür; Müdriklik – Gerçəkliyi ötür.

*18 Murad günü, Qürub Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Gerçəklikdə Ümumi yoxdur – çünki Dəyişməz yoxdur; Xüsusi yoxdur – çünki Dəyişməz yoxdur; Fərdi yoxdur – çünki Dəyişməz yoxdur.

Mahiyyətdə Ümumi var – çünki Mahiyyət Dəyişməzdir, Xüsusi var – çünki Mahiyyət Dəyişməzdir, Fərdi var – çünki Mahiyyət Dəyişməzdir.

Mahiyyət – gerçəklikdən artıqdır, böyükdür, yüksəkdir.

Var olmaq – Mahiyyətli olmaqdır, yəni Gerçəkliyi ötməkdir.

## ÖVLADIM ÜSTÜNƏ "ÖZÜYLƏDÖYÜŞ DƏFTƏRİ" BARƏDƏ

I. Ölümə inanmıram. Atanda mahiyyətcə nə vardısa səndə, bacında, qardaşında yaşayacaq.

Ruhani Atana layiq olduğun dərəcədə cismani Atanın xatirəsinə layiq olacaqsan.

II. Sadiq – Üstünün əri, ruhani qardaşı, həm də ruhani balası...

Üstün – Sadiqin arvadı, ruhani bacısı, həm də ruhani balası.

III. Üstünün Övladlıq Mahiyyətinə Ata tam inanır – ən gözlənilməz Təzahür nöqsanlarından artıq.

IV. Ruhani Biçim məsələsini Ata Üstünə həvalə eləyir; Üstünü bu Böyük Əmələ layiq sayır.

V. "Özüylədöyüş dəftəri"ndə Üstün "Mən kiməm?" sualına cavab tapsın, "Mən necə olmalıyam?" Yoluyla Kamilliyə Yüksəlsin.

Yükümzdən böyük Fərəhimiz Yoxdur!

## HƏQİQƏT

Yalnız Dəyişməyən – Var olur.
Yalnız Əbədi – Var olur.
Yalnız Sonsuz – Var olur.

Gerçəklikdə Dəyişməyən Yoxdur.
Əbədi olan yoxdur, Sonsuz olan yoxdur.

***Bu səbəbdən gerçəklik Var olmur.***

Mahiyyət Dəyişməzdir, Əbədidir, Sonsuzdur – bu səbəbdən də yalnız Mahiyyət – var olandır.

Dünyada Dəyişməz, Əbədi, Sonsuz nə varsa, o – Mahiyyətdir.
Dünyada Dəyişkən, Keçici, Sonlu nə varsa, o – Gerçəklikdir.

*20 Arzu günü, Qürub Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Bilik – İdrakın nəticəsi deyil, Başlanğıcıdır – İdrakın Nəticəsi Mahiyyətin dərkidir – Bilikdən artıq olan.

## DİALETİKA ÖLÜMÜ

Həyatı Ölümdən asılı eləyirlər – ölümü həyatlaşdırırlar.

## HƏQİQƏT

İdealizmdə Həqiqət Müqəddəsləşir.
Materializmdə Həqiqət Hərcayiləşir.

## HƏQİQƏT

Platon və Hegel Mahiyyəti İdrakla (Zəkayla) bərabərləşdirməkdə səhv eləyirdilər: Mahiyyət Dünyanın Özüdür və bu səbəbdən də İdrakdan kənarda mövcuddur.

Materialistlər Mahiyyəti gerçəkləşdirirdilər, yəni əslində Yox eləyirdilər.

## HƏQİQƏT

Platon əslində Mahiyyətdən başqa Varlıq tanımır, Gerçəkliyi Varlıq saymır, bu səbəbdən də o, Dualist deyil, Monistdir – yəni İkidünyalı deyil – Birdünyalıdır.

## HƏQİQƏT

***Ağıl görəni – Göz görmür.***
***Göz görəni – Ağıl görmür.***

Ağıl üçün Gerçəklik Yoxdur – Yoxu görməzlər.
Göz üçün Mahiyyət Yoxdur – Yoxu görməzlər.

## HƏQİQƏT

Materializm Fəlsəfəni Həqiqətdən məhrum etdi.

## HƏQİQƏT

Mahiyyətdə Dialektika (Dəyişkənlik, Ziddiyyət, Əksliklərin Vəhdəti) axtarmaq – Mahiyyəti Gerçəkliklə bərabərləşdirməkdir, yəni əslində Mahiyyəti öldürməkdir ki, Hegelin ən böyük bəlası elə bundadır.

*21 Ümid günü, Qürub Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Xeyirin Şərə keçməsi – Şərdir.
Şərin Xeyirə keçməsi – Şərdir.

## HƏQİQƏT

Gerçəklik – Mənadan ayrılıb, bu səbəbdən də gerçək Məna gerçəkliyi ötür.

## FƏRQ

Gerçəklik – Məna Həddi.
Mahiyyət –Məna Hədsizliyi.

*22 Dözüm günü, Qürub Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Hədsizlik – Müəyyəndir, çünki Mütləqdir.
Hədd – Qeyri-Müəyyəndir, çünki Nisbidir.

## HƏQİQƏT

Var olmaq – Mahiyyət Hədsizliyi.
Yox olmaq – Gerçəklik Həddi.

## VƏZİYYƏT

Dünyanı eşidəndə – Dünya bizi eşitməyib;
***Dünyanı eşitməyək ki, Dünya bizi eşitsin.***

## HƏQİQƏT

"Şər olmasa Xeyir olmaz!" – deyirlər.
"Şər olmasa Xeyir olar!" – demək gərək.
"Şər olduğu üçün Xeyir olmur!" – demək gərək.

## HƏQİQƏT

Gerçəklikdən Yüksəyə qalxmaq – Var olmaq.

Gerçəkliyə Bərabər olmaq, – Gerçəklikdən Aşağı olmaq – Yox olmaq.

## HƏQİQƏT

Gerçəklik səviyyəsində Əxlaq – Əxlaqsızlıqdır.
Gerçəklik səviyyəsində İdrak – İdraksızlıqdır.
Gerçəklik səviyyəsində İnam – İnamsızlıqdır.
Gerçəklik səviyyəsində Mənəviyyat – Mənəviyyatsızlıqdır.
Gerçəklik səviyyəsində İradə – İradəsizlikdir.

## HƏQİQƏT

Cənnət-Cəhənnəm – Yer mahiyyətsizliyi.

## HƏQİQƏT

"Xeyir olmasa – Şər olmaz!" – deyirlər.
"Xeyir olsa – Şər olmaz!" – demək gərək.

## HƏQİQƏT

Bir səbəb-nəticə əlaqələri var: Mahiyyət – Gerçəklik.
Qalanları Fatalizmdir – Qismətçilikdir.

*23 Mərhəm günü, Qürub Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

İnsani ömür – əslində həyatla döyüşdür və son nəticədə ölümdən sonra həyat üzərində qələbədir.

## MÜASİR SEVGİ

Heyran olur ki, heyvan olsun!

## HƏQİQƏT

Çılpaq Həqiqət olmur – çünki Həqiqətin Geyimə ehtiyacı olmur.

## HƏQİQƏT

Dünya səviyyəsindən Həqiqəti görmək olmaz.
Dünya yalan səviyyəsindədir, Həqiqət səviyyəsinə çatmayıb...

## "ATA GÜNÜ" MƏRASİMİ HAQQINDA

I. Mərasim üç hissədən ibarət olur:
1. Evlad qəbulu; 2. Evlad Sözü; 3. Ata Sözü – Ruhani Sənədlərin oxunması.

II. Mərasimin Yazısı Evladım Göytəkinə tapşırılır.

III. Yazının ilk variantı Ata Ayının 9-da Ataya təqdim olunur.

*24 Qismət günü, Qürub Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Ziddiyyətli Yoxluq – Bütöv Varlıq.

*29 Dözüm günü, Qürub Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Bədən qədər keçici gerçəklik.
Ruh qədər Əbədi Mahiyyət.

*30 Mərhəm günü, Qürub Ayı, 12-ci il. Bakı.*

## EVLADIM SOYLUNUN ÖZÜYLƏDÖYÜŞ DƏFTƏRİ HAQQINDA

Ömür Mütləqilik üstə köklənib – həmişəlik.

*31 Qismət günü, Qürub Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Müdrik – Mənaçı.
Naşı – Gerçəkçi.

## HƏQİQƏT

Dünyaya vaxtından əvvəl gəlmək – mahiyyətcə vaxtında gəlməkdir və əksinə.

## HƏQİQƏT

Gerçəkliyə uyğun olan Yalan.
Mahiyyətə uyğun olan Həqiqət.

## HƏQİQƏT

Əzəli, Əbədi Yalan olmur – Həqiqət olur.
Ötəri, Sonlu Həqiqət olmur – Yalan olur.

## HƏQİQƏT

İnsanın Mahiyyətində Heyvanilik yoxdur.

Bu səbəbdən Heyvanilik İnsanın Yoxluğudur.
Heyvaniliyini öldürməyən – var olmur.

**HƏQİQƏT**

Şərqin Avropadan təcrid olunması haqqında əsrlər boyu bağırıblar, Avropanın Şərqdən təcrid olunması haqqında heç nə demirlər. ***Əsl fəlakət isə bundadır.***

**HƏQİQƏT**

Cəmiyyətçi – Yalançı.
Ruhaniyyatçı – Həqiqətçi.

*2 İnam günü, Ata Ayı, 12-ci il. Bakı.*

**HƏQİQƏT**

Qorxmaz – Qorxuya qələbə çalan.
Qorxaq – Qorxuya məğlub olan.

**DÜNYA**

Gerçəklik Zülməti.
Mahiyyət İşığı.

**HƏQİQƏT**

Tale – gerçəklik Yalanı.

**HƏQİQƏT**

Məhəbbət – Mənaçılıq.

**FƏRQ**

Şəhvət – Həyat Yükü.
Məhəbbət – Amal Yükü.

*3 Arzu günü, Ata Ayı, 12-ci il. Bakı.*

## FƏRQ

Zərdüşt İnam yaradırdı – Bəşər üçün.
Makedoniyalı İsgəndər İmperiya yaradırdı – özü üçün.

*5 Dözüm günü, Ata Ayı, 12-ci il. Bakı.*

## ÖVLADIM ELLİNİN “ÖZÜYLƏDÖYÜŞ DƏFTƏRİ” HAQQINDA

I. Özüylədöyüş Ruhani Fərəh Yoludur...

***Elli Yolun başlanğıcındadır.***

Özüylədöyüşdə İnam da, İdrak da, Mənəviyyat da, İradə də iştirak etməlidir.

Elli Qorxunu İdrakın süzgəcindən keçirir, onu təhlil eləyir, çeşidləşdirir ki, – Yox etsin.

***II. Məsuliyyət – Qorxmazlıqdır – yəni İradənin Qorxu üzərində Qələbəsidir.***

III. Qorxuda – İnsanilik Yox olur, bu səbəbdən də Qorxudan azad olmaq – Var olmaqdır.

Qaranlıqlar Yarılsın!

## EVLADIM AMANDA

Yurdumuz Yaman gündədir – ona Amand olmalıyıq: İnam Amandı, İdrak Amandı, Mənəviyyat Amandı, İradə Amandı.

İnamsızlıqdan, İdraksızlıqdan, Mənəviyyatsızlıqdan, İradəsizlikdən Amand umurlar Bugünkülər – Amandsızlar.

Şərq özündən ayrılıb – Qərb Ruhsuzdur.

Təqlidçilik, Rəiyyətçilik, Həşirçilik – Uçurumundadır camaat.

Mütləq İnam gərəkdir, Kamil İnsan gərəkdir, Müstəqil Vətən gərəkdir, Ruhani Cəmiyyət gərəkdir, Özümlü Şərq gərəkdir Xalqa.

***Amand*** adını sənə halal eləyirəm.
Adına layiq ol.

Daxilindəki Mütləq sənə Yar olsun.
Yükümüzdən böyük Fərəhimiz yoxdur.

*6 Mərhəm günü, Ata Ayı, 12-ci il. Bakı.*

(Qeyd: Həyatdakı adı Mirəli idi. Ocaqdan çıxdı).

**HƏQİQƏT**
Zəruriyyət – Gerçəklik həddi.
Azadlıq – Mahiyyət Hədsizliyi.

**HƏQİQƏT**
Mütləq Zəruriyyət olmur.
Nisbi Azadlıq olmur.

*7 Qismət günü, Ata Ayı, 12-ci il. Bakı.*

**HƏQİQƏT**
Azad Bədən olmur – Azad Ruh olur.

**HƏQİQƏT**
Azad Nisbi olmur – Azad Mütləq olur.

**HƏQİQƏT**
Azad Adam olmur – Azad İnsan olur.

**HƏQİQƏT**
Azadlıq – Gerçəkliyi ötmək.
Əsarət – Gerçəkliklə barışmaq.

**HƏQİQƏT**
Azadlıq – Zəruriyyətdən İmtina.

**HƏQİQƏT**

Azad Yalan olmur – Azad Həqiqət olur.

**HƏQİQƏT**

Xalq – Fərd Azadlığı.
Cəmiyyət – Fərd Əsarəti.

**HƏQİQƏT**

Heyvanilik – Əsarətdir.
Bu səbəbdən də Azad Heyvanilik olmur.

**HƏQİQƏT**

Qəbahət – əsarətdir. Bu səbəbdən də Azad Qəbahət olmur.

**HƏQİQƏT**

Cinayətkarlıq – Əsarətdir. Bu səbəbdən də azad cinayət olmur.

## ÖVLADIM ÖZÜMLÜNÜN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN HESABATI HAQQINDA

1. "Fikir Evini" yaratmağın vaxtı çatıb.

2. Camaatla daha geniş təmasın Vaxtı çatıb.

3. Rəmzləşmənin, Bayraqlaşmanın vaxtı çatıb.

4. Mütləq Əxlaq İdeyasını Mütləq Həqiqət səviyyəsində öyrənməli.

5. Özüylədöyüşün Özünəsahibolma səviyyəsi yaranmalı.

Nurlanın – Nurlandırın!

*8 Murad günü, Ata Ayı, 12-ci il. Bakı.*

**FƏRQ**

Siyasət – cəmiyyətçilik.
Ruhaniyyat – İnsançılıq.

**HƏQİQƏT**

Əxlaq – Azadlıqdır, Əxlaqsızlıq – Əsarət.

*9 İnam günü, Ata Ayı, 12-ci il. Bakı.*

**ÖVLADIM ÖZÜMLÜNÜN ÖZÜYLƏDÖYÜŞÜ HAQQINDA**

Böyüyür Özümlüm – Ataya Böyük Övlad olur.
***Hökm:*** Özüylədöyüşün Özünüdəyişməyə bərabər olsun.

**ÖVLADIM HAQLININ ÖZÜYLƏDÖYÜŞÜ HAQQINDA**

Böyüyür Haqlım – Ataya Böyük Övlad olur.
***Hökm:*** Özüylədöyüşün Özünüdəyişməyə bərabər olsun.

**ÖVLADIM QALİBİN ÖZÜYLƏDÖYÜŞÜ HAQQINDA**

Böyüyür Qalibim – Ataya Böyük Övlad olur.
***Hökm:*** Özüylədöyüşün Özünüdəyişməyə bərabər olsun.

**ÖVLADIM DAĞTƏKİNİN ÖZÜYLƏDÖYÜŞÜ HAQQINDA**

Böyüyür Dağtəkinim – Ataya Böyük Övlad olur.
***Hökm:*** Özüylədöyüşün Özünüdəyişməyə bərabər olsun.

**ÖVLADIM ODTƏKİNİN ÖZÜYLƏDÖYÜŞÜ HAQQINDA**

Böyüyür Odtəkinim – Ataya Böyük Övlad olur.
***Hökm:*** Özüylədöyüşün Özünüdəyişməyə bərabər olsun.

## ÖVLADIM NURANDIN ÖZÜYLƏDÖYÜŞÜ HAQQINDA

Böyüyür Nurandım – Ataya Böyük Övlad olur.
***Hökm:*** Özüylədöyüşün Özünüdəyişməyə bərabər olsun.

## HƏQİQƏT

İnciklik – Doğmalıq Nisbiliyidir – aradan qaldırılmasa – Yadlığa keçən.

*10 Arzu günü, Ata Ayı, 12-ci il. Bakı.*

## FƏRQLƏR

Həsəd – Kin yaradır.
Qibtə – Təəssüf yaradır.
Heyrət – Fərəh yaradır.

*12 Dözüm günü, Ata Ayı, 12-ci il. Bakı.*

## GÖYLÜNÜN ÖZÜYLƏDÖYÜŞÜ HAQQINDA

Əzabın Mənasına çatmaq – Fərəhə çatmaqdır.
Göylü Məna Yolundadır – Fərəhə çatacaq.

*19 Dözüm günü, Ata Ayı, 12-ci il. Bakı.*

## GÖYTƏKİNİN ÖVLAD DƏFTƏRİ HAQQINDA

Göytəkinin Dəftəri – İzhardır – Özüylədöyüş deyil.
***Özüylədöyüşdə – naqisliklər ömürdən silinməlidir.***
İzhar – səmimidir, mənalıdır, genişdir – Özüylədöyüşə ruhani hazırlıqdır.

*20 Mərhəm günü, Ata Ayı, 12-ci il. Bakı.*

## ÖVLADIM ƏSİLİN ÖZÜYLƏDÖYÜŞÜ HAQQINDA

Müqəddəs Yolun Müqəddəs Səyi – Ucalığı, Fərəhi – Kamilliyə aparan.

Özüylədöyüşün Nəticəsi – Sabahlıq.

Əsil Yolçudur – Məhəbbətli, Ehtizazlı, Əməlli...

Mənəviyyat Güzgüsü yaranmalı Dəftərdən – Ruhani Silah.

## ÖVLADIM YÜKSƏYİN ÖZÜYLƏDÖYÜŞÜ HAQQINDA

Yüksək – özüylədöyüşün ilk pilləsindədir.
O – təzə pillələrə yüksələcək və İnsanlığa çatacaq.

## ÖVLADIM HALALIN ÖZÜYLƏDÖYÜŞ DƏFTƏRİ HAQINDA

Özüylədöyüş dəftəri yoxdur – özüylədöyüş dəftərinə hazırlıq var.

*23 İnam günü, Ata Ayı, 12-ci il. Bakı.*

## YARDIMLIDA ATAYLA GÖRÜŞ

Təbiilik, Səmimilik, Müqəddəs Heyrət Birliyi yarandı Görüşdə.

Övladım İşıqlının Əməli Təqdir olunur.

(Qeyd: İşıqlı – Səxavət...).

## HƏQİQƏT

Həyatın Ölümdən başqa Zirvəsi yoxdur.
Amal Həyat Zirvəsini aşır.

## HƏQİQƏT

Mütləqilik – Azadlıq.
Nisbilik – Əsarət.
Məna – Azadlıq.
Təzahür – Əsarət.

## EVLADIM DOĞMANIN ÖZÜNÜDƏRKİ HAQQINDA

Doğma özünü tanıyır. Mənaya çatmaq üçün Yoldadır – Mənaya çatacaq.

*24 Arzu günü, Ata Ayı, 12-ci il. Bakı.*

## EVLADIM LAYİQİN ÖZÜYLƏDÖYÜŞÜ HAQQINDA

Evladım Layiq böyüyür – Ataya Böyük Evlad olur.
***Hökm:*** Özüylədöyüşün özünüdəyişmənə bərabər olsun.

*27 Mərhəm günü, Ata Ayı, 12-ci il. Bakı.*

## ÖZÜMLÜNÜN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN HESABATI HAQQINDA

Amallaşma – Özüylədöyüş – Xalqlaşma Birliyi yaranır.
Məqsəd: İnsanlaşma – İnsanlaşdırma Birliyinə çatmaq.

Nurlanın, Nurlandırın!
Yükümüzdən Böyük Fərəhimiz yoxdur!

*30 İnam günü, Ata Ayı, 12-ci il. Bakı.*

## TƏQDİR

Evladım Əsilin Müqəddəs Əməl səviyyəsinə yetən Təşkilatçılığı Təqdir olunur.

*2 Ümid günü, Xəzan Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Siyasi Dirçəliş olmur – Siyasi Çevriliş olur.
Ruhani Çevriliş olmur – Ruhani Dirçəliş olur.

## HƏQİQƏT

Siyasət – Bəşərin Ruhani səviyyəsizliyinin bəhrəsidir.
Siyasi Rəhbərlik – Ruhani Rəhbərsizliyin bəhrəsidir.
Siyasi Fəallıq – Ruhani Fəalsızlığın bəhrəsidir.

## HƏQİQƏT

Ruhaniyyat – Mahiyyətcə Anti Siyasət deməkdir.

Bu səbəbdən də Siyasətçilər Ruhaniyyatı sevə bilməzlər – sevən görünərlər, bilinərlər.

Ruhaniyyat – Mahiyyətcə Siyasətin Ölümüdür.

Siyasət – öz ölümünü sevməz.

## MƏQSƏD

Siyasəti Ruhaniyyatla əvəz etmək.

*6 Murad günü, Xəzan Ayı, 12-ci il. Bakı.*

## EVLADIM TÜRKELƏ

Türk Elliyik – Alp dağlarından Sibirə tək, Sibirdən Aralıq Dənizinədək.

Oğuzlu, Qıpçaqlı, Peçeneqli, Polovesli, Hunlu.

Ayrılmışıq, səpələnmişik, səpilmişik – diyar-diyar.

Birləşməliyik: Mütləqə İnam əsasında, İnsanlaşma əsasında, Ruhani Cəmiyyət əsasında, Müstəqil Vətən əsasında, Özümlü Şərq əsasında.

Türk Elliyik, Şərq Mahiyyətliyik, Dünyalıyıq – Dünyasızlar arasında.

***Türkel*** adını sənə halal eləyirəm.

Adına layiq ol.

Daxilindəki Mütləq sənə Yar olsun.
Yükümüzdən Böyük Fərəhimiz yoxdur.

(Qeyd: Həyatda adı İslam idi. Öz istəyiylə Ocaqdan çıxdı).

## EVLADIM ULUTAYA

Suyumuz Uludur.

Zərdüşt Suyluyuq, Babək Suyluyuq, Dədə Qorduq Suyluyuq, Hürufi Suyluyuq, Füzuli Suyluyuq, Muğam Suyluyuq, Saz Suyluyuq.

İnam Suyu içmişik, İdrak Suyu içmişik, Mənəviyyat Suyu içmişik, İradə Suyu içmişik.

Ulularımıza tay olmalıyıq.

***Ulutay*** adını sənə halal eləyirəm.

Adına layiq ol.

Daxilindəki Mütləq sənə Yar olsun!
Yükümüzdən Böyük Fərəhimiz yoxdur!

*7 İnam günü, Xəzan Ayı, 12-ci il. Bakı.*

(Qeyd: Həyatda adı Xanlar idi. Ocaqdan çıxdı).

## FƏRQ

Siyasət Riyanı yaşadır – Ruhaniyyat Riyanı öldürür.
Siyasət Həyanı öldürür – Ruhaniyyat Həyanı yaşadır.

*8 Arzu günü, Xəzan Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Dünya Birdir. İkili Dünya – Dünyasızlıqdır.

## HƏQİQƏT

Xeyir Var olduğu dərəcədə Şər yoxdur.

## FƏRQ

Həqiqət – Varlıq Əməli.
Yalan – Yoxluq Əməli.

## HƏQİQƏT

Xülyavi gerçəklik əslində – gerçəklik Xülyasıdır.

**HƏQİQƏT**

Yalan Hüdudu – Gerçəklik.
Həqiqət Hüdudsuzluğu – Mahiyyət.

**HƏQİQƏT**

Həqiqət – İnsan İnamı.
Yalan – Adam İnamı.

**HƏQİQƏT**

Yalan – Yoxluq ifadəsidir. Yalanın çoxalması – Yoxluğun çoxalması deməkdir.

**HƏQİQƏT**

Yalandan İnam yaradırlar – əslində İnam Yoxluğu yaradırlar.

Yalandan Ümid yaradırlar – əslində Ümid Yoxluğu yaradırlar.

**HƏQİQƏT**

Həqiqət – Əzablı Varlıq.
Yalan – Nəşəli Yoxluq.

**HƏQİQƏT**

Xeyir – Dünya boyda Varlıq.
Şər – Dünyasızlıq boyda Yoxluq.

*9 Ümid günü, Xəzan Ayı, 12-ci il. Bakı.*

**12-ci İL "ATA GÜNÜ" MƏRASİMİ HAQQINDA**

Mərasim ***Müqəddəs İzhar səviyyəsində keçdi.***

Nöqsanlar: Texniki çatışmazlıq, İntizam Mütləqiliyinin pozulması.

**HƏQİQƏT**

Mücərrəd – yəni Əzəli, Əbədi.
Konkret – yəni Keçici, Ötəri.

### HƏQİQƏT

Konkret Həqiqət – əslində konkret Yalan deməkdir.

### HƏQİQƏT

Din Yalan əsasında Əzəli, Əbədi Söz demək istəyir; unudur ki, Əzəli Yalan olmur, Əbədi Yalan olmur – Əzəli Həqiqət olur, Əbədi Həqiqət olur.

### HƏQİQƏT

Xeyir Haqsız olub – Şər haqlı: Xeyir Haqq olub – Şər Nahaqq.

### HƏQİQƏT

Yalan – Şərdir. Din yalandan Xeyir yaratmaq istəyir – Şər yaranır.

### HƏQİQƏT

Sərt Həqiqət olur – Azğın Həqiqət olmur: Azğın Yalan olur.

### TARİXİ ƏMƏLİYYAT

Xeyiri Şərə qatdılar və Xeyir Şərdən seçilmədi.

### HƏQİQƏT

Həqiqət ən yoxsul libasda belə – Gözəldir.
Yalan ən varlı libasda belə – çirkindir.

### HƏQİQƏT

Yalan gözəlliyi haqqında “həqiqət” – Yalandır!

### HƏQİQƏT

“Bədii Yalan” – Gerçəkliyi ötür – Mənaya çatır, bu səbəbdən də o, Bədii Həqiqətdir əslində.

### HÜRUFİLİK ÜSTƏ

Əgər İnsan – Allahdırsa, o – Kamil olmalıdır;
Əgər Kamil deyilsə, o – İnsan deyil.

## HƏQİQƏT

İqtisadiyyatçı cəmiyyətdə İnsan iqtisadlaşır.

## HƏQİQƏT

Təzahür keçmişə çevrilir – Mahiyyət keçmişə çevrilmir.
Təzahür gəlir-gedir – Mahiyyət gəlmir-getmir – Olur, Qalır.

## HƏQİQƏT

Dünyanı yaradan Allah ideyası – Dünya Mahiyyətinin Mütləqiliyinə Ziddir – bu səbəbdən də Yalandır.

Qəzavü-qədər İdeyası – İnsani Mahiyyətin Mütləqiliyinə Ziddir – bu səbəbdən də Yalandır.

Din əslində Mütləqiliyə qarşıdır – buna görə də Yalandır.

## HƏQİQƏT

Bədiiyyat – Mənanın İzharıdır. Bu səbəbdən də Bədii Təxəyyül Yalançı deyil – Həqiqətçidir.

*10 Dözüm günü, Xəzan Ayı, 12-ci il. Bakı.*

## FƏRQ

Özünə inanmadığın dərəcədə Allaha inanırsan.
Özünə inandığın dərəcədə Mütləqə inanırsan.

## ÖLÇÜ

Yalana Ehtiyacın olduğu dərəcədə Naqissən.
Həqiqətə Ehtiyacın olduğu dərəcədə Kamilsən.

## FƏRQ

Özünü bilməyə-bilməyə Oda-Közə vurmaq – Naşılıqdır.
Özünü bilə-bilə Oda-Közə vurmaq – Müdriklikdir.

*11 Mərhəm günü, Xəzan Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Hüquqdan kənarda Borc yoxdur, çünki Zorakı Borc – Mütilikdir.

Əslində Borc elə Hüquq deməkdir – Hüquq elə Borc deməkdir.

## HƏQİQƏT

İnsan hüquqları uğrunda döyüşmək – İnsan Borcları uğrunda döyüşməkdir.

İnsan hüquqları uğrunda döyüşmək – özü İnsani Borcdur.

## HALLAR

İnsan haqqı Anlayışına İnsan Borcu da daxildir.

İnsan haqqı elə İnsan Borcudur, İnsan Borcu elə İnsan Haqqıdır.

## HƏQİQƏT

Zorakı Cəmiyyətlər əslində ən Məsuliyyətsiz cəmiyyətlərdir.

## HƏQİQƏT

Yenilikçi Konservator olmasa – Yeniliyi Təsdiq edə bilməz.

Konservator Yenilikçi olmasa – Sabitliyi Qoruya bilməz.

Yenilikçi – Konservator Təzadı Səthi Təzaddır – Siyasətə yarayan.

## HƏQİQƏT

Dünyada Mənadan başqa heç nə yoxdur – çünki Mənadan başqa nə varsa – Mənasızdır.

## HƏQİQƏT

Zorakı Məsuliyyət olmur – Zorakı Mütilik olur.

Zorakı Məsuliyyət əslində Məsuliyyətsizlikdir.

## HƏQİQƏT

Keçmişin Böyüklüyü – Keçmişə çevrilməmək.

**HƏQİQƏT**

Təmənnasızlıq olmayan yerdə – İnsanilik Yoxdur.
Təmənna olmayan yerdə – cəmiyyət yoxdur.
İnsanilik cəmiyyətə Ziddir mahiyyətcə.
Cəmiyyətçilik – antiinsanidir.

**HƏQİQƏT**

Müasir cəmiyyət – İnsana Əmtəə baxımından yanaşır, onun İstehlak Dəyərini nəzərə alır; Ruhani Mahiyyətinə məhəl qoymur.

**HƏQİQƏT**

Cəmiyyətlə İnsanın Dostluğu tutmur – Alverdə Dostluq olmaz...

**HƏQİQƏT**

Güzəran İnsan üçün azdır, ona Məna gərək.

**HƏQİQƏT**

Maddi Rifahda Fayda var, Məna yoxdur.

**HƏQİQƏT**

Maddi Qıtlıq – İnsanı alçaldır; –
Maddi Rifah – İnsanı Yüksəltmir.

**MƏNASIZLIQ**

Müasir Dünyada – Varidat Bolluğunda Məna görür, Siyasi Möhtəşəmlikdə Məna görür – əslində Mənasızlıqda Məna görür.

**HƏQİQƏT**

Cəmiyyət – Gerçəkliyə uyğundur, bu səbəbdən də Mənasızdır.

**HƏQİQƏT**

Dönüklük – Gerçəkliyə uyğundur.
Sədaqət – Mənaya uyğundur.

## HƏQİQƏT

Mənaya İnanan – Gerçəkliyə İnanmaz.
Gerçəkliyə İnanan – Mənaya İnanmaz.

## HƏQİQƏT

***Məna*** – Əzəlidir, Əbədidir, Kamildir.
Bu səbəbdən də Var olandır.

***Gerçəklik*** – Ötəridir, Sonludur, Qeyri-Kamildir.
Bu səbəbdən də Yox olandır.

Mənalı – Mənadan azdır, Gerçəklikdən çox.
Bu səbəbdən Varlıqdan azdır, Yoxluqdan çox – Varlıqla Yoxluq arasındadır.

## HƏQİQƏT

Gerçəklik Bir olanı İkiləşdirir – Paralayır, Parçalayır – Mənasızlaşdırır – Yoxluğa aparır.

## HƏQİQƏT

Mənanın Üzü Birdir, Gerçəkliyin Üzü – Min.
Bu səbəbdən də Məna – Dəyişməzdir, Gerçəklik – Dəyişkən.

## HƏQİQƏT

Gerçəkliyə Bel bağlayan – Aldanır...
Mənaya Bel bağlayan – Aldanmır.

## HƏQİQƏT

Dialektika Gerçəkliyi Məna sayır – Mənanı gerçəkləşdirir – Yox eləyir.

*14 İnam günü, Xəzan Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Ənənə – Əbədiliyin ifadəsidir.
Əbədi – Keçmişə çevrilmir.

**HƏQİQƏT**

Ailə – ictimai hadisə deyil, ruhani hadisədir.
Ailə ictimailəşəndə – dağılır.

**ƏNƏNƏ**

Keçmişə çevrilməyən Qədimlik.

**HƏQİQƏT**

Ruhani Bərabərsizlik – Maddi Bərabərliyi ləğv etmir – Təsdiq edir.

**HƏQİQƏT**

Məna – Bölünməzdir, çünki Müəyyəndir.
Mənasızlıq – Bölünəndir, çünki Qeyri-Müəyyəndir.

**HƏQİQƏT**

Mütləq – Müəyyəndir, Nisbi – Qeyri-Müəyyən.
Sonsuz – Müəyyəndir, Sonlu – Qeyri-Müəyyən.
Əbədi – Müəyyəndir, Keçici – Qeyri-Müəyyən.
Kamil – Müəyyəndir, Naqis – Qeyri-Müəyyən.

**HƏQİQƏT**

Ailə – əslində cəmiyyətdən qorunmaq üçündür – cəmiyyəti qorumaq üçün deyil.

*15 Arzu günü, Xəzan Ayı, 12-ci il. Bakı.*

**HƏQİQƏT**

Gerçəklik Yuxusu.
Amal Oyanışı.

*16 Ümid günü, Xəzan Ayı, 12-ci il. Bakı.*

**XEYİR-DUA**

Güneydəki Ata Ailəsinin "Ata Yolu" Dərgisinə Xeyir-Dua verirəm.

Müqəddəslik səviyyəsi – Ruhani Kamillik İşığına bərabər olsun.

Yükümüzdən Böyük Fərəhimiz Yoxdur!

*17 Dözüm günü, Xəzan Ayı, 12-ci il. Bakı.*

## EVLADIM ÖMÜRTAYA

Ömür Mənaya Sərf olunmayanda – Adam Ömürsüzləşir.

Bugünkülər – Ömürsüzdürlər, çünki İnamsızdırlar, İdraksızdırlar, Mənəviyyatsızdırlar, İradəsizdirlər.

Ömrün Mütləqə İnam Mənası olmalıdır, Özüylədöyüş Mənası olmalıdır, Ruhani Cəmiyyət Mənası olmalıdır, Müstəqil Vətən Mənası olmalıdır, Özümlü Şərq Mənası olmalıdır.

Ömür Amala tay olmalıdır.

***Ömürtay*** adını sənə halal eləyirəm.

Adına layiq ol.

Daxilindəki Mütləq sənə Yar olsun.
Yükümüzdən Böyük Fərəhimiz yoxdur.

*18 Mərhəm günü, Xəzan Ayı, 12-ci il. Bakı.*

(Qeyd: Həyatda adı Məlahət idi. Ocaqdan çıxdı).

## ATAYLA XARKOVDA GÖRÜŞ

Hər yerdə bizi gözləyirlər – tanımaya-tanımaya.
İnamlının Təşkilatçılığı Təqdir olunur.
Əsilin Atagüzarlığı Yüksək səviyyədəydi.

*31 Dözüm günü, Xəzan Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Azadlıq – Ruhani Kamillik Haqqı.
Bərabərlik – Ruhani Kamillik Haqqı.
Qardaşlıq – Ruhani Kamillik Haqqı.

*6 Ümid günü, Yağış Ayı, 12-ci il. Bakı.*

## BEYLƏQANDA ATAYLA GÖRÜŞ

Görüş Amal çağırdı, Amala çağırdı.

Qədimin, Düzgünün, Günevin Təşkilatçılığı Təqdir olunur.

Əsilin Atagüzarlığı Yüksək səviyyədəydi.

*9 Qismət günü, Yağış Ayı, 12-ci il. Bakı.*

## ÖVLADIM ÜZAĞLIYA

Üzləri Qaradır Bugünkülərin: – İnamsızlıq kimi, İdraksızlıq kimi, Mənəviyyatsızlıq kimi, İradəsizlik kimi.

Üzümüz ağdır: – İnam kimi, İdrak kimi, Mənəviyyat kimi, İradə kimi.

Mütləqə İnam adlı ÜzAğlığımız var.

Özüylədöyüş adlı ÜzAğlığımız var.

Ruhani Cəmiyyət adlı ÜzAğlığımız var.

Müstəqil Vətən adlı ÜzAğlığımız var.

Özümlü Şərq adlı ÜzAğlığımız var.

***Üzağlı*** adını sənə halal eləyirəm.

Adına layiq ol.

Qaranlıqlar Yarılsın!
Daxilindəki Mütləq sənə Yar olsun.

*12 Arzu günü, Yağış Ayı, 12-ci il. Bakı.*

(Qeyd: Həyatda adı Vaqif idi. Savaşa getdi – qayıtmadı).

## ÖZÜMLÜNÜN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN HESABATI HAQQINDA

Amallaşma Dərinləşdikcə Özüylədöyüş Dərinləşir, Özüylədöyüş Dərinləşdikcə Xalqlaşma Dərinləşir.

Məqsəd: Ruhani Mərkəzə çevrilmək.

İlk addım: Ailə Mərasiminə Özgələri daha çox cəlb eləmək – Özümləşdirmək məqsədiylə.

Nurlanın, Nurlandırın!
Yükümüzdən Böyük Fərəhimiz yoxdur!

*20 Ümid günü, Yağış Ayı, 12-ci il. Bakı.*

## ATAYLA BAKININ LENİN RAYONUNDA GÖRÜŞ

1. Görüş Amal çağırdı, Amala çağırdı – Ocağın Xalqlaşma Məqsədinə yaradı.

2. Əsilin Təşkilatçılığı Ruhani Hünər səviyyəsindəydi.

*24 Murad günü, Yağış Ayı, 12-ci il. Bakı.*

## ATAYLA İNŞAAT İNSTİTUTUNDA GÖRÜŞ

Görüş Ocağın Xalqlaşma Yolunda səmərəli addım oldu.
Əsilin Təşkilatçılığı Təqdir olunur.

*24 Murad günü, Yağış Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Əqidəsizlikdən böyük İdraki Məhdudluq yoxdur.

*30 Qismət günü, Yağış Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

İslamın Zərdüştçülük üzərində qələbəsi – Əhrimənin Hürmüzd üzərində qələbəsi oldu.

*2 İnam günü, Sərt Ayı, 12-ci il. Bakı.*

## HƏMİŞƏLİK

Məna həmişəlik yaşayır – Təzahür həmişəlik ölür.

*4 Ümid günü, Sərt Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Əgər Dünyanın Mənası Dünyadan artıq olmasaydı – Dünyanın Dərdi olmazdı.

## FƏRQ

Özgə Əlifba – Özgələşmə Əməliyyatıdır.
Doğma Əlifba – Özümləşmə Əməlidir.

## HƏQİQƏT

Həyat öz Mənasına Həsrətdir, bu səbəbdən də Kədərlidir.

*5 Dözüm günü, Sərt Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Ruhani Yükdən azad olmaq – Fərəhdən azad olmaqdır.
Fərəh – Ruhani Yükdür əslində.

## FƏRQ

Beynəlmiləlçilik – Millətlərüstü Birlikdir.
Humanizm – Millətlər birliyidir.

## DİNİ İDARƏÇİLİK

Keşiş – Allah çinovniki.
Molla – Allah çinovniki.

*6 Mərhəm günü, Sərt Ayı, 12-ci il. Bakı.*

## FƏRQ

Hakimlik – Özünütəsdiq.
Atalıq – Özündənkeçmə.

## HƏQİQƏT

Cəmiyyətçi Ruhaniyyat olmur – Ruhaniyyatçı cəmiyyət olmayıb.

## HƏQİQƏT

Din – cəmiyyətləşən, yəni hakimiyyətləşən İnam.

## FƏRQ

Amal – Göy Həqiqəti.
Din – Göy Əfsanəsi.

## FƏRQ

İskəndərləri Zaman yetirir – Zərdüştləri İnam.

## HƏQİQƏT

Cəmiyyət İnsan yetirmir – Hakim yetirir, Rəiyyət yetirir, Çinovnik yetirir, İxtisasçı yetirir.

İnsanı cəmiyyətə qarşı duran Ruhaniyyat yetirir.

## FƏRQLƏR

Zərdüştçülük – İşıqçılıq.
İslam – İtaətçilik.
Xristianlıq – Mərhəmətçilik.
Amal – İnsançılıq.

## HƏQİQƏT

Cəsarət Azadlığı – Mütilik Üsulu.

## VƏZİYYƏT

Ruhaniyyatçı üzünü Şərqə tutub, Şərq üzünü Qərbə.

*7 Qismət günü, Sərt Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Sosializmə Kamil İnsan gərək deyil – Müti Adam gərəkdir.

Kapitalizmə Kamil İnsan gərək deyil – Varlı Adam gərəkdir.

Kamil İnsan uğrunda döyüş – Sosializmə qarşı döyüşdür, Kapitalizmə qarşı döyüşdür.

**HƏQİQƏT**

Var olmaq – Əbədi, Sonsuz, Ölümsüz, Kamil olmaq deməkdir.
Yox olmaq – Keçici, Sonlu, Ölümlü, Qeyri-Kamil olmaq deməkdir.

Məna – Var olandır.

Təzahür – Yox olandır.

**HƏQİQƏT**

Dəyişməzlik – Varlıq.
Dəyişkənlik – Yoxluq.

**ÖLÇÜ**

Həyat qədər amansız, həyasız, Amal qədər ədalətli, ləyaqətli.

**HƏQİQƏT**

Gerçəklik Həqiqətsizliyi, İdeal Həqiqəti.

**HƏQİQƏT**

Mənəvi Azadlıq Ölçüsü – Kamil İnsan.
İctimai Azadlıq Ölçüsü – Təbəqəsizlik.
Siyasi Azadlıq Ölçüsü – Qəyyumsuzluq.

*10 Arzu günü, Sərt Ayı, 12-ci il. Bakı.*

**HƏQİQƏT**

***Maddi bərabərlik İdeyası*** – Əbədi, Əzəli İdeyadır.

Kommunizm bərabərliyi – sürüləşmə Timsalıdır, Ruhani Ölüm bərabərliyidir.

***Zəhmətkeş Mülkiyyətinin bərqərar olması – Maddi bərabərliyə aparan yeganə düzgün yoldur.***

***İmtiyazsızlıq İdeyası*** – Əbədi, Əzəli İdeyadır.

Kommunizm İmtiyazsızlığı – Sürüləşmə Timsalıdır, Ruhani Ölüm İmtiyazsızlığıdır.

***İnsanlaşma – İmtiyazsızlığa aparan yeganə düzgün yoldur.***

## HƏQİQƏT

Həyat adamın başını aşağı eləyir.
Amal adamın başını uca eləyir.

*16 İnam günü, Sərt Ayı, 12-ci il. Bakı.*

## "SƏFƏR GÜNÜ" MƏRASİMİ HAQQINDA

1. Mərasimin Məzmunu: Evlad qəbulu; Ata Səfərləri haqqında Ata Sözü, Evlad Sözü; Ruhani Sənədlərin oxunması.

2. Mərasimin Gedişatını Elli yazır.

3. Gedişat Yazısı Sərt Ayın 24-də Ataya təqdim edilir.

*18 Ümid günü, Sərt Ayı, 12-ci il. Bakı.*

## ATAYLA "BİLİK" CƏMİYYƏTİNDƏ GÖRÜŞ

Görüş Amal çağırdı, Amala çağırdı.

Qurmaçılarla İslamçıların Ocağa qarşı gələcək İttifaqının nişanələri göründü.

Əsilin Təşkilatçılığı Hünər səviyyəsindəydi.

Safruhun "Müqədədəs İzhar"ı Yetkin idi.

*21Qismət günü, Sərt Ayı, 12-ci il. Bakı.*

## EVLADIM ŞƏRQİYƏ

Şərqliyik – ancaq Qərb mahnısı oxuyuruq, Qərbləşmişik, özgələşmişik.

Şərqləşməliyik, Şərqimizi oxumalıyıq.

Şərqə Şərq İşığı saçmalıyıq – Mütləqilik İşığı, Müqəddəslik İşığı.

Dünya Şərqimizdən İşıq almalıdır: – İnam İşığı, İdrak İşığı, Mənəviyyat İşığı, İradə İşığı.

Dünya Şərqimizi dinləməlidir.

Zərdüşt Şərqisi oxuyuruq, Babək Şərqisi oxuyuruq, Dədə Qorqud Şərqisi oxuyuruq, Hürufi Şərqisi oxuyuruq, Füzuli Şərqisi oxuyuruq, Muğam Şərqisi oxuyuruq, Saz Şərqisi oxuyuruq Şərq üçün, Dünya üçün.

***Şərqi*** adını sənə halal eləyirəm.

Adına layiq ol.

Qaranlıqlar Yarılsın!

*22 Murad günü, Sərt Ayı, 12-ci il. Bakı.*

(Qeyd: Həyatda adı Nuriyə idi. Ocaqdan çıxdı).

## EVLADIM SOYLUYA

Soyumuz Uludur – Zərdüşt Soyundanıq, Babək Soyundanıq, Dədə Qorqud Soyundanıq, Hürufi Soyundanıq, Muğam Soyundanıq, Saz Soyundanıq, Füzuli Soyundanıq.

Suyumuz Uludur – Zərdüşt Bulağından gəlir, Babək Bulağından gəlir, Dədə Qorqud Bulağından gəlir, Hürufi Bulağından gəlir, Muğam Bulağından gəlir, Saz Bulağından gəlir.

Soyumuza qayıtmalıyıq: – Zərdüştlüyümüzə, Babəkliyimizə, Dədə Qorqudluğumuza, Hürufiliyimizə, Muğamlığımıza, Sazlığımıza.

Suyumuza qayıtmalıyıq.

***Soylu*** adını sənə halal eləyirəm.

Adına layiq ol!

Qaranlıqlar Yarılsın!

(Qeyd: Həyatda adı Zülfüqardır. İndi Ocaq Yükümlüsüdür – Soylu Atalı adı ilə).

## EVLADIM GÖYLÜYƏ

Göysüzdürlər Bugünkülər – Çünki İnamsızdırlar, İdraksızdırlar, Mənəviyyatsızdırlar, İradəsizdirlər.

Zərdüşt boyda Göyümüz var.
Babək boyda Göyümüz var.
Qorqud boyda Göyümüz var.
Hürufilik boyda Göyümüz var.
Füzuli boyda Göyümüz var.
Muğam boyda Göyümüz var.
Saz boyda Göyümüz var.

Göy olmalıyıq Yerimizə. Göylü olmalıdır Yerimiz.

***Göylü*** adını sənə halal eləyirəm.

Adına layiq ol.

Qaranlıqlar Yarılsın!

*25 Ümid günü, Sərt Ayı, 12-ci il. Bakı.*

(Qeyd: Həyatda adı Mehriban idi. Ocaqdan çıxdı).

## EVLADIM ALOVA

Sönükdür Dünya, Soyuqdur – Alovsuzdur, istisizdir – çünki İşıqsızdır.

İnamsızlıq soyuğuna düçar olub, İdraksızlıq soyuğuna düçar olub, Mənəviyyatsızlıq soyuğuna düçar olub, İradəsizlik soyuğuna düçar olub.

Qaranlıqdır Dünya – Soyuq ürəklər zülməti yaşayır Dünyada.

Alov olmalıyıq Dünyaya – Alovlu ürək.
Mütləqə İnam Alovu olmalıyıq.
Özüylədöyüş Alovu olmalıyıq.
Ruhani cəmiyyət Alovu olmalıyıq.
Müstəqil Vətən Alovu olmalıyıq.
Özümlü Şərq Alovu olmalıyıq.

***Alov*** adını sənə halal eləyirəm.

Adına layiq ol.

Qaranlıqlar Yarılsın.

(Qeyd: Həyatda adı Şirinxanım idi. Ocaqdan çıxdı).

**EVLADIM BULAĞA**

Bulanıqdır Dünya. İnamsızlıq Çirkabına qərq olub, İdraksızlıq Çirkabına qərq olub, Mənəviyyatsızlıq Çirkabına qərq olub, İradəsizlik Çirkabına qərq olub.

Mütləqə İnam Bulağından su içməlidirlər Adamlar, Özüylədöyüş Bulağından su içməlidirlər Adamlar, Ruhani Cəmiyyət Bulağından su içməlidirlər Adamlar, Müstəqil Vətən Bulağından su içməlidirlər Adamlar, Özümlü Şərq Bulağından su içməlidirlər Adamlar.

Ruhani Bulaq olmalıyıq Yurdumuza, Şərqimizə, Dünyamıza.

***Bulaq*** adını sənə halal eləyirəm.

Adına layiq ol.

Qaranlıqlar Yarılsın!

(Qeyd: Həyatda adı Xatirə idi. Ocaqdan çıxdı).

**HƏQİQƏT**

Yenidənqurma – Fəlakətdir.
Yenidənqurmadan Diktatura xilası – Fəlakətdir.
Ölkəni Fəlakətdən Fəlakətə gedən Yol gözləyir.
***Nicat – Ruhani Cəmiyyət – Sabahkı.***

*26 Dözüm günü, Sərt Ayı, 12-ci il. Bakı.*

**FƏRQ**

Həyat – Özgəylə döyüş.
Amal – Özünlə döyüş.

## “SƏFƏR GÜNÜ” MƏRASİMİ HAQQINDA

Mərasim Mütləqilik səviyyəsində keçdi.
Nöqsan: Toplanış Mütləqiliyinin pozulması.

*30 İnam günü, Sərt Ay, 12-ci il. Bakı.*

## İDEALSIZLIQ

Gerçəkliyə İdeal səpmək əvəzinə Gerçəklik səpirlər – bu səbəbdən də heç nə bitmir.

## MÖHTƏŞƏMLİK

Tərkidünyalıq Boyda dünyaları vardı Sufilərin.

## MƏHƏBBƏT

Əslində heç kəs Sifətə vurulmur – Sifətdə İşıqlanan Mənaya vurulur.

Əslində heç kəs Gözə vurulmur – Gözdə İşıqlanan Mənaya vurulur.

Əslində heç kəs Saça vurulmur – Saçda İşıqlanan Mənaya vurulur.

***Ancaq Məna gözə görünmür və bu səbəbdən də elə bilirlər ki, Sifətə, Gözə, Saça vurulublar.***

## FƏRQ

Ruhani Həyat həm də Şəxsi həyatdır.
İctimai Həyat Qeyri-şəxsi həyatdır.

## HƏQİQƏT

Məhəbbətdə Ovçu olmur, Şikar olur.
Şəhvətdə Şikar olmur, Ovçu olur.

## FƏRQ

Ocaqdan qaçan – İşıqdan qaçır.
Ocağa qaçan – İşığa qaçır.

*31 Arzu günü, Sərt Ayı, 12-ci il. Bakı.*

## “AİLƏ GÜNÜ” MƏRASİMİ HAQQINDA

1. “Ailə Günü” Mərasiminin Yazısı Özümlüyə tapşırılır.
Ailə Gününün Carlarının Yazısı Özümlüyə tapşırılır.

2. Qar Ayının 25-də Yazılar Ataya çatdırılır.

## HAL

Gərgin yaşayıram – bu səbəbdən də Zəngin yaşayıram.

*27 İnam günü, Qar Ayı, 12-ci il. Bakı.*

## İSLAMÇILARA MÜNASİBƏT

İslamçıları Kommunistlərin kölgəsi saymaq, bu səbəbdən də saymamaq.

Mütləqçiliyi yaymaq.

*29 Ümid günü, Qar Ayı, 12-ci il. Bakı.*

## ÖZÜMLÜNÜN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN HESABATI HAQQINDA

I. Yön – Uğurludur.

II. Müqəddəs Kitabların öyrənilməsini davam etdirmək.

III. Xalqlaşma Yolunda Ailənin Camaatla Təmasını Düşünmək...

Ata Ailəsinin Görüşünü Təşkil etmək Əhaliylə.

Nurlanın! Nurlandırın!

*30 Dözüm günü, Qar Ayı, 12-ci il. Bakı.*

## HƏQİQƏT

Məna – Sadədir, ancaq Adi deyil.
Mənasızlıq – Adidir, İbtidaidir.

## YOL

***İnsani Cəmiyyət:***

Zəhmətkeş Mülkiyyəti.
Fərdi Özünüidarə.
İmtiyazsızlıq.
Atalıq.

*1 Qismət günü, Köçəri Ay, 12-ci il. Bakı.*

## EVLADIM ELUCAYA

Elimizin Mahiyyəti Ucadır.
Mahiyyətimiz – Zərdüşt Ucalığındadır,
Babək Ucalığındadır,
Dədə Qorqud Ucalığındadır,
Hürufi Ucalığındadır,
Füzuli Ucalığındadır,
Muğam Ucalığındadır,
Saz Ucalığındadır.

Elimizi əskik tuturlar Bugünkülər – İnamsızlar, İdraksızlar, Mənəviyyatsızlar, İradəsizlər.

Elimizin Ucalığına tay olmalıyıq.
Elimizi Uca tutmalıyıq.
Elimizin Ucalığını Təsdiq etməliyik!
***Eluca*** adını sənə halal eləyirəm.

Qaranlıqlar Yarılsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

(Qeyd: Həyatda adı Mədinə idi. Ocaqdan çıxdı).

## EVLADIM AMALYURDA

Amal Yetiririk Yurdumuzda. Amal Yurduna dönür Azərbaycanımız.

Mütləqə İnam Amalı becəririk Yurdumuzda.
Özüylə Döyüş Amalı becəririk.
Müstəqil Vətən Amalı becəririk.
Ruhani Cəmiyyət Amalı becəririk.
Özümlü Şərq Amalı becəririk.
Amalyurd becəririk Bəşər üçün.
***Amalyurd*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Qaranlıqlar Yarılsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*5 Ümid günü, Köçəri Ay, 12-ci il. Bakı.*

(Qeyd: Həyatda adı Rza idi. Ocaqdan çıxdı).

## VAR-YOX

Parlamentçilik adlı Ümidsizlik var.
Bazar İqtisadiyyatı adlı Ümidsizlik var.
Qərbləşmə adlı Ümidsizlik var.
Dinçilik adlı Ümidsizlik var.

Mütləqə İnam adlı Ümid var.
Kamil İnsan adlı Ümid var.
Müstəqil Vətən adlı Ümid var.
Ruhani Cəmiyyət adlı Ümid var.
Özümlü Şərq adlı Ümid var.

*8 Qismət günü, Köçəri Ay, 12-ci il. Bakı.*

## “YENİ İL” MƏRASİMİ

I. Gedişatın Yazısı Safruha tapşırılır.

II. Məzmun: Mənim Ocaq İlim.
Ata Sözü, Evlad Sözü.

III. Yazı 25 Köçəri Ayda Ataya təqdim olunur.

*18 Arzu günü, Köçəri Ay, 12-ci il. Bakı.*

## TƏQDİR

Evladım Bağbanın Mingəçevirdəki Amal Fəaliyyəti Təqdir olunur.

## “AİLƏ GÜNÜ” MƏRASİMİ HAQQINDA

Mərasim Müqəddəslik səviyyəsində keçdi.
Özümlünün Yetkin Sözü Təqdir olunur.

## BORÇALIDA ATAYLA GÖRÜŞ

Görüş Amal çağırdı, Amala çağırdı.
Soylunun Təşkilatçılığı, Əsilin Atagüzarlığı Təqdir olunur.

## EVLADIM ÜLVİYƏ

Dünyanı Bəsitləşdirdilər – Göysüzləşdirdilər.
İnamı Bəsitləşdirdilər – Göysüzləşdirdilər –
İnamsızlıq yaratdılar.
İdrakı Bəsitləşdirdilər – Göysüzləşdirdilər –
İdraksızlıq yaratdılar.
Mənəviyyatı Bəsitləşdirdilər – Göysüzləşdirdilər –
Mənəviyyatsızlıq yaratdılar.
İradəni Bəsitləşdirdilər – Göysüzləşdirdilər –
İradəsizlik yaratdılar.
***Göylü olmalıyıq – Ülvi olmalıyıq.***
***Ülvi*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Qaranlıqlar Yarılsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*28 Köçəri Ay, 12-ci il. Bakı.*

(Qeyd: Həyatda adı Rüxsarə idi. Ocaqdan çıxdı).

## EVLADIM BİRÜZƏ

Üzümüz Birdir – çünki Ağdır.
Üzləri Çoxdur – çünki Qaradır.

Üzümüz Birdir – İnamlıyıq.
Üzləri Çoxdur – İnamsızdırlar.

Üzümüz Birdir – Dönməzik.
Üzləri Çoxdur – Dönükdürlər.

Üzümüz Birdir – Varıq.
Üzləri çoxdur – Yoxdurlar.
***Birüz*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Daxilindəki Mütləq sənə Yar olsun!
Qaranlıqlar Yarılsın!

*10 İnam günü, Günəş Ayı, 13-cü il. Bakı.*

(Qeyd: Həyatda adı Ülfət idi. Ocaqdan çıxdı).

## EVLADIM GÜNTƏKİNƏ

İşıqsızdırlar Bugünkülər – çünki İnamsızdırlar, İdraksızdırlar, Mənəviyyatsızdırlar, İradəsizdirlər.

İşıqlıyıq – Mütləqə İnam İşığıyla, Kamil İnsan İşığıyla, Ruhani Cəmiyyət İşığıyla, Müstəqil Vətən İşığıyla, Özümlü Şərq İşığıyla.

Gün təkindir Amalımız, İnamımız.

***Güntəkin*** adını sənə halal eləyirəm.

Adına layiq ol.

Qaranlıqlar Yarılsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

(Qeyd: Həyatda adı Yazbahar idi. Ocaqdan çıxdı).

## EVLADIM NURAMALA

Amalsızdırlar – Nursuzdurlar Bugünkülər.

İnamsızdırlar, İdraksızdırlar, Mənəviyyatsızdırlar, İradəsizdirlər.

Nurluyuq – çünki Amallıyıq.

Nurlu İnam Yolçusuyuq, Nurlu Yol Sahibiyik.

***NurAmal*** adını sənə halal eləyirəm.

Adına layiq ol.

Qaranlıqlar Yarılsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*16 Günəş Ayı, 13-cü il. Bakı.*

(Qeyd: Həyatda adı... Qəbula gəlmədi).

## ÖZÜMLÜNÜN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN HESABATI HAQQINDA

I. Hesabat Təqdir olunur.

II. “Dövlət” Kəlamını öyrənməli.

III. Müsavat Bayrağı, Novruz Bayramı, İslamçılıq, Fəxri Titullar, Əfvlər vasitəsiylə bərqərar olan hökumətçiliyin mahiyyətini ətrafa bildirməli.

IV. Ailənin camaatla görüşünü hazırlamalı.
V. Camaatın Atayla görüşünü hazırlamalı.

VI. Rayon mətbuatında "Ruhani cəmiyyət" İdeyalarını təbliğ etmək.

Nurlanın, Nurlandırın!

*24 İnam günü, Günəş Ayı, 13-cü il. Bakı.*

## EVLADIM ÖTKÜNƏ

Bugünü ötməliyik – Sabaha çatmalıyıq.
Nisbini ötməliyik – Mütləqə çatmalıyıq.
Gerçəkliyi ötməliyik – Mənaya çatmalıyıq.
Həyatı ötməliyik – Amala çatmalıyıq.
***Ötkün*** adını sənə halal eləyirəm.
Mütləq İnam adlı Ötkünlüyə Yüksəl!
Mütləq İdrak adlı Ötkünlüyə Yüksəl!
Mütləq Mənəviyyat adlı Ötkünlüyə Yüksəl!
Mütləq İradə adlı Ötkünlüyə Yüksəl!
Adına layiq ol.

Qaranlıqlar Yarılsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*4 Mərhəm günü, Çiçək Ayı, 13-cü il. Bakı.*

(Qeyd: Həyatda adı Camal idi. Öz istəyiylə Ocaqdan çıxdı).

## EVLADIM ELGÜNƏ

Həyat Əzabına dözürlər, Amal Əzabından Dönürlər...

Həyata Əyilirlər, Amala çatmırlar.

Bugünün Ətəyindən yapışıblar... – İqbalsızdırlar – İnamsızdırlar, İdraksızdırlar, Mənəviyyatsızdırlar, İradəsizdirlər.

Elin Günü – Dönməzlik Yoludur: Mütləqə İnamımızdır, Özüylə Döyüşümüzdür, Müstəqil Vətənimizdir, Ruhani cəmiyyətimizdir, Özümlü Şərqimizdir.

***Bugündə Elin Günü Yoxdur.***

Elin Günü – Müqəddəs Sabahdadır – Zərdüştlü, Babəkli, Dədə Qorqudlu, Hürufili, Füzulili, Muğamlı, Sazlı.

***Elgün*** adını sənə halal eləyirəm.

Adına layiq ol!

Qaranlıqlar Yarılsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

(Qeyd: Həyatda adı Əliağa idi. Döndü).

## EVLADIM YOLUNURA

***Nur ölkəsi olmalıyıq.***

İnam Nuru saçmalıyıq.

İdrak  Nuru saçmalıyıq.

Mənəviyyat Nuru saçmalıyıq.

İradə Nuru saçmalıyıq.

Nur Yolu salmalıyıq – Zərdüştdən Bugünə – Bugündən Sabaha; Babəkdən Bugünə – Bugündən Sabaha; Dədə Qorquddan Bugünə – Bugündən Sabaha; Hürufilərdən Bugünə – Bugündən Sabaha; Füzulidən Bugünə – Bugündən Sabaha; Muğamdan Bugünə – Bugündən Sabaha; Sazdan Bugünə – Bugündən Sabaha.

***Yolunur*** adını sənə halal eləyirəm!

Adına layiq ol!

Qaranlıqlar Yarılsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*7 İnam günü, Çiçək Ayı, 13-cü il. Bakı.*

## EVLADIM ELSABAHA

Elimizin Bugünü yoxdur, Sabahı var.
Bugünün İnamı yoxdur,
Sabahın Mütləq İnamı var.
Bugünün İdrakı yoxdur,
Sabahın Mütləq İdrakı var.
Bugünün Mənəviyyatı yoxdur,
Sabahın Mütləq Mənəviyyatı var.
Bugünün İradəsi yoxdur,
Sabahın Mütləq İradəsi var.
Elimizin Sabahı – İnsanlaşma deməkdir –
Ruhani Cəmiyyət deməkdir, Müstəqil Vətən deməkdir, Özümlü Şərq deməkdir – Mütləqə İnamla İşıqlanmış.
***Elsabah*** adını sənə halal eləyirəm!

Qaranlıqlar Yarılsın!
Daxilindəki Mütləq sənə Yar olsun.

*15 Arzu günü, Çiçək Ayı, 13-cü il. Bakı.*

(Qeyd: Həyatda adı Humay xanım idi. Ocaqdan çıxdı).

## EVLADIM QORUYURDA

Yurdu İnamla qoruyarlar – Bugünkülər İnamsızdırlar –
bu səbəbdən də Yurdsuzluğu qoruyurlar.
Yurdu İdrakla qoruyarlar – Bugünkülər İdraksızdırlar –
bu səbəbdən də Yurdsuzluğu qoruyurlar.
Yurdu Mənəviyyatla qoruyarlar – Bugünkülər Mənəviyyatsızdırlar – bu səbəbdən də Yurdsuzluğu qoruyurlar.

Yurdu İradəylə qoruyarlar – Bugünkülər İradəsizdirlər – bu səbəbdən də Yurdsuzluğu qoruyurlar.
Mütləq İnamla qorunar Yurd.
Özüylə Döyüşlə qorunar Yurd.
Ruhani Cəmiyyətlə qorunar Yurd.
Müstəqil Vətənlə qorunar Yurd.
Özümlü Şərqlə qorunar Yurd.
***Qoruyurd*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Qaranlıqlar Yarılsın!

(Qeyd: Həyatda adı Kamal idi. Ocaqdan çıxarıldı).

*20 Murad günü, Çiçək Ayı, 13-cü il. Bakı.*

## EVLADIM DOSTA

Adamdan Adama Dost olmaz.
Adamdan İnsana Dost olmaz.
İnsandan Adama Dost olar.
İnsandan İnsana Dost olar.
Adamdan Xalqa Dost olmaz.
İnsandan Xalqa Dost olar.
Nisbi Dostdan Dost olmaz.
Mütləq Dostdan Dost olar.
İnamsızdan Dost olmaz.
İdraksızdan Dost olmaz.
Mənəviyyatsızdan Dost olmaz.
İradəsizdən Dost olmaz.
***Dost*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Qaranlıqlar Yarılsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*26 Qismət günü, Çiçək Ayı, 13-cü il. Bakı.*

(Qeyd: Həyatda adı Ədalət idi. Ocaqdan çıxdı).

## HƏQİQƏT

İnsan Mənanı – yəni Ölümsüzlüyü – təmsil eləyir, ancaq həyat onu ölümə məhkum edib.

İnsan Mənanı ölümsüz Əməllərlə təmsil eləyir.

## HƏQİQƏT

Həyat – Ölümə görə Sağ qalır.

Həyat – Öldürməsə – Ölər.

Məna ölümə qarşıdır, bu səbəbdən də əslində həyata qarşıdır.

Həyatın Mənası – Həyata qarşıdır – çünki Əzəli, Əbədi, Kamil, Sonsuz nə varsa – ölümə qarşıdır.

Məna Həyatı öldürəcək dərəcədə – Ölməzdir.

## HƏQİQƏT

Həqiqət – Mənadır.
Mənasız Ümid olmur.
Mənalı Ümidsizlik olmur.
Ümidsizlik – Yalandır.

## HƏQİQƏT

Ən Ümidsiz Həqiqət belə – Ümiddir.
Ən Ümidli Yalan belə – Ümidsizlikdir.

## HƏQİQƏT

Şər – Həyatidir.
Xeyir – Həyata sığmır.
Əyrilik – Həyatidir.
Doğruluq – Həyata sığmır.

*30 Ümid günü, Çiçək Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Qorxu – Həyatın İnsana hökmü.
Qorxusuzluq – İnsanın Həyata hökmü.

## HƏQİQƏT

Sabah – Bugündən yaranmayacaq –
Bugünün ziddinə yaranacaq.

## HƏQİQƏT

Bugünün Dünəni yoxdur, sabahı yoxdur.
Əslində Bugün – Yoxdur.

*1 Dözüm günü, İşıq Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Elə alçaqlıq yoxdur ki, həyati görünməsin.
Elə yüksəklik yoxdur ki, Qeyri-həyati görünməsin.

## HƏQİQƏT

Ürək – Ruhun qulağı.
Zəka – Ruhun gözü.

Ürəksizlik – Ruhani Karlıq.
Zəkasızlıq – Ruhani Korluq.

## HƏQİQƏT

Həyati Əqidə olmur; Həyati Əqidəsizlik olur.
Əqidə Həyatdan artıqdır.
Əqidə – Həyatdan – Ali Həyat yaradır;
Adamdan – İnsan yaradır.

## HƏQİQƏT

Əzəlilik – Tükənməz Mənadır.
Əbədilik – Tükənməz Mənadır.
Sonsuzluq – Tükənməz Mənadır.
Kamillik – Tükənməz Mənadır.

Dünyanın Mənası Tükənməz olmasaydı, Dünya çoxdan tükənərdi.

Həyatın Mənası Tükənməz olmasaydı, Həyat çoxdan tükənərdi.

İnsanın Mənası Tükənməz olmasaydı, İnsan çoxdan tükənərdi.

## HƏQİQƏT

Halallıq – Qeyri-Həyatidir, bu səbəbdən də Fədakarlıq tələb eləyir.

Haramlıq – Həyatidir, bu səbəbdən də ölmür.

Həyatı ötmədən – Halallığa çatmaq olmaz.

Həyatı ötmədən – Haramlıqdan çıxmaq olmaz.

*2 Mərhəm günü, İşıq Ayı, 13-cü il. Bakı.*

## GERÇƏKLİK SƏVİYYƏSİ

Gerçəklik səviyyəsində Dostluq – əslində Yağılıq.
Gerçəklik səviyyəsində Aşiqlik – əslində Əyyaşlıq.
Gerçəklik səviyyəsində Mərifət – əslində Qəbahət.
Gerçəklik səviyyəsində Həqiqət – əslində Yalan.
Gerçəklik səviyyəsində Cəsarət – əslində Qorxaqlıq.
Gerçəklik səviyyəsində Qeyrət – əslində Qeyrətsizlik.
Gerçəklik səviyyəsində Ləyaqət – əslində Ləyaqətsizlik.
Gerçəklik səviyyəsində Müdriklik – əslində Naşılıq.

## HƏQİQƏT

Nisbilik Yoluna düşən – Yoxluğa çatır.
Mütləqlik Yoluna düşən – Varlığa çatır.

## DİALEKTİK CƏFƏNGİYYAT

Əgər Halallıq nisbidirsə –
Onun haramlıqdan elə bir Fərqi yoxdur;
deməli, Halallıq – elə Haramlıqdır.

Əgər Mərifət nisbidirsə
Onun Qəbahətdən elə bir Fərqi yoxdur;
deməli, Mərifət – elə Qəbahətdir.

Əgər Sədaqət nisbidirsə
Onun Xəyanətdən elə bir Fərqi yoxdur;
deməli, Sədaqət – elə Xəyanətdir.

Əgər Müdriklik nisbidirsə
Onun Naşılıqdan elə bir Fərqi yoxdur;
deməli, Müdriklik – elə Naşılıqdır.

Dialektika – Cəfəng Təlimidir –
Cəfəng Təlimdir.

**HƏQİQƏT**

Naqislə Nisbi arasında bir qarış yol var.
Nisbiylə Mütləq arasında bir dünya yol var.

**HƏQİQƏT**

Gerçəklikdə hər şey nisbidir – deməli, İnsan gerçəkliyi ötməlidir.

*3 Qismət günü, İşıq Ayı, 13-cü il. Bakı.*

**ADAMLIQ SƏVİYYƏSİ**

Adamlar Heyvanların başına gətirdiklərini biri-birilərinin başına gətirirlər.

**HƏQİQƏT**

Gerçəklik Ölçüsü – Həqiqətsizlik.

*4 Murad günü, İşıq Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Körpə Həyatı sehr və sirr kimi qavrayır, bu səbəbdən də o, Həyatın Mənasını böyükdən yaxşı duyur.

*6 Arzu günü, İşıq Ayı, 13-cü il. Bakı.*

## EVLADIM ULUYOLA

***Mütləqə İnam Yolu*** – Ulu Yoldur: –

Zərdüştdən gələn, Babəkdən gələn, Dədə Qorquddan gələn, Hürufilərdən gələn, Füzulidən gələn, Muğamdan gələn, Sazdan gələn!

***İnsanlaşma Yolu*** – Ulu Yoldur: –

Zərdüştdən gələn, Babəkdən gələn, Dədə Qorquddan gələn, Hürufilərdən gələn, Füzulidən gələn, Muğamdan gələn, Sazdan gələn!

***Ruhani Cəmiyyət Yolu*** – Ulu Yoldur: –

Zərdüştdən gələn, Babəkdən gələn, Dədə Qorquddan gələn, Hürufilərdən gələn, Füzulidən gələn, Muğamdan gələn, Sazdan gələn!

***Müstəqil Vətən Yolu*** – Ulu Yoldur: –

Zərdüştdən gələn, Babəkdən gələn, Dədə Qorquddan gələn, Hürufilərdən gələn, Füzulidən gələn, Muğamdan gələn, Sazdan gələn!

***Özümlü Şərq Yolu*** – Ulu Yoldur: –

Zərdüştdən gələn, Babəkdən gələn, Dədə Qorquddan gələn, Hürufilərdən gələn, Füzulidən gələn, Muğamdan gələn, Sazdan gələn!

***Uluyol*** adını sənə halal eləyirəm!
Adına layiq ol!

Qaranlıqlar Yarılsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*14 Ümid günü, İşıq Ayı, 13-cü il. Bakı.*

(Qeyd: Həyatda adı Dadaş idi. Döndü).

## “YAS GÜNÜ” MƏRASİMİ HAQINDA

***“Yas Günü” Fərəh çağırdı, Fərəhə çağırdı.***

Evladların Sözü, Əsilin Təşkilatçılığı, Ellinin Evgüzarlığı Təqdir olunur.

Özümlünün Təmsil etdiyi Ailənin Evlad Ləyaqəti Təqdir olunur.

***Qaranlıqlar Yarılsın!***

## EVLADIM ELUCANIN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN HESABATI HAQQINDA

1. Hesabat Təqdir olunur.

2. Müqəddəslik üstə köklənməli, Müqəddəsliyə çağrılmalı, Müqəddəslik çağırmalı!

3. Amallaşma – İnsanlaşma – Xalqlaşma Birliyinə Yüksəlməli!

4. Ataya Təzə Evlad Yetirmək!

5. Dərgini Bənzərsizlik səviyyəsinə çatdırmaq, yaymaq!

Nurlanın, Nurlandırın!

*15 Dözüm günü, İşıq Ayı, 13-cü il. Bakı.*

## “ATALI YURD” DƏRGİSİNƏ XEYİR-DUA

Gerçəkliyi ötün ki, gerçəkliyə gərək olasınız!
Həyatı ötün ki, Amala gərək olasınız!
Nisbini ötün ki, Mütləqə gərək olasınız!
***İnsanlaşın ki, Yurdlaşasınız!***
Bəşər Ruhsuzluq bəlasına düçar olub, –
Ruhani İntibah gərək!
Əzəli, Əbədi, Sonsuz, Kamil Varlığa yüksəlin!
Ötəri, Keçici, Sonlu, Qeyri-Kamil Yoxluqdan qurtarın!

Qaranlıqlar Yarılsın!

*21 İşıq Ayı, Ümid günü, 13-cü il. Bakı.*

## ATAYLA AZNEFTDƏ GÖRÜŞ

Görüş Amal çağırdı, Amala çağırdı.

## ATAYLA NEFT DAŞLARINDA, CİLOV ADASINDA GÖRÜŞ

I. Görüş Mütləqə yaxın səviyyədə keçdi.

II. Əsilin yaradıcı Təşkilatçılıq Əməli təqdir olunur.

## "EVLAD GÜNÜ" MƏRASİMİ

I. Mərasimin Yazısı övladım Uğura tapşırılsın.
Yazı 27 İşıq Ayı Ataya təqdim edilsin.

II. Mərasimin Məzmunu:
Ata Sözü.
Evladların Evladlar haqqında Sözü.
Ruhani Sənədlərin oxunması.

*23 Mərhəm günü, İşıq Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Cəmiyyət – Ağalıq, Nökərçilik, Təbəqə, İmtiyaz əsasında qurulub.

***Cəmiyyət – Antiinsani quruluşdur əslində; onu Antiinsanilik qurub.***

İnsanlaşma – Ağalığın, Nökərçiliyin, Təbəqələrin, İmtiyazların ölümüdür.

***İnsanlaşmada – cəmiyyətçilik ölür.***

## EVLADIM GÖYLÜYƏ

Yurdumuz – Göyümüzdür – Müqəddəs Ucalığımız!
Amalımız – Göyümüzdür – Müqəddəs Ucalığımız!
Əməlimiz – Göyümüzdür – Müqəddəs Ucalığımız!
Göy boyda Yük daşıyırıq, – Göy Yükü daşıyırıq – Fərəhli!

Mütləqə İnam Göylüyük!
Özüylədöyüş Göylüyük!
Ruhani Cəmiyyət Göylüyük!
Müstəqil Vətən Göylüyük!
Özümlü Şərq Göylüyük!

Dünyanın Mənası var – Dünyadan artıq –
Dünyanın Mənası – Göyümüzdür.
Həyatın Mənası var – Həyatdan artıq –
Həyatın Mənası – Göyümüzdür.
İnsanın Mənası var – İnsandan artıq –
İnsanın Mənası – Göyümüzdür.
Göyümüz – Ruhani Gözümüzdür.
***Göylü*** adını sənə halal eləyirəm!

Qaranlıqlar Yarılsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*25 Murad günü, İşıq Ayı, 13-cü il. Bakı.*

(Qeyd: Həyatda adı Xatirə idi. Ocaqdan çıxdı).

## FƏRQ

Ağalıq – Maddiyyatçılığa əsaslanır;
Atalıq – Ruhaniyyatçılığa.

## HƏQİQƏT

Dövlət – İctimai Quruluşu qoruyur, İnsanı İctimai Quruluşdan qorumur.

İctimai Quruluş – cəmiyyətin antiinsanilik səviyyəsini qoruyur;

***İnsanilik – cəmiyyət səviyyəsindən Yüksəkdir.***

## HƏQİQƏT

Cəmiyyətlər Ağalıq ehtirasından yarandılar, Atalıq qayğısından yaranmadılar.

*26 İnam günü, İşıq Ayı, 13-cü il. Bakı.*

## İNALA, RUHANƏYƏ, ELANAYA

Böyüyün İnsan olun.
İnamınız Tam, Bütöv, Doğru olsun.
İdrakınız Tam, Bütöv, Doğru olsun.
Mənəviyyatınız Tam, Bütöv, Doğru olsun.
İradəniz Tam, Bütöv, Doğru olsun.
Yurdçu olun, Mütləqçi olun, Müqəddəsçi olun!
Ürəyinizdə Günəş olsun.

İnal – Bacılarının Ruhani Qardaşı olsun!
Bacılar – İnalın Ruhani Bacıları olsunlar!
Yəni İnal Bacılarının Amaldaşı olsun!
Yəni Bacılar İnalın Amaldaşı olsunlar!

Əsilin balaları – Əsilliyin balaları.
Yetkinin balaları – Yetkinliyin balaları.
Əsil Böyümək.
Yetkin Böyümək.
Əsilliyə çatmaq.
Yetkinliyə çatmaq.

*1 Şölə Ayı, Murad günü, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Özündəki Adama inanma. Özgəsindəki Adama inanma.

*7 Qismət günü, Şölə Ayı, 13-cü il. Bakı.*

## “RUHANİ QURUM GÜNÜ” MƏRASİMİ

I. Mərasimin Yazısı Əsilə tapşırılır.

II. Yazı Şölə Ayının 25-də Ataya təqdim olunur.

Mərasimin məzmunu:

Ata Sözü.
Evlad Sözü. Əsil, Təmsilçilər, Evladlar.
Ruhani Sənədlərin oxunuşu.

*14 Qismət günü, Şölə Ayı, 13-cü il. Bakı.*

## BUZOVNADA ATAYLA GÖRÜŞ

Görüş Amal çağırdı, Amala çağırdı.
Sadiqimin Təşkilatçılığı Təqdir olunur.

## ÖZÜMLÜNÜN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN HESABATI HAQQINDA

I. Ailənin zəngin Ruhani Əməli Təqdir olunur.

***II. Kapitalizm – Sosializm, İslam – Marksizm Birliyini Bilmək və camaata çatdırmaq.***

***III. Türkçülük – Şərqilik – Bəşərilik Birliyini Bilmək və camaata çatdırmaq.***

IV. Gerçəkliyi ötmək Məqsədinin ÖzüyləDöyüş Əməliylə birliyinə nail olmaq!

Nurlanın, Nurlandırın!

*15 Murad günü, Şölə Ayı, 13-cü il. Bakı.*

## “EVLAD GÜNÜ” MƏRASİMİ

Mərasim Mütləqə yaxın səviyyədə keçdi, Müqəddəsliyə yaradı; Əsilin Təşkilatçılığı, Ellinin Evgüzarlığı Təqdir olunur.

***Mərasimə gəlməyənlər Ata qarşısında cavab verməlidirlər.***

*17 Arzu günü, Şölə Ayı, 13-cü il. Bakı.*

## EVLADIM SOYLUNUN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN HESABATI HAQQINDA

I. Hesabat Təqdir olunur.

II. Müqəddəslik kökü üstündə köklənməli.

III. Xalqlaşma – Evladlaşma – Kamilləşmə Birliyinə çatmalı.

## EVLADIM ELUCANIN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN HESABATI HAQQINDA

I. Hesabat Təqdir olunur.

II. İnsanlaşma – Amallaşma – Evladlaşma birliyinə çatmaq.

III. Xalqlaşma Yüksəkliyinə çatmaq.

*25 Ümid günü, Şölə Ayı, 13-cü il. Bakı.*

## EVLADIM ELANAYA

***Elimizə Analar gərək – Amallı, Sabahlı.***
Mütləqə İnam böyütsün Analar Balalarda.
İnsanlaşma böyütsün Analar Balalarda.
Müstəqil Vətən böyütsün Analar Balalarda.
Ruhani Cəmiyyət böyütsün Analar Balalarda.
Özümlü Şərq böyütsün Analar Balalarda.

Analıq Müqəddəsliyinə çatsınlar Analar.
Beşik başında Amal oxunsun, Sabah oxunsun.
***Elana*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Qaranlıqlar Yarılsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*6 Murad günü, Od Ayı, 13-cü il. Bakı.*

(Qeyd: Əsilin – Elxanın, Yetkinin – Sevincin 8 yaşlı qızı...).

## EVLADIM SOYLUNUN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN HESABATI HAQQINDA

I. Hesabat Təqdir olunur.

II. Amallaşma – Evladlaşma – Xalqlaşma birliyinə çatmaq.

III. Müqəddəslik Halı Mütləqləşsin!

*8 Arzu günü, Od Ayı, 13-cü il. Bakı.*

## "RUHANİ QURUM" MƏRASİMİ HAQQINDA

I. Mərasim Mütləqə yaxın bir səviyyədə keçdi.

II. Əsilin Yazısı, Təşkilatçılığı Təqdir olunur.

III. Mərasimə gəlməyənlər Ata qarşısında cavab verməlidirlər.

*9 Ümid günü, Od Ayı, 13-cü il. Bakı.*

## EVLADIM ÖZÜMLÜNÜN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN HESABATI HAQQINDA

I. Hesabat Təqdir olunur.

II. Konkret Əməl İdeyasını Ruhani Səviyyədə bilmək, bildirmək.

III. Rəğbətçilər Dairəsini genişləndirmək.

Nurlanın, Nurlandırın!

*15 Arzu günü, Od Ayı, 13-cü il. Bakı.*

## EVLADIM DOĞMANIN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN HESABATI HAQQINDA

I. Hesabat Təqdir olunur.

II. Amallaşma – İnsanlaşma – Xalqlaşma səviyyəsinə çatmaq.

Qaranlıqlar Yarılsın.

*21 İnam günü, Od Ayı, 13-cü il. Bakı.*

## "ATA GÜNÜ" MƏRASİMİ HAQQINDA

I. Mərasim Mütləq səviyyədə keçməlidir.

II. Mərasimin Yazısı ***Safruha, Əsilə, Elliyə*** tapşırılır.

III. Yazının ilk çeşidi Qürub Ayının 25-də Ataya çatdırılır.

IV. Mütləq İntizam səviyyəsi yaranmalıdır – İntizamı pozan Ocaqdan çıxarılır.

Qaranlıqlar Yarılsın!

## HƏQİQƏT

Təzə – Köhnənin əvvəli.
Köhnə – Təzənin sonu.
Əbədi – Təzədən Üstün, Köhnədən Üstün.

Təzə Var olmur – çünki Köhnəlir.
Köhnə Var olmur – çünki Ölür.
Əbədi Var olur – çünki Köhnəlmir, Ölmür.

*25 Mərhəm günü, Od Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Allah – gerçəklik səviyyəsində Mütləqdir, yəni Mahiyyətcə – AntiMütləqdir.

Din – gerçəklik səviyyəsində Mütləqilikdir, yəni Mahiyyətcə AntiMütləqilikdir.

*28 İnam günü, Od Ayı, 13-cü il. Bakı.*

## EVLADIM SOYLUNUN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN HESABATI HAQQINDA

I. Hesabat Təqdir olunur.

II. Özüylədöyüş Mütləq Özünütanıma, Özündənayrılma, Özünəçatma səviyyəsinə Yönəlməlidir.

III. İntizam Mütləqiliyinə nail olmalı!

Qaranlıqlar Yarılsın!

## HƏQİQƏT

İnsandan kənarda Dünya var;
İnsanilikdən kənarda Dünya yoxdur.

## HƏQİQƏT

Dünyanın Mənası – İnsanilik.

## HƏQİQƏT

İnsan həm Dünyanın çiyninə düşən ən ağır Yükdür, həm də çiynində Dünyanın ən ağır Yükünü – Mənasını daşıyandır...

## İNSANIN MAHİYYƏTİ

İnam, İdrak, Mənəviyyat, İradə, Vicdan, Ədalət, Həqiqət, Sığmazlıq, Mütləqilik.

## ÖZÜYLƏDÖYÜŞ İZHARI

Nə qədər ağıllı olsam da – Ocağa qədər ağılsızdım – indi ağıllıyammı?

Nə qədər təmiz olsam da – Ocağa qədər pozğun idim – indi təmizəmmi?

Nə qədər qüvvətli olsam da – Ocağa qədər zəif idim – indi qüvvətliyəmmi?

## VARLIQ – YOXLUQ

Mütləq – Nisbinin Yoxluğu.
Nisbi – Mütləqin Yoxluğu.

## HƏQİQƏT

Xalq – Mütləq Fərdiyyət.
Fərdiyyət – Mütləq Xalq.

*31 Dözüm günü, Od Ayı, 13-cü il. Bakı.*

## SSRİ ALİ TƏHSİL NAZİRLİYİ ALİ ATTESTAT KOMİSSİYASININ SƏDRİNƏ

**Əfəndiyev Asif Qasım oğlu tərəfindən**

### Ərizə

Sizin idarəniz tərəfindən mənə verilən dövlət filosofluğu diplomları mənəviyyatsız siyasətbazlar, mənsəbpərəstlər, əzbərçilər ordusu yaratdı; indi o, qətiyyətlə kapitalist kommunistlərə, dindar ateistlərə çevrilməkdədir.

Vəsiqələrinizi qaytarmaqla mən öz insani ləyaqətimin qeydinə qalıram.

### HƏQİQƏT

Azadlıq – İnsanilik: Mütləq İnam, Mütləq İdrak, Mütləq Mənəviyyat, Mütləq İradə, Mütləq Ədalət, Mütləq Həqiqət.

### HƏQİQƏT

İnsanilik – Fərddə ifadə olunur, Xalqda ifadə olunur – Cəmiyyətdə rədd olunur.

### HƏQİQƏT

Vətəndaş – cəmiyyətdaş deyil, çünki Vətən – cəmiyyət deyil.

### ÖLÜM – CƏMİYYƏT

Ölüm – Fərdə qarşıdır: Onu öldürür.
Cəmiyyət – Fərdə qarşıdır: Onu ictimailəşdirir.
***Cəmiyyət Adamı – əslində ölmüş adamdır.***

### HƏQİQƏT

***Cismani Ailə*** – Ağalığı aradan qaldırmadı, Xanımlığı aradan qaldırmadı; Yadlığı, Yırtıcılığı, Şəhvəti aradan qaldırmadı – bu səbəbdən də İnsaniliyə yaramadı.

## HƏQİQƏT

Gerçəklik Uçurumdur –
Əgər Sənlə Gerçəklik arasında Uçurum yoxsa –
Uçurumdasan.

Gerçək İnam – Uçurumdur –
Əgər Sənlə Gerçək İnam arasında Uçurum yoxsa –
Uçurumdasan.

Gerçək İdrak – Uçurumdur –
Əgər Sənlə Gerçək İdrak arasında Uçurum yoxsa –
Uçurumdasan.

Gerçək Mənəviyyat – Uçurumdur –
Əgər Sənlə Gerçək Mənəviyyat arasında Uçurum yoxsa –
Uçurumdasan.

Gerçək İradə – Uçurumdur –
Əgər Sənlə Gerçək İradə arasında Uçurum yoxsa –
Uçurumdasan.

## FƏRQ

Həyat Yolu – Ölüm.
Ruhaniyyat Yolu – Mütləq.

## HƏQİQƏT

Dünyaya Ümidim yoxdur –
Dünyanın Mənasına Ümidim var.

Həyata Ümidim yoxdur –
Həyatın Mənasına Ümidim var.

İnsana Ümidim yoxdur –
Adamın Mənasına – ***İnsana*** Ümidim var.

**MÜTLƏQ İSTƏK**

Allahdan istədiyini özündən istə.

**HƏQİQƏT**

Xəlqi Şüur – Fərdi Şüur.
İctimai Şüur – Antixəlqi Şüur.
***Ruhani Şüur – Fərdi Şüur, Xəlqi Şüur.***

**HƏQİQƏT**

Həyat – Ömrün Bayırı.
Ruh – Ömrün İçi.

*1 Mərhəm günü, Qürub Ayı, 13-cü il. Bakı.*

**HƏQİQƏT**

Nisbi Məna olmur.
***Gerçəklikdə hər şey nisbidir.***
Deməli, Məna Gerçəkliyi Mütləq ötməlidir.

**HƏQİQƏT**

***Nisbi Ruhaniyyat olmur.***
***Gerçəklikdə hər şey nisbidir.***
Deməli, gerçəklikdə Ruhaniyyat olmur.
***Deməli, Ruhaniyyat Gerçəkliyi Mütləq ötməlidir.***

*2 Qismət günü, Qürub Ayı, 13-cü il. Bakı.*

**HƏQİQƏT**

Mütləq İnam – Antiictimai İnam.
Mütləq İdrak – Antiictimai İdrak.
Mütləq Mənəviyyat – Antiictimai Mənəviyyat.
Mütləq İradə – Antiictimai İradə.

## HƏQİQƏT

İnsan – ictimai münasibətlərin inkarıdır, bu səbəbdən də ictimai münasibətlər İnsana qarşıdır.

## HƏQİQƏT

İctimai İdrak: keçici, nisbi, qeyri-kamil.
Ruhani İdrak: əbədi, Mütləq, kamil.

## HƏQİQƏT

İnsan – Mütləq Fərdiyyətdir: Bənzərsiz, Əvəzsiz, Müstəqil.

Cəmiyyət Fərdiyyətə qarşıdır – bu səbəbdən də İnsana qarşıdır.

İnsani cəmiyyət yoxdur: çünki Fərdiyyətçi cəmiyyət yoxdur.

## HƏQİQƏT

Gerçəkliyi sevmək – Nikbinlik deyil;

Gerçəklikdə hər şey Nisbidir, Keçicidir, Qeyri-Kamildir:

Gerçəkliyi sevən üçün Mütləq yoxdur əslində – Əbədi yoxdur, Kamil yoxdur.

***Gerçəkliyi sevən – Mahiyyətcə Bədbindir.***

## HƏQİQƏT

Cəmiyyət – Gerçəkliyi qoruyur – əslində Yoxluğu qoruyur.

*3 Murad günü, Qürub Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Ekzistensialistlərlərin 20-ci əsrdə gördüklərini Sufilər 10-cu əsrdə görmüşlər.

Şərq Qərbi 10 əsr qabaqlayıb.

## HƏQİQƏT

Əgər heç kəs heç kəsdən ötrü ölməyirsə, demək, heç kəs yaşamır.

## HƏQİQƏT

Şər – Mənasızdır, onun Zəifliyi bundadır.
Xeyir – Mənalıdır, onun Gücü bundadır.

Mənalı – Şər olmur, Mənasız – Xeyir olmur...
İblislik – Mənasızlıqdır; İblis Fəallığı Mənasız Fəallıqdır...
Bu baxımdan, Şər – Varlıq deyil, Yoxluqdur – amansız, fəlakətli, həqarətli, fəal Yoxluq.

*4 İnam günü, Qürub Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Qaranlıq Həqiqət olmur.
Qaranlıq haqqında Həqiqət – İşıqdır.
Ölüm haqqında Həqiqət – Həyatdır.

*5 Arzu günü, Qürub Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Şər Xeyirlə döyüşsə – məğlub olar;
Şər – Nisbi Xeyirlə döyüşür, bu səbəbdən də məğlub olmur.
Şərin qarşısına Xeyir çıxmır – bu səbəbdən də Şər yaşayır.

## HƏQİQƏT

Şər Ruhla bacarmır – çünki Ruh – Mütləqdir.
Şər Bədənlə bacarır – çünki Bədən – Nisbidir.

## HƏQİQƏT

Xeyiri – Varlıq yaşadır, Şəri – Yoxluq.

## VARLIQ – YOXLUQ

Nisbi Xeyir Yoxdur.
Nisbilikdə Şər Var.

## HƏQİQƏT

Xeyir – Xeyir olsaydı – Şər olmazdı.
Həqiqət – Həqiqət olsaydı – Yalan olmazdı.

Şəri yaradan Xeyir əskikliyidir.
Yalanı yaradan Həqiqət əskikliyidir.

***Şərin Varlığı yoxdur.***
***Yalanın Varlığı yoxdur.***

## HƏQİQƏT

Şər Xeyir görməsə, ölməz.
Şər Xeyir görmür, bu səbəbdən də ölmür.

## HƏQİQƏT

Adam – Yalançı İnsan...

## VARLIQ – YOXLUQ

Xeyir Var olsa – Şər yox olar.
Xeyir Var olmur – bu səbəbdən də Şər yox olmur.

## HƏQİQƏT

Mənasızlıq – Məna Yoxluğu.
Məna – Mənasızlıq Yoxluğundan üstün.

Mənasızlığı yaşadan Yoxluqdur, Mənanı yaşadan Varlıq.

## VARLIQ – YOXLUQ

Şər – Xeyir Yoxluğu.
Xeyir – Şər Yoxluğundan üstün.

Yalan – Həqiqət Yoxluğu.
Həqiqət – Yalan Yoxluğundan üstün...

Şər – Yalan.
Xeyir – Həqiqət.

*6 Ümid günü, Qürub Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Adam İnsan olmayınca – İblis ölməyəcək.

## HƏQİQƏT

Gördüyümüz nə varsa – Gerçəklikdir.
Bildiyimiz nə varsa – Gerçəklikdir.
Dünyanın Mənası – gördüyümüzdən artıqdır, bildiyimizdən artıqdır.

## HƏQİQƏT

Gerçəklik səviyyəsində hünər olmur.
Hünər – gerçəkliyi ötməkdir.
***Gerçəklik səviyyəsində Hünər – Yalançı Hünərdir.***

## HƏQİQƏT

Gerçəkliyin Fəlakəti Məna İşığında görünür:
ancaq biz Fəlakəti görürük – Mənanı görmürük.

## VARLIQ – YOXLUQ

Olanların çoxu – Yoxdur.
Olmayanların çoxu – Var.

## HƏQİQƏT

Mütilik – Ruhsuzluqdur. Din – Mütilik carçısıdır.
***Dini Ruh – əslində Ruhsuzluqdur.***

**ƏLAQƏ**

Allahın bəndəsi, hökmdarın rəiyyəti, Cəmiyyətin aləti.

**HƏQİQƏT**

Allaha bel bağladığı gündən Adamın beli qırıldı.

**HAL**

Musiqiyə necə qulaq asıramsa – Düşüncələrimə də elə qulaq asıram.

**HƏQİQƏT**

Allah – İnamdan yox, İnamsızlıqdan yaranıb – ***Adamların Özlərinə İnamsızlığından.***

**HƏQİQƏT**

Din Azadlığı – Ruhani Əsarət Azadlığı.

**HƏQİQƏT**

İntizam – Azadlıqdır; İtaət – Əsarət.
Din İnsanı Allah əsarətinə salır...

**HƏQİQƏT**

İtaət – ən böyük Günahdır.
Din – həmin günahı ləyaqətə mindirir.
Din – Adam günahıdır əslində.

**HƏQİQƏT**

Mütilik – Şər işidir.
Din – Şərə xidmət eləyir.

**HƏQİQƏT**

Adamlar Allaha inanmasaydılar – İnsanlaşardılar.

**HƏQİQƏT**

Allaha inanmaq – əslində Mərhəmətli Ağaya inanmaqdır.
Dindarlıq – əslində ölməyən Nökərçilikdir.

**HƏQİQƏT**

Adama yalnız İnsan kömək eləyə bilər – ancaq Adam İnsana inanmır, bu səbəbdən də Allahdan kömək diləyir.

**XƏLQİ BORC**

Xalqı Cəmiyyətdən qorumaq.

**HƏQİQƏT**

Cəmiyyətin adamlara verdiyi haqların hamısı – əslində adamlardan alınan haqlardır.

**NİKBİNLİK**

Dünya məhv olmayacaq – çünki Mahiyyəti Mütləqdir.
Həyat məhv olmayacaq – çünki Mahiyyəti Mütləqdir.
İnsan məhv olmayacaq – çünki Mahiyyəti Mütləqdir.

**HƏQİQƏT**

İnam – Əzəli Həqiqətdir.
İnamsızlıq – Əzəli Yalandır.
Yalançı İnam – İnamsızlıqdır.

**HƏQİQƏT**

Cəmiyyət çox vaxt İnsanı Adamdan gizləyir.

**MƏQSƏD**

Adam Cəmiyyətindən – İnsan Birliyinə.

**HƏQİQƏT**

Xalq – azad Fərdlər Birliyi.
Fərd – azad Xalq Vahidi.

## AZADLIQLAR

***Fərdi Azadlıq***: Hamılaşmadan, Təbəqələşmədən, Özgələşmədən, Əşyalaşmadan – yəni Cəmiyyətdən azad olmaq.

***Xəlqi Azadlıq***: Hamılaşmadan, Təbəqələşmədən, Özgələşmədən, Əşyalaşmadan – yəni Cəmiyyətdən azad olmaq.

## HƏQİQƏT

Şər – Əzəli deyil, çünki Mənasızdır.
– Sonsuz deyil, çünki Mənasızdır.
– Kamil deyil, çünki Mənasızdır.
– Əbədi deyil, çünki Mənasızdır.

## HƏQİQƏT

Şər – Mənasızdır, Adam – Mənaya çatmayıb – bu səbəbdən də Şər ölmür.

## HƏQİQƏT

Mənalı Şər olmur.
Şər – həmişə Mənasızdır.

Mənasız – Xeyir olmur.
Xeyir – həmişə Mənalıdır.

## HƏQİQƏT

İnsana inanmamaq olmaz – çünki İnsan hələ olmayıb.

## HƏQİQƏT

Azadlıq – İnsanlıq.
Əsarət – Adamlıq.

## ADAM GÜNAHI

İnsan olmamaq.
Nə qədər ki, Adam İnsan olmayıb – o, Günahkardır.

*7 Dözüm günü, Qürub Ayı, 13-cü il. Bakı.*

**FƏRQ**

Ruhani Ehtizaz – Məhəbbət.
Cismani Ehtizaz – Şəhvət.

**HƏQİQƏT**

Azad Məhəbbət – Məhəbbətsizlik Əsarəti.
Azad Əxlaq – Əxlaqsızlıq Əsarəti.

**HƏQİQƏT**

Şərin Gücü – Xeyirin zəifliyindədir.
Şərin başqa Gücü yoxdur.

**HƏQİQƏT**

Var olmaq üçün – İnsanlaşmaq gərək.
***Adamlıq – Yoxluqdur.***

**HƏQİQƏT**

Əxlaqi Var olma – Kamillik.
Əxlaqi Yox olma – Qeyri-Kamillik.

*8 Mərhəm günü, Qürub Ayı, 13-cü il. Bakı.*

**HƏQİQƏT**

Adam Təbiətlə münasibətini qaydaya salmaq üçün – İnsanlaşmalıdır.

Adam Adamla münasibətini qaydaya salmaq üçün – İnsanlaşmalıdır.

**AZADLIQ**

Məxluqdan Azad olmaq.
Adamdan Azad olmaq.
Ağadan Azad olmaq.
Nökərdən Azad olmaq.
***İnsanlaşmaq – İnsanlaşdırmaq...***

*10 Murad günü, Qürub Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

***Varlıq – Yox ola bilərsə, Yox olacaqsa – Varlıq deyil – Yoxluqdur...***

***Varlıq Yox ola bilməz, Yox olmaz.***

***Gerçək Mövcudluq – yox olur, bu səbəbdən Varlıq deyil.***

***Varlıq – Yox olmayan mövcudluqdur – yəni Mütləq Mövcudluqdur.***

## HƏQİQƏT

Günahsızlıq – Ruhani Fəallıq.
Günah – Ruhani Fəalsızlıq.

## HƏQİQƏT

Gerçəklikdə hər şey nisbidir – mahiyyətcə gerçəklik – Yoxluqdur: İnsan Yoxluğa düşür Həyatda və Allahlıq etməli olur – Yoxdan Var yaradır.

## HƏQİQƏT

İnsana Mövcud olmaq Aqibəti verilib, Var olmaq Aqibəti verilməyib: Var olmaq üçün İnsan özünü təzədən yaratmalıdır.

## HƏQİQƏT

İnsan Varlığını Dünyada qoyub gedir, Yoxluğunu qəbrə aparır.

## HƏQİQƏT

Varlıq – Mütləqilik.
Yoxluq – Nisbilik.

## HƏQİQƏT

Adam Yoxluqdan qorxmur, Yox olmaqdan qorxur.

## HƏQİQƏT

Yox olan nə Varsa – Yoxluqdur.
Var olan – Yox olmur.

**AZADLIQ**
İnsanilik.

**HƏQİQƏT**
Əxlaq – Var olmaq – Yoxluqdan çıxmaq.
Əxlaqsızlıq – Yox olmaq – Yoxluqda qalmaq.

**HƏQİQƏT**
Dünya İnsandan kənardadır, Dünyanın Mənası İnsandadır.

**HƏQİQƏT**
Təzahür dəyişir, çünki köhnəlir.
Məna dəyişmir, çünki köhnəlmir.

**HƏQİQƏT**
Antiinsani Bilik olur – Antiinsani Həqiqət olmur.

**HƏQİQƏT**
Nisbi Varlıq Yoxdur: Varlıq həmişə Mütləqdir.
***Nisbilik – Yoxluqdur.***

## EVLADIM ÖZÜMLÜNÜN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN HESABATI HAQQINDA

I. Hesabat Təqdir olunur.

II. Mütləqləşmək Vaxtıdır! –
Mütləq Amal – Mütləq Əməl vəhdətinə yetmək.

III. Evladlaşdırma Fəaliyyəti Yüksəlməlidir.

Qaranlıqlar Yarılsın!

*11 İnam günü, Qürub Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Yalnız Ruhani – Var olandır.
Cismani – Var olmur.
Cismanidə Var olan da – Ruhanidir.

## HƏQİQƏT

Mütləqdən – Nisbi yaranıb;
Əzəlidən – Ötəri yaranıb;
Əbədidən – Keçici yaranıb;
Sonsuzdan – Sonlu yaranıb;
Kamildən – Qeyri-Kamil yaranıb.
Məna özünə bərabər aşkarlansaydı – Gerçəklik yaranmazdı.
Gerçəklik Mənadan ayrılmasaydı – Mənasız sayılmazdı.

## HƏQİQƏT

Əzəli Məna o qədər böyükdür ki, onun yanında bütün gerçək Mənalar Mənasız görünür.

Əbədi Məna o qədər böyükdür ki, onun yanında bütün gerçək Mənalar Mənasız görünür.

Sonsuz Məna o qədər böyükdür ki, onun yanında bütün gerçək Mənalar Mənasız görünür.

## HƏQİQƏT

Mənasızlıq – Məna şahidi.

## HƏQİQƏT

Fikir – İdeal Əməl.

## HƏQİQƏT

Adam Əyriliyindən Cəmiyyət yarandı.
İnsan Düzlüyündən Xalq Birliyi yaranmalıdır.

**HƏQİQƏT**
Məhəbbət – Məna.
Şəhvət – Təzahür.

**HƏQİQƏT**
Məhəbbətlə Şəhvət arasında Uçurum var.
Gerçəklikdə Məhəbbət Şəhvət Uçurumuna düşür.

**HƏQİQƏT**
Məhəbbət – Ruhani Vəcd.
Şəhvət – Cismani Ehtiras.

**HƏQİQƏT**
Məna Təzahürə bərabər olsaydı –
Məna olmazdı, Təzahür olardı.
Təzahür Mənaya bərabər olsaydı –
Təzahür olmazdı, Məna olardı.

**HƏQİQƏT**
Təzahür – Anti Məna.
Məna – Anti Təzahür.

**HƏQİQƏT**
Dünyanın Mənası o qədər böyükdür ki, Gözə görünmür.

**İMKANSIZLIQ**
Üzə çıxmayan İmkan.

**HƏQİQƏT**
Mahiyyət – Yaradan.
Təzahür – Yaradılan.

Dünyanı Yaradan – Dünyanın Mahiyyəti.
Dünyada Yaradılan – Dünyanın Təzahürü.

## HƏQİQƏT

Hadisə – Mənadan yaranıb; Məna – Hadisədən yaranmayıb.

Təzahür – Mahiyyətdən yaranıb; Mahiyyət – Təzahürdən yaranmayıb.

## HƏQİQƏT

İnsansevərlik – Mənasevərlikdir.
Bu səbəbdən də İnsanı sevməyən Fəlsəfə yoxdur.

## HƏQİQƏT

Dünyanın Təzahürü Dünyanın Mənasına Ziddir:

Ötərilik – Əzəliyə, Keçicilik – Əbədiliyə, Sonlu – Sonsuza, Qeyri-Kamil – Kamilə.

***Zahiri Dünya Dünyanın Mənasına Ziddir.***

## HƏQİQƏT

Məna – Gerçəklikdə İtir, İnsanda Tapılır...

## AQİBƏT

İnsan Yoxluğa düşür və Yoxluqdan Varlıq yaradır.
Adam Yoxluğa düşür və Yox olur.

## HƏQİQƏT

Varlıq – Mütləq Mövcudluq.
Yoxluq – Nisbi Mövcudluq.

## HƏQİQƏT

İdeal cəmiyyət ola bilməz, çünki cəmiyyət İnsaniliyə qarşıdır: İnsanilik olmayan Yerdə – İdeal Yoxdur.

***Cəmiyyət – mahiyyətcə Antiidealdır.***

## HƏQİQƏT

Gerçəkliyi Mənalandıran – İdealdır.
İdealsız Gerçəklik – Mənasızdır.

**HƏQİQƏT**

Maddiyyat Ruhaniyyatla nizamlanmalıdır.
Ruhaniyyat maddiyyatla nizamlana bilməz.

**HƏQİQƏT**

İdeal – İdeyaya – Mənaya bərabər olmaq.
Əslində İdealdan başqa Var olan yoxdur gerçəklikdə.

**HAL**

Nisbi Dostluqla barışmadım, Dostsuz qaldım – Dostluğa xəyanət eləmədim.

Nisbi Sevgiylə barışmadım, Sevgilisiz qaldım – Sevgiyə xəyanət eləmədim.

**HƏQİQƏT**

Yoxsulluq – maddi əsarət.
Varidat – maddiyyat əsarəti.

**HƏQİQƏT**

İnsan Yerə də, Göyə də Zülm eləyir;
Ancaq Yerin də, Göyün də Mənası Odur.

*12 Arzu günü, Qürub Ayı, 13-cü il. Bakı.*

**HƏQİQƏT**

İnsan Haqqı uğrunda əsil döyüş – həm sosializmə, həm də kapitalizmə qarşı döyüş olmalıydı.

Disidentlər sosializmə kapitalist zərbəsi endirdilər, bununla da kapitalizmə yaradılar.

**ƏXLAQİ TƏRƏQQİ**

Həyadan utananlar.

## HƏQİQƏT

Adam Adam üzərində Ağalıqdan imtina etməsə – məhv olacaq.
Adam Təbiət üzərində Ağalıqdan imtina etməsə– məhv olacaq.
***Adam İnsanlaşmasa – məhv olacaq.***

*14 Dözüm günü, Qürub Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Göydə, Dağda, Çayda, Meşədə – İnsanilik Var.

Göyün Ucalığında, Dağın Vüqarında, Çayın Mahnısında, Meşənin Qüssəsində.

İnsan təbiətə qarşı Qəddarlığında Özünə qıyır, İnsaniliyinə qəsd eləyir.

## HƏQİQƏT

Hər uçurulan Dağda İnsan Vüqarı dağılır,
Hər quruyan Çayda İnsan Mahnısı kəsilir,
Hər qırılan Meşədə İnsan Duyğusu əskilir.

## HƏQİQƏT

Kamil Naqisdən Zəngindir.
Naqis Kamildən Mürəkkəbdir.

## FƏRQLƏR

Dini Əxlaq – Bəndələşdirən.
İctimai Əxlaq – Rəiyyətləşdirən.
Ruhani Əxlaq – İnsanlaşdıran.

## ƏLAQƏ

Təbiəti Əksildən – İnsani Ruhsuzluqdur;
Təbiət əksildikcə – Ruhsuzluq artır.

*15 Mərhəm günü, Qürub Ayı, 13-cü il. Bakı.*

**HƏQİQƏT**

Həm cəmiyyət, həm də Din İnsan üzərində Ağalıqdır.

Cəmiyyət Ağalığını ictimai qanunlar əsasında həyata keçirir, Din Dini Qanunlar əsasında...

***Ruhaniyyat Ağalığın ölümüdür; bu səbəbdən də cəmiyyətə qarşıdır, dinə qarşıdır.***

**HƏQİQƏT**

Həyat – maddi mənafe uğrunda döyüşdür –
Yəni heyvanilik meydanıdır.
Həyat – mənəvi kamillik uğrunda döyüşdür –
Yəni Ruhanilik meydanıdır.

**HƏQİQƏT**

Cəmiyyət Adamı – Mənafe Adamı.
Ruhaniyyat İnsanı – Məhəbbət İnsanı.

**HƏQİQƏT**

Mənafe olan Yerdə ***Məhəbbət*** ola bilməz.
Bu səbəbdən də cəmiyyətdə ***Məhəbbətə*** yer yoxdur.

**HƏQİQƏT**

***Mənafe*** uğrunda döyüş – heyvaniliyin davamıdır.
Cəmiyyət həmin Davamı ifadə eləyir.

**HƏQİQƏT**

***Mənafenin əsası – Xudbinlik.***
Mənafe olmasa – cəmiyyət olmaz.
***Cəmiyyətin əsası – xudbinlik.***

**HƏQİQƏT**

İctimai İdrak – Antiinsanlaşan İdrak.
İctimai münasibətlər – Antiinsani Münasibətlər.

## HƏQİQƏT

Ruhaniyyat – Mahiyyətcə Antiictimaidir – çünki İnsanidir.

Fəlsəfə – Mahiyyətcə Antiictimaidir – çünki İnsanidir.

Sənət – Mahiyyətcə Antiictimaidir – çünki İnsanidir.

Bu səbəbdən də Cəmiyyət Ruhaniyyatı – İctimailəşdirir – yəni Özgələşdirir.

Fəlsəfəni – İctimailəşdirir – yəni Özgələşdirir.

Sənəti – İctimailəşdirir – yəni Özgələşdirir.

## HƏQİQƏT

İnsan cəmiyyətdən üstün olduqda İnsan olur, cəmiyyət səviyyəsində o, Adam olur, Məxluq olur.

## HƏQİQƏT

Cəmiyyət – Xudbinliyin ifadəsidir; çünki Hamılaşma, Təbəqələşmə, Özgələşmə, Əşyalaşma – Xudbinlikdir.

***Xudbin Fərdiyyət yoxdur – çünki Fərdiyyət cəmiyyətə qarşıdır.***

## HƏQİQƏT

Xalqı Xalq eləyən ***Ruhaniyyatdır;*** Cəmiyyət Xalqa qarşıdır; – çünki Hamılaşma Xalqa qarşıdır, Təbəqələşmə Xalqa qarşıdır; Özgələşmə Xalqa qarşıdır; Əşyalaşma Xalqa qarşıdır.

Xalqı Xalq eləyən ***Fərdiyyətdir*** – çünki o, Hamılaşmaya qarşıdır, Təbəqələşməyə qarşıdır, Özgələşməyə qarşıdır, Əşyalaşmaya qarşıdır.

***Cəmiyyət – Antifərdilikdir, bu səbəbdən də Antixəlqilikdir.***

## FƏRQ

***İctimailəşmək*** – Hamılaşmaq, Təbəqələşmək, Özgələşmək, Əşyalaşmaq.

***Ruhaniləşmək*** – Fərdiləşmək, Özümləşmək, Xalqlaşmaq, İnsanlaşmaq.

## HƏQİQƏT

İnsan Təbiəti – Təbiətdən (cismanilikdən, maddiyyatdan) artıqdır; Onda Ruh var...

## HƏQİQƏT

İnsanı Təbiətə bərabər saymaq – İnsanı İnsanilikdən məhrum eləməkdir; bu səbəbdən də materializmdə İnsan yoxdur.

*16 Qismət günü, Qürub Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Cəmiyyət Adam Xudbinliyindən özünə Alət düzəltdi.

## HƏQİQƏT

Əxlaqın Mahiyyəti – Təmənnasızlıqdır.
Cəmiyyət – Mənafe əsasında qurulub.
***Bu səbəbdən də İctimai Əxlaq – əslində Əxlaqsızlıqdır.***

## HƏQİQƏT

Cəmiyyətdə Adamlar Əxlaqdan Qazanc götürürlər.
Əxlaqdan Qazanc götürmək əslində – ən böyük Əxlaqsızlıqdır.

## HƏQİQƏT

Xeyiri mükafatlandırmaqla cəmiyyət əslində Xudbinliyi mükafatlandırır – Adamları pozur.

## DÖNMƏZLİK

Cəmiyyət əslində mənafelərdən dönməyənlər birliyidir.

## HƏQİQƏT

İctimailik – İnsanın təbiətindən doğmayıb, Aqibətindən doğub.
***İctimailik – Əlacsızlıqdan doğub, Əlac olmayıb.***

## HƏQİQƏT

Xalqa – fədakar gərək, cəmiyyətə – xudbin.
Fədakarlıq – Xalqı Yetirir, cəmiyyəti dağıdır.
Xudbinlik – cəmiyyətin Sütunudur, o qırılsa – cəmiyyət qırılar.

**HƏQİQƏT**

Xudbinlik olmasa – maddiyyatçılıq olmaz.
Maddiyyatçılıq – Cəmiyyətin əsasıdır.
***Xudbinlik olmasa – cəmiyyət olmaz.***

**HƏQİQƏT**

Xudbinlik olmasa – Vəsiqəçilik, Rütbəçilik, İmtiyazçılıq olmaz.

Vəsiqəçilik, Rütbəçilik, İmtiyazçılıq olmasa – cəmiyyət olmaz.

Xudbinlik olmasa – cəmiyyət olmaz.

**HƏQİQƏT**

Cəmiyyət – İnsandakı Vəhşini öldürmədi – İctimailəşdirdi.

**CƏMİYYƏT**

İctimailəşmiş Xudbinlik.

*17 Murad günü, Qürub Ayı, 13-cü il. Bakı.*

**HƏQİQƏT**

***Ağalıq – Əxlaqsızlıqdır.***
Adam Əxlaqlı olsaydı – Ağalıq olmazdı.
Adam İnsan olsaydı – Cəmiyyət olmazdı.

**HƏQİQƏT**

Hakimiyyətdə Məhəbbət Yoxdur.
Cəmiyyət Xalq üzərində Hakimiyyətdir.
***Cəmiyyətdə Xalqa Məhəbbət Yoxdur.***

## HƏQİQƏT

Mühitə uyğun İnam olmur, İnamsızlıq olur;
***İnam Mühitdən Üstündür.***

Mühitə uyğun İdrak olmur, İdraksızlıq olur;
***İdrak Mühitdən Üstündür.***

Mühitə uyğun Mənəviyyat olmur, Mənəviyyatsızlıq olur;
***Mənəviyyat Mühitdən Üstündür.***

Mühitə uyğun İradə olmur, İradəsizlik olur;
***İradə Mühitdən Üstündür.***

***Bu səbəbdən də Mühitə uyğunlaşmaq – İnamsızlıq, İdraksızlıq, Mənəviyyatsızlıq, İradəsizlikdir əslində.***

## HƏQİQƏT

***Quldarlıq*** – Adama yaradı; ona görə də yarandı;
İnsana yaramadı; ona görə də məhv oldu.

***Feodalizm –*** Adama yaradı; ona görə də yarandı;
İnsana yaramadı; ona görə də məhv oldu.

***Sosializm*** – Adama yaradı; ona görə də yarandı;
İnsana yaramadı; ona görə də məhv oldu.

***Kapitalizm*** – Adama yarayır; ona görə də yaranır;
İnsana yaramır; ona görə də məhv olacaq.

## HƏQİQƏT

Təbiət üzərində Ağalıq – Antiinsanilik.
Adam üzərində Ağalıq – Antiinsanilik.
Xalqlar üzərində Ağalıq – Antiinsanilik.

***Cəmiyyət Tarixi – Antiinsanilik Tarixi.***

## HƏQİQƏT

Adam Təbiət üzərində Ağalığından əl çəksə – ölər və İnsan kimi təzədən dirilər.

## HƏQİQƏT

Təbiətlə döyüşdə Adam qələbə çaldı, İnsan məğlub oldu.

*2 Arzu günü, Ata Ayı, 13-cü il. Bakı.*

## RUHANİ XƏTT

Kim bizi özünə Düşmən sayırsa saysın, biz heç kəsi özümüzə Düşmən saymırıq.

***Düşməni saymırıq.***

*4 Dözüm günü, Ata Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Feyerbax ***İlahiliyin*** İnsani mahiyyətini kəşf etdi, Hürufilər ***İnsaniliyin*** İlahi Mahiyyətini.

Feyerbaxda İlahilik İnsaniləşdi, Hürufilikdə İnsanilik İlahiləşdi...

***İlahiliyin İnsaniləşməsi – Göydəkinin Yerə endirilməsiydi – İnsaniliyin İlahiləşməsi – Yerdəkinin Göyə qaldırılmasıydı.***

## HƏQİQƏT

Spinozada İnsan Təbiətləşir, Sufilərdə – İlahiləşir.

## FƏRQ

Spinozada İnsan ***Zəruriyyət*** Dairəsinə düşür,
Sufilərdə Allaha qovuşur – ***Azadlığa çıxır.***
***Spinoza panteizmi – maddiyyatçılıqdır;***
***Sufi panteizmi – ruhaniyyatçılıq.***

**FƏRQ**

Spinozada Allah Təbiətin Özülüdür;
Sufilərdə – Təbiətin Ruhudur.
***Sufilər Spinozadan Yüksəkdirlər.***

**HƏQİQƏT**

Faustla İblisin Yolçuluğu tutur: bunu nüvə silahının kəşfi sübut etdi.

**HƏQİQƏT**

***Totalitarizm*** Adamları Zorla İradəsizləşdirir.
***Demokratiya*** Adamları Xoşla İradəsizləşdirir.
***Cəmiyyət – İradəsizləşmə Üsuludur əslində.***

**NİKBİNLİYİN ƏSASI**

İnsan – Gerçəkliklə barışmır.

**FƏRQ**

Vüqar – İqtidar.
Lovğalıq – İqtidarsızlıq.

**HƏQİQƏT**

Təsadüfi Məna olmur, Təsadüfi Mənasızlıq olur və Gerçəklik onunla doludur.

**HƏQİQƏT**

Məna Təzahürə bərabər olsaydı, Mənasız olardı.

**HƏQİQƏT**

Adam Qisməti – Adamlıq.
İnsan Qisməti – İnsanlıq.

**HƏQİQƏT**

Din İnsanı Allaha tapşırır. –
Bu səbəbdən də İnsanlaşmaya qarşıdır.
Kommunizm İnsanı Mülkiyyətə tapşırır. –
Bu səbəbdən də İnsanlaşmaya qarşıdır.
***Amal İnsanı İnsana tapşırır. –***
***Bu səbəbdən də İnsanlaşmaya əsaslanır.***

**HƏQİQƏT**

Tarix – Ağalıq-Nökərlik Dairəsindən kənara çıxa bilmir; bu səbəbdən də cəmiyyət mahiyyətcə dəyişmir.

**HEGELƏ QARŞI**

Dərk olunmuş Zəruriyyət – Azadlıq deyil, Qismətlə barışmaqdır əslində – Dini xurafatçılıqdır Fəlsəfə biçimində.

Dialektikanın Qanunları – Həqiqət deyil – Qismətçilikdir – Fəlsəfə biçimində.

**HƏQİQƏT**

Zəmanəyə düşmək – bizdən asılı deyil.
Zəmanədən çıxmaq – bizdən asılıdır.

**HƏQİQƏT**

***Vaxt*** – Əbədiyyətin Təzahürüdür, İfadəsi deyil –
Mahiyyətcə Əbədiyyət – Vaxtsızlıqdır.
***Məkan* –** Sonsuzluğun Təzahürüdür, İfadəsi deyil –
Mahiyyətcə Sonsuzluq – Məkansızlıqdır.

**HƏQİQƏT**

Qismət – Adamlıq Tarixidir – Ömrümüzə düşən.

**HƏQİQƏT**

Adamın Ömrünə ***Adamlıq Tarixi*** düşür ki, buna Bəxt deyirlər.

Adamın Ömrünə ***Adamlıq Zamanı*** düşür ki, buna Bəxt deyirlər.

Adamın Ömrünə ***Adamlıq Mühiti*** düşür ki, buna Bəxt deyirlər.

Adamın Ömrünə ***Adamlıq*** düşür ki, buna ***Bəxt*** deyirlər.

## HƏQİQƏT

Tarixin Kökü – Adamların daxilindədir;

Adamlar onu Xaricdə axtarırlar və tapa bilmirlər...

Adam daxilindəki Canavarı öldürə bilmir və Canavarlıq Tarixi yaranır.

Adam daxilindəki Tülkünü öldürə bilmir və Tülkülük Tarixi yaranır.

Adam daxilindəki İlanı öldürə bilmir və İlanlıq Tarixi yaranır.

*5 Mərhəm günü, Ata Ayı, 13-cü il. Bakı.*

## FƏRQ

***Xudbin*** – Özündəki Böyükdən keçir – Kiçiyi seçir.
***Fədakar*** – Özündəki Kiçikdən keçir – Böyüyü seçir.

## HƏQİQƏT

Fərdiyyət – Xudbinliyin Ölümü.

## HƏQİQƏT

Din əslində ***İmtina*** tanımır – bu dünyadakı İmtinanın əvəzini o dünyada qaytarır.

Din əslində ***Fədakarlıq*** tanımır – bu dünyadakı Fədakarlığı o dünyada mükafatlandırır.

*6 Qismət günü, Ata Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

İctimai Dostluq olmur – çünki Mənafe Dostluğa Ziddir.

İctimai Məhəbbət olmur – çünki Mənafe Məhəbbətə Ziddir.

İctimai Fədakarlıq olmur – çünki Mənafe Fədakarlığa Ziddir.

***İctimai İnsanilik olmur – Çünki İnsanilik Mənafeyə Ziddir.***

## HƏQİQƏT

***Mənafe*** – Adamları biri-birindən ayırır, buna görə də Mənafe Birliyi – ***Ayrılmadır*** əslində.

## HƏQİQƏT

Mənfəət əsasında – cəmiyyət yaranır, Xalq yaranmır.
Xalq Ruhaniyyat əsasında yaranır.
Buna görə də Mahiyyətcə Xalq – Cəmiyyətə Qarşıdır; Xəlqilik – İctimailiyə qarşıdır.

## HƏQİQƏT

İnsan özündəki Mənfəətçiliyi – Cəmiyyətçiliyi – öldürməlidir.

## HƏQİQƏT

Cəmiyyət Adamdakı Canavarı öldürmür –
Rəsmiləşdirir.
Adamdakı Tülkünü öldürmür – Rəsmiləşdirir.
Adamdakı İlanı öldürmür – Rəsmiləşdirir.

## HƏQİQƏT

Hamılaşmadan, Özgələşmədən, Təbəqələşmədən azad olan nə varsa – Fərdiyyətdir.
Cəmiyyətdən azad olan nə varsa – Fərdiyyətdir.

## HƏQİQƏT

Cəmiyyətdə Ağalar Nökərləri dolandırırlar.

*7 Murad günü, Ata Ayı, 13-cü il. Bakı.*

**HƏQİQƏT**

İctimailəşən Xalq – Kütlə.
Ruhaniləşən Xalq – Ailə.

*8 İnam günü, Ata Ayı, 13-cü il. Bakı.*

**HƏQİQƏT**

Yerin Göy boyda Mənası var –
Yerdən Uzaq, Yerdən Uca.

Adamın İnsan boyda Mənası var –
Adamdan Uzaq, Adamdan Uca.

Zamanın Əbədiyyət boyda Mənası var –
Zamandan Uzaq, Zamandan Uca.

*13 Qismət günü, Ata Ayı, 13-cü il. Bakı.*

**HƏQİQƏT**

Mütləqə İnamın Əsası – Ruh.
Mütləq İdrakın Əsası – Ruh.
Mütləq Mənəviyyatın Əsası – Ruh.
Mütləq İradənin Əsası – Ruh.
***İnsaniliyin Əsası – Ruh.***

*19 Mərhəm günü, Ata Ayı, 13-cü il. Bakı.*

**OCAQDAN GEDƏNLƏR**

***Yatırlar*** – oyanıb Ocağa gəlirlər, sonra
***Yatmaları tutur*** – Ocaqdan gedirlər.

## RUHANİ İNTİBAH YOLU

Ruhani Bazis.
Maddi Üstqurum.

*21 Murad günü, Ata Ayı, 13-cü il. Bakı.*

## EVLADIM ELİŞIĞA

Elimizə İşıq olmalıyıq –
Mütləqə İnam İşığı.
Özüylə döyüş İşığı.
Müstəqil Vətən İşığı.
Ruhani Cəmiyyət İşığı.
Özümlü Şərq İşığı.
İnamsızlıq Qaranlığını Yarmalıyıq.
İdraksızlıq Qaranlığını Yarmalıyıq.
Mənəviyyatsızlıq Qaranlığını Yarmalıyıq.
İradəsizlik Qaranlığını Yarmalıyıq.
***Elişıq*** adını sənə halal eləyirəm.

Qaranlıqlar Yarılsın.

(Qeyd: Həyatda adı Səbinə idi. Ocaqdan çıxdı).

## EVLADIM ÖTKÜNƏ

Sabaha çatmaq üçün Bugünü ötmək gərək.
Amala çatmaq üçün Həyatı ötmək gərək.
Mütləqə çatmaq üçün Nisbini ötmək gərək.
İnama çatmaq üçün Zaman İnamını ötmək gərək.
İdraka çatmaq üçün Zaman İdrakını ötmək gərək.
Mənəviyyata çatmaq üçün Zaman Mənəviyyatını ötmək gərək.
İradəyə çatmaq üçün Zaman İradəsini ötmək gərək.
Mütləqə İnam Ötkünlüyünə çatmalı!
Özüylədöyüş Ötkünlüyünə çatmalı!
Müstəqil Vətən Ötkünlüyünə çatmalı!

Ruhani Cəmiyyət Ötkünlüyünə çatmalı!
Özümlü Şərq Ötkünlüyünə çatmalı!
***Ötkün*** adını sənə halal eləyirəm.
Adına layiq ol.

Qaranlıqlar Yarılsın!

*24 Ümid günü, Ata Ayı, 13-cü il. Bakı.*

(Qeyd: Həyatda adı Kamran idi. Ocaqdan çıxdı).

**FƏRQ**

Yağı Dünyanı Adam Yağılığı yaradır;
Doğma Dünyanı İnsan Doğmalığı yaratmalıdır.

**HƏQİQƏT**

İdealsızlıq – Yoxluq.

**FƏRQ**

Adam özü yaratdığı Yağı Dünyaya atılır;
İnsan Adamı Yağı Dünyadan çıxarır.

**HƏQİQƏT**

İnsanilik – Mütləqiliyə bərabərdir.
Mütləqilik olmayan yerdə İnsanilik yoxdur.

*1 Ümid günü, Xəzan Ayı, 13-cü il. Bakı.*

**HƏQİQƏT**

İdeal – Gerçəkliyin Varlığı.

**TƏKLİK**

***Özünlə*** Tək qalmazsan.
***Özünlə deyilsən – ona görə Təksən.***

**HƏQİQƏT**

Məhəbbətdə İnsan Özüylə Bir olur.

**HƏQİQƏT**

Adamın ***Özümlüyü*** də özündədir, ***Özgəliyi*** də:
Adam ən çox özgəliyiylə olur –
Özümlüyüylə az olur.

**KAMİLLİK YOLU**

Dəyişirsən ki, dəyişməyəsən.

**HƏQİQƏT**

Adam Özündən çəkinməsə – İnsan olmaz.

*3 Mərhəm günü, Xəzan Ayı, 13-cü il. Bakı.*

**FƏRQ**

***Şüar*** – Zahiri Söz.
***İzhar* –** Daxili Söz.

**AQİBƏT**

Cəmiyyət İnsan Aləti olmadı;
İnsan Cəmiyyət Aləti oldu.

**FƏRQLƏR**

Fərdiyyət – Daxili Həyat.
Xalq – Daxili Həyat Birliyi.
Cəmiyyət – Zahiri Həyat.

**FƏRQ**

Məhəbbət – Daxili Həyat.
Şəhvət – Zahiri Həyat.

**HƏQİQƏT**

Daxili Həyat – Məna Evi.
Zahiri Həyat – Mənasızlıq Evsizliyi.

**HƏQİQƏT**

Daxili Həyat – Həyatdan artıq.

**HƏQİQƏT**

***O Dünya*** – Bu Dünya xülyası.
***Cənnət* –** Cəhənnəm xülyası.

**HƏQİQƏT**

Zənginlik – Bütövlük.
Yoxsulluq – Natamlıq.

**HƏQİQƏT**

Yekdillik – Diri Birlik.
Yeknəsəqlik – Ölü Birlik.

**HƏQİQƏT**

Daxili aləm – Varlığı qoruyur,
Zahiri aləm – Yoxluğu.

**HƏQİQƏT**

Zaman Daxilində Müstəqillik – Asılılıqdır.
Şərait Daxilində Müstəqillik – Asılılıqdır.
Mühit Daxilində Müstəqillik – Asılılıqdır.
***Zaman – Asılılıq deməkdir.***
***Şərait – Asılılıq deməkdir.***
***Mühit – Asılılıq deməkdir.***

*4 Qismət günü, Xəzan Ayı, 13-cü il. Bakı.*

**HALLAR**

Kamillik Azadlığı.
Naqislik Əsarəti.

**HƏQİQƏT**

Ölümdən Həyat yaranmaz, Həyatdan Ölüm yaranar.
Yoxdan Var yaranmaz, Vardan Yox yaranar.

**HƏQİQƏT**

Varlıqla Yoxluğun Birliyi tutmaz.
Məqsəd – Yoxluqdan çıxmaq – Varlığa çatmaq;
Nisbidən çıxmaq – Mütləqə çatmaq;
Gerçəklikdən çıxmaq – Amala çatmaq.

**HƏQİQƏT**

Gerçəklikdə Yox olan Varlıq – İnsan İnamında, İdrakında, Mənəviyyatında, İradəsində yaşayır.

***İnsan Varlığı Gerçəklikdən qoruyur.***

**HƏQİQƏT**

Azadlıq – Yoxluqdan çıxmaq.

**HƏQİQƏT**

İnsan Yoxluqda Varlığı yaşadır.

**HƏQİQƏT**

Mütləq – Mütləqi – Varlığı yaşadır.
Nisbi – Nisbini – Yoxluğu yaşadır.

**HƏQİQƏT**

İnsan – Gerçəkliyə – Yoxluğa qarşı durur.

**HƏQİQƏT**

İnsan – Dünyanın Sahibi deyil,
– Dünyanın Əsiri deyil –
– ***Dünyanın Mənasıdır.***

**HƏQİQƏT**

Mücərrəd İnsan – İctimai İnsan.
Konkret İnsan – Ruhani İnsan.

**HƏQİQƏT**

Şəraitdə İnsan Mücərrədləşir.
Mühitdə İnsan Mücərrədləşir.
Zamanda İnsan Mücərrədləşir.

Konkret İnsan – Şəraiti ötür;
Mühiti ötür;
Zamanı ötür.

**MÜASİR FƏALLIQ**

Gerçəkliyə pərçimlənmək – Mənadan ayrılmaq, Mahiyyətdən ayrılmaq.

**HƏQİQƏT**

Gerçəklik səviyyəsində İnam – əslində Şübhədir, çünki Gerçəklik – Mütləq tanımır, deməli, Həqiqət tanımır.

*5 Murad günü, Xəzan Ayı, 13-cü il. Bakı.*

**İNSAN LƏYAQƏTİ**

Məna adlı Varlığı Gerçəklik adlı Yoxluqda daşımaq.

**HƏQİQƏT**

Gerçəkliyin Ümidi – Mahiyyət.
Nisbinin Ümidi – Mütləq.
Yoxluğun Ümidi – Varlıq.

### HƏQİQƏT

Bənzərsizliyin – Mahiyyətə Bənzəri var.
Əlçatmazlıq – Mahiyyətə çatır.
Müstəqillik – Mahiyyətlidir.

### HƏQİQƏT

Allah – Nisbi Mütləq, yəni əslində Anti-Mütləq.

### HƏQİQƏT

İnam – İdrakın Mənası.

### HƏQİQƏT

Gerçəklik İnsanı Mənadan ayrı salır.
İnsan Gerçəkliyi ötür və Mənaya qovuşur.

*7 Arzu günü, Xəzan Ayı, 13-cü il. Bakı.*

### HƏQİQƏT

Ömrü boyu Adam Məna tanımır, – Ölüm ayağında Mənadan ayrıla bilmir.

### HƏQİQƏT

Cəmiyyəti İdarə etmək – əslində Hamılaşmanı idarə etməkdir, Təbəqələşməni idarə etməkdir, Özgələşməni idarə etməkdir – ***yəni Antiinsaniliyi, Antixəlqiliyi idarə etməkdir.***

### HƏQİQƏT

Cəmiyyət – Yoxluqdur –
Xalq – Varlıq.
***Varlıq Yoxluqda yaşayır.***

### FƏRQ

Cəmiyyət – xidmət tələb eləyir,
Ruhaniyyat – məhəbbət.

## HƏQİQƏT

Cəmiyyət – Keçicidir, Vətən Əbədi.
Əbədi – Keçicidə yaşamalı olur.

## HƏQİQƏT

Cəmiyyət – Yoxluqdur.
İnsan – Varlıq.

İnsanla Cəmiyyətin Birliyi – Varlıqla Yoxluğun Birliyi olardı – Cəfəng.

## HƏQİQƏT

Cəmiyyət öz İnamsızlığıyla Adamı İnamdan ayırır.
Öz İdraksızlığıyla Adamı İdrakdan ayırır.
Öz Mənəviyyatsızlığıyla Adamı Mənəviyyatdan ayırır.
Öz İradəsizliyiylə Adamı İdrakdan ayırır.
***Cəmiyyət Adamı İnsandan ayırır.***

## HƏQİQƏT

Cəmiyyətçilik – Özümsüzlük.
Mühitçilik – Özümsüzlük.
Şəraitçilik – Özümsüzlük.

## HƏQİQƏT

Cəmiyyət Adamı İnsandan ayırır.
Şərait Adamı İnsandan ayırır.
Mühit Adamı İnsandan ayırır.

Cəmiyyəti ötüb İnsana çatmaq gərək.
Şəraiti ötüb İnsana çatmaq gərək.
Mühiti ötüb İnsana çatmaq gərək.

## HƏQİQƏT

Ruh – Əbədidir; Bədən – Keçici.
Əbədi – Keçicidə yaşamalı olur.

**HƏQİQƏT**
Cəmiyyət – Yadlar birliyi.

**FƏRQ**
Məhəbbət – Yadlığı öldürür.
Cəmiyyət – Yadlığı yaşadır.

**HƏQİQƏT**
Cəmiyyəti Sevmək olmaz – Yadlığı sevmək olmaz.

**HƏQİQƏT**
İctimai Münasibətlər – Yad Münasibətlər.

**HƏQİQƏT**
Sevgi – Özgəliyin Ölümü.

**HƏQİQƏT**
Özünə inanmadığın dərəcədə Allaha inanırsan.
Özünə inandığın dərəcədə Mütləqə inanırsan.

**FƏRQ**
Adam Fərəhi – Maddiyyat.
İnsan Fərəhi – Məna.

Adam Dərdi – Maddiyyatsızlıq.
İnsan Dərdi – Mənasızlıq.

**RUHANİ YÖN**
Gerçəklikdən – Mənaya.
Cəmiyyətdən – Xalqa.
Siyasətdən – Ruhaniyyata.

**HƏQİQƏT**
Adamın Sıraviləşməsi – Antiinsanilikdir;

İdarəçiləşməsi – Antiinsanilikdir.
***Adamın İnsanlaşması – İnsanilikdir.***
*8 Ümid günü, Xəzan Ayı, 13-cü il. Bakı.*

**İSTƏK**

Sevgi varsa – Biri Çoxdur.
Sevgi yoxsa – Yüzü Azdır.

*10 Mərhəm günü, Xəzan Ayı, 13-cü il. Bakı.*

## EVLADIM ÖZÜMLÜNÜN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN HESABATI HAQQINDA

I. Hesabat Təqdir olunur.

II. Fikir Evinin yaranması vaxtıdır, camaatla Ailə Təması vaxtıdır.

III. Evlad gətirin Ataya!

Qaranlıqlar Yarılsın!

## EVLADIM ELUCANIN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN HESABATI HAQQINDA

I. Hesabat Təqdir olunur – Ailə öz Biçimini tapıb.

II. Ailənin Qapısını Rəğbətçilərin üzünə daha geniş açmalı.

III. Müasir İdrakı, Mənəvi Yoxluğu Müqəddəslik İşığında görməli – göstərməli.

Qaranlıqlar Yarılsın!

*13 İnam günü, Xəzan Ayı, 13-cü il. Bakı.*

## FƏRQ

İsa – Gücsüzlərə baş əydi, İsaçılıq – Gücə.

*14 Arzu günü, Xəzan Ayı, 13-cü il. Bakı.*

## HAL

Mənasızlıqdan böyük İztirab yoxdur.
Mənadan böyük Fərəh yoxdur.

*18 Qismət günü, Xəzan Ayı, 13-cü il. Bakı.*

## EVLADIM NURLANA

Cismin getdi – Ruhun qaldı.
Ömrün getdi – Nurun qaldı.
Nur alacaqlar, Nurlanacaqlar Saflığından Qalanlar.
Körpəliyin ölməyəcək...

*20 İnam günü, Xəzan Ayı, 13-cü il. Bakı.*

(Qeyd: Nurlan – Bağban'ın oğlu).

## HƏQİQƏT

Məna – Ruhda – yəni İnamda, İdrakda, Mənəviyyatda, İradədə yaşayır...

*21 Arzu günü, Xəzan Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

İsa, adamların günahlarını öz üzərinə götürməklə onları İnsanlıqdan azad etdi.

## HƏQİQƏT

Din Adamın özünüyaratmaq haqqını əlindən alır.
***Bu səbəbdən də Din – böyük haqsızlıqdır.***

## HƏQİQƏT

Mütləqin Varlığı – Allahın Yoxluğudur.
Allahın Varlığı – İnsanın Yoxluğudur.
***Mütləq – Mənadır, Allah – Hakimlik.***
Məna – Adamı Yüksəldir; Hakim – Alçaldır.

*27 İnam günü, Xəzan Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Mahiyyətlə Gerçəklik arasında Uçurum var.
***İnam*** onu dəf eləyir.

*30 Dözüm günü, Xəzan Ayı, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Totalitarizm – Sosializmi qoruyur.
Demokratiya – Kapitalizmi qoruyur.
İnsanlaşma – İnsani Cəmiyyəti qorumalıdır.

## HƏQİQƏT

Təbiətlə döyüş Adamı yaratmadı – yaşatdı.
Mahiyyətcə İnsanilik Təbiətlə döyüşə ziddir.
***Yaşamaq üçün Adam İnsaniliyindən keçməli oldu.***

*3 İnam günü, Yağış Ayı, 13-cü il. Bakı.*

## İNSAN

Mənadan yaranan, Mənasızlığa düçar olan, Məna həsrətiylə qovrulan, Mənaya can atan, Mənaya çatan...

*5 Ümid günü, Yağış Ayı, 13-cü il. Bakı.*

## SOYLUNUN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN FİKİR EVİ HAQQINDA

Fikir Evi Yola düşüb – indi Yol getməlidir.

## İNSANLIQ TƏLƏBİ

Gerçəklikdə Mütləq Xeyir yoxdur –
Daxilində Mütləq Xeyir var; –
Onu gerçəkliyə gətir.

Gerçəklikdə Mütləq Ədalət yoxdur –
Daxilində Mütləq Ədalət var; –
Onu gerçəkliyə gətir.

Gerçəklikdə Mütləq Həqiqət yoxdur –
Daxilində Mütləq Həqiqət var; –
Onu gerçəkliyə gətir.

*6 Dözüm günü, Yağış Ayı, 13-cü il. Bakı.*

## EVLADIM ÖZÜMLÜNÜN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN HESABATI HAQQINDA

1. Hesabat Təqdir olunur.

2. Ailə – Fikir Evi Birliyinə Yetməli.

3. Camaatla Üz-Üzə durmalı.

Qaranlıqlar Yarılsın!

## EVLADIM GÜNTAYA

İnamsızlıq Qaranlığına düşüb
Yurdumuz, Şərqimiz, Dünyamız.
İnam İşığı gərək – Qaranlıqları Yaran.

İdraksızlıq Qaranlığına düşüb
Yurdumuz, Şərqimiz, Dünyamız.
İdrak İşığı gərək – Qaranlıqları Yaran.

Mənəviyyatsızlıq Qaranlığına düşüb
Yurdumuz, Şərqimiz, Dünyamız.
Mənəviyyat İşığı gərək – Qaranlıqları Yaran.
İradəsizlik Qaranlığına düşüb
Yurdumuz, Şərqimiz, Dünyamız.
İradə İşığı gərək – Qaranlıqları Yaran.

Gün gərək Yurdumuza, Şərqimizə, Dünyamıza.
Günə tay olmalıyıq.
***Güntay*** adını sənə halal eləyirəm.
Adına layiq ol.
Qaranlıqlar Yarılsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

7 Mərhəm günü, Yağış Ayı, 13-cü il. Bakı.

(Qeyd: Həyatda adı Mənuçöhr Cavanşir idi. Ocaqdan çıxdı).

## MÜQƏDDƏS HAL

Mənaya bənzəmək – Bənzərsizliyi.
Mənaya çatmaq – Əlçatmazlığı.
Mənalanmaq – Müstəqilliyi.

*11 Arzu günü, Yağış Ayı, 13-cü il. Bakı.*

## EVLADIM ELUCANIN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN HESABATI HAQQINDA

I. Hesabat Təqdir olunur.

II. Ailənin nəzdində Fikir Evi yaradılsın.

III. Rəğbətçilərə Ocaq haqqında Bilik verməli.

Qaranlıqlar Yarılsın.

*27 Dözüm günü, Yağış Ayı, 13-cü il. Bakı.*

## EVLADIM ULUSUYA

Suyumuz Uludur.
Zərdüşt İşığından yaranıb,
Babək Yenilməzliyindən yaranıb,
Dədə Qorqud Ağsaqqallığından yaranıb,
Hürufi İnsanlığından yaranıb,
Füzuli Eşqindən yaranıb,
Muğam Hikmətindən yaranıb,
Saz Dəyanətindən yaranıb.

Ulu Suyumuzu Bulandırırlar;

Xurafat çirki, Cəhalət çirki, Hərcayilik çirki, Qəbahət, Cəhalət, Həqarət çirki qatırlar Suyumuza...

Ulu Su olmalıyıq. İnam Suyu, İdrak Suyu, Mənəviyyat Suyu, İradə Suyu.

***Ulu Su*** adını sənə halal eləyirəm.

Adına layiq ol.

Qaranlıqlar Yarılsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*28 Mərhəm günü, Yağış Ayı, 13-cü il. Bakı.*

(Qeyd: Həyatda adı Aynur idi. Ocaqdan çıxdı).

## EVLƏNMƏ XEYİR-DUASI

Qoy Fərəh Evin Atası olsun – Ağası olmasın.

Qoy Nigar Evin Anası olsun – Xanımı olmasın.

Qoy Qayınata Evlənənlərin Atası olsun – Ağası olmasın.

Qoy Qayınana Evlənənlərin Anası olsun – Xanımı olmasın.

Ömür Amala həsr olunsun – Həyata həsr olunmasın – Həyat Amalla İşıqlansın.

Qaranlıqlar Yarılsın.

*1 İnam günü, Sərt Ay, 13-cü il. Bakı.*

## “SƏFƏR GÜNÜ” MƏRASİMİ

I. Mərasim Gedişatının Yazısı Safruha tapşırılır.

II. Yazı Sərt ayın 20-də Ataya təqdim olunur.

III. Mərasim: – Ata Sözündən, Səfər hesabatlarından və Ruhani Sənədlərin oxunmasından ibarət olur.

*13 Qismət günü, Sərt Ay, 13-cü il. Bakı.*

## EVLADIM ÖZÜMLÜNÜN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN HESABATI HAQQINDA

I. Hesabat Təqdir olunur. Ailənin Amallaşma səviyyəsi yüksəlir.

***II. “Fikir Evi” yaradılmalı. Xalqla Təmas yaranmalı.***

III. Dərgilər Ocaq ifadəsi qabiliyyəti kəsb etsin.

IV. Cənubla əlaqə artsın.

Qaranlıqlar yarılsın!

*26 Dözüm günü, Sərt Ay, 13-cü il. Bakı.*

## HƏQİQƏT

Üz – Mənəvi Xəritə.

*5 İnam günü, Qar Ayı, 13-cü il. Bakı.*

## EVLADIM İŞIQLIYA

İşıqsızdır Dünya – çünki İnamsızdır.
İşıqlıyıq – çünki İnamlıyıq.

İşıqsızdır Dünya – çünki İdraksızdır.
İşıqlıyıq – çünki İdraklıyıq.

İşıqsızdır Dünya – çünki Mənəviyyatsızdır.
İşıqlıyıq – çünki Mənəviyyatlıyıq.

İşıqsızdır Dünya – çünki İradəsizdir.
İşıqlıyıq – çünki İradəliyik.

***İşıqlı*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Qaranlıqlar Yarılsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

(Qeyd: Həyatdakı adı Elçin Qaliboğlu...)

## EVLADIM ÖZÜMLÜNÜN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN HESABATI HAQQINDA

1. Hesabat Təqdir olunur.

2. Camaatla Üz-Üzə durmaq vaxtıdır.

3. Özüylədöyüşün Mütləqilik səviyyəsinə Yetmək vaxtıdır.

Qaranlıqlar Yarılsın!

*25 Murad günü, Qar Ayı, 13-cü il. Bakı.*

## "AİLƏ GÜNÜ" MƏRASİMİ HAQQINDA

I. Ailə gününün Yazısını, Carları Özümlü hazırlayır.

II. Gedişat: Təmsilçilərin və Evladların Ailələr haqqında Sözü.
Ata Sözü.
III. Yazı Qar Ayının sonunda Ataya təqdim edilir.

*26 İnam günü, Qar Ayı, 13-cü il. Bakı.*

## MÜTLƏQÇİLİK AQİBƏTİ

Mütləqçilik – Gerçəkliyi ötməkdir:
Gerçəkliyi ötmək – Gerçək İnamı ötməkdir: –
***Dini İnamla əvəz etməkdir.***
Mütləqçilik – Gerçək İdrakı ötməkdir: –
***Maddiyyatçılığı Ruhaniyyatçılıqla əvəz etməkdir.***
Mütləqçilik – Gerçək Mənəviyyatı ötməkdir: –
***Adamı İnsanla əvəz etməkdir.***
Mütləqçilik – Gerçək İradəni ötməkdir: –
***Zəmanəyə qarşı durmaqdır.***

Dini İnamla əvəz etmək – İnamsızlıqdan qurtarmaqdır.

Maddiyyatçılığı Ruhaniyyatçılıqla əvəz etmək – Ruhsuzluqdan qurtarmaqdır.

Adamı İnsanla əvəz etmək – İnsansızlıqdan qurtarmaqdır.

Zəmanəyə qarşı durmaq – Həqiqətsizlikdən qurtarmaqdır.

Mütləqçi Dünyanın, Həyatın, İnsanın Mütləq Mənasına inanır: bu səbəbdən də Qismətçiliyə – Allah kəramətinə, Alın yazısına, Cənnət xülyasına, Cəhənnəm xofuna qarşıdır.

Mütləqçi Dünyaya, Həyata, İnsana Mütləq ölçüsüylə yanaşır, Mütləq olmayanı Həqiqət saymır.

Mütləqçi – ***Nisbi Evladlığı*** rədd edir;
Mütləq Evladlıqdan başqa Evladlıq tanımır.
Mütləqçi – ***Nisbi Qardaşlığı*** rədd edir;
Mütləq Qardaşlıqdan başqa Qardaşlıq tanımır.
Mütləqçi – ***Nisbi Bacılığı*** rədd edir;
Mütləq Bacılıqdan başqa Bacılıq tanımır.

***Nisbi Evladlıq*** Səcdə, İntizam Mütləqiliyinə xələl gətirməkdir ki, bunu Evladlıq saymaq Günahdır.

***Nisbi Qardaşlıq*** – mübahisəli, həsədli, hədəli, şübhəli, qeybətli, gileyli, dedi-qodulu Qardaşlıqdır ki, onu Qardaşlıq saymaq – Günahdır.

***Nisbi Bacılıq*** – mübahisəli, həsədli, hədəli, şübhəli, qeybətli, gileyli, dedi-qodulu Bacılıqdır ki, onu Bacılıq saymaq – Günahdır.

Mütləqçilik – Aramsız, Ardıcıl Mütləqləşmə Yoludur – Gerçəklikdən Üstün.

*1 Murad günü, Köçəri Ay, 13- cü il. Bakı.*

## MÜTLƏQÇİ HALI

1. Acığı eşitməmək.

2. Ürəyin qapısını Kinin üzünə bağlamaq.

3. Bütün vəziyyətlərdə Ruhu rəvan saxlamaq.

4. Rəqabəti həqarət saymaq.

## MÜTLƏQÇİ SƏVİYYƏSİ

1. Qərb Açıqlığını – İslam Qapalılığını rədd etmək.

2. Din İnamsızlığını – Ateizm İnamsızlığını rədd etmək.

3. Demokratiya Səfalətini – Dövlətçilik Əsarətini rədd etmək.

## ÖZÜNÜTANIMA

Özünə Özünün Gözüylə baxmaq – Özgənin Gözüylə baxmamaq.

## EVLADIM AMALTAYA

Həyata tay olmaq – Yalana tay olmaqdır.
Amala tay olmaq – İnama tay olmaqdır.
Həyatı keçmədən – Yalandan keçmək olmaz.
Amala Yetmədən – İnama Yetmək olmaz.
Mütləqə İnam adlı İnamımız var – ona Tay olmalıyıq.
İnsanlaşdırma adlı İnamımız var – ona Tay olmalıyıq.

Müstəqil Vətən adlı İnamımız var – ona Tay olmalıyıq.
Özümlü Şərq adlı İnamımız var – ona Tay olmalıyıq.
***Amaltay*** adını sənə halal eləyirəm.
Qaranlıqlar Yarılsın!

(Qeyd: Həyatda adı İbrahimli Xaqani idi. Qarabağ savaşında həlak oldu).

## ATAYLA MİNGƏÇEVİRLİLƏRİN GÖRÜŞÜ

Görüş Amal izharı səviyyəsində keçdi.

Evladım Bağbanın Təşkilatçılıq Əməli təqdir olunur.

## FİKİR EVİ HAQQINDA

"Fikir Evi" Amal çağırdı, Amala çağırdı.

Evladım Əsilin Təşkilatçılıq Əməli təqdir olunur.

*5 Dözüm günü, Köçəri Ay, 13-cü il. Bakı.*

## SOYLUNUN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN HESABATI HAQQINDA

1. Hesabat Təqdir olunur.

2. İntizamsızlıq ləğv edilməli.

3. Amallaşma – İnsanlaşma – Evladlaşma – Xalqlaşma Birliyi Yoluna düşməli.

Qaranlıqlar Yarılsın!

*10 Arzu günü, Köçəri Ay, 13-cü il. Bakı.*

## EVLADIM ELÜRƏYƏ

Elimizə İnamlı Ürək gərək.
İdraklı Ürək gərək.
Mənəviyyatlı Ürək gərək.
İradəli Ürək gərək.
Mütləq İşığıyla İşıqlanan Ürək gərək.
Özüylədöyüş İşığıyla İşıqlanan Ürək gərək.
Ruhani Cəmiyyət İşığıyla İşıqlanan Ürək gərək.
Özümlü Şərq İşığıyla İşıqlanan Ürək gərək.
Müstəqil Vətən İşığıyla İşıqlanan Ürək gərək.
***Elürək*** adını sənə halal eləyirəm.
Adına layiq ol.

Qaranlıqlar Yarılsın!

(Qeyd: Həyat adı Aliyə Cavanşir idi. Ocaqdan çıxdı).

## EVLADIM ELQAYAYA

Qaya olmalıyıq – Zamana əyilməyən; –
İnamsızlığa qarşı duran İnam Qayası;
İdraksızlığa qarşı duran İdrak Qayası;
Mənəviyyatsızlığa qarşı duran Mənəviyyat Qayası;
İradəsizliyə qarşı duran İradə Qayası...
Dəyişkənlər arasında Dəyişməz, Dönüklər arasında Dönməz.
Elin Amal qayası olmalıyıq. Ruh Qayası olmalıyıq Elimizə.
***Elqaya*** adını sənə halal eləyirəm.
Adına layiq ol.

Qaranlıqlar Yarılsın!

(Həyatda adı: Məmmədəli Zirək. Təbrizli. Qəbula gəlməyib).

## EVLADIM BULAĞA

İnamsızdır Dünya –
İnam Bulağı olmalıyıq dünyaya.
İdraksızdır Dünya –
İdrak Bulağı olmalıyıq dünyaya.
Mənəviyyatsızdır Dünya –
Mənəviyyat Bulağı olmalıyıq dünyaya.
İradəsizdir Dünya –
İradə Bulağı olmalıyıq dünyaya.
Zərdüşt Bulağının İşığı düşməlidir Həyata –
Ali Həyat yaranmalıdır.
Babək Bulağının İşığı düşməlidir Həyata –
Ali Həyat yaranmalıdır.
Dədə Qorqud Bulağının İşığı düşməlidir Həyata –
Ali Həyat yaranmalıdır.
Hürufi Bulağının İşığı düşməlidir Həyata –
Ali Həyat yaranmalıdır.
Muğam Bulağının İşığı düşməlidir Həyata –
Ali Həyat yaranmalıdır.
Saz Bulağının İşığı düşməlidir Həyata –
Ali Həyat yaranmalıdır.
***Bulaq*** adını sənə halal eləyirəm.
Adına layiq ol!
Qaranlıqlar Yarılsın!

*15 Murad günü, Köçəri Ay, 13-cü il. Bakı.*

(Qeyd: Həyatda adı: Lalə Cavanşir. Təbrizli – Ərdəbilli. Qəbula gəlməyib).

## EVLADIM BİRELƏ

Cənubi Azərbaycan yoxdur.
Şimali Azərbaycan yoxdur.
İran Azərbaycanı yoxdur.

Rusiya Azərbaycanı yoxdur.
***Elimiz – Birdir.***
***Bir*** İnam əsasında yaşamalıyıq – Mütləqə İnam.
***Bir*** Mənəviyyat əsasında yaşamalıyıq – İnsanlaşmaq.
***Bir*** Məqsəd əsasında yaşamalıyıq – Müstəqil Vətən.
***Bir*** İdeal əsasında yaşamalıyıq – Ruhani Cəmiyyət.
***Bir*** Ruh əsasında yaşamalıyıq – ÖzümlüŞərq.
***Birel*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Qaranlıqlar Yarılsın!

(Qeyd: Həyatda adı: Babək Cavanşir. Təbrizli. Qəbula gəlməyib).

**EVLADIM ELQALAYA**

Elimizin İnam Qalası Uçub,
Elimizə İnam Qalası olmalıyıq.

Elimizin İdrak Qalası Uçub,
Elimizə İdrak Qalası olmalıyıq.
Elimizin Mənəviyyat Qalası Uçub,
Elimizə Mənəviyyat Qalası olmalıyıq.

Elimizin İradə Qalası Uçub,
Elimizə İradə Qalası olmalıyıq.

Mütləqilik Qalası gərək Elimizə.
İnsanlaşma Qalası gərək Elimizə.
Müstəqil Vətən Qalası gərək Elimizə.
Ruhani Cəmiyyət Qalası gərək Elimizə.
Özümlü Şərq Qalası gərək Elimizə.

***Elqala*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Qaranlıqlar Yarılsın!

(Qeyd: Həyatda adı: Arif Kəskin. Təbrizli. Qəbula gəlməyib).

## EVLADLARIM
## GÜNTAYA – YÜKSƏYƏ XEYİR-DUA

***Təhlükənin üstünə Şığıyırsınız.***
***Ölümün Üstündən Adlayırsınız.***
***Təhlükədən Üstün olursunuz.***
***Ölümdən Üstün olursunuz.***
Cənubdakılara deyin ki, İnama gəlsinlər –
İslam – İnamsızlıqdır.
İdraka Yüksəlsinlər –
İslam – İdraksızlıqdır.
Mənəviyyata Yetsinlər –
İslam – Mənəviyyatsızlıqdır.
İradəyə Çatsınlar –
İslamçılıq – İradəsizlikdir.

***Azərbaycanımız Birdir – İran Azərbaycanı Yoxdur, Rusiya Azərbaycanı Yoxdur.***

Şərq Birliyinə – Özümlü Azərbaycan gərək – İran Azərbaycanı Yox, Rusiya Azərbaycanı Yox.

***Cəhalətin Üstünə Şığıyırsınız.***
***Qəddarlığın Üstündən Adlayırsınız.***
***Adamlara Həqiqət aparırsınız, Məhəbbət aparırsınız.***
Nur aparın, Uğur gətirin.
***Daxilinizdəki Mütləq Sizə Yar olsun!***

*17 Arzu günü, Köçəri Ay, 13-cü il. Bakı.*

## "YENİ İL" MƏRASİMİ

1. Mərasim Ruhani Fərəh üstə köklənir.

2. Gedişatı və Carları Fərəh yazır...

3. Yazı Köçəri Ayın 23-də Ataya təqdim olunur.

4. Mərasimin Məzmunu:
I. Ocaq İli haqqında Ata Sözü, Evlad Sözü.

II. Ruhani Sənədlərin oxunması.

III. Evlad Qəbulu.

## XALQ CƏBHƏSİ KLUBUNDA ATAYLA GÖRÜŞ

1. Görüş Amal çağırdı, Amala çağırdı.

2. Evladım Düzgünün Təşkilatçılıq Əməli Təqdir olunur.

*18 Ümid günü, Köçəri Ay, 13-cü il. Bakı.*

## HAL

Həqiqətdən qorxmuram, çünki o, mənim dostumdur.
Yalandan qorxmuram, çünki o, mənim düşmənimdir.

*20 Mərhəm günü, Köçəri Ay, 13-cü il. Bakı.*

## UNİVERSİTET AİLƏSİNİN FİKİR EVİ ƏMƏLİ

1. Fikir Evi Əməli Təqdir olunur.

2. Suallara Cavab Təkmilləşməlidir.

3. 5 Müqəddəs İdeya Fikir Evi Günlərinin hamısında Təkrarlanmalıdır.

Nur aparın, Uğur gətirin.

Qaranlıqlar Yarılsın!

*22 Murad günü, Köçəri Ay, 13-cü il. Bakı.*

## MÜTLƏQÇİ HALI

İnsanda Mütləqilik Var –
Yəni ***ən Sarsıntılı Məqamlarda belə*** –
Sarsılmamaq, Sarsıntını ötmək İmkanı Var –
***Mütləqçi Sarsıntını ötməli, Sarsılmazlığa çatmalıdır.***

İnsanda Mütləqilik Var –
Yəni ***ən Qorxulu Məqamlarda belə*** –
Qorxmamaq, Qorxunu ötmək İmkanı Var –
***Mütləqçi Qorxunu ötməli, Qorxmazlığa çatmalıdır.***

İnsanda Mütləqilik Var –
Yəni ***ən Dözülməz Məqamlarda belə*** –
Dözmək, Dözümsüzlüyü ötmək İmkanı Var –
***Mütləqçi Dözümsüzlüyü ötməli, Dözümə çatmalıdır.***

İnsanda Mütləqilik Var –
Yəni ***ən Çirkin Məqamlarda belə*** –
Çirklənməmək, Çirki ötmək İmkanı Var –
***Mütləqçi Çirki ötməli, Çirksizliyə çatmalıdır.***

İnsanda Mütləqilik Var –
Yəni ***ən Canavar Məqamlarda belə*** –
Canavarlaşmamaq, Canavarlığı ötmək İmkanı Var –
***Mütləqçi Canavarlığı ötməli, İnsaniliyə çatmalıdır.***

İnsanda Mütləqilik Var –
Yəni ***ən İlan Məqamlarda belə*** –
İlanlaşmamaq, İlanlığı ötmək İmkanı Var –
***Mütləqçi İlanlığı ötməli, İnsaniliyə çatmalıdır.***

İnsanda Mütləqilik Var –
Yəni ***ən Tülkü Məqamlarda belə*** –
Tülküləşməmək, Tülkülüyü ötmək İmkanı Var –
***Mütləqçi Tülkülüyü ötməli, İnsaniliyə çatmalıdır.***

İnsanda Mütləqilik Var –
Yəni ***ən İt Məqamlarda belə*** –
İtləşməmək, İtliyi ötmək İmkanı Var –
***Mütləqçi İtliyi ötməli, İnsaniliyə çatmalıdır.***

İnsanda Mütləqilik Var –
Yəni ***ən İnamsız Məqamlarda belə*** –
İnamsızlaşmamaq, İnamsızlığı ötmək İmkanı Var –
***Mütləqçi İnamsızlığı ötməli, Mütləq İnama çatmalıdır.***

İnsanda Mütləqilik Var –
Yəni ***ən İdraksız Məqamlarda belə*** –
İdraksızlaşmamaq, İdraksızlığı ötmək İmkanı Var –
***Mütləqçi İdraksızlığı ötməli, Mütləq İdraka çatmalıdır.***

İnsanda Mütləqilik Var –
Yəni ***ən Mənəviyyatsız Məqamlarda belə*** –
Mənəviyyatsızlaşmamaq, Mənəviyyatsızlığı ötmək İmkanı Var.
***Mütləqçi Mənəviyyatsızlığı ötməli, Mütləq Mənəviyyata çatmalıdır.***

İnsanda Mütləqilik Var –
Yəni ***ən İradəsiz Məqamlarda belə -***
İradəsizləşməmək, İradəsizliyi ötmək İmkanı Var –
***Mütləqçi İradəsizliyi ötməli, Mütləq İradəyə çatmalıdır.***

İnsanda Mütləqilik Var –
Yəni ***öz Qeyri-Kamilliyini ötmək,***
***Kamilliyə çatmaq İmkanı Var –***
***Mütləqçi Qeyri-Kamilliyini ötməli –***
***Kamilliyə çatmalıdır.***

*29 Murad günü, Köçəri Ay, 13-cü il. Bakı.*

## EVLADIM ELUCANIN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN HESABATI HAQQINDA

I. Hesabat Təqdir olunur.

II. Evladlar özlərinə Ruhani Xasiyyətnamələr yazsınlar – özləri haqqında bildiklərini ümumiləşdirsinlər.

III. Sovet Ədəbiyyatı, Sovet Pedaqogikası, Sovet Tarixi, Sovet Psixologiyası, Sovet Fəlsəfəsi haqqında Fikir izhar etməli.

*19 Mərhəm günü, Günəş Ayı, 14-cü il. Bakı.*

## EVLADIM ÖZÜMLÜNÜN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN HESABATI HAQQINDA

1. Hesabat Təqdir olunur.

2. Evladlar özlərinə Ruhani Xasiyyətnamələr yazırlar.

3. "Azərbaycanımız – Azərbaycanlığımız" devizi altında Ailə camaatla Görüşür.

Qaranlıqlar Yarılsın!

*24 Ümid günü, Günəş Ayı, 14-cü il. Bakı.*

## EVLADIM BİLƏNƏ

Mütləqi bilmirlər –
Bu səbəbdən də Nisbiyə tapınırlar.
Xeyiri bilmirlər –
Bu səbəbdən də Şərə tapınırlar.
Doğrunu bilmirlər –
Bu səbəbdən də Yalana tapınırlar.

İnamı bilmirlər – Dinə tapınırlar.
İdrakı bilmirlər – Cəfəngiyyata tapınırlar.
Mənəviyyatı bilmirlər – Maddiyyata tapınırlar.
İradəni bilmirlər – Zamana tapınırlar.
İnamı bilirik – Mütləqə inanırıq.
İdrakı bilirik – Ruhaniyyata inanırıq.
Mənəviyyatı bilirik – Vicdana inanırıq.
İradəni bilirik – İnsana inanırıq.

Bilənik – Bildirənik!
***Bilən*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Qaranlıqlar Yarılsın!
Daxilindəki Mütləq Sənə Yar olsun!

*25 Dözüm günü, Günəş Ayı, 14-cü il. Bakı.*

(Qeyd: Yaşamda adı – ? Döndü).

**EVLADIM GÖYELƏ**

***Elimiz – Göyümüzdür.***
***Yerin Göyü olmalıyıq.***
İnam Göyü olmalıyıq.
İdrak Göyü olmalıyıq.
Mənəviyyat Göyü olmalıyıq.
İradə Göyü olmalıyıq.

İnsanlaşmaya çatmalıyıq, çatdırmalıyıq.
Ruhani Cəmiyyətə çatmalıyıq, çatdırmalıyıq.
Müstəqil Vətənə çatmalıyıq, çatdırmalıyıq.
Özümlü Şərqə çatmalıyıq, çatdırmalıyıq.
***Göyel*** adını sənə halal eləyirəm.
Adına layiq ol.

Qaranlıqlar Yarılsın!

Daxilindəki Mütləq sənə Yar olsun!

*7 Ümid günü, Çiçək Ayı, 14-cü il. Bakı.*

(Qeyd: Həyatda adı Orxan idi. Ocaqdan çıxdı. Safruhun oğlu...).

## EVLADIM ƏMƏLRUHA

***Əməlimiz – Ruh Əməlidir.***

İnam Əməlidir.
İdrak Əməlidir.
Mənəviyyat Əməlidir.
İradə Əməlidir.

***Bugünkülərin Ruh Əməli yoxdur.***
Bu səbəbdən də Dünya Ruhsuzluq Qaranlığına qərq olub.
***Bugünkülərin İnam Əməli yoxdur.***
Bu səbəbdən də Dünya İnamsızlıq Qaranlığına qərq olub.
***Bugünkülərin İdrak Əməli yoxdur.***
Bu səbəbdən də Dünya İdraksızlıq Qaranlığına qərq olub.
***Bugünkülərin Mənəviyyat Əməli yoxdur.***
Bu səbəbdən də Dünya Mənəviyyatsızlıq Qaranlığına qərq olub.
***Bugünkülərin İradə Əməli yoxdur.***
Bu səbəbdən də Dünya İradəsizlik Qaranlığına qərq olub.
***Əməlruh*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Qaranlıqlar Yarılsın!

*13 Arzu günü, Çiçək Ayı, 14-cü il. Bakı.*

(Qeyd: Həyatda adı Şahin idi. Ocadan çıxdı).

## EVLADIM ULUSUYA

***Suyumuz Uludur.***
Zərdüşt Bulağından qaynayıb.
Babək Bulağından qaynayıb.
Dədə Qorduq Bulağından qaynayıb.
Füzuli Bulağından qaynayıb.
Muğam Bulağından qaynayıb.
Saz Bulağından qaynayıb.
***Suyumuzu Bulandırıblar.***
Bulanıq İnam törədiblər.
Bulanıq İdrak törədiblər.
Bulanıq Mənəviyyat törədiblər.
Bulanıq İradə törədiblər.
İnam Suyu olmalıyıq Adamlara.
İdrak Suyu olmalıyıq Adamlara.
Mənəviyyat Suyu olmalıyıq Adamlara.
İradə Suyu olmalıyıq Adamlara.
***Ulu Su olmalıyıq Uluslara.***
***Ulusu*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Qaranlıqlar Yarılsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*26 İnam günü, Çiçək Ayı, 14-cü il. Bakı.*

(Qeyd: Həyatda adı Əli İsbər oğlu idi. Ocaqdan çıxdı).

## EVLADIM ELGÜNƏ

***Elimiz – Günsüzdür.***
***İnam günü olmalıyıq Elimizə.***
İdrak günü.
Mənəviyyat günü.

İradə günü.
***Mütləq İnam Günü olmalıyıq Elimizə.***
İnsanlaşma – İnsanlaşdırma Günü.
Ruhani Cəmiyyət Günü.
Müstəqil Vətən Günü.
Özümlü Şərq Günü.
***Elgün*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Qaranlıqlar Yarılsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*27 Arzu günü, Çiçək Ayı, 14-cü il. Bakı.*

(Qeyd: Həyatda adı: ? Qəbula gəlməyib).

## EVLADIM YOLNURA

Adamlar İnamsızlıq Qaranlığına qərq olub.
İnam Nuru olmalıyıq.
Adamlar İdraksızlıq Qaranlığına qərq olub.
İdrak Nuru olmalıyıq.
Adamlar Mənəviyyatsızlıq Qaranlığına qərq olub.
Mənəviyyat Nuru olmalıyıq.
Adamlar İradəsizlik Qaranlığına qərq olub.
İradə Nuru olmalıyıq.

***Qaranlıqda Nur yoluyuq.***
***Yolnur*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Qaranlıqlar Yarılsın!
Daxilindəki Mütləq sənə Yar olsun.

## EVLADIM RUHDAŞA

Ocaqçılar – Ruhdaşdırlar – yəni İnamdaşdırlar, İdrakdaşdırlar, Mənəviyyatdaşdırlar, İradədaşdırlar.

Mütləqilik daşıyırlar.
İnsanlaşma daşıyırlar.
Ruhani Cəmiyyət daşıyırlar.
Müstəqil Vətən daşıyırlar.
Özümlü Şərq daşıyırlar.

***Ruhdaş*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Qaranlıqlar Yarılsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*28 Ümid günü, Çiçək Ayı, 14-cü il. Bakı.*

(Qeyd: Yaşamda adı Oqtay idi. Ocaqdan çıxdı).

## EVLADIM GÖYLÜYƏ

İnam adlı Göyümüz var.
İdrak adlı Göyümüz var.
Mənəviyyat adlı Göyümüz var.
İradə adlı Göyümüz var.
İnamsızdırlar Bugünkülər – Göysüzdürlər.
İdraksızdırlar Bugünkülər – Göysüzdürlər.
Mənəviyyatsızdırlar Bugünkülər – Göysüzdürlər.
İradəsizdirlər Bugünkülər – Göysüzdürlər.
Elimizə, Şərqimizə, Dünyamıza İnam Göyü olmalıyıq.
İdrak Göyü olmalıyıq.
Mənəviyyat Göyü olmalıyıq.
İradə Göyü olmalıyıq.
***Göylü*** adını sənə halal eləyirəm.
Adına layiq ol.

Qaranlıqlar yarılsın.

*7 Mərhəm günü, İşıq Ayı, 14-cü il. Bakı.*

(Qeyd: Yaşamda adı Natəvan idi. Ocaqdan çıxdı).

## EVLADIM ÖZÜMLÜNÜN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN HESABATI HAQQINDA

1. Hesabat Təqdir olunur.

2. Evladlığın Kamillik Dövrü başlanmalıdır.

3. Yurdun, Şərqin, Dünyanın Bugünkü Halı Ocaq İşığında Bilinməli, Bildirilməli.

## "EVLAD GÜNÜ" MƏRASİMİ HAQQINDA

1. Mərasim Mütləq Səcdə, Mütləq Doğmalıq, Mütləq Yetkinlik, Mütləq Ciddilik səviyyəsində keçməli.

***2. Evlad İzharı – "Mən kiməm?" – Mərasimin Müqəddəs Mahiyyəti İşığında.***

3. Mərasimin Gedişatını Soylu yazır.

4. Gedişat İşıq ayının 25-də Ataya təqdim edilir – Carlarla bir yerdə.

Qaranlıqlar Yarılsın.

*17 İnam günü, İşıq Ayı, 14-cü il. Bakı.*

## EVLADIM ELLİYƏ

***Elsizdirlər Bugünkülər.***
Çünki İnamsızdırlar.
İdraksızdırlar.
Mənəviyyatsızdırlar.
İradəsizdirlər.

***Elliyik.***
Çünki İnamlıyıq.
İdraklıyıq.
Mənəviyyatlıyıq.
İradəliyik.
Elimizi Mütləqə İnam Müqəddəsliyinə çatdırırıq.
İnsanlaşma Müqəddəsliyinə çatdırırıq.
Ruhani Cəmiyyət Müqəddəsliyinə çatdırırıq.
Müstəqil Vətən Müqəddəsliyinə çatdırırıq.
Özümlü Şərq Müqəddəsliyinə çatdırırıq.
***Elli*** adını sənə halal eləyirəm.
Adına layiq ol.
Qaranlıqlar Yarılsın.
Daxilindəki Mütləq sənə Yar olsun!

*24 İnam günü, İşıq Ayı, 14-cü il. Bakı.*

(Qeyd: Yaşamda adı Cavadlı Natiq idi. Ocaqsızlaşdı).

## EVLADIM NURAMALA

Amalsızdır Dünya – bu səbəbdən də Nursuzdur.
***Nur Amalı olmalıyıq Dünyamıza.***
İnam Nuru.
İdrak Nuru.
Mənəviyyat Nuru.
İradə Nuru.
Mütləqə İnam Nuru Qaranlıqları Yarsın!

İnsanlaşma Nuru Qaranlıqları Yarsın!
Ruhani Cəmiyyət Nuru Qaranlıqları Yarsın!
Müstəqil Vətən Nuru Qaranlıqları Yarsın!
Özümlü Şərq Nuru Qaranlıqları Yarsın!

***Nuramal*** adını sənə halal eləyirəm!
Adına layiq ol!

Daxilindəki Mütləq sənə Yar olsun!

*27 Dözüm günü, İşıq Ayı, 14-cü il. Bakı.*

(Qeyd: Yaşamda adı Əhmədzadə Pərviz idi. Döndü).

## UNİVERSİTETDƏKİ FİKİR EVİNİN HESABATI HAQQINDA

1. Hesabat Təqdir olunur.

2. Fikir Evi Ruhani Əmələ çevrilməkdədir.

3. Sorğulara cavablar Müqəddəsat səviyyəsində olmalıdır.

4. Fikirçilərlə münasibət Ocaq Yetkinliyinə çatmalıdır.

## ELUCANIN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN HESABATI HAQQINDA

1. Hesabat Təqdir olunur.

2. İnsanlaşmanın Hallar səviyyəsində izharına çatmalı:
İnam Halının səviyyəsi.
İdrak Halının səviyyəsi.
Mənəviyyat Halının səviyyəsi.
İradə Halının səviyyəsi.

3. Rəğbətçilərlə Mərasimdən kənar Təmas Biçimi tapmalı.

## MÜTLƏQLƏ TƏMAS QAYDASI

Ataya Ricadan sonra ***Səhər*** – Özündəki Mütləqə Rica; ***Gündüz*** – Təbiətdəki Mütləqə Rica; ***Axşam*** – Dünyadakı Mütləqə Rica İzhar olunur.

## OCAQ BAYRAMLARI TƏQVİMİ

İnsanilik Bayramı – Günəş Ayının 14-ü.
Xəlqilik Bayramı – Şölə Ayının 13-ü.
Şərqilik Bayramı – Ata Ayının 12-si.
Bəşərilik Bayramı – Sərt Ayın 12-si.

## MÜQƏDDƏS MÜRACİƏT

"Ehtiram" sözü Evladın Ataya münasibətini ifadə eləmir.

Bu səbəbdən də Ataya müraciətdə "Ehtiram" sözü "Səcdə" sözüylə əvəz olunur – ***"Müqəddəs Ataya Ali Səcdə" –*** deyilir.

*28 Mərhəm günü, İşıq Ayı, 14-cü il. Bakı.*

## EVLADIM YURDÇUYA

Yurdçuluq – İnamçılıqdır;
Ocaq Evladı – İnamçıdır, Yurdçudur.

Yurdçuluq – İnsançılıqdır;
Ocaq Evladı – İnsançıdır, Yurdçudur.

Yurdçuluq – Amalçılıqdır;
Ocaq Evladı – Amalçıdır, Yurdçudur.

Yurdçuluq – Türkçülükdür;
Ocaq Evladı – Türkçüdür, Yurdçudur.

Yurdçuluq – Şərqçilikdir;
Ocaq Evladı – Şərqçidir, Yurdçudur.

***Yurdçu*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Qaranlıqlar Yarılsın!
Yükümüzdən Böyük Fərəh yoxdur!

*9 Ümid günü, Şölə Ayı, 14-cü il. Bakı.*

(Qeyd: Yaşamda adı Elbəniz idi. Döndü).

## EVLADIM ÖZÜMLÜNÜN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN HESABATI HAQQINDA

1. Hesabat Təqdir olunur.

2. Öyrəndiyinizi – Öyrədin.
Mütləqə İnamı öyrətmək Məqamı çatıb.
İnsanlaşmanı öyrətmək Məqamı çatıb.

3. Mətbuatda Ocaq İdeyalarını yayın.

4. Ətrafınıza Ocaq İşığı saçın.
Ailə – Əhali Təması yaransın.

Qaranlıqlar Yarılsın!

*8 Murad günü, Qürub Ayı, 14-cü il. Bakı.*

## “ATA GÜNÜ” MƏRASİMİ

***Səviyyə:*** Mütləq Səcdə, Mütləq İntizam, Mütləq Doğmalıq.

***Məzmun:*** Evlad Qəbulu, Evlad İzharı – Atayla üz-üzə, Ata Hökmləri.

***Gedişat Yazısı və Carlar***: – Safruha, Soyluya, Uğura tapşırılır.

***Yazılar*** Ata Ayının 10-da Ataya təqdim olunur.

## EVLADIM ELGÜNƏ

Elimizə İnam Günü olmalıyıq.
İdrak Günü olmalıyıq.
Mənəviyyat Günü olmalıyıq.
İradə Günü olmalıyıq.

***Günsüzdürlər Bugünkülər.***
Çünki İnamsızdırlar.
İdraksızdırlar.
Mənəviyyatsızdırlar.
İradəsizdirlər.

Mütləqə İnam Günü gərək Elimizə.
İnsanlaşma Günü gərək Elimizə.
Ruhani Cəmiyyət Günü gərək Elimizə.
Müstəqil Vətən Günü gərək Elimizə.

***Elgün*** adını sənə halal eləyirəm.
Adına layiq ol.
Qaranlıqlar Yarılsın.

(Qeyd: Yaşamda adı Nəcəfov Ədhəm imiş, qəbula gəlməyib).

*26 Dözüm günü, Qürub Ayı, 14-cü il. Bakı.*

## FƏRQ

***Dünya Gedişatı***: Demokratiya cəngəlliyindən – Diktatura Zindanına.

***Ocaq Yolu***: Demokratiya cəngəlliyindən – Ruhaniyyat Göylüyünə.

*9 Dözüm günü, Ata Ayı, 14-cü il. Bakı.*

## EVLADIM ÜLVİYƏ

İnamımız Ülvidir – çünki Mütləqdir.
İdrakımız Ülvidir – çünki Mütləqdir.
Mənəviyyatımız Ülvidir – çünki Mütləqdir.
İradəmiz Ülvidir – çünki Mütləqdir.

Ülviyik – çünki İnsançıyıq, Ruhçuyuq, Şərqçiyik, Bəşərçiyik.
Yurdumuz Mütləqə İnam əsasında Bir olacaq.
Özüylədöyüş əsasında Bir olacaq.
Ruhani Cəmiyyət əsasında Bir olacaq.
Müstəqil Vətən əsasında Bir olacaq.
Özümlü Şərq əsasında Bir olacaq.

***Ülvi*** adını sənə halal eləyirəm.
Adına layiq ol.

Qaranlıqlar Yarılsın!
Daxilindəki Mütləq sənə Yar olsun!
Yükümüzdən Böyük Fərəhimiz yoxdur!

*13 Arzu günü, Ata Ayı, 14-cü il. Bakı.*

(Qeyd: Yaşamda adı Purmusəvi Arzu idi. Ocaqda adı olub – özü olmayıb. Güney Azərbaycandandı).

## EVLADIM İNAMNURA

İnamsızlıq Qaranlığına qərq olub Bugünkülər.
İslam Qaranlığına.
Qərbçilik Qaranlığına.
İnam Nuru olmalıyıq Yurdumuza, Şərqimizə, Dünyamıza.
Mütləqçilik Nuru.
İnsançılıq Nuru.
Müstəqil Vətən Nuru.
Ruhani Cəmiyyət Nuru.
Özümlü Şərq Nuru.

Mütləqə İnam Nurunda Qaranlıqlar Yarılacaq.
Mütləq İdrak Nurunda Qaranlıqlar Yarılacaq.
Mütləq Mənəviyyat Nurunda Qaranlıqlar Yarılacaq.
Mütləq İradə Nurunda Qaranlıqlar Yarılacaq.
***İnamnur*** adını sənə halal eləyirəm.
Adına layiq ol.

Daxilindəki Mütləq sənə Yar olsun!
Yükümüzdən Böyük Fərəhimiz yoxdur!

*13 Arzu günü, Ata Ayı, 14-cü il. Bakı.*

(Qeyd: Yaşamda adı Purmusəvi Səməd idi. Güney Azərbaycandandı. Ocaqda adı olub – özü olmayıb).

## OCAQLAŞDIRMA ƏMƏLİ

Ocaqçı Yurdumuzu, Şərqimizi, Dünyamızı Din – Ateizm, Kapitalizm – Sosializm, Demokratiya – Totalitarizm Dairəsindən çıxarmaq üçün Ocaqlaşdırma Əməlinə sarılır.

1. Dini Ayinlər, Mərasimlər əvəzi –
Mütləqə İnam Biliyi öyrədilir Xalqa.

2. Toy Dəllallığı əvəzi –
Ocağın Ailə Qaydaları öyrədilir Xalqa.

3. Yas mövhumatı əvəzi –
Ocağın Matəm Sözləri öyrədilir Xalqa.

4. Yığıncaqlar, Seçki Oyunu, Parlament Qanunları əvəzi –
Ruhani Cəmiyyət İdealı öyrədilir Xalqa.

5. Qərbçilik əvəzi –
Özümlü Şərq İdealı öyrədilir Xalqa.

6. İctimai Tərbiyə əvəzi –
İnsanlaşma öyrədilir Xalqa.
7. Dini Bayramlar əvəzi –
Ocaq Bayramları – camaatla birgə.

8. Ailə ətrafında ***Od Qoruyanlar Birliyi*** yaradılır – ***Ocaq Keşikçisi.***

9. Fikir Evi ətrafında ***Nurçuluq*** Əməli yaranır.
Müasir Dünya Ocaq İşığında Bilinir.

10. Təhsil müəssisələrində ***Ocaqçılıq*** öyrədilir.

11. Ailə ətrafında Müqəddəs Təmas Əməli yaranır. Ruhani Həkimlik Fəaliyyəti.

*15 Ümid günü, Ata Ayı, 14-cü il. Bakı.*

## EVLADIM ODELƏ

İnam Odu gərək Elimizə, Şərqimizə, Dünyamıza.
İdrak Odu gərək Elimizə, Şərqimizə, Dünyamıza.
Mənəviyyat Odu gərək Elimizə, Şərqimizə, Dünyamıza.
İradə Odu gərək Elimizə, Şərqimizə, Dünyamıza.

Odsuzdurlar Bugünkülər –
Çünki İnamsızdırlar, İdraksızdırlar, Mənəviyyatsızdırlar, İradəsizdirlər.

Mütləqə İnam Odu gərək Elimizə, Şərqimizə, Dünyamıza.
İnsanlaşma Odu gərək.
Ruhani Cəmiyyət Odu gərək.
Müstəqil Vətən Odu gərək.
Özümlü Şərq Odu gərək.
***Odel*** adını sənə halal eləyirəm.
Adına layiq ol.

Qaranlıqlar Yarılsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

(Qeyd: Yaşamda adı Cəmşidi Hüseyn idi. Güney Azərbaycandandı. Ocaqda adı olub – özü olmayıb).

## EVLADIM ULUYURDA

Yurdumuz Zərdüşt qədər Uludur.
Babək qədər Uludur.
Dədə Qorqud qədər Uludur.
Hürufilər qədər Uludur.
Füzuli qədər Uludur.
Muğam qədər Uludur.
Saz qədər Uludur.

Ulu yurdumuza Mütləq İnam gərək.
Mütləq İdrak gərək.
Mütləq Mənəviyyat gərək.
Mütləq İradə gərək.
***Uluyurda*** İnsançılıq gərək, Ruhçuluq gərək.
Uluyurd adını sənə halal eləyirəm.
Adına layiq ol.

Qaranlıqlar Yarılsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*16 Dözüm günü, Ata Ayı, 14-cü il. Bakı.*

(Qeyd: Yaşamda adı Purmusəvi Əmir idi. Güney Azərbaycandandı. Ocaqda yalnız adı olub).

## EVLADIM ELUCANIN TƏMSİL ETDİYİ UNİVERSİTET ATA AİLƏSİNİN HESABATI HAQQINDA

1. Hesabat Təqdir olunur.
2. Özünüxasiyyətnamə Əməlinə keçməli.
3. "Ocaq və Bugün" İzahına başlamalı.
4. Dərgini bərpa etməli.
5. Ocağın Təhsil ideyasını öyrənməli.

Yükümüzdən Böyük Fərəhimiz yoxdur!

## EVLADIM ULUTAYIN TƏMSİL ETDİYİ ŞƏMKİR ATA AİLƏSİNİN HESABATI HAQQINDA

1. Hesabat Təqdir olunur.

2. Rəğbətçilərlə Təmas Yüksəlsin!

3. Camaatla Təmas Yüksəlsin!

Yükümüzdən Böyük Fərəhimiz yoxdur!

## EVLADIM NUROCAĞA

Amalnuruq.
Əməlnuruq.
Ailənuruq.
Xalqnuruq.
İnsannuruq.
***Nur Ocağıyıq.***
Mütləqə İnam Ocağı.
İnsanlaşma Ocağı.
Ruhani Cəmiyyət Ocağı.
Müstəqil Vətən Ocağı.
Özümlü Şərq Ocağı.
***Nurocaq*** adını sənə halal eləyirəm.
Adına layiq ol.

Qaranlıqlar Yarılsın!
Yükümüzdən Böyük Fərəhimiz yoxdur!

(Qeyd: Bu Sənədə əsasən Ocağa Evlad qəbul olunmayıb).

*28 İnam günü, Köçəri Ay, 14-cü il.*

## EVLADIM SABAHYURDA

***Sabahın Nuruna Üz Tutub Bugünümüz.***
Mütləqə İnam Nuruna.
İnsanlaşma Nuruna.
Müstəqil Vətən Nuruna.
Ruhani Cəmiyyət Nuruna.
Özümlü Şərq Nuruna.

***Sabaha Üz Tutub Yurdumuz.***
Mütləq İnama.
Mütləq İdraka.
Mütləq Mənəviyyata.
Mütləq İradəyə.

***Sabahyurd*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Qaranlıqlar Yarılsın!
Yükümüzdən böyük Fərəhimiz yoxdur!

*23 Dözüm günü, Ata Ayı, 14-cü il. Bakı.*

(Qeyd: Yaşamda adı Musayev Ramiz idi. Ocaqdan çıxdı).

**EVLADIM AMALNURA**

Amal Nuru gərək Yurdumuza, Şərqimizə, Dünyamıza.
Mütləqə İnam Nuru.
İnsanlaşma Nuru.
Ruhani Cəmiyyət Nuru.
Müstəqil Vətən Nuru.
Özümlü Şərq Nuru.
Mütləq İdrak gərək Yurdumuza, Şərqimizə, Dünyamıza.
Mütləq Mənəviyyat gərək.
Mütləq İradə gərək.
***Amalnur*** adını sənə halal eləyirəm.
Adına layiq ol.

Qaranlıqlar Yarılsın.
Yükümüzdən Böyük Fərəhimiz Yoxdur!

*13 Ümid günü, Xəzan Ayı, 14-cü il. Bakı.*

(Qeyd: Yaşamda adı Ağayev Vüqar idi. Döndü).

## SƏTTARXANÇILARLA ATANIN GÖRÜŞÜ

Görüş Ocaq İşıqçılığı Əməli oldu.
"Fikir Evi" yarandı, Əməkçilərlə Ruhani Təmas Başlandı.

## SUMQAYITDA ATAYLA GÖRÜŞ

Görüş Ocaq çağırdı, Ocağa çağırdı.
Ellinin Təşkilatçılığı, Soylunun Atagüzarlığı Təqdir olunur.

*18 İnam günü, Xəzan Ayı, 14-cü il. Bakı.*

## EVLADIM ELUCANIN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN HESABATI HAQQINDA

1. Hesabat Təqdir olunur.

2. Özüylədöyüş – Özünəçatma Birliyinə nail olmalı.

3. Özümləşmə – Xalqlaşma Birliyinə nail olmalı.

Qaranlıqlar Yarılsın!

*29 Mərhəm günü, Xəzan Ayı, 14-cü il. Bakı.*

## EVLADIM SABAHTAYA

İnamlıyıq – bu səbəbdən də Sabaha tayıq.
İdraklıyıq – bu səbəbdən də Sabaha tayıq.
Mənəviyyatlıyıq – bu səbəbdən də Sabaha tayıq.
İradəliyik – bu səbəbdən də Sabaha tayıq.
İnamsızdırlar İndikilər –
bu səbəbdən də Bugünə taydırlar.
İdraksızdırlar İndikilər –
bu səbəbdən də Bugünə taydırlar.

Mənəviyyatsızdırlar İndikilər –
bu səbəbdən də Bugünə taydırlar.
İradəsizdirlər İndikilər –
bu səbəbdən də Bugünə taydırlar.
***Sabahtay*** adını sənə halal eləyirəm.
Adına layiq ol!
Qaranlıqlar Yarılsın!

(Qeyd: Yaşamda adı Musayev Asif idi. Döndü).

## EVLADIM GÖYTƏKİNƏ

İnam adlı Göyümüz var – Göy təkinik.
İdrak adlı Göyümüz var – Göy təkinik.
Mənəviyyat adlı Göyümüz var – Göy təkinik.
İradə adlı Göyümüz var – Göy təkinik.

Göysüzdürlər Bugünkülər – çünki İnamsızdırlar, İdraksızdırlar, Mənəviyyatsızdırlar, İradəsizdirlər.

Göy təkin – Mütləqçiliyimiz var.
Göy təkin – İnsançılığımız var.
Göy təkin – Yurdçuluğumuz var.
Göy təkin – Şərqçiliyimiz var.
***Göytəkin*** adını sənə halal eləyirəm.
Adına layiq ol.
Qaranlıqlar Yarılsın.

*31 Murad günü, Xəzan Ayı, 14-cü il. Bakı.*

(Qeyd: Yaşamda adı Sveta idi. Döndü).

## EVLADIM ÜLVİYƏ

İnam adlı Ülvilik daşıyırıq Ömrümüzdə.
İdrak adlı Ülvilik daşıyırıq Ömrümüzdə.
Mənəviyyat adlı Ülvilik daşıyırıq Ömrümüzdə.
İradə adlı Ülvilik daşıyırıq Ömrümüzdə.

İnsanlaşma adlı Ülvilik daşıyırıq Ömrümüzdə.
Ruhlaşma adlı Ülvilik daşıyırıq Ömrümüzdə.
Şərqləşmə adlı Ülvilik daşıyırıq Ömrümüzdə.

***Ülvi*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Qaranlıqlar Yarılsın.
Daxilindəki Mütləq Sənə Yar olsun!

*9 Arzu günü, Yağış Ayı, 14-cü il. Bakı.*

(Qeyd: Yaşamda adı Qalibə Qəmbər qızı idi. Döndü).

## ŞAMAXIDA GÖRÜŞ

Görüş İnam çağırdı, İnama çağırdı.
Evladım İşıqlının Təşkilatçılıq Əməli Təqdir olunur.

*15 İnam günü, Yağış Ayı, 14-cü il. Bakı.*

## EVLADIM ELUCANIN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN HESABATI HAQQINDA

1. Hesabat Təqdir olunur.

2. Amallaşmanın Yeni Mərhələsinə Yüksəlməli – Yazarlıq Əməlinə.

3. Özüylədöyüşün Yeni Mərhələsinə Yüksəlməli –
Ruhani Özünüqurma Əməlinə.

4. Rəğbətçilərin Ailə Tələbələri səviyyəsi yaradılsın.

*19 Mərhəm günü, Yağış Ayı, 14-cü il. Bakı.*

## EVLADIM İNAMRUHA

İnam Ruhluyuq.
Mütləq Ruhluyuq.
İnsançıyıq.
İnamçıyıq.
Yurdçuyuq.
Mütləqə İnam Yolluyuq.
Özüylədöyüş Yolluyuq.
Ruhani Cəmiyyət Yolluyuq.
Müstəqil Vətən Yolluyuq.
Özümlü Şərq Yolluyuq.
Ruh Yolluyuq. Ruhumuz – Yolumuzdur.
***İnamruh*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Qaranlıqlar Yarılsın.

*20 Qismət günü, Yağış Ayı, 14-cü il. Bakı.*

(Qeyd: Yaşamda adı Kifayət Ağa qızı. Ocaqdan çıxdı).

## GORANBOYDA ATAYLA GÖRÜŞ

Görüş Ocaq çağırdı, Ocağa çağırdı.
Evladım Şərqinin Təşkilatçılığı Təqdir olunur.

## BƏRDƏDƏ ATAYLA GÖRÜŞ

Görüş Ocaq çağırdı, Ocağa çağırdı.
Evladım Alovun Təşkilatçılığı Təqdir olunur.

## MÜƏLLİMLƏRİ TƏKMİLLƏŞDİRMƏ İNSTİTUTUNDA GÖRÜŞ

Görüş Ocaq çağırdı, Ocağa çağırdı.
Evladım Ulutayın Təşkilatçılığı Təqdir olunur.

*29 İnam günü, Yağış Ayı, 14-cü il. Bakı.*

## EVLADIM ELİNAMA

Elimizi İnamsız qoyublar – Dinə İnandırıblar.
Elimizi İnamsız qoyublar – Dövrana İnandırıblar.
Elimizi İnamsız qoyublar – İnamsızlığa İnandırıblar.
Elimizə İnam olmalıyıq.
Onu Mütləqə İnama çatdırmalıyıq.
İnsanlaşmaya çatdırmalıyıq.
Ruhani Cəmiyyətə çatdırmalıyıq.
Özümlü Şərqə çatdırmalıyıq.
Müstəqil Vətənə çatdırmalıyıq.
***Elinam*** adını sənə halal eləyirəm.
Adına layiq ol!
Qaranlıqlar Yarılsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

(Qeyd: Yaşamda adı Mamedova Nişanə idi. Döndü).

## EVLADIM AMALQIZA

Amal Qızları gərək Yurdumuza, Şərqimizə, Dünyamıza.
Ulu Qızlar.
İnam Qızları.
İdrak Qızları.
Mənəviyyat Qızları.
İradə Qızları.
İnsan səviyyəsində.
Özümlük səviyyəsində.
Şərqilik səviyyəsində.
***Amalqız*** adını sənə halal eləyirəm.
Adına layiq ol!
Qaranlıqlar Yarılsın.

*30 Arzu günü, Yağış Ayı, 14-cü il. Bakı.*

(Qeyd: Yaşamda adı Gülbəniz İsmayıl qızı idi. Döndü).

## EVLADIM GÖYRUHA

Göy Ruhluyuq – İnamçıyıq, İnsançıyıq, Şərqçiyik, Türkçüyük.

Mütləqçi Göyünə Yüksəlməlidir Yurdumuz, Şərqimiz, Dünyamız.

İnsan Göyünə Yüksəlməlidir.
Ruhani Cəmiyyətə Yüksəlməlidir.
Özümlü Şərqə Yüksəlməlidir.
Müstəqil Vətənə Yüksəlməlidir.

***Göyruh*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Qaranlıqlar Yarılsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*1 Sərt Ay, Ümid günü, 14-cü il. Bakı.*

(Qeyd: Yaşamda adı Əsli Səməd qızı idi. Döndü).

## “SƏFƏR” MƏRASİMİ

1. “Səfər” Mərasiminin Yazısı Safruha tapşırılır.

2. Mərasim Ata Sözündən, Evlad Qəbulundan, Səfər İzharından, Ruhani Sənədlər oxunuşundan ibarət olur.

3. Mərasim Yazısı Sərt Ayın 20-də Ataya çatdırılır.

## EVLADIM ÖZÜMLÜNÜN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN HESABATI HAQQINDA

1. Hesabat Qəbul olunur.

2. Ailə “Fikir Evi” yaratmaqda ləngiyir.

3. Amallaşmada Durğunluq var.

4. Ailə Evlad yetirmir.

5. Evladların Doğmalıq səviyyəsi Mütləq deyil.

6. Ailə köklü İrəliləyişə nail olmalı, yaxud ləğv olunmalıdır.

***Geriləmə ölümdür!***

## EVLADIM ÖZÜMLÜNÜN TƏMSİL ETDİYİ ATA AİLƏSİNƏ

Özümlünün Rayon hakimiyyətiylə əməkdaşlığı aşağıdakı Əməllərə xidmət etməlidir.

1. Mütləqə İnamı camaata öyrətmək.

2. Ocağın Ailə qaydalarını camaata öyrətmək.

3. Ocağın Matəmüstü Kəlamlarını camaata öyrətmək.

4. Ocağın Ruhani Cəmiyyət İdealını camaata öyrətmək.

5. Özümlü Şərq İdealını camaata öyrətmək.

6. İnsanlaşmanı camaata öyrətmək.

7. Ocaq Bayramlarını camaata öyrətmək.

8. Təhsil müəssisələrində Ocaqçılıq öyrətmək.

***Bu əməllərə xidmət mümkün olmasa, əməkdaşlıq dayandırılmalıdır.***

*5 Murad günü, Sərt Ay, 14-cü il. Bakı.*

## EVLADIM GÜNRUHA

Gücsüzdürlər Bugünkülər – çünki Ruhsuzdurlar.

Gün Ruhluyuq – İnamlıyıq, İdraklıyıq, Mənəviyyatlıyıq, İradəliyik.

Mütləqə İnanırıq.
İnsanlaşmaya İnanırıq.
Ruhani Cəmiyyətə İnanırıq.
Özümlü Şərqə İnanırıq.
Müstəqil Vətənə İnanırıq.

İnam adlı Günümüz var – Dinə qarşı duran, Mütləqsizliyə qarşı duran.

Qismətçiliyə qarşıyıq, Maddiyyatçılığa qarşıyıq.

***Günruh*** adını sənə halal eləyirəm.

Adına layiq ol.

Qaranlıqlar Yarılsın!

(Qeyd: Yaşamda adı Sevinc İsmayıl qızı idi. Döndü).

## EVLADIM İNAMYURDA

İnam Yurdu olmalıdır Vətənimiz.

İdrak Yurdu.
Mənəviyyat Yurdu.
İradə Yurdu.
İnsanlaşma Yurdu.
Ruhani Cəmiyyət Yurdu.
Müstəqillik Yurdu.
Özümlü Şərq Yurdu.

İnamsızdırlar Bugünkülər –
Bu səbəbdən də Yurdsuzdurlar.
Ruhsuzdurlar. Nursuzdurlar.

İnam əvəzinə Dinə tapınırlar –
İnamsızlığa tapınırlar.
İnam əvəzinə Varidata tapınırlar –
İnamsızlığa tapınırlar.

***İnamyurd*** adını sənə halal eləyirəm.
Adına layiq ol.

Qaranlıqlar Yarılsın!

*12 Murad günü, Sərt Ay, 14-cü il. Bakı.*

(Qeyd: Həyatda adı Mahir idi. Döndü).

## HƏQİQƏT

Ocaqda Sıravi Adam Yoxdur.
Ocaqçılıq – Sıravilikdən çıxmaqdır.

## OCAQ LƏYAQƏTİ

Yalansız İnam.
Təmənnasız Əməl.
Güzəştsiz Doğmalıq.

## ÖZÜMLƏŞMƏ MÜTLƏQİLİYİ

Özgələrdən Çəkindiyin qədər Özündən Çəkin.
Özgələrdən Qorxduğun qədər Özündən Qorx.
Özgələrdən Utandığın qədər Özündən Utan.
***Özün – Özünün Ölçün ol!***

## OCAQ İNSANSEVƏRLİYİ

Adamdakı İnsanı sevmək.
Özündəki İnsanı öldürən Adamı Adam saymamaq.
Adamdakı Məxluqla döyüşmək.
Adamı İnsanlaşdırmaq.

*14 Arzu günü, Sərt Ay, 14-cü il. Bakı.*

## GƏNCLİK İNSTİTUTUNDA GÖRÜŞ

Görüş Ocaq çağırdı, Ocağa çağırdı.
Düzgünün Təşkilatçılığı Təqdir olunur.

## ŞƏMKİRDƏ ATAYLA GÖRÜŞ

Görüş Ocaq çağırdı, Ocağa çağırdı.
Ulutayın – Şəmkir Ailəsinin – Təşkilatçılığı Təqdir olunur.

## MASALLIDA ATAYLA GÖRÜŞ

Görüş Ocaq çağırdı, Ocağa çağırdı.
Halalın Təşkilatçılığı Təqdir olunur.

## TƏQDİR

Safruhun Ocaq Yazarlığı Təqdir olunur.

## TƏQDİR

Soylunun Atagüzarlığı Təqdir olunur.

## TƏQDİR

Yolnurun Səfərgüzarlığı Təqdir olunur.

*20 İnam günü, Sərt Ay, 14-cü il. Bakı.*

## EVLADIM ELUCANIN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN HESABATI HAQQINDA

I. Hesabat Təqdir olunur.

II. Qadınlıq və Gənclik İdeyaları aşkarlansın.

III. Təzə Ocaq Əməllərinə hazırlaşın.

*21 Arzu günü, Sərt Ay, 14-cü il. Bakı.*

## EVLADIM GÖYNURA

İnam – Göy Nurudur – Yeri İşıqlandıran.
İdrak – Göy Nurudur – Yeri İşıqlandıran.
Mənəviyyat – Göy Nurudur – Yeri İşıqlandıran.
İradə – Göy Nurudur – Yeri İşıqlandıran.

İnam Nuru olmalıyıq Yurdumuza, Şərqimizə, Dünyamıza.
İdrak Nuru olmalıyıq Yurdumuza, Şərqimizə, Dünyamıza.
Mənəviyyat Nuru olmalıyıq Yurdumuza, Şərqimizə, Dünyamıza.
İradə Nuru olmalıyıq Yurdumuza, Şərqimizə, Dünyamıza.
***Göynur*** adını sənə halal eləyirəm.
Adına layiq ol.

Qaranlıqlar Yarılsın!

*22 Ümid günü, Sərt Ay, 14-cü il. Bakı.*

(Qeyd: Yaçamda adı Qaryağdı qızı Elmira idi. Ocaqdan çıxdı).

## EVLADIM ELSAFA

Elin Safı olmalıyıq.
Elin İnamı olmalıyıq.
İdrakı olmalıyıq.
Mənəviyyatı olmalıyıq.
İradəsi olmalıyıq.
İnamsızdır Bugünkülər –
Saflıqdan məhrumdurlar.
İdraksızdır Bugünkülər –
Saflıqdan məhrumdurlar.
Mənəviyyatsızdır Bugünkülər –
Saflıqdan məhrumdurlar.
İradəsizdir Bugünkülər –
Saflıqdan məhrumdurlar.
***Elsaf*** adını sənə halal eləyirəm.
Adına layiq ol.

Qaranlıqlar yarılsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

*27 İnam günü, Sərt Ay, 14-cü il. Bakı.*

(Qeyd: Yaşamda adı Xəyyam idi. Döndü).

## FƏRQ

Özümləşdiyin dərəcədə – Doğmalaşırsan.
Hamılaşdığın dərəcədə – Yadlaşırsan.

## ÖLÇÜ

İnamın elə ***Uca*** olsun ki, Şübhə ona Çata bilməsin.
İnamın elə ***Yaxın*** olsun ki, Ondan Ayrıla bilməyəsən.

*2 Murad günü, Qar Ayı, 14-cü il. Bakı.*

## ƏLAQƏ

Azadlıq Məsuliyyəti
Əsarət Məsuliyyətsizliyi.

*7 Mərhəm günü, Qar Ayı, 14-cü il. Bakı.*

## FƏRQ

İctimai İdeal – Cəmiyyətləşmə.
Ruhani İdeal – İnsanlaşma.

*12 Ümid günü, Qar Ayı, 14-cü il. Bakı.*

## "AİLƏ GÜNÜ" MƏRASİMİ

I. Mərasim Mütləqilik səviyyəsində keçirilməlidir.

II. Məzmun: Evlad Qəbulu, Evlad Sözü, Ata Kəlamı.

III. Mərasimin Yazısı və Carları Soyluya həvalə olunur.

IV. Yazı Qar Ayının 30-da Ataya Təqdim olunur.

*20 Dözüm günü, Qar Ayı, 14-cü il. Bakı.*

## EVLADIM ELUCANIN TƏMSİL ETDİYİ UNİVERSİTET ATA AİLƏSİNİN HESABATI HAQQINDA

1. Hesabat Təqdir olunur.

2. Ailə "Ruhani Əməl Fəaliyyəti"nə başlasın.

3. Ailə Gənclik – Qadınçılıq Ruhçuluğunu Yüksəltsin.

*26 Arzu günü, Qar Ayı, 14-cü il. Bakı.*

## EVLADIM ELƏRƏ

İnam Ərləri gərək Elimizə.
İdrak Ərləri gərək Elimizə.
Mənəviyyat Ərləri gərək Elimizə.
İradə Ərləri gərək Elimizə.

İnsanlaşma Ərləri gərək Elimizə.
Ruhani Cəmiyyət Ərləri gərək Elimizə.
Şərqləşmə Ərləri gərək Elimizə.
Müstəqil Vətən Ərləri gərək Elimizə.

***Elər*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Qaranlıqlar Yarılsın!
Daxilindəki Mütləq sənə Yar olsun!

(Qeyd: Yaşamda adı Kamil Xəlil oğlu idi. Döndü).

## EVLADIM ELXASA

İnam Xası, Xalisi olmalıyıq.
İdrak Xası, Xalisi olmalıyıq.
Mənəviyyat Xası, Xalisi olmalıyıq.
İradə Xası, Xalisi olmalıyıq.
El Xası, Xalisi olmalıyıq.
Xaslıq, Xalislik gətirməliyik Yurdumuza, Şərqimizə, Dünyamıza.
Mütləqilik Xaslığı, Xalisliyi gətirməliyik.
İnsanilik Xaslığı, Xalisliyi gətirməliyik.
Ruhanilik Xaslığı, Xalisliyi gətirməliyik.
Müstəqillik Xaslığı, Xalisliyi gətirməliyik.
***Elxas*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Qaranlıqlar yarılsın!

*1 Köçəri Ay, Arzu günü, 14-cü il. Bakı.*

(Qeyd: Yaşamda adı Bayraməli oğlu Asif idi. Döndü).

## EVLADIM GÜNTƏKİNƏ

Gün təkin Amalımız var – İnamımız var, İdrakımız var, Mənəviyyatımız var, İradəmiz var.

Gün təkindir – Mütləqiliyimiz;
İnsanlaşma Yükümüz,
Ruhani Cəmiyyət Yükümüz,
Müstəqil Vətən Yükümüz,
Özümlü Şərq Yükümüz.

Günsüzdürlər Bugünkülər – İnamsızdırlar,
İdraksızdırlar,
Mənəviyyatsızdırlar,
İradəsizdirlər.

Amal Günü Düşməlidir Yurdumuza, Şərqimizə, Dünyamıza – İnam Günü, İdrak Günü, Mənəviyyat Günü, İradə Günü.

***Güntəkin*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Qaranlıqlar Yarılsın!
Yükümüzdən böyük Fərəhimiz yoxdur!

(Yaşamda adı Zərifə Qurban qızı idi. Ocaqdan çıxdı).

## EVLADIM NURTAYA

Qaranlığa qərq olub Yurdumuz, Şərqimiz, Dünyamız.
***Nura tay olmalıyıq.***
İnam Nuru saçmalıyıq.
İdrak Nuru saçmalıyıq.
Mənəviyyat Nuru saçmalıyıq.
İradə Nuru saçmalıyıq.
Mütləqilik Nuru saçmalıyıq.
İnsanlaşma Nuru saçmalıyıq.
Ruhani Cəmiyyət Nuru saçmalıyıq.
Müstəqil Vətən Nuru saçmalıyıq.
Özümlü Şərq Nuru saçmalıyıq.
Nurtay adını sənə halal eləyirəm.
Adına layiq ol!

Qaranlıqlar Yarılsın!
Yükümüzdən böyük Fərəhimiz yoxdur!

(Qeyd: Yaşamda adı Vaqif oğlu Nurtay idi. Ocaqdan çıxdı).

## EVLADIM ULUYURDA

Uludur Yurdumuz.
Zərdüşt Ululuğu daşıyır Aqibətində.
Babək Ululuğu daşıyır Aqibətində.
Dədə Qorqud Ululuğu daşıyır Aqibətində.
Hürufilik Ululuğu daşıyır Aqibətində.
Füzulilik Ululuğu daşıyır Aqibətində.
Muğam Ululuğu daşıyır Aqibətində.
Saz Ululuğu daşıyır Aqibətində.

Ululuqdan uzaqdırlar Bugünkülər.
İnamdan uzaqdırlar.
İdrakdan uzaqdırlar.

Mənəviyyatdan uzaqdırlar.
İradədən uzaqdırlar.

Bugünü ötmək gərək – Ululuğa çatmaq gərək.
***Uluyurd*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Qaranlıqlar Yarılsın!
Yükümüzdən böyük Fərəhimiz yoxdur!

(Qeyd: Yaşamda adı Vaqif idi. Ocaqdan çıxdı).

## ÖZÜMLÜNÜN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN HESABATI HAQQINDA

1. Hesabat Qəbul olunur.

2. Ata Hökmünə əməl etməli. Ailənin Ruhani səviyyəsini Yüksəltməli.

## ULUTAYIN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN HESABATI HAQQINDA

1. Hesabat Təqdir olunur.

2. Amallaşma – İnsanlaşma – Xalqlaşma Birliyinə çatmalı.

*5 Qismət günü, Köçəri Ay, 14-cü il. Bakı.*

## KİŞİ – QADIN

Kişi bir az Qadın olmalıdır – Zərif olmalıdır.
Qadın bir az Kişi olmalıdır – Güclü olmalıdır.

Kişi Qadın üçün bir az Ata olmalıdır.
Qadın Kişi üçün bir az Ana olmalıdır.

## HƏQİQƏT

Bir Adam olmur: Adam İkilidir, Üçlüdür, Beşlidir.
Bir İnsan olur. İkili, Üçlü, Beşli İnsan olmur.

*13 Murad günü, Köçəri Ay, 14-cü il. Bakı.*

## "YENİ İL" MƏRASİMİ HAQQINDA

1. Mərasim Mütləq İntizam, Mütləq Səcdə, Mütləq Doğmalıq səviyyəsində keçməlidir.

2. Mərasimin Yazısı Safruha tapşırılır.

3. Yazı Köçəri Ayın 22-də Ataya Təqdim edilir.

*16 Ümid günü, Köçəri Ay, 14-cü il. Bakı.*

## EVLADIM ELUCANIN TƏMSİL ETDİYİ UNİVERSİTET ATA AİLƏSİNİN HESABATI HAQQINDA

1. Hesabat Təqdir olunur.

2. İkilikdən Ayrılmaq Fəaliyyətinə Başlamaq.

3. Ocağa Evladlar gətirmək.

*17 Dözüm günü, Köçəri Ay, 14-cü il. Bakı.*

## EVLADIM RUHÇUYA

Biz – Ruhçuyuq – İnamçıyıq, İnsançıyıq – İnamı – Dindən, İnsanı – Zamandan qoruyuruq.

Din – İnamsızdır, çünki İnsana İnanmır.
Zaman – İnsansızdır, çünki İnsana İnanmır.

İnsandakı Mütləqiliyə İnanırıq.
İnsanlaşırıq – İnsanlaşdırırıq.
Ruhaniyyatı Maddiyyatdan Üstün sayırıq.
Cəmiyyətçiliyə qarşıyıq, Xəlqi Birlik carçısıyıq.
Təqlidçiliyə, Qərbçiliyə qarşıyıq.
Yurdumuzu Dünyalaşdırmaq istəyirik – Dünyaya qatmaq istəmirik.
***Ruhçu*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Qaranlıqlar Yarılsın!
Yükümüzdən Böyük Fərəhimiz yoxdur!

*21 İnam günü, Köçəri Ay, 14-cü il. Bakı.*

**EVLADIM ƏRAMALA**

Amal Ərləri gərək Yurdumuza, Şərqimizə, Dünyamıza.
Dinə qarşı duran İnamçılar.
Zamana qarşı duran İnsançılar.
Ruhsuzluğa qarşı duran Ruhçular.
Xalqsızlığa qarşı duran Xalqçılar.
Təqlidçiliyə qarşı duran Özümçülər.

İdrak Ərləri.
Mənəviyyat Ərləri.
İradə Ərləri.

***Əramal*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Qaranlıqlar Yarılsın!
Yükümüzdən böyük Fərəhimiz yoxdur!

*27 Murad günü, Köçəri Ay, 14-cü il. Bakı.*

(Qeyd: Yaşamda adı Firqət oğlu Vəzir idi. Ocaqdan çıxdı).

## EVLADIM GÖYANDA

Göy Andlıyıq.
Amal Andlıyıq.
İnam Andlıyıq.
İnsan Andlıyıq.
Yurd Andlıyıq.
Mütləq Andlıyıq.
Göysüzlüyə qarşı Ruhani Döyüş Andlısıyıq.
Amalsızlığa qarşı Ruhani Döyüş Andlısıyıq.
İnamsızlığa qarşı Ruhani Döyüş Andlısıyıq.
İnsansızlığa qarşı Ruhani Döyüş Andlısıyıq.
Yurdsuzluğa qarşı Ruhani Döyüş Andlısıyıq.
Mütləqsizliyə qarşı Ruhani Döyüş Andlısıyıq.

***Göyand*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Qaranlıqlar Yarılsın!
Yükümüzdən Böyük Fərəhimiz yoxdur!

(Qeyd: Yaşamda adı Mustafayeva Aynur idi. Ocaqdan çıxdı).

## EVLADIM ƏRİNAMA

İnam Ərləri gərək Yurdumuza, Şərqimizə, Dünyamıza.
Mütləqilik Ərləri – Əzəlilik, Əbədilik, Sonsuzluq.
Kamillik Ərləri.
İnsanilik Ərləri.
***Xeyir Ərləri. Ədalət Ərləri. Həqiqət Ərləri.***
Yurdçuluq Ərləri.
Şərqçilik Ərləri.
Dinə qarşı duran.
Zamana qarşı duran.

***Ərinam*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Qaranlıqlar Yarılsın!
Yükümüzdən Böyük Fərəhimiz yoxdur!

(Qeyd: Yaşamda adı Elşad bəy idi. Döndü).

## EVLADIM ƏRRUHA

Ruh Ərləri gərək Yurdumuza, Şərqimizə, Dünyamıza.
Təmənnasızlar, Fədakarlar.

İnam Aşiqləri.
İdrak Aşiqləri.
Mənəviyyat Aşiqləri.
İradə Aşiqləri.
Yurd Aşiqləri.
İnsançılar.
Mənaçılar.

***Ərruh*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Qaranlıqlar Yarılsın!
Yükümüzdən Böyük Fərəhimiz yoxdur!

(Qeyd: Yaşamda adı Əlövsət Əsəd oğlu idi. Döndü).

## EVLADIM GÜNƏRƏ

Saflıq Ərləri gərək Yurdumuza, Şərqimizə, Dünyamıza.
***Gün kimi saf ərlər gərək.***
Saf İnam Ərləri gərək.
Saf İdrak Ərləri gərək.
Saf Mənəviyyat Ərləri gərək.
Saf İradə Ərləri gərək.

Yurdçuluq Saflığı gərək – Gün kimi.
İnsançılıq Saflığı gərək – Gün kimi.
***Günər*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Qaranlıqlar Yarılsın!
Yükümüzdən Böyük Fərəhimiz yoxdur!

*28 İnam günü, Köçəri Ay, 14-cü il. Bakı.*

(Qeyd: Yaşamda adı – ?.. Ocaqda olmayıb).

## EVLADIM ODTƏKİNİN TƏMSİL ETDİYİ ATA AİLƏSİNİN HESABATI HAQQINDA

1. Hesabat Təqdir olunur.

2. Odtəkinin Təmsilçilik Yükü Təqdir olunur.

3. Ata Hökmləri həyata keçməli: Ailə Böyüməli; Fikir Evi Ucaltmalı; Ruhani Əməl Xalqlaşmalı.

4. Mütləq özümləşmə Məqsədinə çatmalı.

Qaranlıqlar Yarılsın!

*2 Ümid günü, Günəş Ayı, 15-ci il. Bakı.*

(Qeyd: Odtəkinin təmsil etdiyi Ailə – ona qədər Özümlünün təmsil etdiyi Ailə idi).

## EVLADIM ULUNURA

***Həyat Qaranlığını Amal Nuruyla Yarmaq gərək!***
İnam Nuru olmalıyıq – Din Qaranlığını Yaran!
İdrak Nuru olmalıyıq – Zor Qaranlığını Yaran!
Mənəviyyat Nuru olmalıyıq – Həqarət Qaranlığını Yaran!
İradə Nuru olmalıyıq – Cəmiyyət Qaranlığını Yaran!
Mütləqçi Nuru olmalıyıq – Nisbiçiliyi Yaran!
İnsançı Nuru olmalıyıq – Dövrançılığı Yaran!
Şərqçi Nuru olmalıyıq – Təqlidçiliyi Yaran!
Xalqçı Nuru olmalıyıq – Yadlığı Yaran!
Müstəqilçi Nuru olmalıyıq – Əsarəti Yaran!
***Ulunur*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Qaranlıqlar Yarılsın!
Yükümüzdən Böyük Fərəhimiz yoxdur!

*3 Günəş Ayı, Dözüm günü, 15-ci il.*

(Qeyd: Bu adı almalı olan adam “Yas Günü” Mərasiminə gəlmədi, Evladlığa qəbul olunmadı).

*28 Dözüm günü, Çiçək Ayı, 15-ci il.*

## EVLADIM UCARUHA

Ruh Ucalığı gətirməliyik Yurdumuza, Şərqimizə, Dünyamıza.

İnam Ucalığı.
İdrak Ucalığı.
Mənəviyyat Ucalığı.
İradə Ucalığı.

Mütləqçilik Ucalığı.
İnsançılıq Ucalığı.
Ruhçuluq Ucalığı.

Özümçülük Ucalığı.
Ruhsuzdurlar Bugünkülər.
İnamsızdırlar.
İdraksızdırlar.
Mənəviyyatsızdırlar.
İradəsizdirlər.

Nisbiçidirlər.
Zamançıdırlar.
Maddiyyatçıdırlar.
Özgəçidirlər.
***Ucaruh*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Qaranlıqlar Yarılsın!
Yükümüzdən Böyük Fərəhimiz yoxdur!

*7 İnam günü, Günəş Ayı, 15-ci il. Bakı.*

(Qeyd: Yaşamda adı İlahə idi. Ocağa gəlmədi, ancaq Ocaqsevərliyə yüksəldi).

## EVLADIM RUHTƏKİNƏ

İnam adlı Ruhumuz var – Dinə Yad.
Amal adlı Ruhumuz var – Zamandan Üstün.
Mütləqçiyik – Nisbiçiliyə Yad.
İnsançıyıq – Adamçılıqdan Üstün.
Özümçüyük – Özgəçiliyə Yad.
Mənaçıyıq – Hadisəçilikdən Üstün.
Vicdan – Hakimimiz.
Təmənnasızlıq – Niyyətimiz.
Fədakarlıq – Aqibətimiz.
İnam Dünyası yaradırıq Ömürlərdə.

Amal Dünyası yaradırıq.
İnsan Dünyası yaradırıq.

Vaxt təkindirlər Bugünkülər.
Ruh təkin olmalıyıq.
***Ruhtəkin*** adını sənə halal eləyirəm.
Adına layiq ol!

Qaranlıqlar Yarılsın!

*15 Arzu günü, Günəş Ayı, 15-ci il. Bakı.*

(Qeyd: Yaşamda adı İlahə Məti qızı idi. Ocaqsızlaşdı...).

## “QANAD” AİLƏSİNƏ ATA XEYİR-DUASI

Evladlarıma Müqəddəsçilik Ucalığı istəyiylə.
Ata İşığı olun – Qaranlıqları Yaran – hər vaxt, hər yerdə.
İnam İşığı olun – Din Qaranlığını Yaran.
İnsançılıq İşığı olun – Cəmiyyətçilik Qaranlığını Yaran.
Özümçülük İşığı olun – Özgəçilik Qaranlığını Yaran.
İşıqlanın ki, İşıqlandırasınız.
Bugünün havası, küləyi, əqidəsi, gedişatı Amalımızdan çox aşağıdır.
Dağ olun, qoy illər Yol kimi Ailənizin başına dolansın.
Mütləq Doğmalığa çatın.
Mütləq Doğmalıq İnam halıdır.

Qaranlıqlar Yarılsın.
Yükümüzdən Böyük Fərəhimiz yoxdur!

*28 İnam günü, Günəş Ayı, 15-ci il. Bakı.*

## EVLADIM ULUTAYIN TƏMSİL ETDİYİ ŞƏMKİR ATA AİLƏSİNİN HESABATI HAQQINDA

1. Hesabat Təqdir olunur.

2. Müqəddəsat ardıcıl şəkildə Özümləşməlidir.

